AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ
SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

## ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 31
(II HİSSƏ)

Bakı - 2022

ISSN 2409-0859

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 31
(II HİSSƏ)

BAKI – 2022

**ISSN 2409-0859**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, mətbu nəşrlərin reyestrinə daxil edilmə nömrəsi: **3885, 25.05.2014-cü il.**

**Ünvan:** 1148, Azərbaycan, Bakı, Z.Xəlilov, 23, Bakı Dövlət Universiteti, 2 korpus, otaq 812, tel. 012 438 14 47, sayt http://sociology.bsu.edu.az/
E-mail: q.abbasova@mail.ru

Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış № 31 (hissə II). Bakı, 2022, 232 s.

**Redaksiya heyəti**

**Rəbiyyət Nurullah qızı Aslanova**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Əziz Bəşir oğlu Məmmədov**, fəlsəfə elmləri doktoru, professor, BDU
**İzzət Əşrəf oğlu Rüstəmov**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Rəna Fuad qızı İbrahimbəyova**, psixologiya üzrə fəlsəfə doktoru, professor, BDU
**Rövşən Əli oğlu Cavadov,** psixologiya üzrə fəlsəfə doktoru, dosent, BDU
**Zeynəddin Camal oğlu Hacıyev**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Bəxtiyar Həmzə oğlu Əliyev**, AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor
**Kamilə Ramiz qızı Əliyeva**, psixologiya elmləri doktoru, professor, BDU
**Tatyana İvanovna Bilenko**, fəlsəfə elmləri doktoru, professor, Droqobıç dövlət pedaqoji universiteti (Ukrayna)
**Sergey Nikolayeviç Volkov,** fəlsəfə elmləri doktoru, professor, Penza texnoloji akademiyası (Rusiya)
**Ləzifə Nağı qızı Qasımova**, pedaqogika elmləri doktoru, professor, BDU
**Hikmət Əbdul oğlu Əlizadə**, pedaqogika elmləri doktoru, professor, BDU
**Qəmər Cəfər qızı Mürşüdlü**, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Kəmalə Həsən qızı Pənahova,** fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Qızılgül Yasin qızı Abbasova**, fəlsəfə elmləri doktoru, professor, baş redaktor, BDU
**Daxil Cahangir oğlu Vəliyev**, fəlsəfə üzrə fəlsəfə doktoru, redaktor müavini, BDU
**Vüsalə Kərəm qızı Musayeva,** buraxılışa məsul redaktor, BDU

Topluda müasir dövrün aktual problemlərindən bəhs olunur. Məqalələrdə müəlliflər tərəfindən qaldırılan məsələlərin geniş çeşidi dünyamızın tarix, fəlsəfə, politologiya, sosiologiya, pedaqogika, psixologiya, iqtisadiyyat, mədəniyyətşünasliq, sənətşünaslıq və digər sosial-humanitar sahələrdə baş verən proseslərə bir çox yeni aspektlərdən nəzər salmağa imkan verir. Toplunun materiallarından elmi işçilər, ali və orta ixtisas məktəblərinin humanitar fənləri tədris edən müəllimlər, tələbələr və aspirantlar faydalana bilərlər. Məqalələr müəlliflərin redaktəsi ilə çapa verilmişdir.

# HUMANİTAR ELMLƏR

## FƏLSƏFƏ

**UOT 316**

### SİVİLİZASİYALARIN İNKİŞAFININ MƏKAN VƏ ZAMAN ÖLÇÜLƏRİ

***Vüqar Səlimov***
***fəlsəfə üzrə fəlsəfə doktoru***
***vuqarselimov@yahoo.com***

***Açar sözlər:*** sivilizasiyalar, sivilizasiya nəzəriyyələri, sivilizasiyaların təsnifatı, məkan, zaman
***Ключевые слова:*** цивилизации, теории цивилизации, классификация цивилизаций, пространство, время
***Keywords:*** civilizations, theories of civilization, classification of civilizations, space, time.

**Giriş.** Sivilizasiyalar mürəkkəb struktura malik olan sosial sistemlərdir. Onlar müəyyən məkan-zaman çərçivəsində mövcud olmaqla özünəməxsus dəyərlər, sivilizasiya kimliyi və həyat tərzi formalaşdırır. Dünyada çoxsaylı dövlətlərin yaranmasına və süquta uğramasına baxmayaraq, onlarla müqayisədə sivilizasiyaların sayı az olmuşdur. Ərazi vahidliyi, etnogenezin ümumiliyi, əmək bölgüsü, sənətkarlığın kənd təsərrüfatından ayrılması, dinin və yazının meydana gəlməsi, cəmiyyətin siniflərə bölünməsi, elmin, şəhərlərin və dövlətçiliyin təşəkkülü, inkişaf etmiş siyasi-iqtisadi münasibətlər və digər faktorlar sivilizasiyaların əsas xüsusiyyətləridir.

**Əsas hissə.** Sivilizasiyaların tərkib hissələri bir-biri ilə sıx şəkildə bağlı olaraq vahid sistem yaradırlar. Ümumdünya tarixindən məlumdur ki, yeni yaranan sivilizasiya formalaşmış struktura və inkişafa malik olan sivilizasiyaların təsirinə məruz qalmışdır (1,15-16). Sivilizasiyalar inkişaf xüsusiyyətlərinə görə bir-birindən fərqlənmiş, dünyanın tanınmış filosofları, sosioloqları və tarixçiləri bununla bağlı müxtəlif nəzəriyyələr irəli sürmüşlər.

Alman filosofu və tarixçisi Osvald Şpenqler (1856-1939) "Avropanın qürubu" əsərində sivilizasiyaların inkişafını mədəniyyətlərin tipologiyası əsasında şərh edir. O bildirir ki, dünyada ümumi xarakter daşıyan mədəni tarixi proses mövcud olmamışdır. Dünyanın real tarixi qapalı və bir-birinə təsir göstərmək imkanı olmayan konkret mədəniyyətlərin əvəzlənməsidir. Hər bir mədəniyyət özünəməxsusluğa malikdir (2, 122-123). Buna görə də O.Spenqler sivilizasiyaların məkan-zaman ölçülərinin qapalı xarakter daşıdığını bildirmişdir.

Alman filosofu Karl Yaspers (1883-1969) sivilizasiyaların məkan-zaman ölçülərini dünya tarixini aşağıdakı dörd mərhələyə ayırmaqla izah edir:

-Prometey dövrü;-qədim mədəniyyətlər dövrü;-insan varlığının mənəvi əsasları dövrü (zaman oxu);-texnikanın inkişafı dövrü.

K.Yaspersin fikrincə Prometey dövrünə bəşəriyyətin tarixdən əvvəlki dövrü aiddir. Həmin dövrdə insan varlığının əsas müəyyənedici əlamətləri təşəkkül tapmışdır. İnsan "bütün vərdişləri, meylləri və xüsusiyyətləri ilə bir növ kimi" formalaşmışdır (3, 56). Mədəniyyətlər dünyanın üç bölgəsində yaranmışdır. Onlardan birincisi, e.ə. 4000-ci ildən başlayan Şumer-Babil, Misir və Egey mədəniyyətləri, ikincisi, 3-cü minillikdə Hind vadisinin arilərə qədərki mədəniyyəti (Şumerlə bağlı) və üçüncüsü, e.ə. II minillikdə Çinin arxaik mədəniyyətidir (3, 70).

K.Yaspersə görə insan varlığının mənəvi əsasları dövrü ("zaman oxu") bəşəriyyətin tarixində mərkəzi yer tutmuşdur. Həmin dövrdə dünya mədəniyyətlərinin mənəvi bünövrəsi qoyulmuşdur. Ümumi mənəvi əsaslar ünsiyyət, dialoq, münaqişələrin həlli və vahid mədəni məkanın yaradılması yollarını tapmağa imkan vermişdir. "Zaman oxu" dövründə mədəniyyətlərin və sivilizasiyaların meydana gəlməsi bəşər tarixinin bütün gedişatını dəyişdirən inqilabi irəliləyiş olmuşdur. Politeizmdən (çoxallahlılıq) monoteizmə (təkallahlılıq) keçid baş vermiş, müasir əxlaqın və etik fəlsəfənin əsasları yaranmışdır.

K.Yaspers bildirir ki, texniki dövrün xüsusiyyətləri öz əhəmiyyətinə görə Prometey dövrünə uyğun gəlir. Belə ki, əgər tarixəqədərki (Prometey) dövr nitqin mövcud olması, əmək alətlərindən və oddan istifadə bacarığı ilə xarakterizə edilirdisə, elmi-texniki inqilab dövrünə daha yüksək səviyyədə oxşar proseslər (yeni informasiya texnologiyalarının yaradılması və enerji mənbələrinin kəşfi) xasdır. XVI-XVII əsrlərdən başlayaraq bəşəriyyətin tarixinin "ikinci oxu" formalaşmışdır. XVII əsrdə elmi təcrübələrə əsaslanan yeni elmlər meydana gəlmiş və onlar sivilizasiyanın inkişafına mühüm təkan vermişdir.

İngilis tarixçisi və sosioloqu Arnold Toynbi (1889-1975) "Tarixin tədqiqi. Sivilizasiyalar zaman və məkanda" adlı əsərində bəşəriyyətin ictimai-tarixi inkişafını lokal sivilizasiyalar silsiləsində araşdırmışdır. Onun fikrincə lokal sivilizasiyalar milli dövlətlərdən daha böyük zaman və məkana malik olan cəmiyyətlərdir. Sivilizasiyaların inkişafı hansısa cəmiyyətin coğrafi ərazisi ilə məhdudlaşmır. A.Toynbinin fikrincə müstəqil sivilizasiyalar primitiv cəmiyyətlərin mutasiyası nəticəsində meydana gəlmişdir (4, 98-99).

Amerikalı sosioloq və iqtisadçı Uolt Rostou (1916–2003) sivilizasiyaların tarixini iqtisadi inkişafın aşağıdakı beş mərhələsi üzrə şərh edir:

-ənənəvi cəmiyyət;-"sıçrayış" üçün hazırlıq mərhələsi;-"sıçrayış" mərhələsi və sənayenin inkişafına keçid;-sənaye cəmiyyəti;-"kütləvi istehlak" mərhələsi.

U.Rostou hesab edir ki, ənənəvi cəmiyyət bəsit əmək texnikası, istehsalda kənd təsərrüfatının payının yüksək olması, iyerarxik sosial strukturun mövcudluğu, siyasi hakimiyyətin torpaq sahiblərinə məxsusluğu və s. ilə xarakterizə olunurdu. Bəşəriyyətin tarixində həmin mərhələ XVII əsrin sonuna kimi davam etmişdir. Keçid cəmiyyəti adlandırılan ikinci mərhələ istehsalatda elmin kəşflərin meydana gəlməsi, milli və dünya bazarlarının genişlənməsi, kapital yığımı, yeni sahibkarlıq növünün təşəkkülü, vahid milli hakimiyyətin meydana gəlməsi və s. ilə səciyyələnirdi. Yüksəliş mərhələsi adlandırılan üçüncü mərhələdə sənaye və kənd təsərrüfatının texnoloji səviyyəsi kəskin yüksəlir, ümumtəsərrüfat əhəmiyyətli kapital yaranır, fabriklərin sayı artır, səhərlər böyüyürdü.

U.Rostounun fikrincə, XIX əsrdə Qərbi Avropa iqtisadi inkişafının dördüncü mərhələsini yaşayır ki, onun əsas xüsusiyyəti ölkə təsərrüfatının dünya təsərrüfatının bir hissəsini təşkil etməsi olmuşdur. Həmin dövrdə milli gəlirin 10-20%-i sərmayələrə sərf olunmuş, kömür, metallurgiya və maşınqayırma sənayesindən ağırlıq qüvvəsi kimya və elektrik sənayesinin üzərinə düşmüşdür. Beşinci mərhələ isə yüksək kütləvi istehlak əsri olmuşdur. Burada əsas yeri şəxsi istehlak məqsədlərinə tabe olan müasir kapitalizmin iqtisadiyyatı tutur. Mütəxəssislər, texniklər, ixtisaslaşmış fəhlələr, kiçik və orta sahibkarlar və b. ibarət olan yeni orta sinif yaranır. Bu mərhələdə kapitalist dövləti əsas diqqəti əhalinin tələbatlarının ödənilməsinə yönəldir (5, 15-32).

Amerikalı filosof, sosioloq və futuroloq Elvin Toffler (1928-2016) "Üçüncü dalğa" əsərində sivilizasiyaların tarixi inkişafını mərhələlərə ayırır. Həmin mərhələlər ziddiyyətlər, münaqişələr, insanın yeni mühitə uyğunlaşmasında çətinliklər və problemlər yaradan dalğalar şəklində bir-birini əvəzləyir. Müəyyən bir cəmiyyətdə hansısa dəyişiklik dalğası hakim olduqda gələcək inkişafın modelini proqnozlaşdırmaq nisbətən asan olur (6, 41-42).

E.Toffler bildirir ki, "Birinci dalğa"ya aqrar sivilizasiya aiddir və həmin dövrdə əməyin primitiv təşkili, ictimai həyatda inkişaf tempinin yüksək olmaması özünü göstərmişdir. Mə-

dəni dəyərlərin nəsillərdən nəsillərə ötürülməsi bilavasitə ənənəvi xalq mədəniyyəti formasında reallaşmışdır.

"İkinci dalğa" Avropada sənaye inqilabından sonra başlamış və aqrar mərhələnin ənənələrinin sıxışdırılmasına qədər davam etmişdir. Sənaye istehsalının inkişafı nəticəsində şəhərlərin sayı kütləvi şəkildə artmış, yeni sosiomədəni dəyişikliklər baş vermişdir. Urbanizasiyanın genişlənməsi yeni şəhər həyatı formalaşdırmışdır. İdarəetmənin mərkəzləşdirilməsi, təhsilin inkişafı, texnoloji tətbiqlərin genişlənməsi və s. sənaye cəmiyyətinin əsas xüsusiyyətləri idi. Lakin sənaye sivilizasiyasının tədricən öz potensialından məhrum olması cəmiyyətdə böhranlı vəziyyət yaratmışdır. Buna nümunə olaraq müharibələri, texnogen və ekoloji qəzaları, həyat tərzinin və tələbatların standartlaşdırılmasını göstərmək olar. E.Toffler hesab edirdi ki, bununla da sivilizasiyanın inkişafının yeni mərhələsi olan "üçüncü dağla" başlayır.

"Üçüncü dalğa" informasiya və elektron sivilizasiya dövrü olmaqla ciddi dəyişikliklər əsasında meydana gəlmişdir. Həmin mərhələdə sənaye cəmiyyəti üçün səciyyəvi olan parametrlər aşağıdakı şəkildə dəyişir:-standartlaşmanın əvəzinə forma müxtəlifliyi üstünlük təşkil edir; -hakimiyyətin mərkəzləşdirilməsi çoxqütblü xarakter daşıyır;-məhdud ixtisaslaşma yeni fəaliyyət növlərinin tətbiqinə şərait yaradan inteqrasiya ilə əvəzlənir və s.

Amerikalı sosioloq və politoloq Samuel Hantinqton (1927-2008) "Sivilizasiyaların toqquşması" əsərində bildirir ki, bəşəriyyətin tarixi sivilizasiyaların tarixidir. Bəşəriyyətin inkişafını sivilizasiyalardan kənar təsəvvür etmək mümkün deyildir. Sivilizasiyaların tarixində insanlar üçün identifikasiyanın (eyniləşdirmə) ən yüksək səviyyəsi mümkün olmuşdur (7, 46). Sivilizasiyaların dəqiq müəyyən edilmiş sərhədləri, başlanğıcı və sonu yoxdur (7, 51).

Qeyd edək ki, elmi ədəbiyyatda sivilizasiyaların əsasən aşağıdakı meyarlar üzrə təsnifatı aparılır: -mənəvi həyatın ümumi fundamental əlamətləri;-tarixi-siyasi və iqtisadi inkişafın ümumiliyi;-mədəniyyətlərarası qarşılıqlı bağlılıq;-ictimai inkişafa təkan verən ümumi maraqlar və s. (8, 144).

Tədqiqatçılar sivilizasiyalararası təsirin iki səviyyəsinin olduğunu bildirirlər. Birinci səviyyəyə sivilizasiya supersistemləri, ikinci səviyyəyə isə sivilizasiyalar aid edilir (9, 247-255). Birinci səviyyə meqasivilizasiyalara məxsusdur. Buna nümunə olaraq müxtəlif sivilizasiyaları birləşdirən Aralıq dənizi və Hind-Sakit Okean meqasivilizasiyalarını göstərmək olar. Qeyd edək ki, sivilizasiyalararası qarşılıqlı təsirdə tarixən Hind okeanı mühüm rol oynamış, onun hövzəsində ilk sivilizasiyalar yaranmışdır.

Sivilizasiyalararası qarşılıqlı təsirin yaranmasında böyük imperiyalar və dövlətlər özünəməxsus yer tutur. Erkən sivilizasiyalar dövründə şəhər-dövlətlər və ərazi dövlətləri yaranmışdır (10, 92). Roma, Çin, Ərəb Xilafəti, Böyük Moğol və Böyük Britaniya kimi imperiyalar sivilizasiyaların genişlənməsində mühüm rol oynamışlar. Lakin hər bir imperiya sivilizasiya olmadığı kimi hər sivilizasiya da imperiya deyildir. Bundan əlavə İpək yolu və digər ticarət yollarına dair ideyaların meydana gəlməsi, sənaye inqilabı və istehlak kapitalizmi, iqlim dəyişiklikləri, məskunlaşma və s. faktorlar sivilizasiyalararası qarşılıqlı təsirin məkan-zaman ölçülərinə ciddi təsir göstərmişdir.

Sivilizasiyalararası qarşılıqlı təsirdə onun strukturunun mühüm elementlərindən biri olan ərazilər, xüsusilə, sivilizasiyaların "sərhədyanı ərazilər"i xüsusi yer tutur. "Aralıq bölgələr" meqasivilizasiyaları birləşdirən böyük məkanlar kimi çıxış edir. "Sərhədyanı ərazilər" əsasən hansısa sivilizasiyanın bir hissəsini təşkil edir. Məsələn, İber-Amerika sivilizasiyasının bir hissəsi olan Mərkəzi Amerika, Avro-Atlantik dünyasının, Şərqi Afrika isə İslam və hind sivilizasiyalarının təsirinə məruz qalmışdır.

Subsivilizasiyalar əsasən üç komponentdən ibarətdir: üstünlük təşkil edən sivilizasiya dəyərləri; subsivilizasiyanın özünəməxsus dəyərləri; başqa mədəniyyətlərdən əxz olunmuş dəyərlər. Subsivilizasiyalar həm də sərhəd bölgəsi kimi çıxış edir və fərqli dəyərlərin qarşılıqlı təsirini özündə birləşdirir.

Sivilizasiyaların strukturunda baş verən dəyişikliklərin iki tərəfi vardır: sivilizasiyalardaxili ziddiyyətlər və sivilizasiyalara xarici təsir (11, 224). Amerikalı politoloq Samuel Hantinqton sivilizasiyaların ərazi strukturunun "əsas dövlətlər", "iştirakçı ölkələr", "tənha ölkələr, "bölünmüş ölkələr" və "parçalanmış ölkələr"dən ibarət olduğunu bildirmişdir. "Əsas dövlət" ən güclü və mərkəzi ölkədir, yaxud Qərbdə olduğu kimi ölkələr qrupudur. "İştirakçı ölkə" özünü mədəni cəhətdən hansısa sivilizasiya ilə eyniləşdirir. "Tənha ölkə" digər sosiumlarla mədəni ümumiliyə malik deyil. "Bölünmüş ölkələr" eyni sivilizasiyaya mənsub mədəni qruplara malik olan dövlətlərdir. "Parçalanmış ölkə"də böyük qruplar müxtəlif sivilizasiyaları təmsil edir (7, 202-210). Sivilizasiyalar mədəni, dini, ərazi, etno-milli və digər faktorlar əsasında özlərində bir neçə tərkib hissəni birləşdirir. Məsələn, Avro-Atlantik sivilizasiya iki hissəyə - Anqlo-Amerikaya və kontinental Avropaya ayrılır.

Dünya sivilizasiyaları sisteminə həm sivilizasiyaların özləri (Qərb, İslam, Pravoslav, Konfutsi-Buddist, Yapon, Hind, Latın Amerikası və Afrika), həm də onların tərkib hissələri (subsivilizasiyalar) daxildir (12, 85). Sivilizasiyaların yaranmasında və inkişafında təbii şərait (məsələn, "çay" sivilizasiyalarının yaranması) mühüm rol oynamışdır. Onlardan bəziləri bir neçə yüzillik, digərləri isə minilliklər ərzində mövcud olmuşdur.

Tədqiqatçılar B.N.Kuzık və Y.B.Yakovets sivilizasiyaların zamana görə inkişafını aşağıdakı kimi qruplaşdırmışlar (13, 92-93):

| Qlobal sivilizasiya | Dünya sivilizasiyaları | Lokal sivilizasiyalar nəsli | Lokal sivilizasiyalar |
|---|---|---|---|
| Birinci tarixi supertsikl (e.ə.8-ci minillik – 1-ci minillik) | Neolit (e.ə. 8-4-cü minillik)<br>Erkən sinfi (e.ə.4-cü minilliyin sonu – 1-ci minilliyin əvvəli) | 1-ci nəsil (e.ə.4-cü minilliyin sonu – 1-ci minilliyin əvvəli) | Qədim Misir, Şumer, Assuriya, Babil, Ellin, Minoy, Hind, Çin |
| | Antik (e.ə. VIII əsr əsr – V əsr) | 2-ci nəsil (e.ə. VIII əsr – V əsr) | Yunan-roma, Finikiya, Hind, Çin, Yapon, Qədim Amerika |
| İkinci tarixi supertsikl (VI – XX əsrlər) | Orta əsrlər (VI – XIV əsrlər) | 3-cü nəsil (VI – XIV əsrlər) | Bizans, Şərqi Avropa, Şərqi slavyan, Çin, Hind, Yapon |
| | Erkən sənaye (XV – XVIII əsrin ortaları)<br>Sənaye (XVIII əsrin ortaları – XX əsr) | 4-cü nəsil (XV – XX əsrlər) | Qərb, Avrasiya, Buddist, Müsəlman, Çin, Hind, Yapon |
| Üçüncü tarixi supertsikl<br>XXI – XXIII əsrlər (proqnoz) | Postsənaye<br>XXI əsr – XXIII əsrin əvvəli (proqnoz) | 5-ci nəsil (XXI əsr – XXIII əsrin əvvəli) | Qərbi Avropa, Şərqi Avropa, Şimali Amerika, Latın Amerikası, Okeaniya, Rus, Çin, Hind, Yapon, Ərəb-müsəlman, Buddist, Afrika |

Elmi ədəbiyyatda sivilizasiyaların müxtəlif meyarlar üzrə təsnifatı aparılır. Miqyasına görə sivilizasiya bütün bəşəriyyəti (qlobal sivilizasiya), ölkələrin ittifaqını (beynəlxalq),

ayrıca götürülmüş xalqı və yaxud etnosu (dövlət və yaxud etnik-milli) əhatə edir. Sivilizasiyalar lokal və qlobal sivilizasiyalara bölünür.

Morfoloji təsnifatına görə sivilizasiyalar aşağıdakı kimi qruplaşdırılır:mezosivilizasiya (ayrıca götürülmüş region və yaxud ölkənin bir hissəsi);-mikrosivilizasiya (müəyyən sosial qrup);-minisivilizasiya (kiçik sosial qrup);- nanosivilizasiya (sivilizasiya əlamətlərinin daşıyıcısı olan fərd).

Sivilizasiyaların mövcudluğunun dövrləri aşağıdakılardır: -bəşəriyyətin müstəqil bioloji növ kimi mövcudluğu dövrü. Bu halda hesab edilir ki, insan morfologiyası dəyişməz qalır, yəni bütün nəsillərdə fiziologiya və psixologiyanın bazalt strukturları eynidir;- həyat tərzində əsaslı dəyişikliklər və əmək münasibətlərində texnoloji proseslərin tətbiqi dövrü. Bu halda hər bir sivilizasiya dünyagörüşü sistemində özünəməxsusluq formalaşdırır;etnik qrupların mental xüsusiyyətlərinin fərqləndirilməsi dövrü. Bu halda nəzərə alınır ki, etnoslar fərqli passionar potensiala malikdir. Passionarlıq sivilizasiyanın inkişafına təsir göstərir (14, 15).

Sivilizasiyalar aşağıdakı elementlərə malikdir: -sivilizasiyanın özəyi;-limb - ikinci dərəcəli "sərhəd" əlamətləri olan ərazilər qurşağı;-limitrof - sivilizasiyalararası məkanlar; -limes - bir sivilizasiyanı digərindən ayıran mədəni-coğrafi sərhəd (15, 86-98).

Müasir dövrdə qlobal sivilizasiyanın məkan və zaman ölçüləri ilə bağlı araşdırmalar aktuallıq kəsb edir. Qeyd edək ki, sivilizasiyanın bu növü ümumplanetar sivilizasiyanın təşəkkül tapması ilə xarakterizə olunur. Lakin qloballaşma dövründə sivilizasiyalar müəyyən dəyişikliyə məruz qalsalar da, onlar özlərinin sivilizasiya kimliyini qoruyub saxlamağa çalışırlar.Tədqiqatçıların fikrincə, sivilizasiyalararası dialoqda Qərbin, Qərb texnogen sivilizasiyasının dəyələrinin təsiri üstünlük təşkil edir. Lakin son onillikdə Şərq cəmiyyətlərinin sosial-iqtisadi və mədəni dəyərlərinin əhəmiyyəti artır (8).

**Nəticə.** Yuxarıda göstərilənləri ümumiləşdirsək aydın olur ki, hər bir sivilizasiyanın inkişafı konkret məkan və zaman ölçülərinə malikdir. Sivilizasiyalar ümumi sosiomədəni dəyərlər və həyat tərzi, iqtisadi və siyasi münasibətlər formalaşdırır. Dünyanın tanınmış filosofları, sosioloqları və tarixçiləri sivilizasiyaların təşəkkülü, formalaşması və inkişafına dair müxtəlif nəzəriyyələr irəli sürmüşlər. Sivilizasiyaların müxtəlif meyarlar əsasında təsnifatı aparılmışdır. Sivilizasiyalararası qarşılıqlı təsirdə onun tərkib hissələrindən biri olan coğrafi ərazilər mühüm rol oynayır. Müasir dövrdə qlobal sivilizasiyanın məkan və zaman ölçülərinin sosial fəlsəfə baxımından araşdırılması aktuallıq kəsb edir.

## ƏDƏBİYYAT

1. Colin Renfrew. The Emergence of Civilisation: The Cyclades and the Aegean in the Third Millennium BC. Oxbow Books; 2nd ed. Edition, 2011, 650 p.
2. Шпенглер О. Закат Европы. Ростов н/Д., «Феникс», 1998, 640 с.
3. Ясперс К. Смысл и назначение истории. М., Политиздат, 1991, 527 с.
4. Тойнби А. Постижение истории: Сборник. Айрис-Пресс, 2010, 640 с.
5. Ростоу В. В. Стадии экономического роста. Нью-Йорк, Издательство Фредерик А. Прегер, 1961, 237 с.
6. Тоффлер Э. Третья волна. М., "Издательство АСТ", 2004, 261 с.
7. Хантингтон С. Столкновение цивилизаций. М., «Издательство АСТ», 2015, 603 с.
8. Краснов Ю.К. Современное государство: цивилизационные факторы влияния. М., Прометей, 2020, 578 с.
9. Харин А.Н. К типологии цивилизационных суперсистем // Социально-гуманитарные знания. 2015, № 1, 247-254 с.
10. Bruce G. Trigger. Understanding Early Civilizations: A Comparative Study. Cambridge University Press, 2007, 774 p.
11. Robert W. Cox. Thinking about civilizations // Review of International Studies (2000), 26, 217-234 p.

12. Киселев С.Г. Цивилизационное измерение существования человечества // Вестник МГЛУ. Общественные науки. Вып. 2 (843), 2021, 79-90 с.
13. Кузык Б.Н., Яковец Ю.В. Цивилизации: теория, история, диалог, будущее. В двух томах. Том I. М., Институт экономических стратегий, 2006, 768 с.
14. Николаевич П.В. Цивилизация: проблемы смысловыделения в период глобальных преобразований человеческой сущности // «Науковедение» интернет-журнал, №2 (15) 2013, https://naukovedenie.ru/PDF/49evn213.pdf
15. Хатунцев С.В. Лимитрофы – межцивилизационные пространства Старого и Нового света // Журнал "Полис. Политические исследования", 2011, №2, 86-98 с.

## SİVİLİZASİYALARIN İNKİŞAFININ MƏKAN VƏ ZAMAN ÖLÇÜLƏRİ

***Vüqar Səlimov***

## XÜLASƏ

Məqalədə sivilizasiyaların inkişafının məkan və zaman ölçüləri təhlil olunur. Göstərilir ki, hər bir sivilizasiya ümumi sosiomədəni dəyərlərə və həyat tərzinə, iqtisadi və siyasi münasibətlərə malikdir. Dünyanın tanınmış filosofları, sosioloqları və tarixçiləri sivilizasiyaların təşəkkülü, formalaşması və inkişafına dair müxtəlif nəzəriyyələr irəli sürmüşlər. Sivilizasiyaların müxtəlif meyarlar əsasında təsnifatı aparılmış, onların qarşılıqlı təsirində coğrafi ərazilərin oynadığı rol şərh edilmişdir. Qlobal sivilizasiyanın məkan və zaman ölçülərinin sosial fəlsəfə baxımından tədqiqinin aktual əhəmiyyət daşıdığı qeyd olunmuşdur.

## ПРОСТРАНСТВЕННО-ВРЕМЕННЫЕ ИЗМЕРЕНИЯ РАЗВИТИЯ ЦИВИЛИЗАЦИЙ

***Вугар Салимов***

## АННОТАЦИЯ

В статье анализируются пространственные и временные измерения развития цивилизаций. Показано, что каждая цивилизация имеет общие социокультурные ценности и образ жизни, экономические и политические отношения. Известные философы, социологи и историки мира выдвигали различные теории о возникновении, формировании и развитии цивилизаций. Цивилизации классифицировались по различным критериям, объяснялась важная роль географических территории в их взаимодействии. Отмечено, что изучение пространственно-временных измерений глобальной цивилизации с точки зрения социальной философии имеет актуальное значение.

## SPATİAL AND TEMPORAL DİMENSİONS OF CİVİLİZATİONS' DEVELOPMENT

***Vugar Salimov***

## SUMMARY

In the article analyzed the spatio-temporal dimensions of the development of civilizations. It is shown that each civilization has common sociocultural values and way of life, economic and political relations. Famous philosophers, sociologists and historians of the world put forward various theories about the emergence, formation and development of civilizations. Civilizations were classified according to various criteria. The important role of geographical territories in their interaction was explained. It is noted that the study of spatio-temporal dimensions of global civilization from the point of view of social philosophy is of current importance.

# PSİXOLOGİYA

## SOSİAL EMOSİONAL-ÖYRƏNMƏ CASEL MODELİ

***Əhmədova Eminə Xoşbəxt qızı***
***BDU-nun II kurs magistrantı***
***emina.ahmedova21@gmail.com***

***Açar sözlər :*** sosial öyrənmə, emosional öyrənmə, Casel modeli
***Ключевые слова:*** социальное обучение, эмоциональное обучение, Модель Каселя.
***Keywords:*** social learning, emotional learning, Casel's model

Sosial-emosional öyrənmə böyüklərin və gənclərin şəxsi inkişafını dəstəkləmək, fərdi və kollektiv məqsədlərə nail olmaq, emosiyaları idarə etmək, başqalarına qarşı empatiya hiss eləmək və nümayiş etdirmək, dəstəkləyici əlaqələr qurmaq və saxlamaq, həm də şəxsiyyətləri inkişaf etdirmək üçün bilik, bacarıq və münasibətlərin mənimsənildiyi və tətbiq edildiyi bir prosesdir.

Sosial-emosional öyrənmənin proqramlaşdırılması məktəbəqədər yaşda başlayır, orta məktəbdə davam edir. Sosial-emosional öyrənmə idrak, davranış və emosiyaların birləşməsini hədəfləyir. Sosial-emosional öyrənmə tələbələr və böyüklər üçün geniş, müsbət təsirləri göstərən ciddi araşdırmalarla yanaşı valideynlər, müəllimlər , tələbələr və liderlərinin tələbinə görə təhsilin mərkəzinə çevrilib. Sosial-emosional öyrənmə sosial, emosional və akademik bacarıqların öyrənilməsinə bütün sinif şagirdlərini fəal şəkildə cəlb edən bərabərhüquqlu öyrənmə şəraiti yaratmaq üçün bir yanaşmadır. Şəhər və rayon səviyyələrində uyğunlaşdırılmış siyasətlər və tədbirlər tələb edir ki, bu da yerli məktəbləri və icmaları böyüklərin şəxsi və peşəkar bacarıqlarını inkişaf etdirməyə təşviq edir: sübuta əsaslanan proqramları və təcrübələri həyata keçirmək və davamlı olaraq təkmilləşdirmək, qayğıkeş münasibətləri və gənclərin səsini gücləndirən, xarakterini inkişaf etdirən inklüziv mədəniyyət yaratmaq və şagirdlərin inkişafını artırmaq üçün koordinasiya edilmiş məktəb-icma-ailə tərəfdaşlarının dəstəklənməsi vacibdir.

Sosial-emosional öyrənmə fərdin emosiyalarının üstünlüyünü təsvir edir. Sosial-emosianal öyrənmə (SEÖ) uşaq və gənclərin mühüm həyat vəzifələrini uğurla yerinə yetirmək vəzifəsi daşıyır. Sosial-emosional öyrənmə (SEÖ) hərtərəfli psixoloji məsləhət və rəhbərlik xidmətləri ilə bağlıdır. Sosial-emosional öyrənmə (SEÖ) baxımından şəxslərin həyat vəzifələri şəxsi və sosial ehtiyaclarını ödəmək cəmiyyətdə çalışqan fərd olmaq öz düşüncə və davranışlarını inteqrasiya etməkdir. Sosial-emosional öyrənmə (SEÖ) fərdlər üçün bir növ inkişaf və yetkinləşmə prosesidir [1, s136-152].

Sosial-emosional öyrənmə (SEÖ) təkcə şagirdlər üçün deyil , bütün insanlar üçün çox vacibdir. Öyrənmə mühitindəki nəyi, necə öyrənməyimizə təsir edir. Məktəbdə şagirdlər tez-tez rəssamlıq, musiqi və bədən tərbiyəsi kimi fənlərə az vaxt ayrılmasından, həmçinin riyaziyyat, humanitar və təbiət elmləri kimi dərslərin çox uzun olmasından şikayətlənirlər. Bu vəziyyət motivasiyada nisbilik anlayışı ilə əlaqələnir.

Öyrənmə üçün əsas təmin edilən sosial məkan məktəblərdir. Şagirdlər yaşadıqları cəmiyyətin mədəni xüsusiyyətlərini məktəb mühitində öyrənirlər. Sosial-emosional öyrənmə (SEÖ) bacarıqları yaş qrupundan olan bütün şagirdlərə asanlıqla öyrədilə bilən bacarıqlardır. Əsas odur ki, duyğuların dərkinə əsaslanan bu bacarıqlar darıxdırıcı şəkildə deyil, daha başa düşülən şəkildə öyrədilir.

Akademik, sosial və emosional öyrənmə üzrə Əməkdaşlıq təşkilatı CASEL adı ilə 1994-cü ildə yaradılmışdır. Təşkilatın məqsədi sosial-emosional öyrənməyə (SEÖ) qısaldılmış

sosial- emosional öyrənmənin sinifdə və daha geniş ictimaiyyətdə əhəmiyyətini dərk etməkdir [2, s.9-11].

CASEL sosial-emosional öyrənməni və ya SEÖ-ni "bütün gənclərin və böyüklərin sağlam şəxsiyyətlərini inkişaf etdirmək, emosiyaları idarə etmək, şəxsi və kollektiv məqsədlərə nail olmaq, onlara empatiya hiss etmək və göstərmək üçün bilik, bacarıq və münasibət əldə etməsi və tətbiq etməsi prosesi" kimi müəyyən edir. Başqaları ilə dəstəkləyici əlaqələr qurur və qoruyur, məsuliyyətli və qayğıkeş qərarlar qəbul edir. Başqa bi dillə desək, SEÖ sosial və emosional bacarıqların inkişaf etdirilməsi və istifadəsini öyrənmək prosesidir.

Daha yaxşı özünüdərketmə, özünənəzarətetmə, empatiya və insanlarla ünsiyyət bacarıqlarını inkişaf etdirərək, uşaqlar və böyüklər məktəbdə, işdə, həyatda daha çox uğur qazanırlar.

CASEL həm məktəb , həm də şəhər və rayon səviyyəsində sistemli yanaşmanın kontekssində sübuta əsaslanan sosial-emosional öyrənmə (SEÖ) proqramlarından istifadənin tərəfdarıdır. Sosial və emosional faktorların şagirdlərin akademik CASEL hesab edir ki, yüksək keyfiyyətli, SEÖ-ni dəstəkləmək qabiliyyətinin inkişafı təhsil müəssisələrinin təkmilləşdirmə səylərinin vacib hissəsi olmalıdır.

Sosial-emosional öyrənmə (SEÖ) məktəb şəraitində şagirdlərə bir çox cəhətdən kömək edir. Tez-tez problemləri idarə etməkdə, dinləməkdə, dəstəkləyici əlaqələr qurmaqda, hədəflər qoymaqda və əsaslandırılmış qərarlar qəbul etməkdə güclü sosial-emosional bacarıqları olan şagirdlər daha yaxşı olurlar. Üstəlik, bu bacarıqlar istənilən yaşda öyrədilə və inkişaf etdirilə bilər.

Yarandığı vaxtdan etibarən CASEL sosial-emosional öyrənmənin (SEÖ) təhsilə təsirini göstərən məlumatları araşdırmışdır. Onların məlumatları SEÖ-ni təşkil edən beş əsas sahələri və ya əsas səlahiyyətləri müəyyən edir. CASEL 5 kimi tanınan beş sahə özünüdərketmə, özünüidarəetmə ,sosial şüur, ünsiyyət bacarıqları və məsuliyyətli qərar qəbul etmədir [3, s.7-10].

Özünüdərketmə- özünü dərk etmə insanın öz düşüncələrini, duyğularını və dəyərlərini tanımaq və bunların davranışlara necə təsir etdiyini başa düşmək bacarığıdır. Bu həm də insanın zəif və güclü tərəflərini tanıya bilməsidir. Özünü dərk etmək şagirdlərə duyğularının davranışlarına necə təsir etdiyini görməyə kömək edir. Şagirdlər daha sonra özlərinə inamlarını artıra və özlərini təkmilləşdirə bilərlər.

Özünüidarəetmə - İnsanın öz davranışlarını, duyğularını, düşüncələrini idarə etmək bacarığıdır. Bu sahə stresslə əlaqəli davranışları idarə etmək və stressi tənzimləmək qabiliyyətini əhatə edir. Özünü idarə etmək həm özünü motivasiya etmək , həm də istəklərinə nail olmaq üçün şəxsi və kollektiv məqsədlər qoymaqdır. Özünüidarəetmənin vacib komponentləri özünə intizam, inam və təşkilati bacarıqlarıdır.

Sosial dərketmə (məlumatlılıq) – Sosial şüur başqalarından xəbərdar olmaqdır. Çox vaxt uşaqların daha müxtəlif sosial mühitdə ilk təcrübəsi məktəbdir. Fərdlərin və qrupların prespektivlərini nəzərə almağa öyrənmək, eləcə də onlarla empati qurmağı öyrənmək vacibdir. Bura fərqli mədəniyyətlərdən, mənşələrdən və kontekslərdən olanlar daxildir. Şagirdləri daha çox başqa nöqteyi-nəzərləri görməyə və müxtəlif prespektivlərin arxasındakı emosiyaları və davranışları başa düşə bilməsi sosial şüurun olması deməkdir. Sosial məlumatlılıq şagirdlərə mərhəmət nümayiş etdirməyə fərqli sosial normaları müəyyən etməyə və müxtəlif baxışları nəzərə alaraq münaqişələri necə həll etməyi öyrənməyə kömək edir.

Ünsiyyət bacarıqları- Ünsiyyət bacarıqlareından istifadə etməklə, əməkdaşlıq etmək və lazim olduqda kömək axtarmaqda sağlam münasibətlər qurmaq və saxlamaq qabiliyyətlərinə malik olmaq deməkdir. Şagirdlər problemləri həll etmək və daha yaxşı dinləyici olmaq üçün komandalar şəklində işləmək yolu ilə ünsiyyət bacarıqlarını inkişaf etdirirlər. Ünsiyyət bacarıqlarnı təkmilləşdirməklə, şagirdlərin konstruktiv komanda işində iştirak etmək, eləcə də müəllimləri ilə məktəbdə hörmətli və müsbət münasibətlər inkişaf etdirmək və

həmyaşıdları ilə ehtimalı daha yüksək olur.

Məsuliyyətli qərar qəbul etmə - Məsuliyyətli qərar qəbul etmək bir çox hallarda konstruktiv və qayğıkeş seçim etmək bacarığına sahib olmaqdır. Şagirdlərin qəbul etdikləri hər bir qərarın mümkün nəticələrini və onların hərəkətlərinin başqaları üçün fayda və nəticələrini nəzərə almaları vacibdir. Yaxşı qərar vermə bacarıqları şagirdlərə açıq fikirli olmağı öyrənməyə və problemin bir neçə həllini müəyyən etməyə kömək edə bilər. Başqa sahələrdə kömək edə biləcək tənqidi düşüncə və analitik bacarıqları təkmilləşdirmək imkanı da var.

CASEL öz proqramlarını iki fərqli nöqteyi-nəzərdən keçirir: "ümumməktəb" və "ümumtəhsil bölgəsi". İntizam siyasəti, strukturları və prosedurları birbaşa uşağın inkişafına və tədqiqatına əsaslanan proqramın həyata keçirilməsinə təsir göstərir. Bu amillərdən asılı olaraq məktəb rəhbərliyi SEÖ proqramlarını effektiv həyata keçirilməsinin dəstəkləməli, SEÖ dili və sinifdə öyrədilən təcrübələr üçün bir model yaradılmalıdır. Rəhbərlər sosial-emosional öyrənmə təcrübələrinin bütün məktəbdə istifadə olunmasını təmin etməli və işçi heyətinin inkişafı üçün lazımi dəstəyi təmin etməlidir.

Sosial- emosional bacarıqları əldə etmiş şagirdlərin müəllimləri və həmyaşıdları ilə münasibətləri daha sağlam fikirlər və davranışlar üzərində qurulur. Onların daha yaxşı qiymətlərə sahib olmaları, orta məktəbi bitirmələri və işlə təmin olma ehtimalları daha yüksəkdir.

Sosial-emosional öyrənmənin (SEÖ) başqa faydaları var ki ,onları sinif mühitində də görmək mümkündür. Məsələn, komanda işində və liderlikdə təkmilləşmə bacarıqlarının artması, daha az zorakılıq və intizam hadisələrinin baş verməsi, münasibətlərdə və akademik performansda yaxşılaşma, sinif və məktəb mühiti haqqında daha müsbət təsəvvürlər, narahatlıq və davranış problemlərinin azalması hallarını sosial -emosional öyrənmənin faydaları sırasına aid etmək olar.

"Öyrənmə" termini sosial – emosional öyrənmənin güclü və məqsədyönlü cəhətidir[4, s.3-19]. Öyrənmə bütün uşaqlarda sosial və emosional bacarıqların , tətbiq olma, əldə olma , inkişaf etdirilə və təkmilləşdirilə biləcəyini nəzərdə tutur [5, s.103-119].

Sosial –emosional öyrənmə (SEÖ) proqramları sosial-emosional səriştələrə və özünə, başqalarına və məktəbə münasibətə əhəmiyyətli müsbət təsir göstərir . Onlar həmçinin şagirdlərin prososial davranışların artması, davranış və daxili problemlərin azalması şəklində davranış uyğunlaşmasını gücləndirir, akademik fəaliyyəti yaxşılaşdırır.

Sosial-emosional bacarıqlar zamanla öyrədilməli və inkişaf etdirilməlidir . Evdə və sinifdə sosial və emosional öyrənmədən istifadə etməklə uşaqlara bu bacarıqları inkişaf etdirməyə kömək etməyin bir çox yolu var.

Pedaqoqlar, valideynlər və bütövlükdə cəmiyyətin ortaq fikri olaraq bildirilir ki, gənclər orta məktəbi bitirən zaman onlar əsas akademik bacarıqları inkişaf etdirməli və ən əsası sosial cəhətdən bacarıqlı, müstəqil, məsuliyyətlə hərəkət etməyə hazır və hər tərəfli inkişaf etmiş gənc vətəndaşlara çevrilməlidirlər [6, s. 466-474].

Öyrənməkdə və işləməkdə uğur qazana bilən insan uyğunlaşmağı, dürüst olmağı başqaların hörmət etməyi, insanlarla yaxşı ünsiyyət qurmağı bacarmalıdır. Hazırki dövrdə insanlar texnikanın inkişafı ilə əlaqədar olaraq rəqəmsal öyrənmə üsullarından istifadə edirlər.

Tədqiqatlar göstərdi ki, məktəbdə təhsilin ilk illərindəki akademik bacarıqlar emosiyaları və davranışları tənzimləmək, böyüklər və həmyaşıdları ilə müsbət sosial qarşılıqlı əlaqədə olmaq bacarığı və sonrakı illərdəki akademik bacarıqlar ilə sıx bağlıdır. Bununla yanaşı tədqiqatlar təsdiq edir ki, ciddi idrak problemlərini sosial qarşılıqlı əlaqə ilə birləşdirən və ya şagirdin emosiyalarını alovlandıran sinif təlimatı və akademik fəaliyyətlər daha dərin, uzun müddətli öyrənmə ilə nəticələnir.

Sosial, emosional və koqnitiv bacarıqlar insanın genetik planı ilə əvvəlcədən müəyyən edilmir. Əksinə, genlərimiz təcrübə ilə qarşılıqlı əlaqədə olur ki, bu bacarıqlar ortaya çıxır, inkişaf edir və dəyişir. Zamanla, ilk illərdən başlayaraq uşaqlıq və yeniyetməlik boyu davam edir.

Aparılmış tədqiqatlar göstərdi ki, sosial və emosional öyrənmə proqramlarında iştirak edən tələbələr sosial və emosional öyrənmə bacarıqlarında , münasibətində, davranışında və akademik qabiliyyətində əhəmiyyətli irəliləyişlər göstərib , həmçinin emosional sıxıntı və davranış problemlərini azaldıblar [7, s.405-432].

Sosial, emosional və idrak imkanları əsaslı şəkildə bir-birinə bağlıdır. Onlar inkişaf, təcrübə və istifadə baxımından bir-birindən asılıdır.

SEÖ səriştələrində təcrübəli olan uşaqlar məktəbdə və cəmiyyətdə vacib olan vəzifələrin öhdəsindən gəlmək üçün hiss, davranış və düşünməni birləşdirə bilirlər. Həmin uşaqlar öz emosiyalarını bacarıqla tanıyır və idarə edir, böyüklərlə və həmyaşıdları ilə sağlam münasibət qurur, şəxsi və sosial ehtiyacları ödəyir, qarşısına real və müsbət məqsədlər qoyur, məsuliyyətli və etik qərarlar qəbul edir.

Sosial və emosional öyrənmə şagirdlərin şəxsiyyətlərarası, şəxsiyyətdaxili və koqnitiv bacarıqlarını asanlaşdırır və onları müasir dünyada qaçılmaz olaraq qarşılaşacaqları çətinliklərin öhdəsindən gəlməyə hazırlayır. Tədqiqatların genişlənməsi nəticəsində SEÖ indi bütün ölkədə orta və yuxarı sinif şagirdlərinin sosial, emosional və akademik qabiliyyətlərini yaxşılaşdıra bilən elmi cəhətdən əsaslandırılmış, praktiki metod hesab edilməlidir.

Sosial-emosional bacarıqların inkişafı təcrübə və davranış sahəsindəki problemlərə sistemli inkişaf dəstəyinin mühüm ölçüsünü təmsil edir. Akademik, sosial və emosional öyrənmə üzrə Əməkdaşlıq təşkilatından sosial-emosional öyrənmə konsepsiyası yalnız nəzəri cəhətdən əsaslandırılmış çərçivə modelini təqdim etmir, həm də empirik işdə sosial-emosional bacarıqların inkişafı üçün yanaşmanın potensialını göstərir. Çoxsaylı fərdi tədqiqatlar və bir sıra metaanalizlər akademik qabiliyyətin, sosial-emosional bacarıqların, prososial davranışın və özünə hörmətin yaxşılaşdırılması, həmçinin aqressiv davranışın azaldılması və kiçik, orta təsirli problemlərin daxililəşdirilməsi baxımından sosial-emosional öyrənmə tədbirlərinin effektivliyini nümayiş etdirdi.

Məktəblərdə sosial-emosional öyrənmənin həyata keçirilməsi üçün strategiyaları məktəbdə bir tərəfdən öyrənmə mühitini tərtib etməklə , digər tərəfdən qeyd olunacaq bacarıqları fərdi şəkildə təşviq etməklə bacarıqların inkişafını dəstəkləyir. Şagirdlərin sosial-emosional səriştələrinin uğurlu təşviqi təhlükəsiz qayğıkeş, əməkdaşlıq və iştirakçı təlim mühitinin dizaynına əsaslanır. Lakin eyni zamanda bu konkret formada tələbələrin müvafiq sosial-emosional səriştələri ilə müəyyən edilir.

Sosial-emosional səriştədə inkişafla bağlı dəyişikliklər, sabitlik haqqında biliklər, məktəbdə SEÖ-nin inkişafa uyğunlaşdırılmış təşviqi üçün vacib şərtdir. Çünki bu, onu optimal şəkildə stimullaşdırmağın yeganə yoludur. Bu o deməkdir ki, müəllimlər müəyyən yaşda olan şagirdlərin necə emosional cəhətdən inkişaf etdiyini və ya necə inkişaf etməli olduqlarını , onların sosial –emosional səriştələr baxımından ən yaxşı necə öyrəndiklərini və bu öyrənmə prosesini ən yaxşı şəkildə necə stimullaşdırmaq, onu sinif ictimaiyyəti və qrup ilə tamamlamaq barədə düşünməlidir.

Sosial-emosional öyrənmə həyatımızın sosial-emosional aspektlərini dərk etmək prosesi kimi ən əhatəli mənada qəbul edilir. Bu prosesi üç mərhələdə izah etmək olar [8, s.233-255]:

- Həyatımızdan sosial və emosional sahələr haqqında məlumatları oxumaq, təhlil etmək və anlamaq ;
- Sosial və emosional sahədən əldə edilən məlumatlar şəxsiyyətlərarası problemlərin həllində istifadə ;
- Həyatımızın sosial və emosional sahəsində yaradıcı öyrənən olmaq.

Sosial-emosional öyrənmə (SEÖ) uşaqların və gənclərin həyati vəzifələrini uğurla yerinə yetirmələri, ehtiyaclarını ödəmələri və cəmiyyətdə məhsuldar , fərdlər olmaları üçün onların hiss və düşüncələrinin inteqrasiya prosesini dəstəkləyir. Bu prosesə əsas bacarıqların əldə edilməsi inkişaf etdirilir. Bu əsas bacarıqlar, emosiyaları idarə etməklə, şəxsi və sosial ehtiyacları qarşılamaqla məsuliyyətli qərarlar qəbul etməyə imkan verir.

## ƏDƏBİYYAT

1. Türnüklü, A. (2004). Okullarda Sosyal ve Duygusal Öğrenme. Kuram ve Uygulamada Egitim Yönetimi Dergisi, 10(1), 136-152
2. 2015 CASEL Guide: Effective Social and Emotional Learning Programs—Middle and High School Edition , pp. 9-11
3. CASEL-Collaborative for Academic, Social, and Emotional Learning. (2013). Implementing systemic district and school social and emotional learning. Chicago,L:Author.p.p7-10
4. Weissberg, R. P., Durlak, J. A., Domitrovich, C. E., & Gullotta, T. P. (2015). Social and emotional learning: Past, present, and future. In J. A. Durlak, C. E. Domitrovich, R. P. Weissberg, & T. P. Gullotta (Eds.), Handbook for Social and Emotional Learning(pp.3–19). New York
5. Bernard, M. E. (2006). It's time we teach social-emotional competence as well as we teach academic competence. Reading and Writing Quarterly, 22, 103–119.Greenberg, M. T., Weissberg, R. P., O'Brien, M. U., Zins, J. E., Fredericks, L., Resnik, H., & Elias, M. J. (2003). Enhancing school-based prevention and youth development through coordinated social, emotional, and academic learning. American Psychologist, 58, 466–474
6. Durlak, J. A., Weissberg, R. P., Dymnicki, A. B., Taylor, R. D., & Schellinger, K. B. (2011). The impact of enhancing students' social and emotional learning: A meta-analysis of school-based universal interventions. Child Development, 82, 405-432
7. Zins, J. E., ve Elias, M. J. (2007). Social and emotional learning: Promoting the development of all students. Journal of Educational & Psychological Consultation, 17(2-3), 233-255.

## SOSİAL-EMOSİONAL ÖYRƏNMƏ CASEL MODELİ

***Əhmədova Eminə***

### XÜLASƏ

Bu məqalənin məqsədi Casel modelinin təhsil müəssisələrində və daha geniş ictimaiyyətdə olan sosial-emosional təsirlərinə nəzər salmaqdır. Araşdırmalar sübut edir ki, sosial-emosional öyrənmə bacarıqları yaş qrupundan asılı olmayaraq bütün insanlara asanlıqla öyrədilə bilən bacarıqlardır.

## МОДЕЛЬ СОЦИАЛЬНО-ЭМОЦИОНАЛЬНОГО ОБУЧЕНИЯ КАСЕЛЯ

***Ахмедова Эмина***

### АННОТАЦИЯ

Данная статья посвящена анализу модели Каселя, являющейся основой программ социально эмоционального обучения в образовательных учреждениях и в сообществе в целомболее. Исследования доказывают, что навыки социально-эмоционального обучения — это навыки, которым можно научить всех людей, независимо от возрастной группы.

## CASEL'S MODEL OF SOCİAL-EMOTİONAL LEARNİNG

***Ahmadova Emina***

### SUMMARY

The aim of this article is to investigate he social-emotional implications of Casel's model in educational institutions and the wider community. The research has proved that social-emotional learning skills are skills that can be effectively taught to all people, regardless of age group.

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ОСУЖДЕННЫХ МУЖЧИН ЗРЕЛОГО ВОЗРАСТА

***Научный руководитель Рена Кадырова***
***Кяримли Кярим Ильяс***
***магистрант II-ого курса***
***karimlikarim029@gmail.com***

***Ключевые слова*****:** осужденные мужчины, зрелый возраст, социальный статус, социальная адаптация.
***Açar sözlər*****:** məhkum kişilər, yetkin yaş, sosial status, sosial uyğunlaşma.
***Key words*****:** convicted men, adulthood, social status, social adaptation.

Сегодня в Азербайджане устойчиво отмечается тенденция снижения уровня преступности, однако процент мужчин, которые находятся в заключении, в местах лишения свободы традиционно растет, также можно обратить внимание на то, что чаще среди них встречаются мужчины зрелого возраста.

Период пребывания в тюрьме большинство заключенных переживают тяжело, часто у них наблюдаются заметные эмоциональные расстройства, которые отрицательно сказываются на адаптации в местах заключения. Также у некоторых из них наблюдаются признаки тяжелой или умеренной депрессии из-за новых правил и требований. Данная реакция у некоторых заключенных не сразу проходит, поскольку правила тюремного существования оказывают сильное психологическое воздействие на человека и меняют его.

В связи с данными фактами у осужденных проходит перестройка социальных функций, ролей, в частности, у некоторых меняется семейное положение (развод).

Установлено, что в зрелом возрасте после попадания в исправительные учреждения у осужденных возможно суицидальное и аутоагрессивное поведение, которое могут спровоцировать следующие факторы:

– вынужденные ограничения, необходимость строго соблюдать режимные моменты новой окружающей действительности;

– отсутствие родственников, привычного окружения, в котором протекала обычная жизнь;

– порицание совести, чувство вины и стыд, упреки себя;

– деструкция семейных отношений, вызванная именно совершенным преступлением;

– нахождение в среде, где осужденного окружают в основном преступники;

– невозможность продолжать регулярные половые отношения с противоположным полом;

– дискриминации, ограничения, ущемления и притеснения.

**Цель** – изучение личностных характеристик осужденных мужчин зрелого возраста с разным количеством раз осуждений.

**Выборка.** Исследование проведено на базе Лечебно-исправительного учреждения города Баку. В исследовании приняли участие 20 осужденных, из них 52% заключенных имеют от 1 до 3 раз осуждений и 48% – от 4 до 11 раз осуждений.

**Методы и методики**. Методика «Диагностика личностной агрессивности и конфликтности» (Е.П. Ильин и П.А. Ковалев) и опросник «Опросник суицидального риска» (А.Г. Шмелева) в модификации Т.Н. Разуваевой. Анализ средних значений, корреляционный анализ Спирмена.

**Результаты.** Наибольшее значение для осужденных мужчин зрелого возраста,

имевших от 1 до 3 осуждений, получено по шкале «Неуступчивость» (28,81), а наименьшее значение получено по шкалам «Подозрительность» (21,72) и «Максимализм» (21,33), что характеризует эту группу как склонных категорично отстаивать собственною точку зрения и интересы, не считаясь с мнением окружающих и не приходя к компромиссу. Поэтому осужденные мужчины зрелого возраста с количеством осуждений от 1 до 3 раз сомневаются в искренности и честности намерений большинства людей, обладают высоким уровнем инфантильного максимализма ценностных установок. Аффективно фиксированы на неудачах.

В группе осужденных мужчин зрелого возраста, имевших от 4 до 11 осуждений, наибольшие значения получены по шкалам «Максимализм» (30,39) и «Подозрительность» (29,93), а наименьшее по шкале «Неуступчивость» (21,6). Таким образом, они характеризуются недоверием и осторожностью по отношению к людям, категоричностью в суждениях и убежденностью, что другие люди планируют приносить им только вред.

Для изучения взаимосвязей параметров суицидального риска осужденных мужчин зрелого возраста, имевших от 1 до 3 осуждений, применен корреляционный анализ Спирмена, в результате получены следующие корреляционные взаимосвязи.

Получена положительная корреляции «Вспыльчивости» с «Подозрительностью» ($r = 0{,}6$, при $p \leq 0{,}01$) и «Аффективностью» ($r = 0{,}61$, при $p \leq 0{,}01$). Вспыльчивость у осужденных мужчин зрелого возраста возникает из-за недоверия и осторожности по отношению к людям, а также из-за доминирования эмоций над разумом при оценке ситуации.

Шкала «Неуступчивость» положительно взаимосвязана с «Нетерпимостью к мнению других» ($r = 0{,}46$, при $p \leq 0{,}01$), «Несостоятельностью» ($r = 0{,}37$, при $p \leq 0{,}05$). Неуступчивость у осужденных мужчин зрелого возраста проявляется в игнорировании чужого мнения. Осужденные не считаются с советами и возражениями близких. Принимают решения только самостоятельно, чувствуют себя ущемленными, если мнение другого оказывается более правильным.

Шкала «Подозрительность» положительно взаимосвязана с «Вспыльчивостью» ($r = 0{,}6$, при $p \leq 0{,}01$) и «Аффективностью» ($r = 0{,}4$, при $p \leq 0{,}03$). Подозрительность у осужденных связана с готовностью к проявлению негативных чувств и снижению контроля за собственными эмоциональными реакциями.

Шкала «Демонстративность» положительно взаимосвязана с «Аффективностью» ($r = 0{,}66$, при $p \leq 0{,}01$), «Несостоятельностью» ($r = 0{,}38$, при $p \leq 0{,}04$) и «Максимализмом» ($r = 0{,}4$, при $p \leq 0{,}03$). Демонстративность у осужденных проявляется в доминировании эмоций над разумом, является результатом их внутренней несостоятельности и максимализма в поведении и суждениях.

Шкала «Несостоятельность» положительно коррелирует с «Неуступчивостью» ($r = 0{,}37$, при $p \leq 0{,}05$), «Нетерпимостью к мнению других» ($r = 0{,}67$, при $p \leq 0{,}01$), «Демонстративностью» ($r = 0{,}38$, при $p \leq 0{,}04$), «Аффективностью» ($r=0{,}55$, $p \leq 0{,}01$). Несостоятельность у осужденных является следствием неуступчивости, категоричности в суждениях, склонности игнорировать мнение других людей, преобладания эмоций над разумом и демонстративности в поведении.

Шкала «Максимализм» положительно взаимосвязана с «Демонстративностью» ($r = 0{,}4$, при $p \leq 0{,}03$). Максимализм у осужденных мужчин зрелого возраста проявляется с целью добиться сочувствия и понимания.

Для изучения взаимосвязей параметров суицидального риска осужденных мужчин зрелого возраста, имеющих от 4 до 11 осуждений, применен корреляционный анализ Спирмена.

Шкала «Вспыльчивость» положительно взаимосвязана с «Неуступчивостью» (r =

0,58, при p≤0,01), «Нетерпимостью к мнению других» (r = 0,41, при p ≤ 0,04), «Подозрительностью» (r = 0,39, при p ≤ 0,05). Вспыльчивость у осужденных мужчин зрелого возраста связана с нетерпимостью, категоричностью по отношению к мнению окружающих, неуступчивостью, подозрительностью к другим.

Шкала «Неуступчивость» положительно взаимосвязана с «Вспыльчивостью» (r = 0,58, при p ≤ 0,01), «Нетерпимостью к мнению других» (r = 0,74, при p ≤ 0,01), «Подозрительностью» (r = 0,5, при p ≤ 0,01). Неуступчивость у осужденных мужчин зрелого возраста проявляется через готовность к проявлению негативных эмоций, вспыльчивость, игнорирование мнения других, подозрительность.

Шкала «Нетерпимость к мнению других» положительно взаимосвязана с «Вспыльчивостью» (r = 0,41, при p ≤ 0,04), «Неуступчивостью» (r = 0,74, при p ≤ 0,01), «Подозрительностью» (r = 0,69, при p ≤ 0,01), «Несостоятельностью» (r = 0,43, при p ≤ 0,03). Осужденные мужчины зрелого возраста готовы в любой момент к проявлению негативных эмоций, они вспыльчивы, грубы, категоричны, в то же время они ощущают собственную несостоятельность и ущербность.

Шкала «Подозрительность» положительно взаимосвязана с «Вспыльчивостью» (r = 0,39, при p ≤ 0,05), «Неуступчивостью» (r = 0,5, при p ≤ 0,01), «Нетерпимостью к мнению других» (r = 0,69, при p ≤ 0,01), «Демонстративностью» (r = 0,59, при p ≤ 0,01), «Несостоятельностью» (r = 0,67, при p ≤ 0,01). Подозрительность у осужденных мужчин зрелого возраста связана с готовностью к проявлению негативных эмоций, с низким контролем над поведением и эмоциями, с категоричностью и неуступчивостью, нетерпимостью к мнению других.

Məqalədə deviant davranışlı yeniyetmələrdə emosional intellektin təzahür xüsusiyyətlərindən bəhs olunur. İşin məqsədi yeniyetmələrdə deviant davranışın formalaşmasında emosional intellektin rolunu öyrənmək idi. Emosional intellektin formalaşması səviyyəsi, yeniyetmələrin davranışındakı deviantlığa meyilliyin inkişafını şərtləndirən amillərdən biridir. Nəticə etibarilə qeyd edə bilərik ki, emosional intellektin inkişafı yeniyetmələrin davranışındakı deviantlığın ekoloji, sosial – psixoloji və pedaqoji qarşısının alınması istiqamətidir.

# ПРОЯВЛЕНИЕ ОСОБЕННОСТЕЙ ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА У ПОДРОСТКОВ С ДЕВИАНТНЫМ ПОВЕДЕНИЕМ

***Расулова Айсун***

## АННОТАЦИЯ

В статье говорится о проявлениях эмоционального интеллекта у подростков с девиантным поведением. Целью исследования явилось изучение роли эмоционального интеллекта в формировании девиантного поведения у подростков. Уровень сформированности эмоционального интеллекта является одним из факторов, определяющих развитие отклонений в поведении подростков. В итоге можно отметить, что развитие эмоционального интеллекта является направлением экологической, социально-психологической и педагогической профилактики девиантности в поведении подростков.

# MANIFESTING CHARACTERISTICS OF EMOTIONAL INTELLIGENCE IN ADOLESCENTS WITH DEVIANT BEHAVIOR

***Rasulova Aysun***

## SUMMARY

The article talks about the manifestations of emotional intelligence in teenagers with deviant behavior. The aim of the study was to study the role of emotional intelligence in the formation of deviant behavior in adolescents. The level of formation of emotional intelligence is one of the factors determining the development of deviance in the behavior of teenagers. In conclusion, we can note that the development of emotional intelligence is the direction of ecological, social-psychological and pedagogical prevention of deviation in the behavior of adolescents.

# YENİYETMƏLƏRDƏ CİNAYİ DAVRANIŞIN YARANMASININ PSİXOLOJİ SƏBƏBLƏRİ

***Şəkərəliyeva Əzizə Ramiz qızı***
***BDU-nun II kurs magistrantı***
***aziza.mamedova@yahoo.com***

***Açar sözlər***: Yeniyetmə cinayətkarlığı, kriminogen vəziyyət, cinayətkar davranış, fərdi-psixoloji keyfiyyət, sosial amillər, erkən profilaktika işləri.
***Keywords***:. Juvenile delinquency, criminogenic situation, criminal behavior, individual-psychological quality, social factors, early prevention works
***Ключевые слова:*** Преступность несовершеннолетних, криминогенная ситуация, преступное поведение, индивидуально-психологические качества, социальные факторы, ранняя профилактическая работа

Fiziki, psixoloji və əqli cəhətdən sağlam böyüdülmüş yeniyetmələr hər bir ölkənin fəal yaradıcı, iqtisadi potensiala malik vətəndaşı, gələcəyin tam hüquqlu şəxsiyyətləridir. Sosial-iqtisadi, elmi və mədəni inkişafın bütün perspektivləri bilavasitə uşaqlarımızın nə qədər sağlam olmasından, onların psixoloji, fiziki və intellektual qabiliyyətlərinin hansı səviyyədə olmasından asılıdır. Bu gün biz gənc nəslin sosial-psixoloji və iqtisadi sferalarda sapması faktını qeyd edə bilərik. Təəssüflər olsun ki, cəmiyyətimizdə yeniyetmələr, yetkinlik yaşına çatmayanlar arasında deviant davranışa, tüfeyli, avara həyat tərzinə, alkoqolizm, narkomaniya meyl kimi hüquqazidd hərəkətlər müşahidə olunur.

Yeniyetmələrin cinayətkarlığının vəziyyəti və cinayət meylləri gənc nəslin mənəvi sağlamlığının və cəmiyyətdəki mövqeyinin ən mühüm göstəricilərindən biridir. Rəsmi statistikanın göstəriciləri deməyə əsas verir ki, yeniyetmələr yeni sosial-iqtisadi şəraitə böyük çətinliklə uyğunlaşırlar. Yeniyetmələrin cinayəti həm ümumi sosial problemlərlə, həm də şəxsiyyətin formalaşması zamanı köklərində dayanan dərin travmalarla, fərdi xarakter daşıyan problemlərlə əlaqələndirilir. Yeniyetmələrin cinayətlərinin əsas səbəbləri, ilk növbədə, ölkəmizdə baş verən və yeniyetmələrə neqativ təsir göstərən iqtisadi, siyasi və mədəni transformasiyalarla bağlıdır. Yeniyetmələrin sağlam sosial qruplardan uzaqlaşdırılması son nəticədə yeniyetmənin sağlam sosial şəxsiyyətinin formalaşmasında müxtəlif növ pozuntulara səbəb olur. Belə ki, yeniyetmələrin cinayətkarlığı onun üçün düşdüyü anormal şəraitə normal reaksiya kimi və eyni zamanda digər məqbul ünsiyyət üsulları tükəndikdə cəmiyyətlə ünsiyyət dili kimi görünür.

Yeniyetmələr arasında cinayətkarlığın, eləcə də ümumilikdə bu sahə üzrə problemlərinin tədqiqi konkret olaraq siyasi, sosial-iqtisadi, kriminogen proseslərin formalaşdığı və inkişaf etdiyi situasiyanın nəzərə alınmasını tələb edir. Təəssüflə qeyd etməliyik ki, müasir dövrümüzdə sosial-iqtisadi şərait, sosial və ətraf mühit faktorları yeniyetmələrə, o cümlədən gənclərə açıq şəkildə mənfi təsir göstərir.

"Yeniyetmə cinayətkarlığı" anlayışında iki termin gizlənir: "cinayət" və "yetkinlik yaşına çatmayanların cinayətkarlığı". Cinayətin saysız-hesabsız tərifləri var. İki min il bundan əvvəl Sokrat dinləyicilərinə müraciət edərək demişdi: "Mən qərara gəldim ki, cansız təbiəti öyrənməyi dayandırım və insanın nəyin yaxşı, nəyin pis olduğunu bildiyi halda, niyə pisi seçdiyini anlamağa çalışım".

XIX əsrin 30-cu illərində tanınmış belçikalı alim A.J.Ketle hesab edirdi ki, cinayətə sosial bəla kimi yanaşmaq lazımdır. Məşhur avstriyalı psixoloq Z.Freyd isə cinayət əməlini şəxsiyyətin qüsurlu inkişafının nəticəsi hesab edirdi. O qeyd edirdi ki, "cinayət insanların sosial davranışının sosial "orqanizmin" normal fəaliyyətini pozan formasıdır. Amma bu cür pozuntular həm də normadan kənar hərəkətlər hesab olunur ki, buna da deviant davranış

deyilir.”

Cinayət bütün hüquq pozuntuları arasında cəmiyyət üçün ən təhlükəlisidir. Bundan əlavə, cinayətkarlıq sosial-hüquqi hadisədir, çünki cinayətkarlıq fiquru müəyyən cəmiyyətdə və müəyyən zaman dövründə törədilmiş cinayətlərin məcmusundan ibarətdir. Həmçinin, onun daxili ziddiyyətlərlə, digər sosial hadisələrlə müəyyən edilən öz qanunları var. Müasir ədəbiyyatlarda isə cinayətkarlıq insan cəmiyyətində mövcud olan, özünəməxsus qanunauyğunluqlara, kəmiyyət və keyfiyyət xüsusiyyətlərinə malik, cəmiyyət və insanlar üçün mənfi nəticələrə səbəb olan, ona nəzarətin həyata keçirilməsi üçün konkret dövlət və ictimai tədbirlərin görülməsini tələb edən mənfi sosial-hüquqi hadisə olaraq qiymətləndirilir. Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün ilkin şərt onun müəyyən yaşa çatmasıdır. Şəxs cinayətin subyektidir və cinayət törətdiyi zaman 16 yaşına çatdıqda cinayət məsuliyyətinə cəlb edilə bilər. Ümumi qayda budur. Eyni zamanda adam öldürmə, quldurluq, zorlama kimi bir sıra ağır cinayətlərə görə qanunla 14 yaşından cinayət məsuliyyəti müəyyən edilib.

Gündəlik həyatda bir çox kriminogen vəziyyətlərlə rastlaşırıq. Onlar qeyri-tamah, tamah, şərəf və ləyaqət əleyhinə, sağlamlıq və s. əleyhinə törədilən cinayətlərlə əlaqələndirilir. Gündəlik həyat müxtəlif həddi aşmaqla zəngindir ki, bunlar da dolayısı ilə bizim baş verən hadisələrə qarşı laqeydlikdən, proqnozlaşdırma bacarığının olmamasından və baş verən hadisələrə qeyri-ciddi yanaşmaqdan asılıdır. Bəzən zorakılığa təhrik edilmə hallarıda olur ki, belə vəziyyətə hətta cinayət motivi olmadan, özlərini və dostlarını qəddarlıq dərəcəsinə görə sınamaq istəyən yeniyetmələrə də ra.st gəlmək olar. Yeniyetmələrin cinayətkar kimi yetişməsinə səbəb olan faktorlar da mövcuddur ki, bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Ailənin neqativ təsiri. Ailə tərbiyəsində ciddi qüsurların, boşluqların mövcudluğu yeniyetmələrin cinayət əməli törətməsinə səbəb olan amillərdən biridir. Müəyyən edilmişdir ki, cinayətkar davranışın formalaşmasında, yeniyetmələr tərəfindən törədilən cinayətlərin əksəriyyətində valideynlər və digər yaşlı ailə üzvlərinin (alkoqoldan sui-istifadə, qəsdən adam öldürmə və qəddarlıq, zorakılıq, qanunvericiliyə uyğun olmayan həyat tərzi, və s.) birbaşa mənfi təsiri vardır. Belə ailələrdə mədəniyyət səviyyəsinin aşağı olması, valideynlərin özlərinin hüquqazidd davranışlarının mövcudluğunun və ya övladlarının düzgün tərbiyə edilməməsinin əsas şərtlərindəndir.

2. Yaxın ətraf mühitin neqativ təsiri. Buraya məişət, təhsil, peşə, sənaye, istehsalat və s. mühitlər daxildir. Bu səbəb xüsusilə yeniyetmələrin birgə əyləncə üçün qrupa qoşulmaq istəyi ilə əlaqədardır. Belə bir qrupda olmağı təqdir edərək, onlar liderləri təqlid etməyə, xarici görünüş və davranış baxımından onlara bənzəməyə çalışırlar. Sərxoşların və oğru-ların, xuliqanların bilavasitə pozucu təsiri ilə yanaşı, yeniyetmənin hüquqazidd davranışına müəllimlər, digər yaşlı nəsil tərəfindən “icazə verilməsi” habelə yanlış təsəvvür yaradan hərəkətləri və vəziyyətləri müşahidə etməsi mənfi təsir göstərə bilər.

3. Cinayətkar şəxslər tərəfindən yeniyetmənin cinayət əməli törətməsinə təhrik olunması;

4. Təhsilini yarımçıq qoyan yeniyetmələrin müəyyən fəaliyyətlə məşğul olmaması;

5. Yeniyetmələr arasında sərxoşluq, narkomaniya, tüfeyli həyat tərzi keçirən şəxslərin artması;

Cəmiyyətimizdə baş verən yeniyetmə cinayətkarlığına münasibəti və cinayətlərə səbəb olan amilləri öyrənmək məqsədilə yeniyetmələrlə sorğu aparmışdım. 7 sualdan ibarət tərtib etdiyim sorğuda 40 nəfər iştirak etmişdir. Sorğunun nəticələrini şəkillərin köməyi ilə aşağıdakı şəkildə şərh etdim.

1. Sizcə yeniyetmə cinayətkarlığının inkişafında hansı amillər daha çox rol oynayır?




*Şəkil 1.1 Yeniyetmə cinayətkarlığın inkişafında rol alan amillərin sorğu üzrə faiz göstəricisi*

2. Yeniyetmələrin cinayət əməli törətməsinə səbəb olan amillər nələrdir?




*Şəkil 1.2 Yeniyetmələrin cinayət əməli törətməsinə səbəb olan amillərin sorğu üzrə faiz göstəricisi.*

3. Zərərçəkmiş şəxs qismində ən çox hansı nəslin nümayəndələri əziyyət çəkir?




*Şəkil 1.3 Zərərçəkmiş şəxs qismində əziyyət çəkən şəxslərin müqayisəli faiz göstəriciləri*

4. Sizcə yeniyetmələr arasında baş verən cinayət əməllərinin əksəriyyəti nə məqsədlə törədilir?




*Şəkil 1.4 Baş verən cinayət əməllərinin məqsədinin müəyyənləşməsi üçün aparılmış sorğunun faizlə göstərişi*

5. Sizcə yeniyetmələr arasında tamah məqsədilə törədilən cinayətlərin səbəbi nədir?




*Şəkil 1.5 Tamah məqsədilə törədilən cinayətlərin səbəbi ilə bağlı aparılmış sorğunun faizlə nəticəsi*

6. Azərbaycanda yeniyetmələrin, uşaqların problemlərini həll edən hansısa ictimai, dövlət və sosial xidmət müəssisə və ya təşkilat tanıyırsınızmı?




*Şəkil 2.5 Ölkəmizdə yeniyetmə və uşaqların problemlərinin həlli ilə bağlı sorğunun nəticəsi*

7. Sizcə cinayət əməli törədən yeniyetmələr arasında ilk dəfə cinayət törədənlər üstünlük təşkil edir ya təkrar cinayət əməli törədənlər?




Şəkil 2.6 Cinayət əməli törədən şəxslər arasında ilk dəfə və ya təkrar olaraq törətməsindən asılı olaraq aparılan sorğunun nəticəsi.

Aparılan tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, çox vaxt yeniyetmələr yaxın ətraflarının təsiri altında cinayət törədirlər. Bu, bir daha sübut edir ki, cinayətkar yeniyetmələrdə şəxsiyyətin normal inkişafı və sosiallaşması düzgün tamamlanmayıb. Həmçinin belə yeniyetmələr üzərində ətraf mühitin müsbət və mənfi təsirləri də həddindən artıq çoxdur. Sorğuda iştirak edən yeniyetmələrin cavabları təsdiq edir ki, bizim dövrümüzdə gənc nəslin şəxsiyyətinin formalaşmasında ailənin rolu getdikcə azalır. Aparılmış sorğudan alınan digər nəticəyə görə, yeniyetmələr həm yeniyetmələrin, həm də azyaşlıların cəzalandırılması məsələsinə biganə qalmırlar.

Beləliklə, yeniyetmələrin cinayətinin tədqiqi hərtərəfli və dərin araşdırma tələb edir. Cinayət törədən yeniyetmələrlə reabilitasiya və islah işləri aparan zaman ilkin və əsas diqqət yeniyetmənin şəxsi, fərdi-psixoloji xüsusiyyətlərini öyrənməyə imkan verən fərdi yanaşma prinspi üzərində qurulmalıdır. Yeniyetmələrin hüquqazidd davranışlarının qarşısının alınması məqsədilə valideynlər və uşaqlarla aparılan korreksiya işləri profilaktikanın əsasını təşkil edir. İslah və tərbiyə məqsədilə erkən proflaktika işlərinə aşağıdakıları aid etmək olar:

1. Yeniyetməni motivasiya etmək, özünü tanımaq və inkişaf etdirmək bacarığını formalaşdırmaq, fəaliyyətə cəlb etmək, konformizmə qarşı müqavimət yaratmaq;
2. Təhsilin sosial adekvatlığı prinsipi: qrupun və daxil olduğu mühitin xüsusiyyətlərini bilmək, onu yaradıcı fəaliyyətə cəlb etmək.
3. Təhsilin fərdiləşdirilməsi: təhqir deyil özünütənqid formalaşdırmaq, uşağa dəstək olmaq, onu başqaları ilə deyil, özü ilə müqayisə etmək, onun dəyişməsində fəal iştirakçıya çevrilməyə çalışmaq;
4. Sosial sərtləşmə prinsipi: uşağa öz fikrini ifadə etmək imkanı vermək və ona çətinliklərin öhdəsindən gəlməyi öyrətmək;
5. Pedaqoji nikbinlik, yeniyetmənin taleyinə maraq, sosial irəliləyiş, uğur situasiyasının yaradılması, onun çox şey edə biləcəyinə inamın inkişaf etdirilməsi;
6. Orientasiya müstəqilliyi, özünüaktuallaşdırma, özünütəhsil, introspeksiya bacarığının formalaşdırılması.

Araşdırmalar göstərir ki, cinayət törədən yeniyetmələrin əksəriyyətində həyati məqsədləri olmur. Onların tələbatları maddiyyat və ya əyləncə ilə məhdudlaşır. Buna görə də, yeniyetmələrə özünü inkişaf etdirmə motivinin yaranmasına kömək etmək lazımdır. Onlara planlaşdırmağı, gələcək hadisələri, onların nəticələrini təsəvvür etməyi, cinayətin nəticələrini qabaqcadan görməyi, özünü idarə etməyi və özünü tərbiyə etməyi öyrətmək lazımdır.

Özünüqiymətləndirmənin formalaşmasını stimullaşdırmaq lazımdır. Yeniyetməlik dövründə özünüqiymətləndirmə çox yüksək səviyyədən ən aşağı səviyyəyə qədər dəyişə

bilər. Bu bir çox amillərin təsirindən, (valideynlər, müəllimlər və dostları tərəfindən) şəxsiyyətin qiymətləndirilməsindən asılıdır. Şəxsi müqəddəratını təyin etmək üçün insanın "Mən"inin müsbət cəhətlərinə diqqət yetirmək vacibdir. Bu zaman dağıdıcı tənqidi münasibət hər bir uşaqda qeyri-adekvat, özünəinamın aşağı olması, onun "heç kim" və "heç nə" olduğuna inam formalaşdıra bilər.

Özünüqiymətləndirmə özünü idarə etməyə və davranışın özünü tənzimləməsinə təsir göstərir. Özünüqiymətləndirmə səviyyəsi aşağı olan yeniyetmə şəxsiyyətini aşağıladığı üçün başqa insanlarla ünsiyyət qurmaqda çətinlik çəkir. Belə yeniyetmələr şüuraltı olaraq özünüqiymətləndirməni artırmaq üçün tez-tez başqalarını alçaldır. Nəticədə belə yeniyetmələr daima həmyaşıdlarından, qrup liderlərindən asılı vəziyyətdə olurlar.

Aşağı özünüqiymətləndirmə digər insanlarla ünsiyyətdə, həyatda və işdə gələcək uğur üçün qırmızı semafordur. Müəyyən edilmişdir ki, hər üç cinayətkardan biri daim valideynlərinin kəskin mənfi davranışları: daimi patoloji sərxoşluq, konflikt, əxlaqsızlıq və zorakılıq olan kriminogen tip ailələrdə tərbiyə alır. Problemli ailələrdə böyüyən uşaqlar ən vacib tələbatlardan biri olan valideynlərindən diqqət və sevgi kimi psixoloji ehtiyacları görmürlər. A.S.Makarenko deyirdi ki, "belə ailələrdə böyüyən uşaqların gözlərində yaşama sevinci, xoşbəxtlik yoxdur. Buna görə də onlar ailədən kənar həmyaşıdları ilə ünsiyyətə meyllidirlər. Burada onlar anlayış, diqqət və özünəhörmət tapırlar. Burada heç kim onları zəif irəliləyiş və pis davranışa görə danlamır. Əksinə, onları həvəsləndirir, dəstəkləyirlər."

Belə qruplar daha çox mənfi xüsusiyyətlərə, qeyri-etik davranışlara, əxlaqa və hüquqazidd normalara malik olurlar. Həmçinin belə qrup üzvləri narkotik qəbul edir, nalayiq sözlər işlədir, oğurluq edir, cinayət törədirlər. Açıq demək olar ki, tərbiyədən kənar böyüyən, cinayət törədən yeniyetmələrin 1/3-i problemli ailələrdəndir. Yeniyetmənin tərbiyəsi müdaxiləçi qəyyumluğa dözmür, lakin nəzarət olmadan yeniyetmə təsadüfi "cazibələrə" və kənar təsirlərə məruz qala bilər. Aparılan tədqiqatlat göstərmişdir ki, bir çox hüquq pozuntuları yeniyetmələrin diqqətsizliyi, ailədə lazımi nəzarətin olmaması nəticəsində baş verir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Hüquq yayın evi, 2021, 688 s.
2. Bayramov Ə.S., Əliyev B.H. Hüquq psixologiyası. Bakı: Təhsil, 2012, 656 s.
3. Yusifov E.F., Ramzanov M.K. Konfliktologiya (dərslik) Bakı, 2018, 460 s.
4. Əliyev B.H. Cinayət və mülki prosesdə məhkəmə-psixoloji ekspertizası problemləri. Bakı: Azərnəşr, 1996, 200 s.
5. Əliyev B.H.., Səməndərova A.F. Hüquq psixologiyasının tədqiqat metodları, 2008
6. Vəliyeva Y.Ə., Həşimova N.M., Kriminal davranışlı qadın cinayətkarların şəxsiyyəti və onun formalaşması mərhələləri (məqalə), Naxçıvan Müəllimlər İnstitutu Elmi əsərlər 2019, №4 (58) İSSN 2303-9116.
7. Аминов И.И., Давыдов Н.А., Дедюхин К.Г. и др. Юридическая психология: учебник для вузов / М.: ЮНИТИ-ДАНА, 2014. 415 с.
8. Васильев В.Л. Юридическая психология.-С.П., 2000.
9. Еникеев М.И. Основы общей и юридической психологии.- М., 2003.
10. Личность преступника: Методы изучения и проблемы воздействия.-М., 1988.
11. Романов В.В. Юридическая психология.-М.,1998.
12. Смирнов В.Н. Юридическая психология: учеб. пособие для вузов. М.: ЮНИ-ТИ-ДАНА, 2015. 319 с.

# YENİYETMƏLƏRDƏ CİNAYİ DAVRANIŞIN YARANMASININ PSİXOLOJİ SƏBƏBLƏRİ

***Şəkərəliyeva Əzizə***

## XÜLASƏ

Yeniyetmələrin cinayətkarlığının vəziyyəti və cinayət meylləri gənc nəslin mənəvi sağlamlığının və cəmiyyətdəki mövqeyinin ən mühüm göstəricilərindən biridir. Məqalədə cəmiyyətimizdə baş verən yeniyetmə cinayətkarlığına münasibət, bu cür cinayətlərə səbəb olan amillərin (irsiyyət, sosial mühit, sosial psixoloji amillər, iqtisadi vəziyyət və digərləri) sorğu üzrə faiz göstəriciləri öz əksini tapmışdır. Yeniyetmələrin cinayəti həm ümumi sosial problemlərlə, həm də şəxsiyyətin formalaşması zamanı köklərində dayanan dərin travmalarla, fərdi xarakter daşıyan problemlərlə əlaqələndirilir. Yeniyetmələrdə kriminal davranışının özünəməxsus kriminoloji xüsusiyyətləri vardır. Bu xüsusiyyətlər yeniyetmənin şəxsiyyəti ilə bağlı fiziki, psixoloji və mənəvi amillərlə bağlıdır. Yeniyetmə cinayətkarlarda emosional həyəcan, əxlaqi maksimalizm, barışmazlıq, neqativlik, qeyri-tənqidilik qabiliyyəti yüksək müşahidə olunur. Ümumiyyətlə, yeniyetmələrdə keçid yaşı dövrü, bir tərəfdən, lazımi sosial təcrübənin olmaması, möhkəm əxlaqi mövqelərin formalaşmaması, digər tərəfdən, müstəqillik, özünə inam arzusu ilə xarakterizə olunur. Bu və digər xüsusiyyətlərin nəticəsində yeniyetmələr münaqişə və digər ağır həyat vəziyyətlərinə düşə bilirlər ki, bu da çox vaxt cinayətin törədilməsi ilə nəticələnir.

# ПСИХОЛОГИЧЕСКИЕ ПРИЧИНЫ ПРЕСТУПНОГО ПОВЕДЕНИЯ ПОДРОСТКОВ

***Шакаралиева Азиза***

## АННОТАЦИЯ

Ситуация с преступностью несовершеннолетних и криминальными наклонностями является одним из важнейших показателей нравственного здоровья молодого поколения и его положения в обществе. В статье отражено отношение к преступности несовершеннолетних в нашем обществе, факторы, порождающие такие преступления (наследственность, социальная среда, социально-психологические факторы, экономическое положение и др.) Преступность несовершеннолетних связана как с общесоциальными проблемами, так и с глубоко укоренившимися травмами и личностными проблемами в период формирования личности. Криминальное поведение подростков имеет свои криминологические особенности. Эти характеристики связаны с физическими, психологическими и духовными факторами, связанными с личностью подростка. У подростков-преступников наблюдается эмоциональная возбужденность, нравственный максимализм, непримиримость, негативность, некритичность. В целом переходный возрастной период у подростков характеризуется, с одной стороны, отсутствием необходимого социального опыта, формированием прочных нравственных позиций, а с другой - стремлением к самостоятельности и уверенности в себе. В результате этих и других особенностей подростки могут попадать в конфликтные и другие сложные жизненные ситуации, которые нередко заканчиваются совершением преступления.

# PSYCHOLOGICAL CAUSES OF CRIMINAL BEHAVIOR IN TEENAGERS

***Shakaraliyeva Aziza***


## SUMMARY

The situation of juvenile delinquency and criminal tendencies is one of the most important indicators of the moral health of the young generation and its position in society. This article reflects the attitude towards juvenile delinquency in our society, the factors (heredity, social environment, social psychological factors, economic situation, etc.) that cause such crimes. Juvenile delinquency is associated with both general social problems and deep-rooted traumas and personal problems during the formation of personality. Criminal behavior in teenagers has its own criminological characteristics. These characteristics are related to physical, psychological and spiritual factors related to the adolescent's personality. Emotional excitement, moral maximalism, intransigence, negativity, and uncritical ability are observed in adolescent criminals. In general, the transitional age period in teenagers is characterized by, on the one hand, the lack of necessary social experience, the formation of strong moral positions, and on the other hand, the desire for independence and self-confidence. As a result of these and other characteristics, adolescents can get into conflict and other difficult life situations, which often result in the commission of a crime.

# YENİYETMƏLƏRİN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏRIN SOSİAL-PSİXOLOJİ TƏHLİLİ

***Məmmədova Samirə Xəqani qızı***
***BDU-nun II kurs magistrantı***
***samirem464@gmail.com***

***Açar sözlər:*** yeniyetməlik dövrü, inkişaf, şəxsiyyət, sosial-psixoloji amillər
***Ключевые слова:*** подростковый период, рост, личность, социально-психологические факторы.
***Keywords:*** the period of adolescence, growth, personality, social-psychological factors.

Şəxiyyətin psixoloji inkişafı hər yaş mərhələsində fərqli şəkildə təzahür edir. Yeniyetmələrin psixoloji inkişafındakı sosial-pixoloji amillərin təsiri bu dövr üçün xarakterik olan, psixikada baş verən struktur dəyişikliyində özünü göstərir. **Aparılmış** tədqiqatlara əsasən deyə bilərik ki, yeniyetməlik dövrü yalnız yeni yaş mərhələsinə keçid dövrü deyil, psixi inkişafın yeni fazası olub uşaqlıqdan böyüklüyə keçid dövrü kimi nəzərdən keçirilməlidir.

İnsana fəlsəfi nöqeyi nəzərdən yanaşsaq o həm sosial, həm də bioloji varlıqdır. Yeniyetməlik yaş dövrü üçün əsas göstəricilər: fiziki və psixi inkişafda olan keyfiyyət dəyişikliyi müşahidə olunur, beynin ali söbələri inkişaf edir, daxili sekresiya vəzilərinin inkişafı, qana ifraz olunan hormonlara nəzarəti beyin hipotamus və hipofizin sayəsində həyata keçiri, fizioloji baxımdan bədən üzvlərinin inişafındakı artım özünü daha çox büruzə verir. Heç sübhəsiz ki, fiziki dəyişiklik fonunda baş verən inkişaf yeniyetmələrin psixi inkişafından təsirsiz ötüşsün. Uşaqların ölçülərində baş verən dəyişikliklər- çəkinin artması, boyun uzanması, bədənin mütənasib forma alması, normal insanların formlarına yaxınlaşması yeniyetmələrdə hərəkətlərinin koordinasiyasının yöndəmsiz olmasına gətirib çıxarır. Buna əsasən E.Spragerin yeniyetmələrin inkişafı ilə bağlı fikrə nəzər salsaq görərik ki, o bu dövrü üç növünü fərqləndirib [8].

Birini tip – kəskin böhan gedişi ilə xarakterizə olunan, yeni “mən”-in yaranması ilə nəticələnir.

İkinci tip – sakit, yavaş şəkildə müşahidə olunan, tədricən böyümə prosesidir ki, bu zaman dərin və ciddi dəyişikliklər olmadan öz daxilində yetkinliyə qovuşur.

Üçüncü tip –yeniyetmələrin özünü fəal və şüurlu şəkildə, iradi səy, daxili narahatlıq və böhranla formalaşdırdığı, tərbiyə etdiyi inkişaf prosesidir. Bu insanlarda özünənəzarət və özünütərbiyə yüksək səviyyədə xarakterizə olunur. Hər üç tipin fəqli səkildə təzahür edən inkişaf proseslərinə ətraf mühitin təsir dərəcəsi də eyni olmayacaq.

S.Holl isə yeniyetməlik dövrünü bir neçə ziddiyyətlərin ahəngində təsvir etmişdir. O bir qayda olaraq, insan inkişafının yeniyetməlik mərhələsi adətən bir sıra psixoloji məsələlərlə, xüsusən də şəxsi məsuliyyət və xarakterin formalaşması ilə seçilir. Əksər hallarda yeniyetmələrdə, yetkinlik yaşına çatmayanlar arasında cinayət, intihar və maddə asılılığı kimi anti-sosial davranışların inkişaf etdiyi müşahidə edilir. Bundan əlavə, bəzi yeniyetmələr hakimiyyətə qarşı üsyankar olurlar və onlar tez-tez şəxsiyyət problemlərini ifadə edirlər [7].

A.Adlerin fikrincə, yeniyetmələrin sosial davranışlarında baş verən sapmaların baş verməsinin səbəblərindən biri də onların uşaqlıqdan başlayaraq ifrat dərəcədə əzizlənməsidir. Nəticədə ərköyün böyüyən uşaqlarda yeniyetməlik dövründə şəxsiyyətlərarası münasibətlərdə çox ciddi problemlər yaşanır. Çünki, onlarda sosal hiss inkişaf ermir, münasibətlərdə yalnız öz istəklərinin reallaşmasına çalışırlar. Valideynlərindən gördükləri diqqət və qayğını digər insanlardan görmədikləri üçün ərköyün böyümüş uşaqlarda cəmiyyətdən uzaqlaşma, yadlaşma kimi asosial davranışlar təzahür edəcək [6].

İnsan inkişafının yeniyetməlik mərhələsinin xüsusilə sağlamlıq riskləri və yeniyetmələri təhlükəli sosial davranışa yönəldə bilən, sosial və sağlamlığa ziyan vuran şəxsiyyət formalaşması böhranı baxımından ən həssas mərhələ sayılır.

Psixoloji nöqteyi-nəzərdən yeniyetmənin psixoloji inkişafına onların böyüdüyü ailə, məktəb və sosial-mədəni mühit dərindən təsir edir [8]. Yeniyetməlik dövründə inkişaf prosesi- biopsixososial inkişaf, ailənin pozulmasıdan, ailədaxili münasibətlərin gərginliyindən, şəxsiyyətlərarası münasibətlərdən və bu kimi kənar amillərdən təsirlənir. Hesab olunur ki, valideynlərin və bütövlükdə ailə yeniyetmələrin yüksək sosial xarakter tələb edən yetkinlik mərhələsinə, xüsusən də ictimai normalara uyğun olaraq səmərəli irəliləmələri üçün nəzərə çarpan sosial davranışa yiyələnməkdə əsas rol oynayır. Digər tərəfdən, yeniyetmələr həmyaşıdlarının təzyiqi ilə narkotik maddələrdən istifadəyə və xüsusilə psixi baxımdan sağlamlıq üçün təhlükəli sayılan vərdişlərə yiyələnmə halları ilə də daha çox rastlaşırıq. Buna görə də, məqalədə insanın inkişafının yeniyetməlik mərhələsi ilə əlaqədar psixoloji inkişaf məsələlərinə, eyni zamanda natamam və nukler ailələrdə böyüyən yeniyetmələrin dividend davranışlar sərgiləməsinə səbəb olan amillərin təhlilinə yer ayrılacaq.

Qeyd etdiyimiz kimi ailənin tərkibinin müxtəlif olması yeniyetmələrin inkişafındakı fərqli şəkildə təzahür edir. Ana və ya ata ilə tək aildə böyüyən yeniyetmələrin davranışı hər iki valideynin olduğu nukler ailələrdə böyüyən uşaqların sosial davranış normalarından tamamilə fərqlənirlər. Analitik nöqteyi nəzərdən, natamam ailələrdə valideyinlərdən biri- ana və ya ata yeniyetmələrin təhlükəsizliyi üçün etibarlı şərait yaratmaya çalışırdırlar. Ailədəki uşaq sayının müxtəlif olması özünü fərqli aspektlərdə göstərir. Böyük uşaq ailəni kiçik üzvü üçün bir növ nümunə rolunu oynayır, onun sosiallaşması üçün əlverişli mühit yaradır.

Yuxarıda göstərilənlərin demək olar ki, hamısı uşaq həyatı və tərbiyəsinin fərqli xüsusiyyətləri ilə birləşərək yeniyetməlik dövrünün müxtəlif sürət və istiqamətlərdə inkişaf etməsinə gətirib çıxarır. Yeniyetmələrin əksəriyyəti öz xarici görnüşlərinə görə yaşlılar kimi davranır və daha çox onlara bənzəməyə çalışırlar. Buna görə də valideynlərdən uzaqlaşma, müstəqilliyə qaçmaq, qapalılığa meyillilik, ünsiyyətdən yayınmağa üstünlük verirlər. S.Hollun da dediyi kimi yeniyetmənin şəxsiyyətində mövcud olan nəyisə dəyişmək, yenidən tərbiyyə etmək məqsədyönlü deyil, tamamilə faydasızdır. Onun fikrincə, təbiətin verdiyini dəyişmək olmaz [1]. Lakin tədqiqatlara əsaslanaraq deyə bilərik ki, yeniyetmələrin şəxsiyyət kimi təşəkkül prosesinə tək bioloji amillər deyil, sosial və psixoloji amillər təsir edir. Psixoloji və pedaqoji ədəbiyyatlarda "çətin uşaqlar" sözünə tez-tez rast gəlirik, lakin uşaqların bu kateqoriyaya niyə bölündüyünün səbəblərini çox da dəqiqləşdirmirik.

Bir çoxları asosial uşaqlar kimi xarakterizə etdikləri uşaqlara "sözə baxmayan, tərs, intizamsız, kobud, yalançı və s." kimi davranışları aid edirlər. Bu davranışlar hər hansısa bir ailə üçün poblem olaraq görünsə də, bəzi ailələr üçün isə təbii hal olaraq qiymətləndirilir. Problemin kökünü araşdırsaq görərik ki, valideyn nəzarətindən kənarda qalmış uşaqlarda, tərbiyəedici mühitin zəif olması, valideynlərdə müşahidə olunan maddə asılılığı əsas göstəricidir. Bir çox Qərb psixoloqlar bilolojі amillərə əsaslanarq bu kimi halların başvermə səbəbini genlərdə gördüyü halda, Rus psixoloqları isə tərbiyə işində buraxılan səhvlərdə görürlər. Onlar hesab edirlər ki, qeyri-sağlam ailədaxili münasibətlər, ailədə həyat səviyyəsinin aşağı olması, uğursuz ailələr, pedoqoji baxımsızlıq, küçənin və mikromühitin mənfi təsiri və s. hallar davranış pozuntuları olan yeniyetmələri formalaşdırır. Təməli uşaqlıqdan qoyuluş düzgüz olmayan tərbiyə işinin yetişdirdiyi yeniyetmələrlə iş zamanı pedaqoq və psixololoqlar müxtəlif çətinliklərlə qarşılaşırlar. Valideynlərin qarşısını alabilmədikləri "çətin uşaqlar" cəmiyyətdəki digər yeniyetmələr üçün başlıca təhlükə mənbəyinə çevrilir. Bu məsələyə daha geniş çərçivədən baxsaq görərik ki, ilkin qazanımış pis vərdişlərdən olan tütün məhsullarından istifadədən narkotika, xuliqanlıq, oğurluq kimi mənfi halların yaranmasına qədər bu yeniyetmələr səbəb ola bilirlər.

Yeniyetməlik dövründə olan şəxslər bir növ özlərini qarşı tərəf daha səbəst, azad qərar

qəbul edə biləcəyini göstərməyə çalışır. Buna görə də "dost çevrəsində" digərilərindən müəyyən xüsusiyyətinə görə fərqlənirsə, məsələn ətrafındakıların hamısı ondan fərqli olaraq siqaret çəkirsə, artıq yavaş- yavaş qrupdakılardan uzaqlaşdırılacaq. Hətta uşaqlar arasında sırf onlarla ayaqlaşmır deyə "qorxaqsan", "hələ də uşaqsan" "böyüməmisən" və s. kimi təhrik edici ifadələr işlədirlər. İlk addım olaraq siqaret çəkmək vərdişini ətrafındakılara təlqin edən yeniyetmə, artıq, zamanla oğurluğa, cinayətkarlığa meyil edəcək, ən pisi isə ərtafındakılarla "cinayətkar dəstlər kimi fəaliyyətə başlayıb təhlükə mənbəyinə çevriləcəklər. Valideyn nəzarətindən kənarda qalmış hər bir uşaq-yeniyetmə bu təsirlərdən uzaq durmağı bacarmır. Biz yol kənarında çiçək, salfetka satan, maşınların şüşələrini təmizləmək üçün özlərini təhlükəyə atan, bəzəndə sadəcə əl açıb dilənən yüzlərlə uşaqla rastlaşırıq. Bir çoxumuz onlara qarşı həssas olmasa da, əksəriyyətimiz onları gördükdə pul verib onlara yaxşılıq etdiyimizi düşünürük. Bunun əvəzində isə polisə, sığınacaqlara məlumat vermək, onların valideyinləri ilə əlaqəyə keçmək daha doğru olardı. Çünki məktəbdə keçirməli olduğu vaxtı yollarda keçirən hər bir uşağın qazandığı pulu daha çox öz tələbatları- pis vərdişlərini ödəmək üçün xərcləyəcək. Beləliklə biz onların məhv olmaları üçün daha çox şərait yaratmış oluruq.

Hal-hazırda bizərin qarşısında duran bir nömrəli vəzifə yeniyetmələr özünü göstərən neqativ halların aradan qaldırılması üçün kompleks tədbirlər görməkdir. Hər birimizə məlumdur ki, məktəblərdə narkomaniya, erkən nikahla mübarizə tədbiri sahəsində maarifləndirici görüşlər təşkil olunur. Bu zaman bir çox uşağın tanış olmadı mövzular ətrafında müzakirələr aparılır. Lakin bu məlumatın uşaqları bu hallardan uzaqlaşdıracağını, yoxsa daha çox marağını cəlb edəcəyini heç kəs müəyyən edə bilməz. Bunun əvəzinə isə onların asudə vaxtlarını daha məqsədəuyğun, qazanclı keçirməsini təmin etmək lazımdır. Müasir dövrdə yeniyetmələrin inkişafı üçün atılmış addımlar, yaradılmış dərəklər, klubları olduqca qənaətbəxş hesab etmək olar. Buna misal olaraq "Uşaq və yenyetmələrə dəstək" ictimai birliyinin adını çəkə bilrərik. 2010-cu ildə təsis edilmiş "Uşaq və yeniyetmələrə dəstək" ictimai birliyinin hədəf qrupu uşaqlar, yeniyetmələr və gəncləri əhatə edən kateqoriyalara bölünür [9]. Birliyin strategiyası uşaq və gənclərin fiziki, həmçinin mənəvi sağlam inkişafına, asudə vaxtlarının səmərəli təşkilinə, sosial rifahlarının yaxşılaşdırılması naminə bilik, bacarıq və vərdişlərinin formalaşdırılmasına xidmət edir. Əsas məsələ müəllim və valideynlərin üzərlərinə düşən öhtəliklərindən biri uşaqları və yeniyetmələri maarifləndirmək, onları bu kimi dərnəklərə istiqamətləndirməkdir. Çox vaxt valideynlər övladlarının gələcəyini düşünmək adı ilə onları müəyyən peşəyə yiyələnmələri üçün səy göstərirlər. Məhz bu təsirlərin nəticəsində də yeniyetmələrdə biganəlik, tükənmişlik, həvəsin ölməsi ən pisi halda isə ailədən uzaqlaşma kimi hallar özünü göstərir.

Cəmiyyətin çox az hissəsi yeniyetməlik dövrünün özünəməxsus xüsusiyyətləri haqqında məlumatlıdır. Hətta bu gün də pedaqoqların yeniyetmələrə qarşı davranışlarında olan boşluqların səbəbi məhz yeniyetmə psixologiyasından xəbərsiz olmasıdır. Müəllim- şagird konfliklərində yeniyetmənin töhmət alması, sinfinin, məktəbinin dəyişdirilməsi və s. kimi atılan tədbir addımları çox vaxt situasiyanın düzgün dəyərləndirilməməsi nəticəsində olur. Bunun üçün valideyn, pedaqoq və şagird üçbucağının psixoloji təlimlərdə daha intensiv şəkildə iştirakının təşkil olunmasını təmin etmək, məktəb psixoloqunun işinin strateji təşkilinə çalışılmalıdır.Hər birimiz peşəmizdən, vəzifəmizdən, iş sahəmizdən asılı olmayaraq gələcəyimiz olan yeniyetmələrin sağlam mühitdə inkişaf etməsinə şərait yaratmalı, onlara qarşı həssas olmalıyıq.

## ƏDƏBİYYAT

1. Ələddin Qədirov: Yaş psixologiyası; "Maarif" nəşriyyatı Bakı -2002
2. Əlizadə Əbdül : "Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi; "Maarif" nəşriyyat Bakı 1986.

(səh 81-83)
3. Hüseyn Xəlilov- Uşaq və yeniyetmələrin inkişafının sosial-psixoloji məsələləri ; Qafqaz Universiteti nəşri –Bakı 2012.s. 23-25
4. S. İ. Seyidov, M. Ə. Həmzəyev Psixologiya .Bakı 2017 s.423
5. Vəliyev Mirələm,Mustafayev Azər - İnkişaf və yaş psixologiyası-Bakı 2015 . (s.134-139
6. https://www.weforum.org/agenda/2022/07/these-14-innovations-are-tackling-youth-mental-health-challenges/
7. https://dshi13.krn.muzkult.ru/media/2018/08/08/1228597206/Churakova_R.G._Podrostkovyj_vozrast_v_raznyKh_koncepciyaKh.pdf
8. Issues Affecting Psychological Development in Adolescents.docx
9. https://nayora.org/az/member-organization/-usaq-ve-yeniyetmelere-destek--i%CC%87ctimai-birliyi/

## YENİYETMƏLƏRİN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏRİN SOSİAL-PSİXOLOJİ TƏHLİLİ

***Məmmədova Samirə***

## XÜLASƏ

Bu məqalə yeniyetmələrin psixoloji inkişafı və onlara təsir edən amillərin təhlilindən bəhs edir. İnsan inkişafının yeniyetməlik mərhələsi keçid dövrü olduğu üçün xarixi amillərin təsirinə daha çox məruz qalır. Harmonik ailədaxili münasibətlər eniyetmələrin ahəngdar şəxsiyyət kimi yetişməsinə təsir göstərir. Narkomaniyadan əziyyət çəkən ailələrdə böyüyən, valideyin himayəsindən məhrum olmuş uşaqlar müxtəlif xüsusiyyətlərə malikdir. Araşdırmalara əsaslanaraq deyə bilərik ki, bu ailələrdə böyüyən uşaqların əksəriyyəti cinayətə meyilli olurlar. Psixoloq və pedaqoqlar bu gün də çalışırlar ki, təhsil prosesində bu kimi halları aradan qaldırmağa çalışırlar.

Dünyanın bir çox ölkələrində aparılmış çoxsaylı tədqiqatlar və ekspermentlər aparılsa da, hələ də yenyetmələrin ahəngdar inkişafı üçün qəbul edilmiş standart norma yoxdur. Asudə vaxtlarının səmərəli təşkili üçün birliklər, klublar, assosiasiyalar onlara həyatda öz mövqelərini tutmağa kömək edir. bundan əlavə müəllim-şagird-psixoloq münasibətləri daha möhkəm qurulmalıdır. Sağlam cəmiyyətdə böyüyən yeniyetmə gələcəyin sağlam cəmiyyətini formalaşdıracaq.

## СОЦИАЛЬНО- ПСИХОЛОГИЧЕ СКИЙ АНАЛИЗ ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА ПОДРОСТКОВО Е РАЗВИТИЕ

***Мамедова Самира***

## АННОТАЦИЯ

В данной статье речь идет о психологическом развитии подростков и анализе влияющего на них фактора. Подростковый этап развития человека представляет собой больше внешних воздействий для Фактором повлиявшим на становление подростков более поздней личностью в этом возрасте, были семейные отношения, сформировавши е гармонию. Дети, страдающие наркоманией и лишенные родительской опеки, имеют разные характеристики. На основании исследований можно сказать, что большая часть детей, которые растут в семье, склонны к преступному поведению.

Психологи и педагоги работают вместе в этом дне, чтобы не учитывать наблюдаемых эффектов в учебном процессе.

Несмотря на то, что во многих странах мира проводились многочисленные исследования и эксперименты, общепринятой нормы гармоничного развития подростка до сих пор не существует. Ассоциации, клубы, объединения по эффективной организации досуга помогают им занять свою позицию в жизни. Кроме того, отношения «родитель-учитель-ученик-психолог» должны предъявлять более прочную ясность. Подростки, растущие в здоровой среде, формируют здоровое общество будущего

## SOCİO-PSYCHOLOGİCAL ANALYSİS OF FACTORS AFFECTİNG ADOLESCENT DEVELOPMENT

***Mammadova Samira***

### SUMMARY

This article deals with the psychological development of adolescents and the analysis of the factor affecting them. The adolescent stage of human development represent more external influences for the transition period. The factor that influenced teenagers to grow up as a more correct personality in this age was the family relations that formed harmony. Children suffering from drug addiction and deprived of parental care have different characteristics. Based on research, we can say that most of the children who grow up in a family are prone to criminal behavior. Psychologist and eductors work together on this day to prevent distractions in the educational process.

Although numerous studies and experiment have been conducted in many countries of world, there is still no standard accepted norm for the harmonious development of adolescent. Associations, clubs, associations for the efficient organization of leisure time helps them to take their position in life. In addition, parent-teacher-student-psychologist relationship must ensure a more solid construction. Adolescents growing up in a healthy environment will form a healthy society of the future.

# VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLAN UŞAQLARIN SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Səfərova Xanım***
***BDU-nun II kurs magistrantı***
***xanim.huseynli@inbox.ru***

***Açar sözlər:*** valideyn himayəsindən məhrum olan uşaqlar; sosial və psixoloji xüsusiyyətlər, psixokorreksiya işi, sosial reabilitasiya mərkəzi və s.
***Ключевые слова:*** дети-сироты, дети, лишенные родительской опеки; социально-психологическая характеристика, психокоррекционная работа, социально-реабилитационный центр и др.
***Key words:*** children deprived of parental care; social and psychological characteristics, psychocorrectional work, social rehabilitation center, etc.

Son on il ərzində ölkəmizdə uşaq hüquqlarının təmin edilməsi və müdafiəsi sahəsində dünyanın ən yaxşı təcrübələrinin tətbiqinə dair dövlət siyasətinin prioritetlərinə yenidən baxılmışdır. Bu cür təcrübələr ailə dəstəyinə yönəlmiş uşaqların hüquq və maraqlarının təmin edilməsinə və inkişafı üçün şəraitin yaradılmasına əsaslanır.

İ.V.Dubrovinanın [1, s. 53], E.A. Minkova [2, s. 9], Chuprovoi M.A. [3, s.11] tədqiqatları göstərmişdir ki, internat məktəblərində tərbiyə alan uşaqların ümumi fiziki və əqli inkişafı normal ailələrdə böyüyən həmyaşıdların inkişafından fərqlənir. Onlar-əqli inkişafın yavaş tempinə, bir sıra mənfi xüsusiyyətlərə malikdirlər: intellektual inkişafın aşağı səviyyəsi, zəif emosional sahə, özünü tənzimləmə bacarıqlarının gec formalaşması kimi xüsusiyyətlər aiddir. Kimsəsiz və valideyn himayəsindən məhrum olan uşaqlar üçün hər hansı sosial müəssisə adi, hətta çox da firavan olmayan ailəni əvəz edə bilməz. Belə müəssisələrdə həyatın təşkilində uşaqların hərtərəfli inkişafına mane olan amillər var.

Uşaqların emosional, davranış və sosial inkişafı baxımından valideynləri ilə qurduqları əlaqə onların gələcəkdə sağlam həyat davam etmələri üçün çox əhəmiyyətlidir. Valideynlərdən birinin və ya hər ikisinin olmaması uşaq üçün çox təsiredici nəticələrə səbəb ola bilər. Ancaq atasızlığın gətirə biləcəyi psixoloji pozulmalar, anaların ala biləcəyi bəzi tədbirlərlə azaldıla və ya tamamilə qarşısı alına, ataların görə biləcəyi bəzi tədbirlərlə anasızlığın gətirə biləcəyi psixoloji pozulmalar azaldıla və ya tamamilə qarşısı alına bilər.

Məlumdur ki, ana və ata fiqurları uşağın inkişaf prosesində böyük rol oynayır. Uşağın sosial, emosional və psixoloji inkişafına hər iki valideynin töhfəsi böyükdür. Bu dövrdə müşahidə edilən ən mühüm sosial hadisələrdən biri tək valideynli ailələrin sayının artmasıdır. Tək valideynli ailə bir uşaqdan və ya valideynlərdən biri ilə yaşayan uşaqlardan ibarət ailə kimi müəyyən edilir. Tək valideynli ailə formasının yaranmasının səbəblərini nəzərə alsaq, valideynlərdən birinin vəfat etməsi, onların uzun müddət və ya daimi olmamaları, boşanma kimi amillərin olduğu görünür [4].

Müxtəlif səbəblərdən hər iki valideynini və ya birini itirən və onlarsız böyümək məcburiyyətində qalan uşaqlar şəxsiyyətin formalaşmasında bir çox çətinliklərlə üzləşirlər. Onların psixologiyası bu vəziyyətdən çox təsirlənir. Təbii ki, valideynsiz hər bir uşaqda psixoloji və ya sosial problemlərin yaranacağı bir hal deyil, həm də inkişaf çağında və ya yetkinlik dövründə valideynlərin olmaması müşahidə edilə bilən mənfi təsirlərə səbəb ola biləcəyi də bir həqiqətdir.

Ana ömrü boyu uşağa qayğı göstərən, sevgi göstərən, uşaqların bütün ehtiyaclarını qarşılayan, təhsilinə dəstək olan və onu gələcəyə hazırlayan, özünə inam aşılayan, ən özəlini belə paylaşa bilən bir şəxsiyyətdir. Məhrum olduqda bütün bu maddi və mənəvi ehtiyacların ödənilməsi kəsilir. Ata uşağa sevginin, məsuliyyətin, ünsiyyətcilliyin,

əyləncənin, özünə inamın, çətinliklərin öhdəsindən gəlməyin, hörmətin və atalığın nə olduğunu öyrədəcək vəziyyətdədir.

Boşanma, ölüm, xəstəlik və s. müxtəlif səbəblərdən valideynsiz və ya tək valideynlə böyümək məcburiyyətində qalan uşaqların hərəkətlərinə baxdığımızda, asılılıq, aqressivlik, hissləri idarə etməkdə və stresslə mübarizə aparmaqda çətinlik, akademik nailiyyətlərin azalması kimi bir çox neqativ hallar müşahidə olunur. Mövzu daha ətraflı araşdırıldığında, valideynsiz böyüyən uşaqlarda görünə biləcək əsas problemləri emosional, davranış və sosial problemlər kimi təsnif etmək olar.

İnsanın necə sevməsi, çətinliklər qarşısında necə möhkəm dayanması, ətrafına hörmət və güvənməyi öyrənməsi, özünü və yaxınlarını necə qorumağı, uğur qazanmağı, pul qazanmağı və bir çox başqa həyati bacarıqları uşaq valideynlərini müşahidə edərək zamanla öyrənir. Uşağın həm akademik, həm də sosial bacarıqlarını inkişaf etdirməyə və daha aktiv olmağa çalışan ata, uşağın həyatından ayrıldıqda, bu sahələrdə bacarıqlar yaşıdları ilə müqayisədə azala və yavaşlaya bilər. Valideynlərin yoxluğunda həyat bacarıqlarının necə təsirləndiyini araşdıran bir çox araşdırmalar göstərmişdir ki, valideynini itirmiş uşaqların qiymətləri aşağıdır və yaşıdlarına nisbətən daha təmkinli və özünə qapalıdır [6].

Valideynlərini itirmiş uşaqların ümumi sağlamlıq vəziyyətində də görünən problemlər yarana bilər. Ciddi bir travmaya çevrilən hallarda dil bacarıqlarının inkişafı təsir edə bilər, nitqdə yavaşlama və ya kəkələmə görülə bilər.

Bir çox araşdırmalar bu uşaqların yaşadıqları pozulmaların əksəriyyətinin əslində psixosomatik xəstəliklər olduğunu, tamamilə onların çətinlikləri nəticəsində yarandığını açıq şəkildə göstərmişdir. Xüsusilə valideynlərini itirmiş uşaqlarda depressiya, narahatlıq pozulmaları, fobiyalar, stressi idarə etmə problemləri, astma, baş ağrıları, mədə pozulmaları və intihar cəhdləri ilə bağlı tapıntılar bu araşdırmanın nəticələrini sübut edir.

Bir çox ailələrdə ata cangüdəndir. Buna görə də ata uşağın həyatından ayrıldıqda boşluq və özünə güvənsizlik hissi yaranır. Bu zaman uşaq özünü necə qoruyacağını, çətinliklərlə necə mübarizə aparacağını bilməyə bilər. Bundan sonra evə kim pul gətirəcək, necə dolanacaq, anasını, qardaşlarını kim qoruyacaq kimi suallarla mübarizə aparan uşaqda bu qorxu və etibarsızlıq hissi ilə gələcəkdə narahatlıq pozulmaları yarana bilər.

İnsanın ən əsas ehtiyaclarından biri sevgidir. Körpəlikdən başlayan inkişaf prosesində sevginin böyük yeri var. Sevgi ehtiyaclarını valideynlərindən qarşılayan körpələr, uşaqlar və böyüklər həmişə bu emosional bağa ehtiyac duyurlar. Ancaq valideyn məhrumiyyəti ilə kəsilən bu sevgi ehtiyacını ödəmək üçün uşaqlar müxtəlif yollara müraciət edə bilərlər. Xüsusilə atalarına çox bağlı olan qızlar bu sevgi ehtiyacını ilk qarşılaşdıqları şəxslə və ya özündən xeyli böyük olan biri ilə qarşılamağa çalışa bilərlər. Əksinə, başqa bir insanı sevmək və ona bağlanmaqda çətinlik çəkə bilərlər. Göründüyü kimi, atasız böyüyən qızların münasibətləri və hissləri bu məhrumiyyətə görə dəyişə bilər.

Valideynlərini itirən uşaqlar tək qalmaq narahatlığı ilə nə edəcəklərini bilmədiklərindən, məhrumiyyətlər hiss etdikləri üçün valideynlərinə, həyata və özlərinə əsəbləşərək, ətrafdakı hər kəsi günahlandıra və aqressiv davranışlar göstərə bilərlər. Aqressivlikdən əlavə, özünə qapanma, ağlama və bəzi uşaq hərəkətləri də görülə bilər.

Anasız və atasız böyüyən uşaqların yaşadıqları çətinliklərdən biri də digər uşaqlardan daha qüsurlu, zəif və ya daha az dəyərli olduqlarını düşünmələridir. Bu cür fikirlər istər-istəməz aşağılıq kompleksinin inkişafına səbəb ola bilər və özünü digər uşaqlarla müqayisə etmək nəticəsində özünə inamsızlıq kimi problemləri ortaya çıxara bilər. Bu yanlış düşüncə düzəlməzsə, uşaq özünü dəyərsiz və bədbəxt görməyə davam edəcək.

Valideyn çatışmazlıqları ilə uşaqlar, xüsusən də oğlanlar, yenidən əlaqə qurmaqda və hər hansı bir şəxsə uyğunlaşmaqda ciddi çətinliklərlə üzləşə bilərlər. Onların itaətsiz, üsyankar olmalarının səbəbi uyğunlaşma problemidir. Bu prosesdə bu uşaqlar valideynləri olan uşaqlardan daha üsyankar, aqressiv və nəzarətsiz olmaq, evdən qaçmaq, dərsdən yayınmaq,

sosial qaydaları pozmaq və ya icma əmlakına zərər vermək kimi hərəkətlər göstərə bilərlər. Bu hərəkətləri yerinə yetirərkən çox vaxt məqsəd- diqqəti cəlb etməyə çalışmaq, onların psixologiyasına yaşadıqları təcrübələr təsir etdiyi üçün sevgi və diqqət axtarmaqdır [9].

Boşanma, ölüm və bir araya gələ bilmədiyi üçün uşaqları tək böyüdən analardan ibarət ailələrdə zorakılıq daha çox müşahidə oluna bilər. Bu halda sui-istifadə ya ayrılıq səbəbləri, ya da valideynlə tək qalma stressi ilə əlaqələndirilə bilər [10].

Psixologiya professoru T.A.Hetherington, J.Fatherman və başqaları; valideynlərin yoxluğunu və akademik müvəffəqiyyəti araşdıran 58 araşdırmanın təhlilində onlar bildirirlər ki, tək valideynli ailələrin uşaqları aşağı qiymət alırlar. Atanın olmadığı evdə ananın güc tətbiq edərək səlahiyyət verdiyi və bunu edərkən oğlunun aqressiyasını boğmağa çalışdığı bildirilir [8].

Valideyn himayəsindən məhrum olan uşaqların əhəmiyyətli sosial-psixoloji xüsusiyyətləri bunlardır: onların həyat təcrübəsini dərk etmək qabiliyyətinin zəif inkişafı, passivliyi, fərdi həyat qaydaları və dəyərlərinin olmaması kimi hallar daxildir. Onu da qeyd etmək lazımdır ki, bu kateqoriyanın nümayəndələri müstəqilliyin olmaması və qəbul edilən qərarlara görə məsuliyyəti başqasının üzərinə atmaq istəyi ilə xarakterizə olunur.

Valideyn himayəsindən məhrum olmuş uşaqların problemlərinin kompleks həllini təmin etmək üçün bu kateqoriyanın sosial, psixoloji və pedaqoji xüsusiyyətlərini nəzərə almaq lazımdır. Həm də bu kateqoriya ilə işləmək üçün yüksək səviyyəli peşəkar hazırlığı inkişaf etdirmək lazımdır; müxtəlif qurumlarla qarşılıqlı fəaliyyət dairəsinin genişləndirilməsi. Valideyn himayəsindən məhrum olmuş uşaqlar istiqamətində dövlət sosial siyasətinin həyata keçirilməsinin əsası kimi valideyn himayəsindən məhrum olmuş uşaqların problemlərinin həlli üçün yaxşı əlaqələndirilmiş və yaxşı qurulmuş mexanizmlər sisteminin yaradılması lazımdır.

Valideyn himayəsindən məhrum olmuş uşaqlarla psixokorreksiya işi aşağıdakı psixoloji aspektlər nəzərə alınmaqla aparılmalıdır:

- Özünə müsbət münasibət formalaşdırmaq.
- Başqalarına və ətraf mühitə inam yaratmaq.
- Şəxslərarası ünsiyyət bacarıqlarının formalaşdırılması.
- Psixo-emosional vəziyyətin normallaşdırılması.
- Davranışda aqressivlik və münaqişə səviyyəsinin azaldılması.

Sosial reabilitasiya mərkəzlərində çalışan işçilər valideyn himayəsindən məhrum olmuş uşaqların müasir sosial-iqtisadi şəraitə uyğunlaşdırılmasında maraqlı olmalıdırlar. Şagirdlərlə işin səmərəliliyinin əsas göstəricisi- reabilitasiya mərkəzlərində qaldıqdan sonra müstəqil həyata uyğunlaşma və cəmiyyətə inteqrasiya dərəcəsinin olmasıdır.

Beləliklə, valideyn himayəsindən məhrum olan uşaqlarda bəzi neqativ hallar müşahidə olunsa da, zəruri tədbirlər görülərsə, gələcək nəslin quruculuğunda mənəvi, insani dəyərlərə əməl olunarsa, hər bir uşaq ümid mənbəyidir. Unutmaq olmaz ki, dünya tarixində lider, siyasətçi, elm adamı olan və mühüm vəzifələrdə bəşəriyyətə xidmət edən anası və yaxud atası olmayan çoxlu uğurlu adlar vardır.

## ƏDƏBİYYAT

1. Дубровина И.В., Рузская А.Г. Психическое развитие воспитанников детского дома. М.: Педагогика, 1990. С.264.
2. Минкова Э.А. Особенности личности ребенка, воспитывающегося вне семьи // Очерки о развитии детей, оставшихся без родительского попечения. 1995, № 4. С. 9-10.
3. Чупрова М.А. Психологические особенности развития детей-сирот, не имеющих опыта жизни в семье // Дошкольное воспитание. 2007. № 10. С.11-15.

4. Sevim Atila Demir, Şaziye Genç Çelebi, "Tek Ebeveynli Ailelerin Sorunları: Nitel Bir Araştırma", http://dergipark.gov.tr/download/article-file/333789
5. TÜİK, "Tek Ebeveynli Ailelerin Sorunları: Nitel Bir Araştırma", http://dergipark.gov.tr/download/article-file/333789
6. Edward Kruk, "Father Absence, Father Deficit, Father Hunger", https://www.psychologytoday.com/intl/blog/co-parenting-after-divorce/201205/father-absence-father-deficit-father-hunger
7. "Uyuşturucu Kullanan Çocukların Aileleri Boşanmış Oluyor", haberler.com, https://www.haberler.com/uyusturucu-kullanan-cocuklarin-aileleri-bosanmis-7154538-haberi/
8. Fatih Kılıçarslan, "Tek Ebeveynli Çocukların Gelişim Özellikleri", http://psikiyatriksosyalhizmet.com/tek-ebeveynli-cocuklarin-gelisim-ozellikleri
9. "Understanding child abuse and neglect", Panel on Research on Child Abuse and Neglect, Commission on Behavioral and Social Sciences and Education, National research Council. Washington, D.C. National Academy Press, 1993.
10. O. Polat, "Çocuk istismarında istismarcı ve kurban ilişkisi", Çocuk Forumu Dergisi, 2000; 3 (4): 1.
11. Uzm. Dr. S. Erhan Deveci, Doç. Dr. Yasemin Açık, "Çocuk İstismarı Nedenlerinin İncelenmesi", http://dergipark.gov.tr/download/article-file/25437

# VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLAN UŞAQLARIN SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

*Xanım Səfərova*

## XÜLASƏ

Son zamanlar tədqiqatçıların marağı valideyn himayəsindən məhrum olmuş uşaqların sosial-psixoloji inkişafı problemlərinə yönəlmişdir. Məqaləmizin məqsədi "Valideyn himayəsindən məhrum olan uşaqların sosial – psixoloji xüsusiyyətləri"ni aşkara çıxarmaqdan ibarətdir. Öz ailəsində deyil, sosial xidmət müəssisələri şəraitində böyüyən və tərbiyə alan uşaqlar üçün valideyin himayəsindən məhrum olmaq arzuolunmaz haldır. Bu baxımdan, kimsəsiz və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə tərbiyə olunan uşaqlarda fiziki, əqli və sosial inkişaf baxımından ailələrdə böyüyən həmyaşıdlarından fərqlər vardır. Uşaqlara psixoloji dəstək göstərilərkən, valideyn himayəsindən məhrum olmuş uşağın kifayət qədər diqqət, sevgi və qayğı ilə əhatə olunmasını reabilitasiya mərkəzlərinin və analoji müəssisələrin əməkdaşlarına tövsiyə etmək lazımdır.

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ДЕТЕЙ, ЛИШЕННЫХ РОДИТЕЛЬСКОЙ ОПЕКИ

*Xanım Səfərova*

## АННОТАЦИЯ

В последнее время интерес исследователей сосредоточен на проблемах социально-психологического развития детей-сирот и детей, лишенных родительской опеки. Цель нашей статьи - определить «социально-психологические особенности детей, лишенных родительской опеки». Нежелательно, чтобы дети, которые растут и воспитываются в учреждениях социального обслуживания, а не в собственной семье, были

лишены родительской опеки. С этой точки зрения дети, воспитывающиеся в учреждениях для детей-сирот и детей, оставшихся без попечения родителей, отличаются от своих сверстников, воспитывающихся в семьях, по уровню физического, психического и социального развития. При оказании психологической помощи детям работникам реабилитационных центров и подобных учреждений следует рекомендовать окружить ребенка, лишенного родительской опеки, достаточным вниманием, любовью и заботой.

## SOCIO-PSYCHOLOGICAL CHARACTERISTICS OF CHILDREN DEPRIVED OF PARENTAL CARE.

***Xanım Səfərova***

### SUMMARY

Recently, the interest of researchers has been focused on the problems of the socio-psychological development of orphans and children deprived of parental care. The purpose of our article is to determine "the socio-psychological characteristics of children deprived of parental care." It is undesirable that children who grow up and are brought up in social service institutions, and not in their own family, be deprived of parental care. From this point of view, children brought up in institutions for orphans and children left without parental care differ from their peers brought up in families in terms of the level of physical, mental and social development. When providing psychological assistance to children, employees of rehabilitation centers and similar institutions should be advised to surround a child deprived of parental care with sufficient attention, love and care.

# YENİYETMƏLİKDƏ PEŞƏ SEÇİMİNİ TƏYİNETMƏNİN PSİXOLOJİ VƏ PEDAQOJİ DƏSTƏYİ MODELİNİN TƏSVİRİ

***Məmmədova Nahidə Ravil qızı***
***BDU-nun II kurs magistrantı***
***naida9449@gmail.com***

***Açar sözlər:*** psixoloji, pedaqoji, yeniyetməlik, peşə seçimi, model və s.
***Ключевые слова:*** психологический, педагогический, подростковый возраст, профессиональный выбор, модель и др.
***Keywords:*** psychological, pedagogical, adolescence, professional choice, model, etc.

Yeniyetməlik hər bir insanın həyatında unikal bir mərhələdir. Həm yerli, həm də xarici psixoloqlar qeyd edirlər ki, bu yaş mərhələsində peşə seçimini təyinetmə vəzifəsi əsas vəzifələrdən biridir.Yeniyetməlik yaş dövrünün ən mühüm xüsusiyyətlərindən biri də gələcəklə bağlı planların qurulmasıdır. Bu baxımdan gələcək peşənin seçilməsi istiqamətdə işlərin görülməsi mühüm əhəmiyyət kəsb edir. Peşə seçimini təyinetmə ehtiyacı yeniyetməlik və gəncliyin qovşağında yaranır, bu zaman peşə seçimini təyinetmənin "iki ölçülülüyü" həm gələcək peşənin konkret təriflərinin həyata keçirilməsindən, həm həyatın planlaşdırılmasından, həm də qeyri-müəyyənlikdən ibarətdir [9, s.63]. Digər tərəfdən gələcək peşənin konkret tərifi və həyat planlaması kimi, digər tərəfdən isə öz varlığının mənasının qeyri-spesifik axtarışı kimi həyata keçirilir. Gələcək peşənin ayrılmaz hissəsi olan fəaliyyətə, həyat perspektivlərinin qurulmasına ehtiyac erkən yeniyetməlik dövrünün mühüm sosial ehtiyacı kimi baxıla bilər. Peşə seçimi çoxşaxəli, fərdi və eyni zamanda sosial, pedaqoji və tibbi problem kimi nəzərdən keçirilə bilər. Biz burada daha çox sosial-psixoloji aspektdə bu məsələləri araşdırmağa çalışmışıq.

Görkəmli tədqiqatçı T.V.Kudryavtsev-in əsərlərində peşə seçimini təyinetmənin əsas mərhələləri aşağıdakı şəkildə verilmişdi:

1. Peşəkar niyyətlərin yaranması və formalaşması;
2. Peşə təhsili seçilmiş fəaliyyətə məqsədyönlü hazırlıq kimi;
3. "Peşəyə giriş" kimi peşəkar uyğunlaşma, aktiv inkişafı və kollektivdə öz yerini axtarması ilə xarakterizə olunur;
4. Müstəqil işdə şəxsiyyətin tam və ya qismən reallaşması [6].

İ. S. Konun fikrincə, peşə seçimini təyinetmə müddəti sosial şəraitdən və şəxsiyyətin inkişafının fərdi davranış xüsusiyyətlərindən asılı olan bir sıra mərhələlərə bölünə bilər:

1. Yeniyetmə fantaziyası, yeniyetmənin yuxularında özünü bu və ya digər peşənin nümayəndəsi kimi onun üçün cəlbedici görməsi;
2. Fəaliyyətin müxtəlif növləri maraq, qabiliyyət, dəyər sistemləri baxımından qiymətləndirildikdə ilkin peşə seçimi. Bütün yeniyetməlik dövrünü və yeniyetməlik dövrünün çox hissəsini çəkir.
3. İki əsas komponenti özündə birləşdirən praktiki qərarların qəbulu: gələcək işin ixtisas səviyyəsinin müəyyən edilməsi, ona hazırlığın həcmi və ixtisasın özünün seçimi [4].

Məktəb yaşında peşə seçimini təyinetmənin ilkin mərhələsində peşə seçmək qərarı bir sıra amillərin təsiri ilə bağlıdır:

- müasir peşələr dünyası haqqında təsəvvürlər;
- koqnitiv, peşəkar maraq və meyllər;
- hər hansı fəaliyyətdə uğur səviyyəsini müəyyən edən psixoloji mexanizmlər kimi ümumi və peşəkar qabiliyyətlər;
- temperamental (neyrodinamik) xüsusiyyətlər;
- xarakter xüsusiyyətləri;

- emosional-iradi xüsusiyyətlər;
- dəyər yönümləri və s.

Yuxarıda göstərilən amillərin hamısını təlim profilinin seçilməsinin asılı olduğu xarici şərtlərə aid etmək olar [7].

Həyata perspektivdən baxmaq, öz fəaliyyət istiqamətini müəyyən etmək, qəbul edilmiş qərarların nəticələrini qabaqcadan görmək bacarığı yeniyetmələrdə fəallığın, məqsədyönlülüyün və məsuliyyətin formalaşmasına kömək edir.

Orta məktəb şagirdlərinin peşə seçimini təyinetmə prosesinin nəzəri əsaslarının təhlili bu prosesin modelinin nəzərdən keçirilməsinə keçməyə imkan verir. G.K.Selevko-ya görə, modelin köməyi ilə aşağıdakı əsas vəzifələri həll etmək olar:

- nəticələri proqnozlaşdırmaq və prosesləri idarə etmək;
- mövcud praktiki təcrübəni və ondan istifadəni elmi əsaslarla təhlil etmək və sistemləşdirmək;
- təhsil və sosial-təhsil problemlərini hərtərəfli həll etmək;
- şəxsi inkişaf üçün əlverişli şəraitin təmin edilməsi;
- mənfi halların insana təsirini azaltmaq;
- mövcud resurslardan optimal istifadə;
- ortaya çıxan sosial və pedaqoji problemlərin həlli üçün ən effektivləri seçin və yeni texnologiya və modelləri inkişaf etdirmək [8].

V.V. Kraevski qeyd edir ki, model elementlərin bəzi aydın sabit əlaqəsini təqdim etməyə imkan verir, reallığın daxili, əsas münasibətlərini əks etdirən müəyyən strukturu təklif edir [5].

Pedaqoji-psixoloji istiqamətdə tədqiqat aparan alimlərin fikrincə modul dedikdə "təhsil sistemində funksional xassələri və vasitələri ilə aydın şəkildə müəyyən edilmiş bütövün bəzi hissəsi" başa düşülür.

Yeniyetmələrin peşə seçimini təyin etməsinə psixoloji-pedaqoji dəstək modelinin funksional blokları məqsəd qoyma, təşkilati məzmun və diaqnostik-effektivdir.

1. Orta məktəb şagirdlərinin peşə seçimini təyinetmənin dəstəklənməsinin əsas məqsəd və vəzifələrini əks etdirən məqsəd qoyma bloku.

Məqsəd: orta məktəb şagirdlərinin peşə seçimini təyinetmə qabiliyyətinin inkişafı.

Tapşırıqlar:

- yeniyetmələrin peşə seçimini təyinetmənin koqnitiv-refleksiv komponentinin inkişafı (öz maraqlarını, imkanlarını dərk etmək və peşə yolunu planlaşdırmaq, peşəkar müxtəliflik haqqında lazımi miqdarda bilik və ideyaların mövcudluğu, effektiv təhsil üçün zəruri olan müasir təhsil texnologiyaları);
- yeniyetmələrin peşə seçimini təyinetmənin dəyər-semantik komponentinin inkişafı (şəxsi məna tapmaq, bu fəaliyyət növünün əhəmiyyətinə inam, müasir cəmiyyətin dəyər və normalarını və bir sıra motivləri şüurlu və emosional qəbul etmək
- yeniyetmələrin peşə seçimini təyinetmə subyekti-fəaliyyət komponentinin inkişafı.

1. Nəzəri və metodoloji yanaşmalar əsasında yeniyetmələrin peşə seçimini təyin etməsinin öyrənilməsinin əsas ideyalarını, prinsiplərini və üsullarını araşdıran təşkilati və məzmun bloku.

Psixoloji və pedaqoji dəstək modelinin metodoloji əsasını peşə seçimini təyin edərkən təkcə şagirdlərin peşəkar maraqlarını, meyllərini və iddialarını deyil, həm də peşəkar karyeranın ideal modelləri haqqında fikirlərini nəzərə almağı tələb edən akmeoloji yanaşma təşkil edir.

Psixoloji-pedaqoji dəstək modelində həyata keçirilən prinsiplər: qətiyyət, ardıcıllıq, subyektivlik.

Psixoloji və pedaqoji dəstək modelində istifadə olunan qarşılıqlı əlaqə forması: təhsil

prosesinin subyektləri ilə dəyişən.

Psixoloji və pedaqoji dəstək modelinin qurulması zamanı istifadə olunan psixoloji mexanizmlər gələcək peşə fəaliyyətinin müşahidə, modelləşdirmə və zehni oynatma proseslərində identifikasiya, əks etdirmə (refleks), gözləmə mexanizmləridir.

2. Diaqnostik-nəticə bloku.

Peşəkar diaqnostika müəyyən bir yaşın aparıcı ehtiyaclarını başa düşmək və ödəmək üçün pedaqoji dəstək kimi başa düşülür (qabiliyyətlər, yaradıcılıq, şəxsi və sosial əhəmiyyətli keyfiyyətlərin diaqnozu; sağlamlıq, psixi xüsusiyyətlər və təklif olunan peşə seçimi; komanda, qrup və ya fərdi).

Psixoloji və pedaqoji dəstək modelinin komponentləri:

- koqnitiv-dəyər komponenti (peşəkar oriyentasiyanın seçilməsi sahəsində ümumi informasiya mədəniyyəti; dəyər yönümləri toplusu);
- motivasiya-fəaliyyət komponenti (motivasiya komponentləri (maraqlar, ehtiyaclar, motivlər, peşəkar fəaliyyət seçməyə hazırlıq);
- sosial və kommunikativ komponent (münasibətlər mədəniyyəti, sosial uyğunlaşma).

Orta məktəb şagirdlərinin peşə seçimini təyin etməsinə psixoloji dəstək üzrə formativ işin məzmunu üç əsas blokla təmsil olunur:

1. müəllimlərlə işləmək.
2. valideynlərlə iş.
3. Şagirdlərlə iş:

- "Peşə seçimini təyinetmə" təlimi;
- “Planlaşdırma və qərar qəbul etmə” təlimi;
- "Peşə seçiminə emosional münasibət" təlimi;
- “Mən və gələcək peşəm” təlimi;
- "Uğura aparan yol" təlimi;
- tədqiqat oyunu "Stalker".

Yuxarıda qeyd edilənlərdən aydın olur ki, yeniyetməlik yaş dövründə peşəseçiminin düzgün həyata keçirilməsi onun gələcəkdə öz yerini tapması baxımında xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan peşəseçimini həyata keçirərkən psixoloji və pedaqoji qanunauyğunluq hömən nəzərə alınmalıdır.

## ƏDƏBİYYAT


1. Əbdürrəhman Dönər. Yeniyetməlik dövrünün yol xəritəsi. Bakı: Xəzər nəşriyyatı, 2009.
2. İlyasov M. Peşəyönümünün əsasları. Dərs vəsaiti. Bakı: Mütərcim, 2011.
3. M. İlyasov, peşə, ixtisas seçimi (yeniyetmə və gənclər üçün elmi – metodiki vəsait), Bakı 2015, 99 s.
4. Кон И.С. В поисках себя: Личность и ее самосознание/ И.С. Кон//- М.: Политиздат, 1984.-с.65.
5. Концепция сопровождения профессионального самоопределения обучающихся в условиях непрерывности образования. 2012г. ФГАУ. В.И. Блинов, И.С. Сергеев, при участии Е.В. Зачесовой, Е.Ю. Есениной, И.В. Кузнецовой, П.Н. Новикова, Н.С. Пряжникова, Г.В.Резапкиной, Н.Ф. Родичева, А.Г. Серебрякова, О.В. Яценко.
6. Криволапова Н.А. Организация профориентационной работы в образовательных учреждениях в условиях внедрения ФГОС: учебнометодическое пособие/ Н.А. Криволапова.− Курган: ГАОУ ДПО ИРОСТ, 2013.−211 с.
7. Нечаев М.П., Фролова С.Л., Современное осмысление проблем профориентации обучающихся// Психолого-педагогический журнал Гаудеамус, Т. 16, № 2, 2017.
8. Сафин В.Ф. Психология самоопределения личности/ В.Ф. Сафин.− Свердловск:

Изд-во Свердловский педагогический институт, 1968.−186 с.
9. Божович Л.И. Личность и eѐ формирование в детском возрасте./ Божович Л.И. //- М.: Просвещение, 1968.- С.464.
10. https://speakfreely.ru/az/mathematics/psihologo-pedagogicheskoe-soprovozhdenie-professionalnogo-samoopredeleniya/

## YENİYETMƏLİKDƏ PEŞƏ SEÇİMİNİ TƏYİNETMƏNİN PSİXOLOJİ VƏ PEDAQOJİ DƏSTƏYİ MODELİNİN TƏSVİRİ

*Məmmədova Nahidə*

### XÜLASƏ

Yeniyetməlik dövründə peşə seçimini təyin etmənin psixoloji və pedaqoji dəstəyi modelinin məqsədi orta məktəb şagirdinə şüurlu bir peşə seçimi etməkdə və bu sistemi şüurlu şəkildə əlaqələndirməklə cəmiyyətlə ahəngdar qarşılıqlı əlaqə üçün öz dəyər yönümləri ilə universal və peşəkar dəyərlər sistemini formalaşdırmaqda kömək etməkdir.

## DESCRIPTION OF THE PSYCHOLOGICAL AND PEDAGOGICAL SUPPORT MODEL OF DETERMINING VOCATIONAL CHOICE IN ADOLESCENT

*Mammadova Nahida*

### SUMMARY

The purpose of the model of psychological and pedagogical support of professional self-determination in older adolescence is to assist a high school student in a conscious choice of a profession and the formation of his own system of value orientations for harmonious interaction with society by correlating this system with universal and professional ones.

## ОПИСАНИЕ МОДЕЛИ ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКОГО СОПРОВОЖДЕНИЯ ОПРЕДЕЛЕНИЯ ПРОФЕССИОНАЛЬНОГО ВЫБОРА ПОДРОСТКОВ

*Мамедова Нахида*

### АННОТАЦИЯ

Цель модели психолого-педагогического сопровождения профессионального самоопределения в старшем подростковом возрасте – оказание помощи старшекласснику в осуществлении осознанного выбора профессии и формировании собственной системы ценностных ориентаций для гармоничного взаимодействия с обществом путем соотнесения этой системы с общечеловеческими и профессиональными ценностями.

# ПРОБЛЕМА ИНТЕРНЕТ- ЗАВИСИМОСТИ У ПОДРОСТКОВ И ЕЕ ВЛИЯНИЕ НА УЧЕБНУЮ ДЕЯТЕЛЬНОСТЬ

***д.ф.п.Эюбова Мехрибан Нияз кызы***
***Мамедли Нигяр Рамиз кызы***
***магистр II курса БГУ***

***Ключевые слова:*** подросток, Интернет, интернет-зависимость, информационные ресурсы, компьютер.
***Açar sözlər*:** yeniyetmə, İnternet, internet asılılığı, informasiya resursları, kompüter
***Key words:*** teenager, Internet, Internet addiction, informational resources, computer.

Интернет – это огромная паутина, разветвленная по всему миру, объединяющая компьютеры из разных точек Земли. Название интернета «всемирной паутиной» неспроста, если посмотреть на карту интернет сетей, то перед нами встанет не что иное, как паутина, которая состоит из огромного числа разветвлений. Интернет охватывает все страны мира.

Использование интернета в повседневной жизни современного человека имеет как положительные, так и отрицательные стороны. Отрицательными сторонами длительного использования интернета являются уменьшение интересов, уход в виртуальный мир и появление зависимости от интернета. В Азербайджане увеличение использования компьютерами делает актуальным проблему неправильного использования интернет - ресурсами.

Став частым пользователем интернета и не представляющий своей жизни без него, навязчивое желание подключиться к интернету, и болезненная неспособность вовремя отключиться от интернета, привела к такому расстройству как интернет-зависимость.

Впервые это расстройство было описано в 1995 году Нью-йоркским психиатром Иван Голдбергом. Сам же термин «интернет-зависимость» был введен им же еще в 1996 году. Данный термин описывал неоправданно долгое, возможно, патологическое, пребывание в интернете. Он выявил базисные критерии этого нарушения: использование интернета вызывает болезненное негативное стрессовое состояние или дистресс у пользователей; использование интернета причиняет ущерб психологическому, физическому, экономическому, межличностному или социальному статусу человека [7].

В 1994 году психотерапевт Кимберли Янг основала и представила на сайте тест - опросник, направленный на определение интернет – зависимости, и получила более 500 ответов. Большинство участвующих были признаны интернет-зависимыми [3].

Она приводит четыре критерия интернет – зависимости:

- навязчивое желание проверить e-mail.
- постоянное желание следующего выхода в всемирную сеть.
- жалобы окружающих, что человек проводит большое количество времени в интернете.
- жалобы окружающих, что человек расходует значительные суммы на интернет.

Компьютерная зависимость наиболее часто встречается у детей и подростков. Несформировавшаяся личность и эмоциональная нестабильность не позволяет подросткам уверенно чувствовать себя в настоящей жизни. Нынешнее поколение детей проводят за компьютером больше своего времени, чем с собственными родителями. С увеличением роли Интернета в процессе образования, учащиеся получают множество информаций различного контекста, которые заглушают те знания, получаемые

подростком от своих родителей, учителей. Эти данные не имеют основательной базы и мешают его образованию и потенциальному развитию [1, 6].

Несмотря на множество причин, вызывающих Интернет-зависимость, в базисе их лежит нарушение «баланса» между ребенком и социальным обществом, что создает трудности, вплоть до полной невозможности адаптироваться к требованиям этого социума.

Важными причинами Интернет-зависимости у подростков, являются: низкий уровень психологическо-социальной адаптации (чувство скованности в обществе), отрицательная «Я-концепция» (сильный уровень расхождения между реальным и идеальным Я), трудности в общении (затруднения в коммуникации и в установлении контактов с другими), несформированные организаторские умения (неспособность рационально распределять время использования Интернета) [2,3,4].

Риски, с которыми подростки сталкиваются в интернете огромное количество. Это и контентные риски, коммуникационные и электронные (кибер-) риски, потребительские риски и так далее. Одни из самых опасных рисков — это вовлеченность несовершеннолетних детей в опасные группы и сообщества, широко распространенные на просторах интернета. Эти группы наносят разрушающее действие на психику подростков, нанесением вреда здоровью, вплоть до самоубийства [7].

Наравне с этим компьютерные технологии, интернет позволяет улучшить качество успеваемости подростка в учебной деятельности. Он получает доступ к огромному количеству информации, находит нужную книгу, материалы. Может лучше подготовится к уроку, так как содержание информации в сети в отличие от книги намного содержательнее и неограниченно рамками Министерства Образования.

Бытует мнение, что чем лучше учится подросток, тем меньше остаётся возможности и времени чтобы зайти в интернет. Единственно полезная цель использования интернета в подростковом возрасте, является научный интерес без фанатизма. Безусловно интернет повышает знания, умения и навыки подростка, но вся проблема заключается в том, что интернет является идеальным аддиктивным агентом. Зависимость от компьютера, в принципе, может быть у любого ребёнка и подростка, но процент снижается, если: в семье отсутствует негативная аура, есть покой, комфорт и доверие; у подростка разносторонние взгляды и увлечения; ребёнок может строить позитивные взаимоотношения с окружающими; если у ребёнка есть цели, к которым он стремится.

В современном учебном процессе широко используется информационные ресурсы. Это связано с поиском различной информации в сети Интернета, а также обработкой и анализом информации в зависимости от задач учебного процесса. В этих условиях важное значение приобретает проблема защиты учащихся от информаций, причиняющих вред их здоровью и дальнейшему нравственному, психическом, культурному развитию подростков. В этой ситуации есть необходимость в поддержке безопасности учеников от средств массовой информации и педагогической помощи интернет-зависимым подросткам [5].

## ЛИТЕРАТУРА

1. Егоров, А. Ю. Особенности личности подростков с интернет-зависимостью Текст. / А. Ю. Егоров, Н. А. Кузнецова, Е. А. Петрова // Вопросы психологического здоровья детей и подростков. 2005. - №2. -С. 20-27.

2. Идрисова, Н. Г. Зависимое поведение: механизмы формирования и методы коррекции Текст. / Н. Г. Идрисова. М.: ИИКЦ «Эльф-3», 2005. -176 с.

3 Лоскутова, В. А. Интернет-зависимость патология XXI века? Текст. / В. А. Лоскутова //

Вопросы ментальной медицины и экологии. -2000. -№1. -С. 11-13.
4.Мухаметшина, К.О. Проблема интернет- зависимости в подростковой среде [Текст] / К.О. Мухаметшина // VI Студенческий научный форум, 2014, №5-6, 67-93 с.
5. Пахомова, Т.В. Некоторые психологические проблемы интернет –зависимости [Текст] / Т.В. Пахомова // Молодой ученый, 2014, №15, 236-238 с.
6. Фельдштейн, Д.И. Психолого-педагогические проблемы построения новой школы в условиях значимых изменений ребенка и ситуации его развития
7. Фролова, Д.А. Исследование психологических характеристик личности интернет – зависимых подростков [Текст] / Д.А. Фролова. – г. Шуя, 2013, 58-59 с.

## ПРОБЛЕМА ИНТЕРНЕТ - ЗАВИСИМОСТИ У ПОДРОСТКОВ И ЕЕ ВЛИЯНИЕ НА УЧЕБНУЮ ДЕЯТЕЛЬНОСТЬ

***Эюбова Мехрибан, Мамедли Нигяр***

### АННОТАЦИЯ

Тема статьи – интернет-зависимость, которая является широко распространённой проблемой. Используя интернет, подросток вместо стремления «думать» и «учить», предпочитает «искать». У подростков с интернет-зависимостью снижается интерес к учебе, слабеет мотивация учебно-познавательной деятельности, отмечается высокий уровень конфликтности в учебном процессе с учителями и одноклассниками. В этих условиях чрезвычайно актуализируется поиск эффективных средств педагогической поддержки детей с подобными отклонениями в поведении. Воспитание компьютерной культуры, самовоспитание пользователей - вот противоядие интернет - зависимости.

## YENİYYƏTLƏRDƏ İNTERNET ASLILIĞI VƏ ONUN TƏLİM FƏALİYYƏTİNƏ TƏSİRİ

***Eyyubova Mehriban, Mamedlı Niqar***

### XÜLASƏ

Məqalənin mövzusu geniş yayılmış problem olan internet asılılığıdır. İnternetdən istifadə edən yeniyetmə “düşünməyə” və “öyrətməyə” çalışmaq əvəzinə “axtarmağa” üstünlük verir. İnternet asılılığı olan yeniyetmələrin öyrənməyə marağı azalır, təhsil və idrak fəaliyyəti üçün motivasiya zəifləyir, müəllimlər və sinif yoldaşları ilə təhsil prosesində yüksək səviyyədə münaqişə var. Bu şəraitdə davranış pozğunluğu olan uşaqlar üçün effektiv pedaqoji dəstək vasitələrinin axtarışı son dərəcə aktualdır. Kompüter mədəniyyətinin tərbiyəsi, istifadəçilərin özünütərbiyəsi - bu, internet aludəçiliyinin antidotudur.

## THE PROBLEM OF INTERNET DEPENDENCE IN TEENS AND ITS IMPACT ON LEARNING ACTIVITY

***Eyubova Mehriban, Mamedli Niqar***

### SUMMARY

The topic of the article is Internet addiction, which is a widespread problem. Using the Internet, instead of striving to "think" and "teach", a teenager prefers to "search". Teens with Internet addiction have a reduced interest in learning, a weakening motivation for educational and cognitive activity, and a high level of conflict in the educational process with teachers and classmates. Under these conditions, the search for effective means of pedagogical support for children with similar deviations in behavior is extremely relevant. Upbringing of computer culture, self-education of users is the antidote to Internet addiction.

# AUTİZMİN XÜSUSİYYƏTLƏRİ VƏ KLİNİK GÖSTƏRİCİLƏRİ

***Məmmədova Samilə***
***BDU-nun II kurs magistrantı***
***samilamahammadli@gmail.com***

***Açar sözlər:*** autizm spektr pozuntusu, xəstəliklərin beynəlxalq təsnifatı, DSM, autizmin səbəbləri, autizmin xüsusiyyətləri, uşaq autizmi, autizmin əlamətləri
***Ключевые слова:*** расстройство аутистического спектра, международная классификация болезней, DSM, причины аутизма, характеристики аутизма, детский аутизм, симптомы аутизма
***Keywords:*** autism spectrum disorder, international classification of diseases, DSM, causes of autism, characteristics of autism, childhood autism, symptoms of autism

Autizm spektr pozuntusunun əlamətləri üç yaşdan daha əvvəl görünən, təsiri isə həyat boyu davam edən, eyni zamanda insanların sosial qarşılıqlı əlaqə qurma qabiliyyətinə mənfi təsir göstərən, təkrarlanan davranışlara səbəb olan neyroinkişaf (sinir-inkişaf) pozuntusu olaraq təyin olunur. 1943-cü ildə uşaq psixiatrı Leo Kanner tərəfindən uşaq autizmi ətraflı şəkildə təsvir edilmişdir [2, s.13].

Autizm pozuntusuna dair məlumatlar beynəlxalq təsnifatlarda öz əksini tapmışdır- Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) çap etdiyi "Xəstəliklər və sağlamlıqla bağlı problemlərin beynəlxalq statistik təsnifatı"-da (XBT) və Amerika Psixiatriya Assosasiyasının "Psixi pozulmaların diaqnostik və statistik bələdçisi"-də (DSM).

XBT-nın 1967-ci ildə çap edilən səkkizinci nəşrində uşaq autizmi şizofreniyanın bir forması kimi qeyd edilmişdir. 1977-ci ildə çap edilən XBT-nın doqquzuncu nəşrində isə uşaq autizmi "Uşaq psixozu" başlığı altında təqdim edilmişdir. XBT-nın 1992-ci ildə nəşrində autizmin "psixoz" deyil, inkişaf pozuntusu olması qeyd edilir.

İlk dəfə olaraq autizm 1980-cı illərin əvvəlində DSM-III təsnifatında fərqli psixiatrik xəstəlik kimi təsnif edilmişdir. 1992-ci ildə DSM-IV də autistik pozuntuların diaqnozu üçün meyarlar təqdim edilmişdir. 1993-cü ildə ÜST buna bənzər təsnifat vermişdir. Autizm termini bir müddət sonra yerini Autizm spektr pozuntusu termini əvəz elədi. 2013- cü ildə nəşr olunan DSM-V təsnifatında autizmin meyarları dəyişdirilmişdi. İnkişaf pozuntularına aid olan: autizm pozuntusu və asperger sindromu, müəyyənləşdirilməsi mümkün olmayan digər inkişaf pozuntuları və dezinteqrativ pozuntular əvəzinə ümumi olaraq autizm spektr pozuntusu adlanmağa başladı [4].

ASP diaqnozunun əsas əlamətləri budur ki, ətrafdakı insanların emosiyalarına reaksiya olmur, emosional, sosial və kommunikativ inteqrasiya minimal dərəcədə olur. Nitqin ifadəsində elastiklik olmur, insanların verbal və qeyri-verbal ünsiyyət cəhdlərinə reaksiya vermir, təfəkkürdə yaradıcılıq, fantaziya olmur. Məhdud və təkrarlanan davranışlar üstünlük təşkil edir, motor stereotiplər tez-tez müşahidə olunur. Autist uşaqlar onlar tərəfindən qoyulmuş qaydaların, obyektlərin yerinin dəyişdirilməsinə kəskin reaksiya göstərə bilirlər. ASP zamanı autist uşaqlarda yuxu pozuntuları, qida qəbulu problemləri, fobiyalar, özünə qarşı aqressivlik kimi qeyri-spesifik hallar müşahidə olunur. Oğlanlarda bu pozuntu qızlara nisbətən 3-4 dəfə çox rast gəlinir. Autistlərin 75%-də əqli gerilik müşahidə olunur.

Autizmin yaranma səbəbləri haqqında dəqiq məlumatlar hələki mövcud deyildir. İllər ərzində ASP-nun səbəbləri ilə bağlı çoxlu araşdırmalar aparılıb və elmi ədəbiyyatlarda ASP-nun tək bir tip olmadığı üçün onun meydana gəlməsinin bir səbəblə ola bilməyəcəyi də ifadə edilir. Səbəbi hələ dəqiqləşdirilməsə də, daha çox genetik faktorların rol oynadığı bildirilir. Bacı-qardaşlar və əkizlərlə aparılan tədqiqatlarda cüt yumurta əkizlərində autizmin tək yumurta əkizlərlə müqayisədə yüksək olması, həmçinin dölün cinsinə əsasən mövcud fərqlər autiz-

mdə genetik faktorun mühüm rol oynadığını göstərir. ASP-nun yaranmasını yalnız genetik faktorlarla izah etmək mümkün deyil, eyni zamanda xəstəliyin yaranmasında ətraf mühitin zərərli təsirlərinə məruz qalma, autoimmunitet, mədə-bağırsaq funksiyasının pozulması kimi faktorların da rol oynaya biləcəyi bildirilir. Bundan başqa çağanın ətraf mühit faktorlarına, infeksiyalara məruz qalması, ana və atanın yaşı, immun sistemi pozulmaları, qazanılmış xəstəliklər, qan və bədən mayelərində neyrokimyəvi pozulmalar da ASP-nun yaranmasına səbəb ola bilir.

Müasir texnologiyaların mövcudluğuna, aparılan çoxsaylı tədqiqatların olmasına baxmayaraq, autizmə səbəb olan amillər hələ də tam olaraq açıqlanmayıb.

ASP-nun erkən diaqnozunun qoyulması və müalicə prosesinə başlamaq üçün doğumdan 12-18 gün sonra, ay ərzində baş verən simptomlardan xəbərdar olmaq vacibdir. Autizmli uşaqların 70%-də simptomlar tədricən aydınlaşsa da, onların 30%-də 18-24 yaş arasında görünür. ASP 15 aylıq uşaqların inkişafında geriləmə ilə müşahidə olunur. Amerika Xəstəliklərin Qarşısının Alınması Mərkəzinin (2016) qiymətləndirmələrinə görə, autizm spektr pozuntusu olan uşaqların erkən diaqnoz qoyulma yaşı orta hesabla 46 ay olduğu bildirilir. ASP adətən uşaqlarda simptomlar görünməyə başlayandan 2-3 il sonra dəqiqliklə tanınır. ASP-na laboratoriya üsulu ilə qəti diaqnoz qoymaq mümkün olmasa da, uşaqlarda müşahidə oluna bilən davranış meyarları mühüm rol oynayır. Uşaqlarda müşahidə oluna bilən simptomlar adətən valideynlər, tibb bacıları, həkimlər, psixoloqlar və s. səhiyyə mütəxəssisləri tərəfindən tanınır. Valideynlərin və səhiyyə işçilərinin ASP-nun müəyyən edilməsində müşahidə edə biləcəkləri erkən simptomların əsas bir neçəsini aşağıda qeyd edirik [3, s. 96-97]:

- 12 aya qədər adına reaksiya verməmək;
- 14 aya qədər obyektlərə maraq göstərməmək;
- simvolik oyunlar oynamamaq (məsələn, oyuncağını yedizdirmək və s.), 18 aya qədər oyuncaqları düzgün istifadə etməmək;
- göz təmasından yayınmaq və tək qalmaq arzusu;
- danışıq və dil bacarıqlarında gecikmə, digər uşaqlarla münasibətdə çətinlik;
- başqalarının hisslərinə reaksiya verməmək və ya sadəcə öz hissləri haqqında danışmaq;
- həkrarlanan hərəkətlər, həddindən artıq mobillik və ya tamamilə hərəkətsizlik;
- suallara yersiz cavablar vermək;
- kiçik dəyişikliklərə həddindən artıq kəskin reaksiya vermək;
- obsessiv maraqların olması;
- əl çalmaq, arxaya dönmək, bədənini silkələmək;
- səslərə, qoxulara, dadlara qarşı qeyri-adi reaksiya vermək və ya heç reaksiya vermir;
- səbəbsiz gülmək və ya ağlamaq;
- ətrafdakı insanlardan çox obyektlərlə diqqət göstərmək və s.

DSM-V təsnifatına görə ASP-nun əlamətlərini aşağıda qeyd edirik [4]:

A. Autizm spektr pozuntusu müxtəlif formalarda sosial ünsiyyət və sosial qarşılıqlı əlaqələrdə davamlı çatışmamazlıqlarla müşayiət olunur:

1. Qeyri-adi sosial reaksiya və sosial-emosional qarşılıqlı əlaqənin olmaması, ünsiyyət çətinlikləri, hisslərini və fikirlərini paylaşa bilməmək.
2. Müxtəlif sosial mühitlərdə davranışlarını idarə etməkdə çətinliklər, yaradıcı oyun oynamaqda, dostluq etməkdə çətinliklər, yaşıdları ilə münasibət qurmaqda və bu münasibəti davam etdirməkdə çətinliklər.
3. Sosial qarşılıqlı əlaqə üçün verbal və ya qeyri-verbal ünsiyyətin olmaması, mimika və jestlərdən istifadə edə bilməmək, ünsiyyət zamanı bədən hərəkətlərini idarə etməkdə çətinlik çəkmək.

B. Aşağıdakı əlamətlərdən ən azı ikisi müşahidə olunarsa ASP diaqnozu qoyula bilir:

1. Stereotipik və ya təkrarlanan motor hərəkətlərin olması, danışıq zamanı və ya hər hansı bir əşya ilə oynayan zaman ortaya çıxan çətinliklər.

2. Qeyri-adi şeylərə maraq göstərmək. Məsələn, tanış olmayan obyektlərə həddindən artıq bağlılıq, obsessiv maraqlar.

3. Monotonluq, israr etmə, kiçik dəyişikliklər zamanı narahatçılığın olması, ritual davranışlar, eyni yolu getmək, standart rejimin olması.

4. Duyğu orqanlarında həssaslıq, ətrafdakı qıcığa qarşı yüksək, bəzən isə zəif reaksiya vermək. Ağrıya, tempratura laqeydlik, səslərə qarşı kəskin reaksiya, işıqlara və ya hərəkətdə olan obyektlərə gözlərini zilləmə.

C. Yuxarıda qeyd olunan əlamətlərin erkən inkişaf dönəmində ortaya çıxması.

D. Yuxarıda qeyd olunan əlamətlər sosial, peşə və ya digər mühüm fəaliyyət sahələrində klinik cəhətdən əhəmiyyətli pozuntulara səbəb olması.

E. Əlamətlər intellektual inkişaf pozuntusu və ya ümumi inkişaf ləngiməsi ilə əlaqələndirilməməlidir. Autizm spektr pozuntusu və əqli gerilik çox zaman birlikdə müşahidə olunur. ASP-nun və əqli geriliyin diaqnostikasını təyin etmək üçün sosial ünsiyyət ümumi inkişaf səviyyəsinə görə gözləniləndən aşağı səviyyədə olmalıdır.

DSM-IV autizm pozuntusu, asperger sindromu və ya başqa cür müəyyən edilməmiş inkişaf pozuntuları ilə bağlı diaqnoz qoyulan şəxslərə autizm spektr pozuntusu diaqnozu qoyulmalıdır. Ünsiyyət çatışmamazlığı olan, ancaq əlamətləri autizm spektri pozuntusu üçün digər diaqnostik meyarlara cavab verməyən simptomlar, sosial sosial ünsiyyət pozuntusu kimi qiymətləndirilməlidir.

DSM-V görə autizm spektr pozuntusu əsasən 3 sahənin pozulması ilə meydana çıxır [4]: nitq (nitqin inkişafında pozulma), davranış (təkrarlanan davranışlar), sosial mühit (qarşılıqlı münasibətlərdə problemlər). Autizm spektr pozuntusunun əlamətləri adətən həyatın ikinci ilində görülür. Bu təsnifata görə nitqin pozulması ASP-nun əsas diaqnostik meyarı hesab olunmasa da, 12-18 aylıq uşaqlarda sosial davranışın məhdudlaşdırılması ilə müşayiət olunan nitq pozulmaları autizm spektr pozuntusunun əlamətləri kimi özünü biruzə verir. ASP olan uşaqların 75% nitqin inkişafında ləngimə olur, lakin qalan 25%-də nitq inkişaf edir, bir müddət sonra isə zəifləməyə başlayır.

DSM-V görə autizm spektr pozuntusu üçün əsas diaqnostik meyar sosial məhdudiyyətlərin olmasıdır. ASP diaqnozu qoyulan uşaqlarda şifahi olmayan və ya əhəmiyyətli koqnitiv pozulmalar olur, stereotipik və dağıdıcı hərəkətlər müşayiət olunur və İQ səviyyələri aşağı olur.

Stereotip davranışlar adətən təxminən 4 yaşında özünü göstərsə də, bəzi uşaqlarda həyatın ikinci ilində müşahidə oluna bilər. Həyatın ilk illərində ASP ilə bağlı ilk əlamətlər adətən valideynlərin, tərbiyəçilərin, müəllimlərin müşahidələri ilə üzə çıxır. Autizm diaqnozu qoyulan uşaqlar adətən göz təması qura bilmir, gülümsəyib təbəssüm etmir və səsə cavab vermirlər, onlarda adlarına qarşı bələdləşmə olmur. ASP diaqnozu qoyulan uşaqlarda emosional vəziyyətlərinin sağlam həmyaşıdlarına nisbətən mənfi olması, sosial və ünsiyyət sahələrində, motor inkişaf da daxil olmaqla inkişaf geriliyi ilə müşayiət olunur. Şifahi və hərəkətli təqlidin olmaması, simvolik oyunlar oynamamaq, rollu oyunlar qurmamaq ASP uşaqlarda müşahidə edilir. Mimikalarda emosiyaların əks olunması və paylaşılması (gülümsəmək, başqa insanlara baxmaq və s.) ASP uşaqlarda məhduddur.

ASP uşaqlarda ən çox rast gəlinən davranış problemləri- uyğun olmayan vəziyyətlərdə qışqırmaq, ağlamaq, zərər verə biləcək qəzəbli davranışlar, inadkarlıq, qısqanclıq, boşqab çevirmək, saç çəkmək, əl çalmaq, qapı çırpmaq, təkrarlanan hərəkətlər, ayaqların ucunda qaçmaq və s. kimi davranışlar müşahidə edilir.

Autizmli uşaqlarda daha çox hiperaktivlik və diqqət dağınıqlığı da müşahidə olunur [2, s.55]. Autizmli uşaqlarda davranış pozuntularından daha çox neqativizm də müşahidə olunur. Belə hallar istədikləri yerinə yetirilmədikdə, rejimləri pozulduqda, ətrafda istəmədikləri mühit yarandıqda müşahidə olunur. ASP uşaqlarda daha çox müşahidə olunan təkrarlanan hərəkətlər- stereotiplərdir. Sağa-sola və ya irəli-geri yellənmək, eyni mahnıya saatlarla qulaq asmaq, məqsədsiz şəkildə dolaşmaq, toxunmaq, əl sıxmaq, ayaq yelləmək, barmaqlarını

gözünün önündə hərəkət etdirmək və s. müşahidə olunur. Autizmli uşaqlar valideynlərinin evdə və ya işdə olduğunu, harasa getdiyinin və ya evə qayıtdığının fərqində belə olmurlar. Bəzən onlar eşitmə qüsurlu kimi görünə bilərlər, yüksək səslərə reaksiya verməz və ya səsə qarşı dönmürlər, ancaq çox az hallarda normal və yüngül eşitmə stimullarına cavab verirlər. Autizmli uşaqlarda həmçinin müxtəlif psixiatrik pozuntulara da (depressiya, obsessiv kompulsiv nevroz, maniya və panik atak) tez-tez rast gəlinir. Bu problemlər daha çox yeniyetməlik dövründə müşahidə olunur. Heç bir xarici səbəb olmadan autizmli uşaqlar ağlaya və ya gülə bilərlər. Autizmli uşaqlarda yemək problemləri də müşahidə olunur. Yemək seçərkən yeməyin rənginə, qoxusuna, formasına və tərkibinə görə fərqli reaksiyaları müşahidə olunur. Həmçinin bu uşaqlarda yuxu problemi də müşahidə edilir. Onlarda gec yatıb, gec durmaq, həmçinin gec yatıb tez oyanmaq, yuxu zamanı tez-tez oyanmaq və s. hallar müşahidə oluna bilər.

ASP-nun yaş dövrlərinə uyğun olaraq müşahidə edilən psixoloji xüsusiyyətlərini aşağıda qeyd edirik:

- 0-1 yaş dövrü. Donuq üz ifadələri, emosional ünsiyyətin olmaması, təbəssümün olmaması, baxışlarının davamlı bir obyektə zillənməsi, gülümsəmələrə reaksiya verməmək, qığıltının olmaması, sakit uşaq təsiri bağışlaması və s.
- 1-3 yaş dövrü. Özlərinə qapanma, emosiyaların olmaması, özlərindən üçüncü şəxs kimi danışmaqları, nitqdə tək kəlimələrdən istifadə edilməsi, exololiya, tiklərin yaranması, qeyri-adi məşğuliyyətə marağın yaranması, jestlərdən az istifadə edilməsi, oyuncaqların ayrı-ayrı detallarına diqqət yetirmək, stereotip hərəkətlər, yuxu problemləri və s.
- 3-6 yaş dövrü. Adaptasiya çətinlikləri, nitq pozuntusu, qorxu hissinin yaranması, hərəkətlərini tənzimləməkdə çətinliklər, kiçik motorikanın zəif inkişaf etməsi və s.
- 6-10 yaş dövrü. ASP uşaqlarda əgər intellektual səviyyədə pozuntu azdırsa, onlar xüsusi ixtisaslaşdırılmış məktəblərdə təhsil ala bilərlər. Bəzi uşaqlarda qeyri-adi intellektual qabiliyyətlərin ortaya çıxması, adaptasiya prosesində çətinliklər, təxəyyülün zəif inkişaf etməsi, məcazi mənalı ifadələri başa düşməkdə çətinlik və s. əlamətlər görülə bilər.
- 10-15 yaş dövrü. Həmyaşıdları ilə dostluq münasibətləri qura bilməmək, insanların emosiyalarını anlamaqda çətinlik çəkmək, tənhalığın nümayişi, öz təşəbbüsü ilə əlaqə qura bilməmək, qrup oyunlarında iştirak etməkdən çəkinmək və s. [1, s.51].

Hal-hazırda autizm ümumi inkişaf pozulmaları arasında ən çox yayılandır. Hər uşaq fərdi-psixoloji xüsusiyyətlərinə görə fərqli olduğu üçün ASP-nun əlamətləri, bu əlamətləri əmələ gətirən səbəblər və xəstəliyin gedişatı da fərqli olur. Autizmli uşaqlar ətrafdakı insanların diqqətinə, sevgisinə və qayğısına ehtiyac duyurlar. ASP uşaqlar digər uşaqların gündəlik həyatda çətinlik çəkmədən mənimsədiyi məişət bacarıqlarını, insanlarla qarşılıqlı əlaqə və ünsiyyətin ümumi qəbul edilmiş normaları müstəqil şəkildə öyrənib tətbiq etməyi bacarmırlar, çətinlik çəkirlər. ASP diaqnozu qoyulan uşaqların sosial həyatın müxtəlif sahələrində kifayət qədər uğurlu olması üçün xüsusi imkanlar yaradılmalıdır. Bu uşaqlarla aparılan psixoloji iş, ilk növbədə, onlarda ünsiyyət bacarıqlarının formalaşmasına və sosial səriştənin inkişafına yönəlməlidir.

## ƏDƏBİYYAT


1. Qafarov T.Ə., Əliyev N.A., Əliyev Z.N. Autizm spektrli pozuntular. Bakı, 2018, 210 s.
2. Uinq L. Autizm spektri. Bakı, 2019, 192 s.
3. Aydın D., Özgen E. Çocuklarda otizm spektrum bozukluğu ve erken tanılamada hemşirenin rolu. // Sağlık bilimleri dergisi 7(3), Gümüşhane, 2018, s. 93-101
4. DSM-V. Amerika psikiatriya birliyi. Ankara, 2014

# AUTİZMİN XÜSUSİYYƏTLƏRİ VƏ KLİNİK GÖSTƏRİCİLƏRİ

***Samilə Məmmədova***

## XÜLASƏ

Autizm spektr pozuntusunun dünyada və ölkəmizdə araşdırılması xüsusi aktuallıq kəsb edir. Hal-hazırda ASP haqqında daha geniş şəkildə elmi tədqiqatlar aparılır. Aparılan elmi tədqiqatlardan xəstəliyin gedişatı, xüsusiyyətləri və klinik əlamətlərinə dair çoxsaylı məlumatlar əldə edilməsinə baxmayaraq, təqdim olunan statistikaya görə ASP diaqnozu qoyulan uşaqların sayı hər il artmağa davam edir. Autizm erkən yaş dövründə başlayan, ömür boyu davam edən, real həyatdan uzaqlaşma, özünə qapanma kimi əlamətlərlə təzahür edən, sosial münasibətlər və ünsiyyət sahəsində problemlərin olması ilə müşahidə olunan neyro-psixiatrik pozulmadır. Yaranma səbəbi dəqiq məlum olmayan autizm xəstəliyi anadangəlmə olduğu hesab edilir. Aparılan tədqiqatlara əsasən autizmin yaranmasına müxtəlif amillərin təsiri olduğu müəyyən edilmişdir: genetik amillər, sosial amillər, virus və xəstəliklər, hamiləlik zamanı ananın keçirdiyi xəstəliklər, məruz qaldığı stress amilləri, doğuş zamanı alınan travmalar, beyin zədələri, peyvəndlər, ekoloji təsirlər və s. Autizmin əlamətləri 1-3 yaş aralığında özünü göstərməyə başlayır. Autizmin xüsusiyyətləri və əlamətləri yaşa və cinsə görə fərqlilik göstərə bilir. Məqalədə yuxarıda qeyd edilən məsələlər ətraflı şəkildə təhlil edilmişdir.

# ХАРАКТЕРИСТИКИ И КЛИНИЧЕСКИЕ ПОКАЗАНИЯ АУТИЗМА

***Самила Мамедова***

## АННОТАЦИЯ

Изучение расстройств аутистического спектра в мире и в нашей стране имеет особую актуальность. В настоящее время проводятся более обширные научные исследования по АСР. Несмотря на то, что в результате проведенных научных исследований получены многочисленные сведения о течении, особенностях и клинических признаках заболевания, согласно представленной статистике, число детей с диагнозом АСР с каждым годом продолжает увеличиваться. Аутизм - нервно-психическое расстройство, которое начинается в раннем возрасте, продолжается на протяжении всей жизни, проявляется такими симптомами, как уход от реальной жизни, проблемы в социальных отношениях и общении. Аутизм, причина которого неизвестна, является врожденным. На основании проведенных исследований установлено, что на развитие аутизма влияют различные факторы: генетические факторы, социальные факторы, вирусы и заболевания, заболевания, перенесенные матерью во время беременности, стрессовые факторы, травмы, полученные во время родов, черепно-мозговые травмы, прививки, воздействия окружающей среды и др. Симптомы аутизма начинают проявляться в возрасте от 1 до 3 лет. Характеристики и симптомы аутизма могут различаться в зависимости от возраста и пола. Вышеуказанные вопросы подробно анализируются в статье.

# CHARACTERISTICS AND CLINICAL INDICATIONS OF AUTISM

***Samila Mammadova***

## SUMMARY

The study of autism spectrum disorders in the world and in our country is of particular relevance. More extensive scientific research on ASD is currently underway. Despite the fact that as a result of the conducted scientific research, numerous information was obtained about the course, features and clinical signs of the disease, according to the statistics presented, the number of children diagnosed with ASD continues to increase every year. Autism is a neuropsychiatric disorder that begins at an early age, continues throughout life, manifests itself with symptoms such as withdrawal from real life, problems in social relationships and communication. Autism, the cause of which is unknown, is congenital. Based on the research, it has been established that various factors influence the development of autism: genetic factors, social factors, viruses and diseases, diseases suffered by the mother during pregnancy, stress factors, trauma during childbirth, traumatic brain injuries, vaccinations, exposure environment, etc. Symptoms of autism begin to appear at the age of 1 to 3 years. The characteristics and symptoms of autism can vary by age and gender. The above questions are analyzed in detail in the article.

# AİLƏDƏ MÜXTƏLİF ARDICILLIQLA DOĞULAN UŞAQLARIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Rəsullu Aybəniz Rəsul qızı***
***BDU-nun II kurs magistrant***
***aybeniz.resullu98@gmail.com***

***Açar sözlər:*** doğum sırası, şəxsiyyət xüsusiyyətləri, ailə, münasibətlər, ilk uşaq, ortancı uşaq
***Key words:*** birth order, personality traits, family, relationships, firstborn, middle child
***Ключевые слова:*** порядок рождения, черты личности, семья, отношения, первенец, средний ребёнок

Sosial bir varlıq olan insan müəyyən bir cəmiyyət içərisində yaşayır. Yaşadığı mühitdəki insanlar və olduğu yerin fərdə böyük təsiri var. Hər birimizin seçə bilmədiyi bir ailəsi və bacı-qardaşları var. Bəzilərimiz tək uşaq, bəzilərimiz ikinci uşaq olarkən, bəzilərimizin hətta ekizi var. Eyni anadan, atadan doğulan uşaqlar eyni mühitdə böyüsələr belə fərqli xarakterlərə malik ola bilirlər. Bioloji, sosioloji , mühit, ailə tipi kimi faktorlarla yanaşı doğum sırası da fərdin həyatına təsir edir. Bütün ailə sistemlərində dünyaya gələn uşaqların xronolojik olaraq bir doğum sırası var. Doğum sırası bir şəxsin bacı-qardaşları arasında neçənci sırada doğulduğu ilə bağlı bir anlayışdır. Hər ailə sistemi öz içərisində sadə bir tarazlığa sahibdir. Ana, ata və uşaqlardan ibarət ailə sistemi yeni gələn hər fərdin ailəyə qoşulmasıyla dəyişir və biri-birindən təsirlənirlər. Fərdin, ailədə bacı və qardaşları arasında tutduğu mövqe onun intellektual inkişafına, şəxsiyyətinə, davranışlarına təsir edir. Bir insanın bacı və qardaşı arasında tutduğu mövqenin həmin insanın şəxsiyyətinə təsir edib-etməməsi həmişə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Doğum sırası və bacı-qardaş sıralaması məsələsi 1920-ci illərdən tədqiq olunur. Xüsusilə Adler və Sullovayın bu mövzuda araşdırmaları ön plandadır. Adlerin və Sullovayın nəzəriyyələri arasında paralellik var. Hər ikisi də fərqli doğum sıralarının bacı-qardaşların ailədəki mövqelərinə və xüsusilə şəxsiyyətlərinə təsir etdiklərini müdafiə edirlər. Doğum sıralaması məsələsinə toxunarkən Adler kiçik uşaq və böyük uşaq olmağın güc və hakimiyyət mübarizəsinə fərqli təsirləri olduğunu bildirir. Çünki insanlar həyatda müxtəlif məqsədlər güdürlər. Onlar bu məqsədlərə doğru çalışırlar. Ailə bu səylərin ən asan sınaqdan keçiriləcəyi yerdir. Ailə mühitində ortaya çıxan şəxsiyyət xüsusiyyətləri və doğum sırasının əhəmiyyətli olduğu vurğulanır [1, s. 256 ].

Dr. Kevin Leman da doğum sırasının şəxsiyyətə təsiri olduğunu qeyd edir ancaq bəzi amillər var ki, onlara diqqət yetirmək lazımdır:

Uşaqlar arasında doğum aralığı 5 ildən çox olarsa yeni doğulan uşaq ilk doğulan uşağın xüsusiyyətlərini daşıyır.

Uşaqların cinsiyyətinin də bu məsələyə təsiri var. Bir böyük bacısı olsa belə ilk doğulan oğlan uşağı ilk uşaq sayılır. Ancaq 3 bacıdan sonra doğulan oğlan uşağı fərqli xüsusiyyətlərə malik olur.

Fiziki fərqlər, əngəllər, əlillik kimi faktorlar da doğum sırasını nəzəriyyəsinə təsir edir. Xüsusui qayğıya ehtiyacı olan uşaqlara valideynləri tərəfindən göstərilən diqqət digər uşaqların qısqanmasına gətirib çıxarır.

Ailə qurluşu yəni, ailədə boşanma, boşanma nəticəsində qarışıq ailələrin yaranması, ailə üzvlərində birinin ölümü və bu kimi digər hallar doğum sırasına təsir edə bilər [3, s.22].

Doğum ardıcıllığı haqqında danışarkən real doğum sırası və psixoloji doğum sırası anlayışlarına diqqət yetirmək lazımdır. Adlerə görə real doğum sırası ailə içərisində bir mövqeyə malik olmaqdır, eyni ailə içərisində şəxslərin dünyaya gəlmək sırasını göstərir. Xronoloji ardıcıllığa əsasən ilk doğulan uşaqdan başlayaraq birinci uşaq, ikinci uşaq,

üçüncü uşaq olmaqla ifadə edilir [2, s. 232].

Adlerə görə fərdin real doğum sırasıyla yanaşı psixoloji doğum sırası da adlanan bir termin var. Uşaqların doğulduğu ailə mühitinin xüsusiyyətləri, imkanları, valideynlərin davranışı, uşaqlar arasında vəzifələrin bölünmə ardıcıllığı boşanma, yenidən birləşmə, ailə üzlərindən birinin ölümü, övladlığa götürmə, əqli qüsur, bacı-qardaşların sayı, bacı-qardaşlar arasındakı yaş fərqi kimi bir çox faktor ailə daxilində fərdlərin həqiqi doğum sırasından daha təsirli olacaq psixoloji doğum sırasına sahib olmasına şərait yaradır [4, s.15]. Psixoloji doğum sırasının, real doğum sırası qədər vacib olduğu qeyd edilir. Bəzən real doğum sırası ilə psixoloji doğum sırası üst-üstə düşməyə bilir. Uşağın yaşadığı ailə mühitindən asılıdır. Məsələn uşaq ailə qurluşunda ilk uşaq olsa da həddən artıq ərköyün böydülərək son uşağın xüsusiyyətlərini daşıya bilər. Bundan başqa bir bacı və ya qardaşın ölümü, cinsiyyəti, əlilliyi bu sıralamanı poza bilər. Buna görə nəzərə almaq lazımdır ki, real doğum sırası şəxsiyyət xüsusiyytələrinin yeganə müəyyən edicisi deyildir.

Tədqiqatlar göstərir ki, eyni doğum sırasına malik insanlar özlərini bir-birlərinə daha yaxın hiss edirlər, məsələn, bir ailənin ilk uşağı başqa bir ailənin ən böyük uşağı ilə yaxşı münasibət qura bilər, çünki onların valideynləri ilə eyni olmasa da oxşar təcrübləri var.

Adlerə görə hər yeni doğulan uşağın valideynləri ilə münasibəti, təcrübəsi fərqlidir. Çünki hər yeni uşaqda valideynlər qabiliyyətlərini inkişaf etdirir və kəşf edir, ona görə də onların hər uşağa yanaşması fərqlidir. Bundan əlavə, ailənin mövcud dinamikası, münaqişələr, maddi vəziyyət kimi amillər də bu baxımdan mühüm rol oynayır. Ailələr hər uşağa yaşlarına və doğum sıralarına görə fərqli rol və vəzifələr təyin edir ki, bu da onların uşaqlara yanaşmalarının fərqli olmasına səbəb olur. Bütün bunlar uşaqların xarakterini formalaşdırır. Adler uşaqları doğum sırasında 5 fərqli tipə bölmüşdür; ilk uşaq, ikinci uşaq, ortancıl uşaq, son uşaq və tək uşaq [8].

İlk doğulan uşaqların ailədə niyə xüsusi bir statusa malik olduğunu başa düşmək asanddır. İlk doğulan uşaqlar tək uşaq olduqları müddətcə diqqət mərkəzində olurlar və valideynlərin təcrübəsizliyindən ərköyün böyüyürlər. Bəsitcə deyə bilərik ki, birinci uşaqlar valideynlər üçün bir təcrübə, sınaq-yanılma dövrü olur. Doğulmamışdan əvvəl valideynlər bu uşaqların "mükəmməl uşaq" olmasını gözləyirlər və bu istiqamətdə onlar yaxşı olanı etmək üçün həddindən artıq çalışırlar. Amma ikinci övladının dünyaya gəlməsi onun "taxtını" itirməsinə səbəb olur. Bundan sonra valideynlərinin sevgisini bölüşmək məcburiyyətində qalır və özünün əvvəlki imtiyazlı mövqeyindən məhrum olur. Taxtdan endirilmənin bir nəticəsi olaraq uşaq valideynlərin diqqətini yenidən qazanmaq üçün mübarizə aparır. Bu ilk uşağın vicdanlı, mühafizəkar, daha müstəqil olmaq kimi bacarıqlarını inkişaf etdirir. Ana və atanın təcrübəsizlliyi ilk uşağın bəzi şeyləri özü öyrənməsinə gətirib çıxarır buna görə də ilk uşaqların akademik olaraq daha uğurlu olduğu müşahidə olunmuşdur.

Valideynlərin bəzən böyük övladlarından çox böyük gözləntiləri olur. Məsuliyyət onun üzərinə qoyulur və hər zaman özündən balaca bacı-qardaşları üçün örnək olması gözlənilir. Valideynlərin kiçik uşaqlara münasibəti ilə ilk uşaqlara olan münasibətini qarşılaşdırdıqda kiçik uşaqlardan daha az gözləntiləri olduğu görünür. Valideyn nəzarəti ilk doğulandan son doğulana getdikcə zəifləyir. Valideynlər ilk uşaqla daha çox vaxt keçirilər. İlk uşaqlar valideyn nəzarətini daha çox hiss edirlər. Nəticədə uşaq sərt və avoritar birinə çevrilə bilər. Onlar məsuliyyətli, inadkar, ciddi, vicdanlı olurlar. Məsuliyyəti üzərilərinə götürməyə, etibarlı və çalışqan olmağa meyllidirlər, lakin həmişə bir addım öndə olmaq üçün özlərini təzyiq altında aciz hiss edirlər. Ən böyük uşaqlar mühafizəkar olmağa meyllidirlər, keçmişə bu və ya digər şəkildə maraq göstərirlər, tez-tez haqlı çıxmağa və ya üstün olmağa ehtiyac duyurlar. Başqalarını daima qorumaq xüsusiyyəti tez-tez böyük uşaqlarda görünür çünki onlar valideynlərindən qorumağı öyrənmişlər. Buna görə də balaca bacı-qardaşlarına valideyniymiş kimi rəftar edə bilərlər [1, 377 ].

# ПРОБЛЕМА АГРЕССИИ И АГРЕССИВНОГО ПОВЕДЕНИЯ В ПСИХОЛОГИИ

***Эюбова Мехрибан, Ахмедова Лейла***

## АННОТАЦИЯ

В статье рассматриваются теоретические подходы к изучению понятий «агрессия» и «агрессивное поведение». Представлены характеристики и аспекты агрессивного поведения различными исследователями, их классификации, а также рассмотрены механизмы влияния различных условий на формирование агрессии у людей.

## PSİXOLOGİYADA “AQRESSİYA” VƏ “AQRESSİV DAVRANIŞ” PROBLEMİ

***Eyyubova Mehriban, Əhmədova Leyla***

## XÜLASƏ

Məqalədə aqressiya və aqressiv davranış anlayışlarına nəzəri yanaşmalar təhlil edilir. Müxtəlif tədqiqatçılar tərəfindən aqressiv davranışın aspektləri və xarakteristikaları təqdim olunur, onların təsnifatları və müxtəlif şəraitlərin insanlarda aqressiyanın formalaşmasına təsiri mexanizmləri öyrənilir.

## THE PROBLEM OF "AGGRESSION" AND "AGGRESSIVE BEHAVIOR" IN PSYCHOLOGY

***Eyubova Mehriban, Ahmadova Leyla***

## SUMMARY

The article deals with theoretical approaches to the study of the concepts of "aggression" and "aggressive behavior". The characteristics and aspects of aggressive behavior by various researchers, their classification are presented, and the mechanisms of influence of various conditions on the formation of aggression in people are considered.

# ФОРМИРОВАНИЕ ПРЕДСТАВЛЕНИЙ У ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА О ВЗАИМООТНОШЕНИЯХ В СЕМЬЕ

***д.ф.п. Эюбова Мехрибан Нияз гызы***
***Агабалаева Гамида Рашад гызы,***
***магистрант II курса БГУ***
***gamida.shixaliyeva@gmail.com***

***Ключевые слова:*** дошкольный возраст, семья, взаимопонимание, дети, родители.
***Açar sözlər:*** məktəbəgədər yaş dövrü, ailə, qarşılıqlı anlaşma, uşaqlar, valideyn.
***Key words:*** preschool age, family, understanding, children, parents.

С первых дней своего существования ребенок становится членом одного коллектива - семьи. В процессе близких взаимоотношений с матерью, отцом, братьями, сестрами, дедушками, бабушками и другими родственниками у ребенка с первых дней его жизни формируется структура личности. Он входит в мир своих родных и в свою очередь перенимает нормы их поведения. Родители дают ребенку первые образцы поведения, с их помощью он познает окружающий мир, им он подражает во всех своих действиях. Эта тенденция всё более усиливается благодаря позитивным эмоциональным связям ребенка с родителями и его стремлением быть похожим на мать и отца. Когда родители осознают эту закономерность и понимают, что от них во многом зависит формирование представлений у ребенка о взаимоотношениях в семье, то они ведут себя так, что все их поступки и поведение целиком и целом способствуют формированию у ребёнка тех качеств и такого понимания человеческих ценностей, которые они хотят ему передать. Такой процесс воспитания можно считать вполне сознательным, так как постоянный контроль за своим поведением, за отношением к другим людям, внимание к организации семейной жизни позволяет воспитывать детей в наиболее благоприятных условиях, способствующих их всестороннему и гармоничному развитию.

Формирование у дошкольников представления о семье можно рассматривать в следующих аспектах: 1) мотивационный аспект, то есть степень значимости семьи для ребенка; 2) знания ребенка о семье, родственных связях и ролях; 3) эмоциональный – это переживания, связанные с событиями в семье; 4) личностный – представления о своем месте в семье, а также о настоящих и будущих семейных ролях.

Структура семьи включает число и состав семьи, а также совокупность взаимоотношений между её членами. Анализ структуры семьи даёт возможность ответить на вопрос, каким образом реализуется функция семьи: кто в семье осуществляет руководство и, кто –исполнение, как распределены между членами семьи права и обязанности. С точки зрения структуры семьи можно выделить такие семьи, где в руководство и организация всех её функций сосредоточены в руках одного члена семьи. В других семьях имеется явно выраженное равное участие в управлении семьей всех её членов. В первом случае говорят об авторитарной системе отношений, во второй – о демократической. Наиболее распространенная структура семьи в нашем обществе – это семья, включающая взрослых её членов (мужа и жены, а также нередко кого-то из их родителей) и детей. Семья чаще ориентирована на равноправное распределение обязанностей, а также равное участия в решении всех семейных проблем.

Нарушение структуры семьи – это такие особенности структуры, которые затрудняют или препятствуют выполнению семьёй её функций. Например, неравномерность распределения хозяйственно-бытовых обязанностей в семье между супругами выступает в качестве нарушения, структуры взаимоотношений, поскольку препят-

ствует удовлетворению ряда потребностей того супруга, на которого ложится основная нагрузка: в восстановлении физических сил, удовлетворения духовных (культурных) потребностей. По той же самой причине нарушением структуры отношений в семье следует признать семейные конфликты, препятствующие выполнению семьёй различных её функций.

Интересная мысль Д. Б. Эльконина о "периодичности " возрастов в детском развитии заслуживает особого внимания. Теоретические представления Д. Б. Эльконина о психологическом развитии ребенка послужили для него хорошей основой развернутый периодизации развития. При этом он опирался на понятие "ведущей деятельности", разработанное А. Н. Леонтьевым. Согласно этому понятию, на каждом этапе жизни человека среди многих других выполненных им видов деятельности существует некоторая главная деятельность, определяющая возникновение и становление основных психологических новообразований данного этапа. Носитель и исполнитель любого вида деятельности – субъект, который и развивает в процессе возникновения в его деятельности различных психологических новообразований.

В развитии детей Д. Б. Эльконин выделил ряд возрастных периодов, связав их с вполне определенными типами ведущей деятельности и соответствующими новообразованиями. Так, дошкольному возрасту присущи прежде всего игровая деятельность, в процессе осуществления которой у ребенка развивается произвольность и действий, их регуляция этическими нормами. Для младшего школьного возраста характерно учебная деятельность, способствующая развитию у ребёнка словесно-логического и рассуждающего мышления. Д. Б. Эльконин полагал, что все детские возрасты могут быть разделены на два типа – в возрастах первого типа у ребенка развивается преимущественно общественно-мотивационная сторона некоторой деятельности; а в возрастах второго типа, следующих за первыми, у ребенка развивается уже операционная сторона этой деятельности. Происходит чередование одних возрастов, в которых у детей по преимуществу развиваются потребности и мотивы, с другими возрастами, когда у детей формируются конкретные операции той или иной деятельности.

Дошкольный период – один из периодов становления личности, который включает в себя систему мотивов и первичные этические нормы. Личность – это такой субъект, деятельность которого регулируется подчинёнными мотивами, этическими нормами и правилами. Хорошо известно, что именно в дошкольном возрасте у детей возникает и развивается произвольное поведение. Произвольность – наличие не столько цели, сколько средств и способов осуществления этой цели, что выступает как важная психологическое изучение личности ребёнка. В дошкольном возрасте возникают также элементы самосознания, первые элементы самооценки и оценки, которыми характеризуется его конец. У ребёнка уже наблюдается тенденция к осуществлению реальный общественно значимой и оцениваемой деятельности, отличной от игры. Выражается эта тенденция в желании ребёнка быть школьником. С концом дошкольного детства связан кризис семи лет, один из основных символов которого – потеря ребёнком непосредственности. При этом дети начинают манерничать и паясничать. Л. С. Выготский выдвигает предположение, что потеря непосредственность и есть следствие начинающейся дифференциации внешней и внутренней жизни. У дошкольника есть переживания, и каждую реакцию взрослого ребенок переживает как хорошую или плохую оценку, как хорошее или плохое отношение к себе со стороны взрослых или сверстников. Однако эти переживания сиюминутные, они существуют как отдельные моменты жизни и являются относительно скоропреходящими. Семь лет появляется обобщение единичного опыта общения, связанного с отношениями прежде всего со стороны взрослых. На основе такого обобщения у ребенка возникает

самооценка, ребёнок вступает в новый период жизни, в котором начинают формироваться инстанции самосознания.

Внутрисемейные отношения выступают в форме межличностных отношений, осуществляющихся в процессе непосредственного общения. Межличностное же общение является одним из социально-психологических механизмов становления и развития личности. Именно в процессе общения со взрослыми ребёнок приобретает навыки речи и мышления, предметных действий, овладевает основами человеческого опыта в различных областях жизни, познаёт и усваивает правила человеческих взаимоотношений, качество, свойственные людям, их стремление и идеалы, воплощая постепенно нравственные основы опыта жизни в собственной деятельности. Уже в игре он моделирует "взрослую жизнь" с её правилами и нормами. В процессе общения со взрослыми происходит то, что можно было бы назвать явлением распредмечивание человека и овладения на этой основе человеческим отношением к миру. Только на основе общение возможно становление самосознания личности, осознание собственного "Я".

Факторы, которые влияют в семье на личность ребенка, условно подразделяют на три группы. Первая – это социальная микросреда семьи, в которой осуществляется приобщение детей к социальным ценностям и ролям, введение их в сложности и противоречия современного мира. Вторая – это внутри – и внесемейная деятельность, по преимуществу бытовой труд, являющийся могучим оружием социализации человека и его приобщения к будущей жизнедеятельности. Третья группа – это собственно семейное воспитание, некий комплекс целенаправленных педагогических воздействий. Если воспользоваться традиционной схемой различных сфер семейных отношений – хозяйственно-бытовые, нравственно-психологические, интимно-личностные, то тогда окажется, что первая группа факторов охватывает нравственно-психологическую сущность этих отношений, тогда как вторая – хозяйственно-бытовую. Значение каждой из этих сфер огромна.

Великий педагог А. С. Макаренко в своем труде "Книга для родителей" писал: "Ваше собственное поведение – самое решающая вещь. Не думайте, что вы воспитываете ребенка только тогда, когда с ним разговариваете или получаете его, или приказываете ему. Вы воспитываете его в каждый момент вашей жизни, даже тогда, когда вас нет дома. Как вы одеваетесь, как вы разговариваете с другими людьми и о других людях, как вы обращаетесь с друзьями и с врагами, как вы смеётесь, читаете газету – всё это, имеет для ребенка большое значение. Малейшие изменения в тонне ребёнок видит или чувствует, все повороты вашей мысли доходят до него невидимыми путями, вы их не замечаете. А если дома вы грубые или хвастливый, или вы пьянствуете, а ещё хуже если вы оскорбляете мать, вы уже воспитываете их плохо, и ваше недостойное поведение будет иметь самые печальные последствия!".

## ЛИТЕРАТУРА

1. Бодалев А. А. Семья и формирование личности. Сборник научных трудов. – Москва 1981.
2. Божович Л. И. Личность и её формирование в детском возрасте. – М., Просвещение, 1968.
3. Эйдемиллер Э. Г., Юстицкий В. В. Семейная психология. – Ленинград, «Медицина», 1990.
4. Плотниекс И. «Психология в семье» – Москва, «Педагогика», 1991.
5. Алешина Ю. Б. «Цикл развития семьи: Исследования и проблемы» // Вест. Моск. ун-та. Психология. – 1987.
6. Макаренко А. «Книга для родителей» - «Питер», 2016.

# ФОРМИРОВАНИЕ ПРЕДСТАВЛЕНИЙ У ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА О ВЗАИМООТНОШЕНИЯХ В СЕМЬЕ

***Эюбова Мехрибан, Агабалаева Гамида***

## АННОТАЦИЯ

Данная диссертационная работа посвящена актуальной проблеме дошкольной педагогики и психологии – проблеме формирования представлений о семейных ценностях у дошкольников. В работе определены психолого-педагогические условия формирования представлений о семейных ценностях у детей дошкольного возраста. Диссертационная работа имеет теоретическое и практическое значение.

## MƏKTƏBƏ QƏBƏR UŞAQLARDA AİLƏ MÜNASİBƏTLƏRİ HAQQINDA NÜMAYƏNDƏLƏRİN FORMASİYASI

***Eyyubova Mehriban, Ağabalayeva Həmidə***

## XÜLASƏ

Bu dissertasiya işi məktəbəqədər pedaqogika və psixologiyanın aktual probleminə - məktəbəqədər uşaqlarda ailə dəyərləri haqqında təsəvvürlərin formalaşdırılması probleminə həsr edilmişdir. Məqalədə məktəbə gədər yaşlı uşaqlarda ailə dəyərləri haqqında təsəvvürlərin formalaşması üçün psixoloji və pedaqoji şərtlər müəyyən edilmişdir. Dissertasiya işinin nəzəri və praktiki əhəmiyyəti vardır.

## FORMATION OF REPRESENTATIONS IN PRESCHOOL CHILDREN ABOUT FAMILY RELATIONSHIPS

***Eyubova Mehriban, Agabalaeva Hamida***

## SUMMARY

This dissertation is devoted to the actual problem of preschool pedagogy and psychology - the problem of the formation of ideas about family values among preschoolers. The work defines the psychological and pedagogical conditions for the formation of ideas about family values in children of the preschool period. The dissertation work has a theoretical and practical meaning.

# MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNÜN PSİXOLOJİ TƏDQİQİ

***Məmmədova Zərifə Elşən qızı***
***BDU-nun II kurs magistrantı***
***zerifememmedova1976@gmail.com***

***Açar sözlər:*** məktəbəqədər dövr,psixoloji xüsusiyyətləri,fiziki ,əqli,inkişaf və s.
***Ключевые слова:*** дошкольный период, психологические характеристики, физический, психический, разработка и так далее
***Keywords:*** preschool period, psychological characteristics, physical, mental, development and etc.

Şəxsiyyətin inkişafının əsası qoyulduğu məktəbəqədər dövr (3-6 yaş) koqnitiv inkişafı, emosional və sosial bacarıqların köməyi ilə şəxsiyyətlərarası münasibətlərin formalaşmasının başlanğıc dövr kimi müəyyən edilir. Digər tərəfdən isə məktəbəqədər dövr şəxsiyyətin inkişafının sonrakı mərhələlərini əhatə edir, zəmin yaradır və dərindən təsir etmə xüsusiyyətinə malikdir. Məktəbəqədər dövrü kritik dövr kimi qiymətləndirirdilər. Ümumiyyətlə məktəbəqədər dövr bütün uşaqlarda oxşar mərhələlərdən keçən lakin bir-birindən fərqlənən bir dövrdür.

Bu dövrdə uşaqlar özünü və ətraf mühiti daha yaxşı tanıması dövrü sayılır. Bu müddət ərzində uşaqlar psixo-motor,sosial,idrak, emosional inkişaf və dil kimi əsas bacarıqlar əldə edirlər. Xüsusilə də 3-6 yaş arası uşaqlar inkişaf etdirdikləri bu bacarıqlar sayəsində ictimai münasibətlərdə fəal rol oynayır, özlərini daha yaxşı ifadə etmə qabiliyyətləri mühüm rol oynayır.

Məktəbəqədər yaşlı uşaqların psixoloji xüsusiyyətləri müxtəlif aspektləri nəzərə alınaraq hərtərəfli araşdırılmışdır. İlk növbədə məktəbəqədər uşağın psixoloji sağlamlığı müəyyən edilir. Tərbiyə və təhsil sistemində əldə edilən biliklər bu dövrdə çox əsasdır.Nisbətən isə fərdin psixoloji sağlamlığı arxa plana keçir. Bunun nəticəsində isə həyatdan razı olmamaq, fobiya, qorxu, stres yarana bilər. Uşağın bir şəxsiyyət kimi formalaşmasında ailədəki münasibətlər çox əsas rol oynayır. Bu dövrdə uşaq həssas,sosial cəhətdən uyğunlaşmamış olur.Təsəvvür etsək ki,öz hisslərini və düşüncələrini ifadə etmək üçün lazımi qədər söz ehtiyatına malik olmayan bir yaş dövrüdür.Bu dövrün psixoloji xüsusiyyətləri olduqca çox araşdırılırmışdır. Məktəbəqədər dövrün psixoloji xüsusiyyətlərindən danışdıqda, ümumi götürülmür, yəni hər yaş dövrünün öz psixoloji xüsusiyyəti vardır. 2 yaşlı uşağın psixoloji xüsusiyyəti 3 yaşlı, 4 yaşlı uşaqdan fərqlənəcəkdir. Əsas çətinlik isə böyüklər ilə ünsiyyətə girməkdir. Valideynlər çox zaman yaş dövrün xüsusiyyətlərin nəzərə almadan ünsiyyətə girirlər. Bu isə olduqca yalnışdır,hər bir valideyn uşaqların psixologiyası, davranış qaydaları, münasibətləri haqqında maariflənməlidirlər.

Məktəbəqədər yaş dövrün xüsusiyyətlərinə nəzər salsaq 3-4 yaş aralığında uşaq tədricən ailə dairəsindən kənara çıxır. Eyni zamanda da uşaq hələ də evə,valideynlərinə çox güclü bağlıdır və onlarla ayrılmaq uşaqlar üçün ciddi bir sınaq olur. Uşaqların hərəkətləri birmənalı şəkildə məqsədyönlü xarakter alır. Müxtəlif fəaliyyətlərlə - oyun, rəsm, dizayn məşğul olurlar. Bu dövrün əsas aparıcı fəaliyyəti məhz rollu oyun olması barizdir. Lakin diqqəti tez dağılır,qeyri-sabitdir. Uşaq üçün psixoloji rahatlığın və təhlükəsizliyin simvolu olan böyüklərlə ünsiyyəti xüsusilə mühüm rol oynayır.

4 yaşdan 6 yaşadək olan dövrdə isə diqqətləri daha sabit olur. Şeirlər və mahnılardan parçalar əzbərləyirlər, özlərini daha yaxşı ifadə edə bilirlər.

Yetkin yaşlarından fərqli olaraq,məktəbəqədər uşaqlar son dərəcə həssas psixofizioloji və şəxsiyyət xüsusiyyətlərinə malikdirlər. Məhz buna görə də, valideynlər ən yaxşı tərbiyə üsullarına sahib olmaq üçün uşaqların psixoloji inkişafının mahiyyətini başa düşməlidir.

Bu dövrdə uşaqlar araşdırmaçı olurlar,böyüklərdən niyə sualını soruşmağı sevirlər. Bu zaman valideyn uşaqlara nə maraqlı gəlirsə başa salmalı, maraqlarını təmin etməlidir.

Biz məktəbəqədər yaşlı uşağın psixologiyasını öyrənmək üçün əsas metodlardan istifadə edə bilərik.Əsas metodlara hər hansı başqa elmi bilik sahəsində olduğu kimi müşahidə və təcrübəni qeyd edə bilərik. Bu metod vasitəsilə uşağın xəbəri olmadan tədqiqatçı tərəfindən müşahidə edilir. Bu müşahidə uzunmüddətli və qısamüddətli ola bilər.

Məktəbəqədər yaş dövründə uşağın sensor inkişafı intensiv surətdə həyata keçir. Duyğuların fərqli növləri daha çox surətlə formalaşır. Görmə duyğularının inkişafına dair aparılan psixoloji tədqiqatlar sübut etmişdir ki, görmənin itiliyi uşağın məşğul olduğu fəaliyyətdən və həmin fəaliyyətin düzgün təşkilindən asılıdır (1,s 2-5).

Məktəbəqədər yaş dövründə uşaqlarda rəngləri ayırd etmə bacarığı sürətlə inkişaf edir. Əsasən uşaqlar qırmızı, sarı, göy və yaşıl rəngləri yaxşı fərqləndirirlər. Lakin aralıq rəngləri-bənövşəyi,abı,narıncı rəngləri fərqləndirməkdə çətinlik çəkirlər.

Məktəbəqədər yaş dövründə uşağın qavrayışı, xüsusilə də məkan qavrayışı digər idrak prosesləri ilə vəhdət təşkil edib təkmilləşir. Uşağın məkana bələdləşməsində isə gözü və əlləri xüsusi rol oynayır (1,s 2).

Biz uşaqlarımızın daima inkişafı üçün çalışmalıyıq, bu inkişafa senso motor, fiziki, psixoloji, əqli inkişafı aid edə bilərik.İnsan daima dəyişən,inkişaf edən varlıqdır. Məktəbəqədər yaşlı uşaqda duyğusal oyun beyin inkişafı və idrak inkişafı üçün çox vacibdir. Bu oyun fəaliyyətləri əsasən uşağın yaşına və ehtiyaclarına uyğun olmalıdır. Bu oyunlara misal göstərsək, məktəbəqədər yaş dövrü üçün qum və palçıq mətbəxi ilə oynamaq,müxtəlif səsləri,tonları eşitmək üçün musiqi alətlərində ifa etmək və s göstərmək olar (4,s 3-4).

Fiziki inkişaf sağlam həyatın ən vacib hissəsidir. Erkən yaşda fiziki inkişafa böyük əhəmiyyət verilməlidir ki, bu xüsusilə məktəbəqədər dövrdə inkişafın ən önəmli dövrü sayılır. Çünki insan inkişafı bu yaşda maksimum sürətlə baş verir. Mütəxəssislər "Uşağın fiziki inkişafında hər hansı problem qalıcı nəticələr yarada bildiklərini"qeyd etmişlər. Bu müddət ərzində uşaq böyük inkişaf yolu keçərək fiziki inkişafında diqqəti cəlb edəcək qədər inkişaf edib möhkəmlənir. Bu dövrdə beyinin çəkisi 1110 qramdan 1350 qrama çatır. Sinir sisteminin əlaqə yaradıcı, birləşdirici telləri də bir xeyli inkişaf edib möhkəmlənir.

Adekvat qidalanma uşaqların fiziki inkişafında ən vacib amillərdən biri kimi qiymətləndirilir. Çünki daha əvvəl də qeyd etdiyim kimi, bu yaşlarda insan inkişafı maksimum sürətlə baş verir və uşağın orqanizminə reaksiya vermək üçün böyük miqdarda enerji lazım olur. Əgər uşaqlar bu yaşda balanslı və adekvat qidalanmaya malik deyillərsə, inkişafı üçün lazım olan enerjini istehsal edə bilmirlər və bu vəziyyət nəticəsində onların inkişafında müxtəlif pozulmalar baş verir. Bunun qarşısını almaq üçün valideyn müəyyən bir program hazırlamalıdır.

Bu dövr ərzində boy heç olmadığı qədər artmış olur. Xüsusilə də qız uşaqlarının boyu daha çox artır və arıqlayıb görünüşü yaradır, əksinə əzələləri güclənməyə, möhkəmlənməyə başlayır. Biz boyun bu qədər surətli inkişafını endokrin sisteminin,hipofizin funksiyasının möhkəmlənməsi ilə əlaqədardır. Çağa ilə müqayisə aparsaq əlləri 2,5 dəfə,ayaqları 3 dəfə, bədəni isə 3 dəfə böyümüş olur.

Məktəbəqədər yaş dövrü şərti reflekslərin yaranması, sadə reflekslərdən mürəkkəb reflekslərə doğru inkişaf dövrü kimi müəyyən olunur. Məktəbəqədər dövrün sonlarında ləngimə prosesi bir xeyli artır, müvazinətlilik inkişaf edir.

Məktəbəqədər yaşlı uşaqların psixologiyasından, psixoloji tədqiqindən danışdıqda əqli proseslərindən danışmaq lazımdır. Bunlara isə, diqqət, hafizə, qavrayış, təxəyyül, nitq və s aid etmək olar. Əsasən məktəbəqədər yaş dövründə diqqətdə müəyyən problemlər olur. Qeyri-ixtiyari diqqət,ixtiyari diqqətin önünə keçir. Bu dövrdə diqqətin araşdırılmasına maraq artmışdır. Məktəbəqədər uşaqlar arasında diqqətsizlik pozğunluğu haqqında araşdırılmışdır, o ümumi olsa da, yalnız simptomlar mütləq pozğunluğu göstərmir və əksər

hallarda məktəbəqədər uşaqların tipik inkişafındakı normal dəyişikliyi əks etdirir. Beləliklə, məktəbəqədər uşaqlarda "pozulmuş" diqqətin dəqiq müəyyən edilməsi çətin ola bilər və məktəbəqədər uşaqlar üçün uyğun, normaya istinad edilmiş diqqət testlərinin hazırlanması da çətindir. Bu testlər vasitəsilə diqqət pozğunluğu öyrənilir, problem varsa aradan qaldırılma yolları araşdırılır və tətbiq edilir. Məktəbəqədər yaşlı uşaqlarda diqqətin fəaliyyətini xarakterizə etmək üçün istifadə edilən üç əsas psixometrik qiymətləndirmə metoduna performansa əsaslanan testlər, strukturlaşdırılmış baxıcı müsahibələri və reyting şkalaları daxildir. Bu dövrdə diqqətə bir neçə hal təsir edə bilər. Bunlara yuxu, xəstəlik, tapşırığa marağın olub olmaması, müəyyən bir çətinliklər (əlavə "yük"diqqət yorğunluğuna səbəb olacaqdır). Daha başqa səbəb göstərməli olsam,televizya programlarında, video oyunlarda diqqət daha passivləşir. Amerika Pediatriya Akademiyası 2 yaşdan kiçik uşaqlar üçün ekran vaxtından, 2-5 yaşlı uşaqlar üçün isə gündə bir saatdan çox olmayan yüksək keyfiyyətli proqramlardan çəkinməyi tövsiyə edir (7, s 2).

Körpəlikdə hafizə tam formalaşmır, məktəbəqədər dövr hafizənin formalaşmasında və inkişafında mühüm əhəmiyyət kəsb edir. Hafizənin inkişafına baxmaq uşaqlar üçün düşünmək və planlaşdırmaq üçün yeni bir yol təqdim edir. Hafizənin inkişafı bizi təkcə məna daşıyan təcrübələrə qaytarmır, həm də dil və savad, planlaşdırma, istiqamətlərə əməl etmək, problem həll etmək, əks etdirmək, təsəvvür etmək və düşünmək kimi düşünmə və öyrənmənin bir çox aspektlərində vacib olan mürəkkəb koqnitiv qabiliyyətdir. Xatırlamaq anlamaqdan başlayır. Uşaqlar yaddaş haqqında başqaları ilə danışaraq və öz mühitlərində həyat hadisələrini yaşayaraq öyrənirlər. Uşaqlar tam dərk etmədikləri hadisələrlə qarşılaşırlarsa, hadisəni xatırlamaq ehtimalı azalır. Böyüklər uşaqlara anlamaqda və yadda saxlamaqda mühüm rol oynayırlar. Yetkinlər üçün ən vacib rol uşaqlarla həssas, sevincli və tərbiyəedici qarşılıqlı əlaqəni təmin etməkdir. Böyüklərin kömək edə biləcəyi digər vacib, lakin sadə üsul hekayələr danışmaq və təcrübələrini, xüsusən də uşaqlarla bölüşdükləri təcrübələri nəql etməkdir (6, s 10-15).

Bu danılmaz faktdır ki, ətraf mühitin və dünyanın dərk edilməsində bütün hiss orqanlarının qarşılıqlı təsiri mühüm əhəmiyyət kəsb edir. Bütün inkişaf sahələrinin sürətlə inkişaf etdiyi dövr olan məktəbəqədər yaş uşaqlarda vizual qavrayış qabiliyyətinin inkişaf etdiyi dövrdür və 3-6 (bəzən 3-7 yaş kimi qeyd edirlər) yaş arasında belə istedadın mənimsənilməsi prosesi sürətlənir. Uşaqlıqda təcil qazanan vizual qavrayış, məktəb müvəffəqiyyəti üçün zəruri olan akademik və motor bacarıqları üçün vacib bir amildir. Bu işdə məktəbəqədər yaşlı uşaqların vizual qavrayış səviyyələrini müxtəlif dəyişənlərə görə araşdırmaq məqsəd qoyulmuşdur. Tədqiqat skaner modeli ilə aparılmışdır. Tapıntıların nəticələrinə görə,məktəbəqədər yaşlı uşaqların vizual qavrayış səviyyələri onların cinsinə, yaşına, təhsil müddətinə görə fəqlənmir, sosial-iqtisadi səviyyə dəyişəninə görə yuxarı, orta, aşağı səviyəyə görə fərq göstərir. Bu tədqiqatın nəticəsi elmi işçilərə,müəssisə və təşkilatlata, müəllimlərə təklif verilmişdir.

## ƏDƏBİYYAT

1. Kamilə Kazımova-Məktəbəqədər yaşlıların psixoloji xüsusiyyətləri
2. Psikiyatride Güncel Yaklaşımlar-Current Approaches in Psychiatry 2021
3.https://studme.org/238681/psihologiya/osnovnye_metody_issledovaniya_psihologii_doshkolnika
4. Psiko sosial gelişim 2020 pdf
5. Şeyma Değirmenci,Zeynep Kılıç Okul öncesi Dönem Çocukları 2018
6. Wood, D. (2003). Çocuklarda Düşünme ve Öğrenme (M.Özünlü Çev.), Ankara: Doruk Yayıncılık.
7. Pre-School Period of Development-jsciment Cental Pdf

# MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNÜN PSİXOLOJİ TƏDQİQİ

***Məmmədova Zərifə***

## XÜLASƏ

Məktəbəqədər yaş dövrü uşağın inkişaf prosesində ən mühüm dövrlərdən biridir. Bu dövrdə valideynlərin münasibəti uşağın normal inkişafına əsaslı təsir edir. Valideynlər bu dövrün həssaslığını nəzərə alaraq, düzgün yanaşma üsulunu seçməlidirlər.

## PSYCHOLOGİCAL STUDY OF PRESCHOOL AGE

***Mammadova Zarifa***

## SUMMARY

The pre-school age period is one of the most important periods in the child's development process. In this period, the attitude of the parents has a significant impact on the normal development of the child. Parents must choose the right approach, taking into consideration the sensitivity of this period.

## ПСИХОЛОГИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Мамедова Зарифа***

## АННОТАЦИЯ

Дошкольного возраста является одним из важнейших периодов в процессе развития ребенка. В это время отношение родителей k оказывает существенное влияние на их развитие. Родители должны выбрать правильный подход с учетом чувствительность этого периода.

# ÖZÜNÜQİYMƏTLƏNDİRMƏNİN ŞAGİRDLƏRİN TƏLİM FƏALİYYƏTİNƏ TƏSİRİ

***Məmmədova Ləman Mehman qızı***
***BDU-nun II kurs magistrantı***
***leman.mamedova321@gmail.com***

***Açar sözlər:*** özünüqiymətləndirmə, şagirdlər, təlim fəaliyyəti, tənqidi təfəkkür, yoldaş qiymətləndirməsi, metakoqnitiv bilik.
***Ключевые слова:*** самооценка, ученики, учебная деятельность, критическое мышление, взаимооценивание, метакогнитивные знания.
***Keywords:*** self-assessment, pupils, educational activity, critical thinking, peer assessment, metacognitive skills.

Son zamanlarda şagirdlərin təlim fəaliyyətinə cəlb olunması, onların bu fəaliyyətdə nə qədər uğurlu olması, sərgilədikləri davranışların, bacarıq və qabiliyyətlərin təlim fəaliyyətinə təsiri məsələsi öz aktuallığını qoruyub saxlamaqdadır. Müasir təhsil sistemində şagirdlərin sistemləşdirilmiş bilik , bacarıq və vərdişlərə sahib olması vacib şərtlərdəndir. Təlim prosesində bilik, bacarıq və vərdişləri qiymətləndirmək üçün məktəbdaxili qiymətləndirmədən: diaqnostik, formativ, summativ qiymətləndirmədən istifadə olunur. Bir sıra pedaqoji ədəbiyyatlarda özünüqiymətləndirmə formativ qiymətləndirmənin daxilində yer alır. Bu halda, təlimdə özünüqiymətləndirmə də böyük rol oynayır ki, şagirdlərin özünüqiymətləndirməsi təlim prosesinin effektiv olması və onların akademik göstəricilərinin yüksək olması üçün vacib amillərdəndir. Belə ki, özünüqiymətləndirmə şagirdlərin həm özlərini, həm öz zehni qabiliyyətlərini, davranışlarını və hərəkətlərini, motivlərini dərk etməsidir. Özünüqiymətləndirmə şagirdlərə imkan verir ki, onlar öz işləri və bacarıqlarına tənqidi və inkişafetdirici yanaşa bilsinlər, eyni zamanda da refleksiya bacarıqlarına yiyələnsinlər.

Azərbaycanda Psixologiya elminin inkişafına böyük töhfə vermiş professorlardan biri Ə.Bayramovun təbirincə desək, əsl məsələ hər bir şəxsin diqqətini öz əməyinə, rəftar və davranışına yönəltmək, onu özünüqiymətləndirməyə sövq etməkdir. Amma bir məsələni də nəzərə almaq lazımdır ki, heç də hər kəs özünə tənqidi münasibət bəsləyə bilmir (2, s.36).

Şagirdlərin tənqidi təfəkkürə malik olması XXI əsrin kompetensiyalarından biridir ki, bu Avropa şurası tərəfindən 2006-cı ildə təqdim olunmuş kompetensiyalar siyahısında öz əksini tapmaqdadır. Belə ki, təhsilin məqsədləri arasında tənqidi təfəkkürə sahib vətəndaşların yetişdirilməsi ön plana çəkilmişdir (6, s.9). Tənqidi təfəkkürə sahib insanlar rasional, məqsədli, empatiyalı həyat tərzi sürməyə cəhd edirlər. Tənqidi düşüncə imkan yaradır ki, şagirdlər gördükləri, eşitdikləri, müşahidə etdikləri informasiyaları analiz, sintez etsinlər, onlar arasında məntiqi əlaqələri tapsınlar, topladıqları informasiyaları kontekstə uyğun qruplaşdırsınlar.

Tənqidi təfəkkürə sahib şagirdlər qarşılaşdıqları müxtəlif informasiyaları analiz və sintez etmə bacarıqlarına sahib olurlar ki, bu da günümüzdə informasiya dövrünün ən vacib tələblərindəndir. Sadalananlar şagirdlərin fərdi öyrənmələrinə, metakoqnitiv bacarıqlarına birbaşa təsir göstərir. Metakoqnitiv biliyin formalaşdırılması isə mənlik şüurunun formalaşdırılmasından sonra başlayır. Mənlik şüuru insanın özünü şəxsiyyət kimi tanıması və dərk etməsi prosesidir. Mənlik şüuru dedikdə insanın özünün tələbat və qabiliyyətlərinə, fikir və hisslərinə, davranış və fəaliyyət motivlərinə şüurlu münasibəti nəzərdə tutulur. Mənlik şüurunun cəhətlərindən biri də məhz özününqiymətləndirmədir (1, s.217).

Özünüqiymətləndirmə təlim fəaliyyətində əsas rol oynayır. Bu anlayışa istər pedaqoji, istərsə də, psixoloji ədəbiyyatlarda rast gəlmək mümkündür. Bu səbəbdən özünüqiymətləndirmə müxtəlif aspektlərən araşdırılmış, bu anlayışa müxtəlif təriflər verilmişdir. Belə ki,

amerikan psixoloqu Heidi Goodrich özünüqiymətləndirməni belə izah etmişdir: "özünüqiymətləndirmə şagirdlərin fərdi işlərinin və öyrənmələrinin inkişafını təmin edən formativ qiymətəndirmədir ki, bu yolla şagirdlər öz mənfi və müsbət cəhətlərini müəyyən edir, göstərdikləri performansı tənqid edə, qiymətləndirə bilirlər" (5). Bu proses zamanı şagirdlər fərdi fəaliyyətləri haqda informasiyalar əldə edə, qarşılarına qoyduqları məqsədə nə qədər çata bildiklərini görə bilirlər. Burada şagirdin özünü adekvat qiymətləndirməsi də böyük rol oynayır, çünki heç də hər bir şagird özünü adekvat qiymətləndirməyi bacarmır.

Psixoloji ədəbiyyatlarda özünüqiymətləndirmənin 3 səviyyəsi fərqləndirilir. Bu səviyyələrin bölgüsünə prosessor Ə. Bayramov və Ə.Əlizadənin müəllifi olduqları "Psixologiya" dərsliyində rast gəlinir;

1. Adekvat özünüqiymətləndirmə - şagird öz bacarıq və qabiliyyətlərini, fəaliyyətlərini adekvat qiymətləndirir.

2. Qeyri-adekvat yuxarı qiymətləndirmə - şagirdin iddia səviyyəsi müvəffəqiyyət səviyyəsindən yuxarıdır və öz bacarıq, qabiliyyətlərini olduğundan yüksək qiymətləndirir.

3. Qeyri-adekvat aşağı qiymətləndirmə - şagirdin iddia səviyyəsi müvəffəqiyyət səviyyəsindən aşağıdır və öz bacarıq, qabiliyyət, fəaliyyətlərini olduğundan aşağı qiymətləndirir (1, s.226).

Təlim prosesi zamanı özünüqiymətləndirmənin həyata keçirilməsinin bir sıra üsulları vardır. Bu effektiv üsullar haqda avstraliyalı mütəxəssis David Boud özünün "Öyrənmənin gücləndirilməsi, qiymətləndirmə" adlı kitabında bəhs etmişdir. Belə ki, o, ilk öncə "aydın əsaslandırma" üsulunun vacibliyini vurğulamışdır. Şagirdlər müəyyən fəaliyyətlə məşğul olan zaman həmin fəaliyyəti nə üçün etdiklərini əsaslandırmalıdırlar. Belə ki, bu aydın əsaslandırma üsulu onların məqsədə gedən yollarına işıq salacaqdır. Nəinki, pedaqogikada , həmçinin psixologiyada da, şüurlu məqsəd mövzusu ön plandadır. Çünki məqsədsiz insan gec-tez uğursuzluqla qarşılaşacaq və ya demotivasiya olacaqdır (3, s.247).

Digər üsul "gözləntilər" üsuludur ki, burada şagirdlər təlim fəaliyyəti zamanı onlardan nə gözləndiyini bilməlidirlər. Müəllim şagirdlərdən nə gözlədiyini açıq-aşkar izah etməlidir. Eyni zamanda müəllimin gözləntilərini dərk edən şagird, bu yolda özünün fəaliyyət istiqamətini daha aydın seçə bilər və həmin gözləntiləri qarşılamaq üçün hədəf müəyyən edə bilər.

David Boud eyni zamanda "Yoldaş qiymətləndirməsi" üsulunun tətbiqinə də geniş yer verilnməsinin vacibliyindən bəhs etmişdir. Bildiyimiz kimi, müasir təlim sistemi birgə fəaliyyətə və əməkdaşlığa fokuslanıb. Bu səbəbdən təlim prosesində qrup işləri , cütlərlə iş, kollektiv iş metodlarından geniş istifadə edilir. Lakin tətbiq zamanı şagirdləri əməkdaşlığa yönəltmək əsas şərtlərdəndir. Elə bir demokratik mühit yaradılmalıdır ki, şagirdlər bir-birlərini tənqid edən zaman dürüst olsunlar və bir-birlərinin rəyini öz xeyirlərinə istifadə edə bilsinlər. Eyni zamanda bunun üçün rubriklərdən də istifadə oluna bilər. Şagird eyni zamanda həm özünü, həm də yoldaşını uyğun meyarlar əsasında qiymətləndirə bilər. Məsələn, dərsdə şagirdlərə üzərində "Mən bu gün dərsə hazır idim?", "Bu günki fəaliyyətimi necə qiymətləndirirəm?", "Səncə, bu tapşırığı yerinə yetirə biləcəksən, bəs yoldaşın yerinə yetirə biləcək?" bu kimi meyarlar olan rubriklər təqdim oluna bilər.  Lakin bu qiymətləndirmə sağlam rəqabət şərtləri altında aparılmalı, şagirdlərarası konfliktə səbəb olmamalıdır.

Yoldaş qiymətləndirməsi şagirdlərin özgüvənlərini artıraraq, onların öyrənmə prosesinə daha fəal cəlb olunmasını təmin edir. Şagirdin yoldaşını qiymətləndirməsi üçün dərs boyu onu izləməsi lazım olur ki, bu da izləyən tərəfdə məsuliyyət alma hissini formalaşdırır. Burada da rubriklərdən istifadə geniş yayılmış üsul hesab oluna bilər. Rubrikə yoldaş qiymətləndirməsinin həyata keçirilməsi üçün bu kimi meyarlar qoyula bilər: "Sual-cavabda aktiv iştirak edirmi?", "Bildiklərini yoldaşları ilə paylaşırmı?", "tapşırıqlarını vaxtı vaxtında təhvil verirmi?" və s.

Bu üsullar düzgün şəkildə və mütəmadi olaraq müəllim tərəfindən həyata keçirildikdə

şagirdlər özlərinin məqsəd və vəzifələrini, hədəflərini düzgün müəyyən edə bilir və fəaliyyət zamanı öz yönlərini düzgün seçərək, uğur qazana bilərlər. Hər bir uğurun mənbəyi şüurlu məqsəddir.

Özünüqiymətləndirmə təlim fəaliyyətini effektiv edən, şagirdləri bu fəaliyyətə cəlb edən, onlarda aktivliyi təmin edən bir anlayışdır. Bu anlayış şagirdlərin dərslərində məsuliyyətli olmasını, öz öyrənmə fəaliyyətlərini özlərinin idarə etməsini təmin edir (7). Belə ki, bu prosesdə şagird öz öyrənmə fəaliyyətini izləyə bilir. Öyrənmə fəaliyyətinin izlənməsi şagirdin öz məqsədini daim ön planda saxlamasıdır. Məqsədlər, hədəflər, onlara gedən strateji yolun müəyyənləşdirilməsi daim eyni qalmır, dinamik olaraq dəyişir. Belə ki, şagirdin bu vəziyyətdən xəbərdar olması, onun təlim fəaliyyətində aktiv iştirakını təmin edir. Eyni zamanda diqqət edilməlidir ki, şagirdlərin qarşılarına qoyduğu məqsəd və hədəflər əlçatan olsun, real məqsədlər olsun. Əks halda, şagirdlər bu məqsədlərinə çata bilməyəcəklər.

Öyrənmə fəaliyyətinin izlənməsi nəinki şagirdlər üçün, eyni zamanda müəllim üçün də önəmlidir. Çünki şagirdin öz fəaliyyətini izləməsi müəllimə də şərait yaradır ki, o təlim nəticələrini effektiv şəkildə seçə bilsin.

İnsanın özü haqda , öz öyrənməsi haqda müxtəlif məlumatlara sahib olması metakoqnitiv biliyə aiddir. Bu yolla şagirdlər təlim prosesində öz mənfi və müsbət, zəif və güclü tərəflərini müəyyən edə bilirlər. Əlbəttə ki, şagirdin metakoqnitiv biliyə sahib olması, onun özünü adekvat qiymətləndirməsi ilə bağlıdır. Metakoqnitiv biliyin yüksək səviyyədə olması şagirdin təlim prosesində aktiv iştirakını təmin edir. Şagird bu yolla zəif olduğu bölməni, sosial bacarığı, hər hansı bir fənni müəyyən edib, onu gücləndirmək üçün müxtəlif cəhdlər göstərir.

Şagirdlərin güclü olduğu sahəni müəyyən etmələri üçün psixoloji ədəbiyyatlarda bir çox özünüqiymətləndirmə metodikaları mövcuddur. Təlim prosesində bunlar həm müəllim, həm də məktəb psixoloqu tərəfindən tətbiq olunmalı, şagirdin özünüqiymətləndirməyə olan marağı artırılmalıdır. Belə ki, bu metodikalardan biri britaniyalı professor Leyton Schnellert tərəfindən təqdim olunmuşdur. Metodika ingiliscə "Who am I" deyə qeydə alınıb, hansı ki, dilimizə tərcümədə "Mən kiməm"? mənasını daşıyır. Metodika müxtəlif başlıqlardan ibarətdir: birinci başlıq "məni ifadə edən sözlər" başlığıdır. Burada şagird özünü necə hiss edir, özündə hansı xüsusiyyətləri gördüyünü qeyd edir. İkinci başlıq "mənim sevimli kitab və hekayələrim" adlanır. Bunları qeyd edərək şagird ortaq məxrəc olaraq hansı janrlara daha çox üstünlük verdiyinə bələd olur. Üçüncü başlıq "tək olarkən etmək istədiyim şeylər" başlığıdır. Bu yolla şagird özünə yeni maraqlar əldə edə, mövcud maraqlarını inkişaf etdirə bilər. Dördüncü başlıq isə "Dostlarımla olarkən etmək istədiklərim"dir. Beşinci başlıqda "mənim özüm haqda olan arzularım, xəyallarım" yer alır. Altıncı başlıq "mənim yaxşı olduğum fənnlər və maraqlandığım sahələr" haqda bəhs açır. Yeddinci başlıq ailəmlə etmək istədiklərim"dir. Səkkizinci başlıq " bir şeyi bildiyimi göstərmək üçün ən asan yol" başlığıdır ki, bunu dərketmə şagirdləri birbaşa təlim fəaliyyətində aktiv olmağa sövq edir. Və nəhayət sonuncu, yəni, doqquzuncu başlıq belədir: "mən sinifdə nəyi daha yaxşı edə bilərəm?" (4, s. 119).

Bütün sadalanan başlıqlar şagirdin birbaşa özünü tanıması, öz maraq və qabiliyyətlərini ortaya çıxarması, özünə və maraqlarına, olduğu mühitə, şəaritə tənqidi münasibətini təmin edilməsi ilə sıx bağlıdır.

Məlumdur ki, hər insan həyatı boyunca yanlış qərarlar verir. Heç də hər zaman, hər kəs doğru qərar verə bilmir. Lakin, bu qərarın yanlış və ya doğru verilməsinin anlaşılması da özünüqiymətləndirmə ilə bağlıdır. Eynilə təlim prosesində verilmiş yanlış qərarlar, yanlış həll edilmiş problemlər özünüqiymətləndirmə nəticəsində öz düzgün həllini tapır. Şagird prosesin niyə yanlış olduğunu düşünür, harada səhv etdiyinə fokuslanır, hansı qərarı versə, gələcək fəaliyyəti üçün daha effektiv olar deyə düşünür. Belə ki, səhv etməyin, yanlış qərarların özü belə təlimdə effektiv komponent hesab oluna bilər. Əgər şagirdlər bilsələr ki,

səhv etmək normaldır, onlar bu səhvlərin öhtəsindən gələ biləcəklər, bu zaman onlar öz təlim fəaliyyətlərini özləri idarə edə bilirlər.

Son olaraq qeyd edək ki, təlim fəaliyyətində özünüqiymətləndirmə əvəzolunmaz rol oynayır. Şagirdlərin özünüqiymətləndirmə bacarıqlarına sahib olması onlarda həm tənqidi düşüncəni formalaşdırır, həm də müasir təhsil sisteminin tələblərindən biri olan şagirdin təlim prosesinə daha fəal qoşulması prosesini asanlaşdırır. Bundan əlavə onlarda metakoqnitiv biliyin inkişaf etdirilməsi üçün şərait yaradaraq, şagirdlərin öz mənfi və müsbət, güclü və zəif tərəflərini görmələrinə, zəif tərəfləri korreksiya etmələri üçün imkan yaradır. Bütün sadalananlar şagirdlərin təlim fəaliyyətinə müsbət təsir göstərir. Şagirdin adekvat özünüqiymətləndirməsi onun daha uğurlu olması, akademik göstərcilərinin yüksək olması ilə nəticələnir.

## ƏDƏBİYYAT


1. Bayramov Ə.S., Əlizadə.Ə.Ə. Psixologiya. Bakı, Maarif, 1989.
2. Bayramov.Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı, 1981.
3. Boud D. Enhancing learning through self-assessment. Kogan page, 1995
4. Butler, D.L., Cartier, S.C., Schnellert, L. Psychological Test and Assessment Modelling. 2011
5. Goodrich H. Student self-assessment: at the intersection of metacognition and authentic assessment. 1996
6. İ. Həsənov, A.Rüstəmova, N.Babayeva. Kurikulum, Metodika, Pedaqogika. Bakı, 2021.
7. https://eur-lex.europa.eu/LexUriServ/LexUriServ.do?uri=OJ:L:2006:394:0010:0018:-en:PDF
8. https://schoolbox.com.au/blog/what-does-self-assessment-and-self-reflection-bring-to-the-learning-journey/


## ÖZÜNÜQİYMƏTLƏNDİRMƏNİN ŞAGİRDLƏRİN TƏLİM FƏALİYYƏTİNƏ TƏSİRİ

***Məmmədova Ləman***

## XÜLASƏ


Son zamanlarda təlim prosesində təhsialanların aktiv fəaliyyəti məsələsi ön plana çəkilmişdir. Onların dərsə aktiv cəlb olunması, dərsə həvəslə qoşulması birbaşa təlim fəaliyyətinin effektivliyinə təsir göstərir. Şagirdləri təlim fəaliyyətinə cəlb edən əsas anlayışlardan biri və ən mühümü özünüqiymətləndirmə hesab olunur. Təlim fəaliyyətində qiymətləndirmə daha çox bilik, bacarıq və vərdişlərə görə aparılsa da, şagirdlərin dərsə fəal qoşulması, həmin bilik və bacarıqları yerində istifadə etməsi onların psixi-emosional vəziyyətləri ilə bağlıdır. Məqalədə qeyd olunur ki, şagirdlərin özünüqiymətləndirməsinin təlim fəaliyyətinə bir sıra müsbət təsirləri mövcuddur.

Təlimdə özünüqiymətləndirmədən və onun üsullarından mütəmadi istifadə etdikdə, bu fəaliyyət daha effektiv olur və şagirdlərin akademik göstəricilərinin yüksək olması ilə nəticələnir. Ədəbiyyatların təhlilindən o nəticəyə gəlinir ki, mütəmadi özünüqiymətləndirmə üsullarından istifadə şagirdlərdə öz maraq və qabiliyyətləri mövzusunda fərqindəlik yaradır, onların öz təhsilində uğur qazanmağına mane olan səbəblərin aradan qaldırılmasına yardım edir. Təhsilalanların özlərini, "mən"lərini dərk etməsi onlarda metakoqnitiv biliyin yaranmasına zəmin yaradır. Bu bilik sayəsində şagirdlər öz mənfi və müsbət, zəif və güclü tərəflərini müəyyən edərək, onlar üzərində korreksiyaedici işlər apara bilirlər.

## THE İMPACT OF SELF-ASSESSMENT TO EDUCATİONAL ACTİVİTY

***Mammadova Laman***

**SUMMARY**

The topic of graduates participating avtively in the educational prosess has recently gained attention. The active involvement in the lesson and enthusiastic participation of pupils directly impacts the effectiveness of the educational prosess. Self –assessment is considered one of the main and the most important concept that attracts students to the learning activity. Although the majority of the training activity's assessment is focused on information, skills, and habits, student’s active participation in the lesson is related to their psycho-emotional conditions. The article mentions about there are many positive impacts of self-assessment to pupils’s active participation to educational avtivity.

The regularly using self-asessment and self-assessment techniques can make this activity effective and results in high academic performance of students or pupils. Following a review of the literature, it was determined that students who regularly self-assess their interests, skills, and barriers to academic success become more conscious of their interests and talents. The students' self-awareness and sense of "I" lay the groundwork for the development of metacognitive knowledge. Thanks to this knowledge pupils are better able to recognize their strong and weak spots, identify their negative and positive points and carry out corrective work on them.

## ВЛИЯНИЕ САМООЦЕНКИ НА УЧЕБНУЮ ДЕЯТЕЛЬНОСТЬ СТУДЕНТОВ

***Мамедова Ляман***

**АННОТАЦИЯ**

В последнее время на первый план выдвигается вопрос активной деятельности выпускников в учебном процессе. Их активное участие в уроке и увлеченное участие в уроке напрямую влияет на эффективность учебной деятельности. Самооценка считается одним из основных понятий, привлекающих учащихся к учебной деятельности, и наиболее важным. Хотя оценка в учебной деятельности в большей степени основывается на знаниях, умениях и навыках, активное участие учащихся в уроке, использование этих знаний и умений на месте связано с их психическим и эмоциональным состоянием. В статье отмечается ряд положительных эффектов самооценки студентов на учебную деятельность.

При регулярном использовании самооценки и ее методов в обучении эта деятельность становится более эффективной и приводит к высокой успеваемости студентов. Из анализа литературы делается вывод, что использование регулярных методов самооценки позволяет учащимся осознать свои интересы и способности, способствует устранению причин, мешающих им добиться успехов в учебе. Понимание учащимися себя и своего «Я» закладывает основу для возникновения у них метакогнитивных знаний. Благодаря этим знаниям учащиеся способны определять свои отрицательные и положительные, слабые и сильные стороны и проводить над ними коррекционную работу.

# GENDER STEREOTİPLƏRİNİN YENİYETMƏLƏRİN TƏLİM FƏALİYYƏTİNƏ TƏSİRİ

***Muradov Vüqar Vahid oğlu***
***BDU-nun II kurs magistrantı***
***vuqar_muradov_2000@mail.ru***

***Açar sözlər:*** yeniyetmələr, STEM, təlim fəaliyyəti, gender, stereotiplər.
***Ключевые слова:*** подростки, СТЕАМ, учебная деятельность, пол, стереотипы.
***Key words:*** adolescents, STEAM, educational activity, gender, stereotypes.

Son zamanlarda öz aktuallığı ilə diqqəti cəlb edən inteqrasiyalı tədris metodu STEM ingiliscə tərcümədən Elm, Texnologiya, Mühəndislik və Riyaziyyat sahələrini özündə birləşdirir. STEM sahəsində yeniyetmə qızların əksəriyyəti ümumiyyətlə az təmsil olunur [1]. Qızların iştirakının statistikasının belə aşağı olmasının əsas səbəbi təhsildə qızların cəmiyyətə və fərdlərin inkişafına ziyan vuran sosial stereotipidir. Belə gender bərabərsizliyi həm təhsil sferasında, həm gündəlik yaşamda, həm də iş sahəsində özünü göstərir.

Həm bioloji, həm də psixososial dəyişənlər fərdlərin inkişafına təsirində mühüm rol oynayır [2]. Psixoloji bacarıqlara və ya idrak bacarıqlarına qavrayış, diqqət, yaddaş (məsələn, qısamüddətli iş), məşq, dil, vizual, məkan, emal və icra funksiyaları daxildir [3]. Bu koqnitiv xüsusiyyətlər oğlanlar və qızlar arasında fərqlidir. Ümumiyyətlə, qızlar dil səlisliyi, qavrayış sürəti, dəqiqlik və incə motor bacarıqlarında üstünlüklər nümayiş etdirir, oğlanlar isə iş yaddaşı və ənənəvi təfəkkürdə riyazi qabiliyyətdə yaxşıdırlar.

Bioloji dəyişənlər koqnitiv qabiliyyətdə cinsi fərqlərin qismən müəyyənediciləri olsa belə, psixososial amillərin əhəmiyyətini nəzərə almamaq olmaz. İntizam üstünlüklərinin seçimində oğlan və qızların gender fərqləri arasında birbaşa əlaqə var. Burada sosial-mədəni cinsiyyət əsas rol oynayır. Psixoloqlar insan davranışındakı cinsi fərqləri müzakirə edərkən, ilk növbədə cinsiyyət rolları və sosiallaşma təcrübələri kimi cinsdən fərqli davranışın bilavasitə və proksimal səbəblərini nəzərə alırlar [6]. Basow və Rubin iddia etdiyi kimi, “yetkinlik yaşına çatmayan qızlar üzərində artan təzyiqlər qız cinsiyyət rolu reseptlərinə uyğunlaşmaqdır” [7]. Sosial və psixoloji nöqteyi-nəzərdən genderin təsiri erkən yeniyetməlik dövründən daha da güclənir, çünki yeniyetmə qızlar arasında dəyişən mühitə uyğunlaşmaq üçün həm daxili, həm də xarici tələblər tələb olunur. Genderin sosial-mədəni proseduru onların fiziki, cinsi və sosial mənliklərini qavrayışları ilə yanaşı, heysiyyətinə, öz səriştəsinin formalaşmasına təsir edəcəkdir [4]. Bu gender gözləntiləri artan stresə səbəb ola bilər ki, bu da özünə hörmətin, müqavimətin və möhkəmliyin azalmasına səbəb olur.

Psixososial dəyişənlərin ilk növbədə oğlanlar və qızlar arasındakı fərqlərə görə məsuliyyət daşıdığına inam, "tərbiyə fərziyyəsi" olaraq adlandırılır [5]. Məsələn, valideynlər hansısa nalayiq davranışa görə oğullarını döyürlər, lakin qızlarını otaqda qoyurlar və eyni pis davranışa görə ona şam yeməyi vermirlər ki, bu da ailənin bütün üzvlərinə güclü gender rolu stereotipi mesajı göndərir. Onlar eyni davransalar da, qızlara və oğlanlara fərqli münasibət göstərilir. Ailədən başqa uşaqların görüşdüyü müəllimlər də müxtəlif səbəblərdən qız və oğlanlara diqqət yetirəcək, qız və oğlanlar üçün fərqli qaydalar tətbiq edəcəklər. Gender rolu stereotiplərinin sübutu həyat boyu tapıla bilər. Bu gender stereotipi rolu anlayışı yavaş-yavaş dərin kök salır ki, bu da incə şəkildə gender stereotiplərinin yaranmasına gətirib çıxarır və hətta yeniyetmələrin peşə seçimlərinə təsir göstərir.

STEM sahələrində gender stereotipləri bir çox insanların qızların oğlanlara nisbətən elm və yaxından əlaqəli fənləri öyrənmə qabiliyyətinin daha az olduğuna inandığı və mövcud sosial-mədəni mühitdə geniş yayılmış gender stereotipi olduğuna inanır. STEM sahələrində gender stereotipləri qızların elmdə öyrənməsinə əhəmiyyətli təsir göstərir. Riyaziyyat təkcə

çox vacib bir fənn deyil, həm də bir çox başqa fənlər üçün əsasdır. Elə buna görə də tədqiqatçılar orta məktəbdə təbiət fənləri dərslərində qızların az olduğunu, liberal sənət dərslərində isə çoxlu qızların olduğunu müəyyən ediblər. Həmçinin elm və texnologiya ixtisaslarında daha az, humanitar elmlərdə isə daha çox qız var, həmçinin elm və texnologiyada yüksək nailiyyətlər əldə etmiş qızların oğlanlardan çox az olduğunu müşahidə edilmişdir.

Yeniyetməlik dövrü insanın ideyalarının tədricən formalaşdığı və maraqlarının tədricən sabitləşdiyi mərhələdir. Bu həm də insanların kollec, universitet ixtisası seçimi və karyera planlaması daxil olmaqla, gələcəyə böyük təsir göstərən seçimlərlə üzləşməli olduğu bir mərhələdir. STEM-də qızlar öz bacarıqlarından uğurla istifadə edə, gəlir əldə edə və bütövlükdə cəmiyyətə töhfə verə bilirlər.

Müasir iqtisadiyyatın şaxələndirilməsi ilə ənənəvi vahid intizam və peşə gender stereotipləri getdikcə rəqabətli istedad bazarındakı dəyişikliklərə uyğunlaşa bilmir. Fərdlərin nöqteyi-nəzərindən, fənlərin və peşələrin gender stereotipləri ümumi inkişafı məhdudlaşdıracaq, bu da fərdin mühakimələrinə və ixtisas, peşə seçimlərinə təsir edəcəkdir. Məktəblərin nöqteyi-nəzərindən gender stereotipləri müəllimlərə fənlər, peşələr üzrə oğlan və qız şagirdlər üçün fərqli tələblər qoymağa imkan verəcək. Fərqli rəftar ədalətli təhsilin həyata keçirilməsinə kömək etmir və oğlan və qız şagirdlərin şəxsiyyətinin ümumi inkişafına kömək etmir. Cəmiyyətin nöqteyi-nəzərindən intizam və peşələrin gender stereotipləri müəyyən bir peşədə oğlan və qızın monopoliyasını yaradacaqdır. Sosial nöqteyi-nəzərdən subyektlərin və peşələrin gender stereotipləri müəyyən peşədə oğlan və qızların monopoliyasını yarada və peşə gender seqreqasiyasına səbəb ola bilər ki, bu da müəssisələrin uzunmüddətli inkişafı üçün əlverişli deyil və cəmiyyətin sabit inkişafına təhlükə yaradır.

Qızlar oğlanlar kimi STEM bacarıqlarını inkişaf etdirməyə qadir olsalar da, ümumiyyətlə bunu etməkdən çəkinirlər. Eyni zamanda, universitetdəki STEM proqramlarını oğlanlardan daha çox qız tərk edir. Məktəblərdə gender stereotipləri, o cümlədən müəllimlərin davranış işarələri və tədris materialları yazmaq meylləri geniş yayılmışdır. Əvvəlki tədqiqatlar göstərmişdir ki, oğlanlar qızlarla müqayisədə elm siniflərində müəllimlərdən daha çox diqqət alırlar, müəllimlərlə ünsiyyətə daha çox vaxt tapırlar, daha çox tərif və tənqidi rəy və düzəlişlər alırlar. Həmçinin, müəllimlər oğlanlara güvənir və onlara daha çox diqqət yetirirlər, lakin qızlara daha çox şübhə ilə yanaşırlar və daha az maraqlanırlar və həvəsləndirirlər. Müəllimlər nadir hallarda qızların öyrənmə qabiliyyətinə uyğun şəkildə dərs deməkdən əziyyət çəkirlər. Riyaziyyat dərsliklərinin seçimində də gender fərqləri var, materiallar qızlardan daha çox oğlanlar üçün nəzərdə tutulub. Bütün bunlar şagirdlərdə oğlanların daha güclü, qızların isə zəif olması təəssüratı yaradır ki, bu da qızlar üçün çox əlverişsizdir.

Bu şəraitdə bəzi yeniyetmə qızlar STEM fənlərindən həzz alsalar da, köhnəlmiş gender stereotipləri ilə böyüdükcə ailələri, müəllimləri və sosial mühitləri onlara bu sahəyə girməyi məsləhət görmür və özlərini STEM-ə yaraşmayan hiss etməyə başlayırlar. Tədqiqat daha sonra müəyyən edir ki, qız rol modellərinin rəhbərliyi və sosial qavrayışların təkanları ilə qızların təhsildə inadkar olma ehtimalı daha yüksəkdir. Bundan əlavə, şagirdlə eyni cinsdən olan müəllimin olması həmin müəllimin tədris etdiyi fənnə psixoloji yaxınlıq yaradır ki, bu da öz növbəsində fənnə marağın artmasına kömək edir. Məsələn, qız fənn müəlliminin təyin edilməsi qızların öz gələcəkləri üçün elmi faydalı tapma ehtimalını artırır. Bunun səbəbi, bəzi qız elm müəllimlərinin qızları STEM kimi stereotipik olaraq "qızlar üçün uyğun olmayan" fənləri öyrənməyə təşviq edə bilən gənc qızlar üçün nümunə olmasıdır.

Şərq və Qərb təhsil sistemləri fərqli mədəniyyətlərə görə fərqlənir və dolayısı ilə hər iki mədəniyyətin üstünlüklərini və mənfi cəhətlərini göstərir. Qərb ölkələrində, xüsusən də Mərkəzi və Şərqi Avropada qızlar təhsil nailiyyətləri baxımından oğlanlara nisbətən

əhəmiyyətli üstünlüyə malikdirlər. Çünki inkişaf etmiş ölkələr riyaziyyat və təbiət fənləri üzrə təhsildə oğlanlara nisbətən qızların təhsil çatışmazlığının məhdudlaşdırılmasında daha müvəffəqiyyətli olurlar. İkincisi, Qərb təhsil fəlsəfəsi şagirdnin cinsinə görə bəzi təhsil fərqlərini bir qədər dəf edə bilir. Qərb təhsil fəlsəfəsindəki şagirdlər sinifdə fəal öyrənənlər kimi davranırlar, çünki tədris və təlim prosesi müəllimin diqqət mərkəzində olmasından daha çox şagirdlərin sinifdə fəal öyrənən olmasına yönəlib. O, şagirdləri effektiv öyrənmə və öyrətmə fəaliyyətlərinin yaradılmasında müəllim kimi deyil, şagird rolunu maksimum dərəcədə artırmaq üçün fikirlərini fəal şəkildə təqdim etməyə və paylaşmağa təşviq edir. Məsələn, onlar verilən tapşırığın yerinə yetirilməsində iştirak etdikdə çox vaxt qrup müzakirəsi formasında olurlar. Bütün şagirdlər düşünməyə və fikirlərini ifadə etməyə həvəsləndirilir. Bu, onlara nəinki sinifdə iştirak etməyə imkan verir, həm də onların sinifdən kənarda belə təlim prosesində fəal iştirakına kömək edir. Qərb təhsili fəal öyrənmə, şagird mərkəzlilik, mənalı öyrənmə, yaradıcılıq, təriflər və yaxın müəllim-şagird münasibətlərini vurğulayır. Şərq təhsili isə Qərb təhsil fəlsəfəsinin tam əksi ilə xarakterizə olunur.

Digər tərəfdən, sənayeləşmiş Qərb ölkələrindən bəzi dəlillər var ki, qızlar yüksək bacarıqlarına baxmayaraq daha pis vəziyyətdədirlər. Üstəlik, bəzi Şərq keçid ölkələrində genderlə bağlı əmək haqqı fərqləri və peşə ayrı-seçkiliyi kimi hallar mövcuddur ki, bu da qızların daha yaxşı ixtisaslara malik olsa belə, əmək bazarında ayrı-seçkiliklə üzləşmə ehtimalının daha yüksək olduğunu göstərir.

Yeniyetmələrin ailə və təhsil mühiti ilə sıx bağlı olan fənlərin qeyri-bərabər gender bölgüsünün əsas səbəbi gender stereotipləridir. Araşdırmalar göstərib ki, STEM sahələrində qız rol modellərinin gücü yeniyetmə qızları bu cür stereotipləri həll etmək üçün cəsarət tapmağa ruhlandırır. Bundan əlavə, oğlan və qızların bioloji quruluşundakı fərqlər əhəmiyyətsiz deyil. Şərq və Qərb ölkələri arasında müqayisəli təhlildə daha çox inkişaf etmiş ölkələrin qız şagirdlərin ixtisas seçiminə gender stereotiplərinin təsirini azaltmaq ehtimalı daha yüksəkdir, lakin bu təsir xüsusilə nəzərə çarpmır. Ona görə də belə gender stereotiplərinin formalaşması mürəkkəb xarakter daşıyır və cəmiyyətin iqtisadi inkişafı ilə bağlıdır.

## ƏDƏBİYYAT

1. N. Upadhayay, S. Guragain, Comparison of Cognitive Functions Between Male and Female Medical Students: A Pilot Study. Journal of clinical and diagnostic research: JCDR, 8(6) (2014) BC12. DOI: https://doi.org/10.7860/JCDR/2014/7490.4449
2. S. Logan, R. Johnston, Investigating gender differences in reading. Educational review, 62 (2) (2010) 175-187.
3. M. Niederle, L. Vesterlund, Do women shy away from competition? Do men compete too much? The quarterly journal of economics, 122 (3) (2007), 1067-1101.
4. C. A. Shapiro, L. J. Sax, Major selection and persistence for women in STEM. New Directions for Institutional Research, 2011(152) (2011), 5-18.
5. S. J. Song, Gender Stereotype, Mathematical Efficacy And Its Impact In Girls' Mathematics[J]. Mathematics teaching in middle schools, (04) (2017), 1-3.
6. W. J. Shi, L. H. Song, S. Li, S. Q. Zhu, G. X. Liu, X. Q. Zhang, The impact, reasons and response of disciplinary and occupational gender stereotypes on individuals. Higher Education Journal [J]. (2019), 47-49.
7. T. S. Dee, Teachers and the gender gaps in student achievement. Journal of Human resources, 42 (3) (2007), 528-554.

# GENDER STEREOTİPLƏRİ YENİYETMƏLƏRİN SOSİAL PROBLEMİ KİMİ

***Vüqar Muradov***

## XÜLASƏ

Bu məqalə yeniyetmələrin təhsil müddətində sosial stereotiplərinin araşdırılmasına və dəyişdirilməsinə yönəlib, çünki gender fərqləri onların müəyyən bir fənn üzrə üstünlüklərinin formalaşmasına, kollec ixtisasları və karyera yolları seçimlərinə təsir göstərir. Gender fərqlərinin yeniyetmələrin fənlərə üstünlük verməsinə necə təsir etdiyini öyrənərkən o, sosial və psixoloji dəyişənlərlə (məsələn, sosial-ətraf mühitə təsirlər) yanaşı, bioloji dəyişənlər (məsələn, fizioloji struktur) nöqteyi-nəzərindən hərtərəfli və obyektiv şəkildə təhlil ediləcəkdir. Genderlə bağlı sosial stereotiplər həm oğlanların, həm də qızların müəyyən sahələrdə potensialını məhdudlaşdırır. İnsanların potensiallarını ortaya çıxarmağın yeganə yolu problemin səbəblərini anlamaq və problemi həll etməkdir.

## ГЕНДЕРНЫЕ СТЕРЕОТИПЫ КАК СОЦИАЛЬНАЯ ПРОБЛЕМА ПОДРОСТКОВ

***Вугар Мурадов***

## АННОТАЦИЯ

Данная статья посвящена изучению и изменению социальных стереотипов подростков в образовательном процессе, так как гендерные различия влияют на выбор предметов, специальностей вуза и карьеры. При изучении того, как гендерные различия влияют на выбор подростков, они будут всесторонне и объективно проанализированы с точки зрения биологических переменных (например, физиологической структуры), а также социальных и психологических переменных (например, социально-средовых воздействий). Социальные стереотипы, связанные с полом, ограничивают возможности как мальчиков, так и девочек в определенных областях. Единственный способ раскрыть потенциал людей — это понять причины проблемы и решить проблему.

## GENDER STEREOTYPES AS A SOCIAL PROBLEM OF ADOLESCENTS

***Vugar Muradov***

## SUMMARY

This article is devoted to the study and change of social stereotypes of adolescents in the educational process, since gender differences affect the choice of subjects, university specialties and careers. In examining how gender differences influence adolescent choices, they will be comprehensively and objectively analyzed in terms of biological variables (eg physiological structure) as well as social and psychological variables (eg socio-environmental influences). Social stereotypes associated with gender limit the opportunities for both boys and girls in certain areas. The only way to better realize the potential of people is to understand the causes of the problem and solve the problem.

# ПРОБЛЕМА ОТНОШЕНИЙ МЕЖДУ ПОКОЛЕНИЯМИ И КУЛЬТУРНО-ЦЕННОСТНАЯ ОРИЕНТАЦИЯ МОЛОДЕЖИ

***Мамедова Назрин Рауф***
***магистрант II курса БГУ***
***nazrimammadova@bk.ru***

***Ключевые слова:*** поколение, межпоколенные отношения, молодежь; культура, ценность.
***Açar sözlər*****:** nəsil, nəsillərarası münasibətlər, gənclik; mədəniyyət, dəyər.
***Keywords*****:** generation, intergenerational relations, youth; culture, value.

Об актуальности проблемы межпоколенных отношений свидетельствует то, что в обществе происходит множество изменений, которые в первую очередь влияют на отношения между поколениями [1]. Необходимо отметить также тот факт, что изменения в обществе меняют и культурно-ценностную ориентацию поколений.

Данная проблема рассматривалась такими современными исследователями как Р. Исмаилов, М.Д. Петраш, М.И. Постникова, М.В. Сапоровская, О.Ю. Стрижицкая. В своих трудах они отметили изменения культурно-ценностной ориентации поколений в структуре межпоколенных отношений.

На основе анализа трудов выше отмеченных исследователей необходимо отметить, что изменение общества происходит в ускоренном темпе. Данные изменения и приводят к принятию новых решений для современного поколения, а также влияет на отношения между поколениями, на их интересы. Также М.И. Постникова отмечает, что существуют основные категории, которые применяются для анализа социокультурных процессов и явлений. Так как столкновение интересов поколений в социокультурных процессах, влияют в положительном или отрицательном направлении на отношения между поколениями, их можно описать с помощью данных категорий [2]. Первая категория – это ценность, как вещь, явление, человек, идея, которые, значимы в глазах индивида, группы, народа, общества ввиду своей полезности с точки зрения жизни. Вторая категория – это нормы, которые представляют собой правила поведения и деятельности людей или их принципы. Все отмеченные явления влияют на отношения между поколениями, а также на изменения ценностей поколений в результате изменения общества.

Для выявления отношений между поколениями, а также для рассмотрения динамики изменение ценностей молодежи в результате социокультурных изменений было проведено исследование. В исследовании участвовали 70 испытуемых 18 – 35 лет из Азербайджана, города Баку. В данном исследовании были применены следующие методики:

1. Опросник «Межпоколенные социальные отношения» М.Д. Петраш, О.Ю. Стрижицкой;
2. «Тест культурно-ценностных ориентаций» Дж. Таусенда;
3. Методика Ш. Шварца «Ценностный опросник Шварца».

Рассмотрим результаты каждой методики. «Опросник межпоколенные социальные отношения» методика была разработана М.Д. Петраш, О.Ю. Стрижицкая, версия для молодежи. В опросник включены две шкалы: Шкала «Межпоколенный диалог» (МПД) и «Межпоколенное взаимодействие» (МПВз) [3]. Результаты должны обрабатываться в процентах. По шкале МПД результат составлял 71%. Высокое процентное соотношение показывает, что молодежь высоко оценивает жизненный опыт старшего поколения, учитывает их опыт в познании своей собственной жизни, могут находить

общий язык, отмечают важность и пользу данного общения.

По шкале МПВз результат составлял 62,5%, что свидетельствует об умеренной легкости установления контакта со старшим поколением, конструктивное общение с родителями, с преподавателями и прародителями. Обобщив результаты данной методики, можно отметить, что возможность конструктивного межпоколенного диалога и выстраивание конструктивного межпоколенного взаимодействия. Результаты представлены в таблице I.

Таблица I

| Шкала | Проценты (%) |
|---|---|
| «Межпоколенный диалог» (МПД) | 71% |
| «Межпоколенное взаимодействие» (МПВз) | 62,5% |

«Тест культурно-ценностных ориентаций» разработано американским психологом Дж. Таусендом. Данный тест не является личностным тестом, так как он предназначен для определения главных тенденций формирования и становления изучаемой культуры. Тест включает представление о трех типов культуры [4]:

1. Традиционная культура (ТК) – характеризуется направленностью людей на прошлое, на традиции и заинтересованностью историей.

2. Современная культура (СК) – характеризуется направленностью людей на настоящее, на современные события.

3. Динамически развивающаяся культура (ДРК) – характеризуется направленностью людей на будущее, на достижение значительных и быстрых результатов.

По результатам данной методики 53,32% испытуемых относятся к ТК; 25,14% испытуемых к СК; 21,54 испытуемых к ДРК. Данные результаты показывают, что больше половины молодежи ориентируются на прошлое, придерживаются к традициям. Традиционная культура характеризуется тем, что за действиями, поступками людей есть постоянный контроль со стороны окружающих, принятие решение осуществляется коллективно. За какие-либо успехи, человека вознаграждают не сразу, через определенное время. Результаты представлены в таблице II.

Таблица II

| Типы культур | Проценты (%) |
|---|---|
| Традиционная культура (ТК) | 53,2% |
| Современная культура (СК) | 25,14% |
| Динамически развивающаяся культура (ДРК) | 21,54% |

«Тест ценности Шварца» применяется для исследования изменения ценностей в культурах в связи с изменениями в обществе, и для личности в связи с ее жизненными проблемами. Опросник Шварца подразделяет все ценности на социальные и индивидуальные ценности.

Опросник разработан Шаломом Шварцем в 1992 году. Опросник состоит из двух частей: первая часть опросника предназначена для изучения ценностей, которые влияют на личность; вторая часть опросника представляет собой профиль личности. Результаты обрабатываются в баллах, а среднее значение в рангах. Первый ранг присваивается типу ценностей, имеющему наиболее высокий средний балл, десятый присваивается имеющему самый низкий средний балл [5].

Рассмотрим результаты данного теста по шкалам. По шкале нормативных идеалов первый ранг присваивается ценности безопасность. Самая незначительная ценность для молодежи по данной шкале присваивается к ценности власть. По шкале инди-

видуальных приоритетов также максимальный ранг был присвоен к ценности безопасность. Самый низкий ранг получает ценность традиции. Результаты представлены в таблице III.

Таблица III

| Тип ценностей | Уровень нормативных идеалов | Ранг | Уровень индивидуальных приоритетов | Ранг |
|---|---|---|---|---|
| Конформность | 48,5 | 6 | 20 | 8 |
| Традиции | 39,4 | 8 | 12,25 | 10 |
| Доброта | 49,6 | 5 | 27,25 | 4 |
| Универсализм | 49,7 | 4 | 27 | 5 |
| Самостоятельность | 52 | 2 | 28,25 | 3 |
| Стимуляция | 32,6 | 9 | 23 | 7 |
| Гедонизм | 50,6 | 3 | 29 | 2 |
| Достижения | 48,25 | 7 | 26,25 | 6 |
| Власть | 27 | 10 | 13 | 9 |
| Безопасность | 58,5 | 1 | 30 | 1 |

Рассматривая результаты данного теста необходимо отметить, что причиной значимости ценности безопасность для молодежи по двум шкалам могут быть социокультурные изменения в нашей стране. Рассмотрим данные причины:

1. В первую очередь важно отметить, что 27 сентября 2020 году в нашей стране, Азербайджан началась война, которая длилась 44 дня.

2. Затем изменения, которые затронули весь мир и нашу страну – пандемия.

Следовательно, необходимо отметить, что испытуемые при заполнении теста давали максимальные баллы к таким пунктам, как мир во всем мире; безопасность семьи; национальная безопасность, что является следствием первой причины. Также максимальные баллы были присвоены к таким пунктам как здоровый, чистоплотный, что является следствием второй причины. Данные пункты входят в ценность безопасность.

Самая незначительная ценность по шкале нормативных идеалов это власть. Это означает, что молодежь не стремится к достижению социального статуса или престижа, контроля или доминирования над людьми и средствами. Самая незначительная ценность, которая была отмечена со стороны испытуемых по шкале индивидуальных приоритетов это традиции. Это показывает, что молодежь не склонна к традиционным способам поведения, реже принимают формы религиозных обрядов, верований, норм поведения, а также принятие обычаев и идей, которые существуют в культуре.

После обработки данных методик было выявлено, что молодежь конструктивно относятся к старшему поколению, принимает их, а также может построить благопри-

ятные взаимоотношения. Затем было выявлено, что больше половины испытуемых относят себя к традиционной культуре, но при этом самая незначительная ценность для молодежи это традиции. Это показывает, что свою культуру данное поколение рассматривает как традиционную культуру, но не считают традиции как значимую ценность. Также незначительная ценность для молодежи это власть, что низкую значимость социального статуса, богатства, доминирование над людьми и средствами. Наиболее значительная ценность для молодого поколения была выявлена – безопасность.

Как видно по результатам исследования, социокультурные изменения влияют на изменения ценностей у молодежи. В настоящее время в нашей стране, а также во всем мире происходят общественные и глобальные изменения. Меняются приоритеты, убеждения, ценности поколений, а также отношения между поколениями. Все происходящие изменения могут повлиять как положительно, так и отрицательно.

Подводя итог вышесказанному важно отметить, что отношения между поколениями, социокультурные изменения, изменения ценностей поколений является актуальной проблемой, не только в прошлое и в настоящее время, но и требует внимания и в будущем. Так как наш мир и наше общество находятся в динамике, а это требует особого внимания для исследования данных изменений в психологии и в смежных науках.

## ЛИТЕРАТУРА

1. Сапоровская, М. В. Психология межпоколенных отношений: конфликты и ресурсы / Т. Л. Крюкова, Т. В. Гущина, М. В. Сапоровская, Е. А. Петрова; [отв. ред. М. В. Сапоровская]. - 2-е изд., перераб. и доп. - Кострома: КГУ им. Н. А. Некрасова, 2012.- 384 с.
2. Постникова М.И. Межпоколенные отношения в контексте социокультурных изменений в современной России // Известия Российского государственного педагогического университета им. А.И.Герцена. 2011. № 81. С. 265–275.
3. Петраш М.Д., Стрижицкая О.Ю. Межпоколенные социальные отношения: разработка версии опросника для молодежи // Мир науки. Педагогика и психология, 2020 №6. 11с.
4. Сонин В.А. Психодиагностическое познание профессиональной деятельности. Тест культурно-ценностных ориентации (Дж.Таусенд, вариант Л.Г.Почебут) – СПб., 2004. С.212-215.
5. Карандашев В.Н. Методика Шварца для изучения ценностей личности: концепция и методическое руководство. — СПб.: Речь, 2004 - 70 с.

# ПРОБЛЕМА ОТНОШЕНИЙ МЕЖДУ ПОКОЛЕНИЯМИ И КУЛЬТУРНО-ЦЕННОСТНАЯ ОРИЕНТАЦИЯ МОЛОДЕЖИ

***Мамедова Назрин***

## АННОТАЦИЯ

В статье рассматривается анализ проблемы межпоколенных отношений в современном меняющемся мире, а также культурно-ценностная ориентация молодежи. Дано описание исследования: выявление отношений между поколениями, культурно-ценностная ориентация молодежи, а также исследование динамики изменения ценностей в связи с изменениями в обществе.

# NƏSİLLƏR ARASINDA MÜNASİBƏTLƏR PROBLEMİ VƏ GƏNCLƏRİN MƏDƏNİ-DƏYƏR ORIYENTASIYASI

*Məmmədova Nəzrin*

## XÜLASƏ

Məqalə müasir dəyişən dünyada nəsillərarası münasibətlər probleminin təhlilindən, eləcə də gənclərin mədəni və dəyər oriyentasiyasından bəhs edir. Tədqiqatın təsviri verilmişdir: nəsillər arasında əlaqələrin müəyyən edilməsi, gənclərin mədəni və dəyər yönümlü olması, habelə cəmiyyətdəki dəyişikliklərlə əlaqədar dəyərlərin dəyişmə dinamikasının öyrənilməsi.

# ANALYSIS OF THE PROBLEM OF RELATIONS BETWEEN GENERATIONS AND CULTURAL AND VALUE ORIENTATION OF YOUTH

*Mammadova Nazrin*

## SUMMARY

The article deals with the analysis of the problem of intergenerational relations in the modern changing world, as well as the cultural and value orientation of young people. The description of the study is given: the identification of relations between generations, the cultural and value orientation of young people, as well as the study of the dynamics of changes in values in connection with changes in society.

# SOSİOLOGİYA

## "TİK-TOK, ONUN KİMİ SOSİAL PLATFORMALARIN İNSAN BEYNİNİN YUYULMASINDA ROLU" TƏDQİQAT MÖVZUSUNDA PİLOT ARAŞDIRMA

***Şirinli Xədicə Seymur qızı***
***BDU-nun II kurs magistrantı***
***s_reyhan@mail.ru***

***Açar sözlər:*** tiktok, seçmə, tədqiqat, sosial media
***Ключевые слова:*** тикток, выборка, исследование, социальные сети
***Keywords:*** tiktok, sampling, research, social media

Məqalədə Tik-tok, Youtube kimi platformaların insan həyatında yeri, sosial medianın insana mənfi və müsbət təsiri, onların faydalı və zərərli tərəfləri, həyatın təməl ehtiyaclarından birinə çevrilmə səbəblərindən, problemlərdən və onların qarşısının alınması tədbirlərindən bəhs olunur.

"Pinqvinləşirikmi?"

Müasir dünyamızda elektron media və sosial şəbəkələr həyatın təməl ehtiyaclarından birinə çevrilib, insan həyatının bir parçası olub. Ondan faydalanmaq və zərərlərindən qaçmaq öz əlimizdədir.

İstədiyimiz məlumatı rahatlıqla əldə etmək, virtual təhsil almaq, xarici dil öyrənmək, elektron kitaba sahib olmaq, görüntülü əlaqə, online alış- veriş və.s kimi çoxsaylı faydalı tərəfləri olduğu kimi asılılıq, yuxu rejiminin pozulması, zaman itirmək, ailə isə keçirilən zamanın azalması, kitab oxuma vərdişinin azalması, sosiallasmanın azalması, müxtəlif narahatlıqlar, dələduzluq halları, virtual təcavüz, pornoqrafik səhifələrin mənəviyyata zərbə vurması kimi də zərərli tərəfləri vardır. Saatlarla vaxtını kompüter arxasında keçirən şəxs fiziki olaraq dəyişir, dayaqhərəkət sistemi pozulur, sanki "pinqvinləşir".

Hər birimiz sosial təsdiqlənmə qarşısında müdafiəsizik. İnsanların bizim haqqımızda nə düşündüklərini həqiqətəndə ciddiyə alırıq. Yeni bir paylaşım, şəkil yüklədiyimizdə insanların paylaşımımız haqqında nə düşündükləri ilə bağlı zehnimiz müdafiəsizdir. Paylaşıma yeni bir bəyənmə gəldikdə bildiriş göndərilir ki, bu da məhz sosial media siyasətinin bir parçasıdır. Çünki bizim həssas olduğumuzu bilir. Virusa yoluxmuş kimiyik.

Sosial media ilə əlaqədə olmağımız beynimizdə dopamin maddələrinin yaranmasına gətirib çıxarır. Dopamin tamamilə siqaret çəkmək, alkoqol qəbul etməklə insanın özünü "yaxşı" hiss etdirəcəyi kimyəvi maddələrdir. Dopamin yüksək səviyyədə alışqanlıq yaradır.

İnsanlar həyatlarını normaldan gözəl göstərirlər. Həqiqətən də xoşbəxt olduqları anları paylaşırlar, hətta dəyişdirərək. Olduqlarından daha yaxşı görünməyə çalışırlar. Digərləri baxıb onların necə xoşbəxt olduqlarını görürlər. Özünün onun qədər xoşbəxt olmadıqlarını, yaxşı görünmədiklərini düşünürlər. Araşdırmalar göstərir ki, sosial mediada xoşbəxt görünənlər heç də xoşbəxt deyillər. Sosial media siyasəti sənin ehtiyac duymadığın şeyləri belə beyninə injektə edir.

Sosial media gerçək deyil, gerçək həyatı görmürük. Əgər həyatlarına arxa fondan baxsaq, filtersiz, sadə həyat görərik. Bir sözlə öz həyatının arxa planını digərlərinin sosial mediadakı həyatı ilə müqayisə etməmək və necə görünmək lazım olduğunu başqalarının həyatlarına baxaraq qərar verməmək lazımdır. Çünki "necə uğurlu olmaq olar" sualına cavabı özümüzü başqası kimi olmaqdan qurtardığımızda tapacayıq.

Tədqiqat mövzusu olan Tik-tok, onun kimi sosial platformaların insan beyninin yuyulmasında rolu tədqiqat mövzusunda pilot araşdırmaya nəzər salaq. Hər bir tədqiqatın planında bir neçə mərhələlər öz əksini tapmalıdır.

1. Tədqiqatın adı, mövzu;
2. Tədqiqatın məqsədləri;
3. Tədqiqatda məlumat toplama metodları;
4. Tədqiqat subyektlərinin seçim proseduru və məlumatların təhlili;
5. Ehtiyaclara uyğun strategiyanın hazırlanması, tətbiqi və müəyyən dövr sonra strategiyanın uğurlu olub-olmaması və səmərəliliyini qiymətləndirmək [1].

1. Tədqiqatın adı, mövzu: Müasir dövrümüzün aktual mövzularından biri cəmiyyətin əksər üzvlərini öz əlinə, ağuşuna alan Tik-tok və onun kimi sosial platformaların insan beyninin yuyulmasında roludur. Bildiyimiz kimi, Tik-tok 16 ilə 64 yaş arası qlobal internet istifadəçilərinin 18%-i tərəfindən istifadə olunur. Çin xaricində Tik-tok xaricində Tik-tokun ən böyük bazarları ABŞ, İndoneziya və Braziliyadır. Tik-tok 2021-ci ilin iyun ayında 3 milyard yükləməyə çatıb. 2010-cu illərin ən çox yüklənilən yeddinci proqramıdır. TikTok 2020-ci ildə illik 457% artımla təxminən 1.9 milyard dollar gəlir əldə edib. TikTok-un 2020-ci ilin ikinci rübündə 837 milyon aylıq aktiv istifadəçisi var idi və hazırda isə 1 milyard istifadəçisi var. Çində TikTok-a gündəlik 600 milyondan çox istifadəçisi daxil olur.

2. Sosial tədqiqatı həyata keçirməkdə məqsəd, ümumi mühiti və mənzərəni öyrənmək, risklərin qiymətləndirilməsi, sosial platformalarla istifadəçilər arasında əlaqələrin aşkara çıxarılması, prosesdə optimal variantların müəyyənləşdirilməsindən ibarətdir. TikTok-a olan maraq nədən ibarətdir ? Ona sərf olunan zaman inkişafamı aparır yoxsa zaman itkisidirmi ? İstifadəçi sayının günügündən artmasına səbəb nədir? kimi suallara bu tədqiqatda cavab axtarılır. Tədqiqat bu kimi məsələləri araşdırmağa prioritet məsələ kimi, kontent mövzu kimi qarşısına qoyub.

3. TikTok platformasının insan beyninin yuyulmasında rolu mövzusunda keçirilən bu tədqiqat metodoloji mövqeyinə keyfiyyət xarakterlidir. Cennifer Meyson keyfiyyət metodlarından istifadə edilən tədqiqatın mahiyyətini yığcam şəkildə belə açıqlamışdır: hadisələr müəyyən kontekst daxilində necə və niyə baş verir [2]? Lakin bu o demək deyil ki, keyfiyyət metodunda kəmiyyətlə bağlı göstəricilər olmur. Sadəcə fikir ümumiləşdirməyə dayanır.

Brayman diqqətə çatdırır ki, keyfiyyət tədqiqatçıları üçün ümumiləşdirmə vacibdir, ancaq ondan da vacib olan məsələ problemin kontekst daxilində başa düşməsidir [3].

Sorğu səmərəlilik, sərfəlilik kimi bir çox üstünlükləri olan onlayn şəkildə həyata keçirilib. Sorğunun zəif tərəfi sadəcə hər kəs üçün əlçatan olmamasıdır. Heç də hər kəsin internetə çıxışının olmadığını nəzərə alsaq, bu, həmin əhali qrupunun əhatə edilməməsi deməkdir [4].

Vaus qeyd edir ki, istənilən izahedici və kəşfiyyat xarakterli tədqiqat ya induktiv (kəşfiyyat), ya da deduktiv(sınaq) xarakterlidir [5]. Həyata keçirilən bu tədqiqatda induktiv xarakter daşıyır. İnduksiya – fərdi haldan ümumi hala keçid üçün mühakimənin sürülməsidir. Bu tədqiqatda olan faktları öyrənərək və analiz edərək tədqiqatçı bir sinifə aid olan hadisələrin ümumi və təkrar olunan xüsusiyyətlərini müəyyən edir. Nəticədə fərdi obyektlər qrupuna aid olan xüsusiyyətlərin bütün sinifə inikas etməsinə imkan verən mühakimələr yaradılır. İnduktiv nəticələrin üstünlüyü ondan ibarətdir ki, o ayrı-ayrı faktorların ümumi müddəalara keçməyə, hadisələr arasındakı asılılıqları müəyyən etməyə, empirik əsaslandırılmış hipotezlərin qurulmasına və ümumiləşdirməyə şərait yaradır [6].

Sorğuda iştirak edən respondentlərin 42% - i TikTok istifaçisidir. 16-25 yaş aralığı üstünlük təşkil edir. Respondentlərin 64,5% -i onun zərərli olduğunu, 32,3% -i isə cavab verməkdən çətinlik çəkmişdirlər. Bunun səbəbi isə ayrıca maraq dairəsinə səbəb olur. İştirakçıların hər biri zərərin nə olduğunu bilir, zərərli məlumat dedikdə onun nə olduğunu başa düşürlər. Zərərli məlumatın nə olduğu barədə ifadə etdikləri məqamlar və nümunələrin hər biri TikTok da öz əksini tapır. Respondentlərin 87,1% -i zərərli olduğunu

düşündüyü işlərə zaman ayırmadıqlarının və ayrılmamalı olduğunu düşünürlər. Maraqlı məqamsa bundan ibarətdir ki, əgər TikTok zərərlidirsə, 87,1% respondent zərərli işlərə vaxt ayırmıram deyirsə, o zaman nəyə görə 42% bu medianın istifadəçisidir? Respondentlərin 66% -i düşünür ki, TikTok zamanın boşa itirməyə, 54,8% -i asılılığa səbəb olur.

Və əsas olaraqda iştirakçıların əksəriyyəti TikTok sosial platformasının qadağan olunmasını istəyir.

4. Bu mərhələdə digər mərhələlər qədər hətta onlardan müəyyən qədər çox əhəmiyyətlidir.

Konfusti deyir ki, "Ya bir yol tap, ya bir yol çək, ya da yoldan çəkil". TikTok

Sosial media platformasında da eyni tendensiyadan istifadə edə bilərik. Ya özümüz video çəkib paylaşmırıq (maarifləndirmə istiqamətində), paylaşanları qınayırıq, yaxşı bir materialda ortaya qoymuruq. Tələb tələbat yaradır. Biz isə artıq təklif verməlik.

"Bəs nələr edə bilərik" sualına cavab axtaraq. Sorğudan belə nəticə almışıq ki, respondentlərin əksəriyyəti çıxış yolunu məhz bu platformanın ləğv olunmasında görürlər. Fakt budur ki, ləğv olunması real görünmür. Məhdudiyyətdən danışmaq isə qulağa müəyyən qədər real, inandırıcı gəlir. Çünki qadağa insanlara hər zaman sevimli, cəlbedici gəlir. Qısa zamanlı hadisələrin insanlarda maraq yaradır, təkrarlanması arzuolunana çevrilir. Belə nəticəyə gəlmək olar ki, qadağadan danışmaq məqsədəuyğun deyil. Bu istiqamətdə məqsədəuyğun, məqsədyönlü təkliflərdən bəhs etsək cəmiyyət üçün daha faydalı olar.

1. İstiqamətləndirmək – istiqamətləndirmək mütləqdir. Örnək olaraq, Türkiyədə bir məktəbdə müəllim sinifə daxil olarkən, qapıda dayanan tələbədən nə işlə məşğul olduğunu soruşdu. Cavabında isə məlum oldu ki, şagird TikTok da videoları izləyir. Həmin gün tarix müəllimi tapşırıq olaraq keçirilən mövzu ilə bağlı TikTok da paylaşım etməsini şagirdlərə tapşırdı. Bu sadəcə bir nümunədir. Biz nə üçün cəmiyyət olaraq bu və ya digər formada istiqamətləndirmə etmirik ?

2. Fərdi inkişafa diqqət yetirmək – TikTok da paylaşılan videoların həcmi sadəcə 15 saniyədir. Qısadır, çünki qısa zamanlı hadisələr daha çox marağa səbəb olur. Buda təkrarlanmaya gətirir. Yada salaq "təkrar biliyin anasıdır". 15 saniyəyə bizlər öyrədici xarakter daşıyan videolar yerləşdirsək, yeni biliklər əldə edərik. Ümumi baxdıqda 15 saniyəyə bir şeylər etmək asan məsələ deyil. İndi çəkmək istəsək 1-2 saat düşünməli olarıq. İnsan yüklənməkdən çəkinir, düşünmək istəmir. Bu özü yaradıcılıqdır. Fərdi bacarıqlar – rəsm, idman, musiqi aləti çalmaq, əyləndirərək öyrədən videolar və s. Tipli yaradıcılığa yönələn paylaşımları biz nə üçün paylaşmırıq? Yaradıcılığı inkişaf etdirən nəsil niyə yetişməsin?

3. Təhsildə elektron mediaya yer ayırmaq – xaricdə belə təcrübə var ki, "internet bilgiləri və rəqəmsal savadlılıq" fənni tədris edilir. Xaricdə bu çox aktualdır. İnternetdən necə istifadə etmək, kontent nə deməkdir kimi mövzuların tədrisi aktualdır. Niyə biz bunu kiçik yaşlı uşaqlarımıza məktəbdən başlamayaq?

4. Aristotelin "etos, patos, loqos" üçbucağını tətbiq etmək – əgər bir proses baş verirsə, bir şəxs çıxış edirsə onun xarakteri olmalıdır, biliyi olmalıdır və emosionallıq verməlidir. TikTok sadəcə emosionallıq tərəfini önə çəkir. Qəbul edək ki, biz emosional xalqıq, TikTok isə emosional xalqa emosionallıq verir. Aristotelin üçbucağının hər üç tərəfi tətbiq olunmalıdır, əks halda faydalı bir məlumatdan söhbət gedə bilməz. Örnək olaraq, TikTok da x adlı hesab var, o hesab riyazi məsələ və misalları əyləncəli hala salaraq 15 saniyəlik paylaşımlar edir. Proses burada əyləncəli məlumatlandırmadır. Bu hal artıq faydalı məlumatdır. Sosioloji tədqiqat metodlarıda məntiqi düzbucaqlı anlayışı vardır. Burada mahiyyət verilən informasiyanın keyfiyyəti üçün üç anlayışdan istifadə etməkdən ibarətdir - 1. məzmunluluq; 2. maraqlılıq; 3. aydınlıq. Misal olaraq ali məktəblərdə keçirilən mühazirələrə nəzər salaq. Mühazirələr sadaladığımız hər üç anlayışı özündə etiva edirmi? Bu üçbucağı nə üçün TikTok-a tətbiq edərək onu faydalı hala gətirməyək [7]?

5. Valideyn nəzarətini gücləndirmək – əyləncəni qarşılamaq üçün sosial mdeiaya üz

tutan uşaqlar və gənclərdə günah yoxdur. Hər bir insanın endorfin hormununa ehtiyacı vardır. Valideynləri tərəfindən əyləncəsi qarşılanmayan uşaqlar əyləncəni başqa yerdə axtarır. Çox valideyn uşağı ilə əylənə bilmir. İllər öncə satirik kino-jurnallar, kiçik həcmli təqdimatlar, mozaikalar vardı. Onların özündə də satira, təndiq, cəmiyyətin reallığının ortaya qoyulması vardı. Valideynlər uşaqlarını həm öyrənmək üçün, həm də əyləncə ehtiyacını qarşılamaq üçün müxtəlif peşələrə yönləndirməsi məqsədəuyğundur. Kino-teatrlar, tamaşalar, sirklər, muzey, zooparklar bu gün öz fəaliyyətini son dərəcə yaxşı göstərir. Sadəcə valideynlərə uşaqları üçün zaman ayırmaq qalır. Nə üçün əvvəllər "tık-tık"la böyüyən uşaqlar indi "tik-tok"la böyüməlidir?

6. Maarifləndirmək – internetdəki təhlükələrdən qorunmaq üçün Elektron mediada "özlərini necə aparmaları" barədə bir sıra tövsiyələr vermək olar. Belə ki Milli Təhlükəsiz İnternet Mərkəzinin yaradılması, KİV ilə internetdəki təhlükələrin gənc nəslin nümayəndələrinə vurduğu psixoloji zərərlə bağlı təbliğatın aparılması, Beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, təhlükəsizliyin təmin olunmasına dair saytın yaradılması, ixtisaslaşan elmi kadrların hazırlanması, maarifləndirici broşürlərin hazırlanması, kursların təşkili, təhlükələrin yaratdığı zərərli nəticələri göstərən video-çarxların hazırlanması, "Təhlükəsiz İnternet Günü" nün qeyd edilməsi, bu problemlərə həsr olunmuş müsabiqələr, görüşlər, seminarlar keçirilməsi müsbət nəticələrə gətirib çıxara bilər.

Başqa maraqlı bir məsələyə də toxunmaq lazım gəlir. Cəmiyyətin əksər üzvləri tərəfindən düşünülür ki, "TikTok bizim şəxsiyyət olaraq formalaşmağımıza imkan verməyir, bizim milli-mənəvi dəyərlərimizə zərbə vurur və pozur". Bilirik ki, biz ən qədim xalqlardan biriyik. Deyilir "tarixdən türkü götürsək tarix qalmayacaq" yəni bizim min illərdən bəri süzülüb gələn, yaratdığımız mental xüsusiyyətləri bir TikTok "dağıdacaqsa" deməli milli mənəvi dəyərdən söhbət gedə bilməz. Məsələ burasındadır ki, məhv bu platforma faydadan çox zərərlərlə doludur. Müsbətlərlə dolu bir media halına salmaqsa məqsədyönlü təklif, tədbirlərlə mümkündür. Bunun üçün də çevik və işlək xidmət olmalıdır.

Dünyada üç milyard insan, yəni yerin ümumi əhalisinin 40 faizi sosial media istifadəçisidir. Araşdırmalar, gündə orta hesabla iki saatımızı sosial mediada keçirdiyimizi göstərir. Bu, hər dəqiqədə yarım milyon tweet və Snapchat şəkili paylaşmaq mənasına gəlir.

Sosial media naminə nələri fəda edirik?

Stress - 1800 nəfər üzərində aparılan bir tədqiqat, qadınların kişilərdən daha çox stressə düşdüyünü müəyyənləşdirib.

Əhval - 2014-cü ildə avstriyalı alimlər, 20 dəqiqəlik Facebook istifadəsindən sonra, əh-valın pisləşdiyini müəyyənləşdiriblər. Başqa bir tədqiqat isə yaxşı və ya pis əhvalın şəxslər arasında sosial media vasitəsilə yayıla biləcəyini göstərir.

Narahatlıq - tətqiqatcilar göstərir ki Yeddi və daha artıq sayda sosial media platfor-masından istifadə edənlərin, heç və ya iki cür platformadan istifadə edənlərlə müqayisədə üç dəfə daha çox ümumi narahatlıq simptomlarına malik olduqları görülüb.

Depresiya - 700 tələbə üzərində aparılan iki araşdırmada aşağı əhval, dəyərsizlik hissi, ümidsizlik kimi depressiya əlamətlərinin sosial mediadakı qarşılıqlı təsirin keyfiyyəti ilə əlaqədar olduğu müəyyənləşib. Neqativ təsirdə olanlar daha çox depressiya əlamətləri göstəriblər.

Buna oxşar bir tədqiqat 2016-cı ildə 1700 nəfər üzərində aparılıb və müəyyənləşib ki, çox sayda sosial media platformasından istifadə edənlər arasında depressiya və narahatlıq riski üçqat artır.

Asılılıq - 2011-ci ildə Nottingham Trent Universiteti daha əvvəl aparılan 43 araşdırmanı təhlil edərək sosial media asılılığının bir ruhi sağlamlıq problemi olduğu və müalicə tələb edə biləcəyi nəticəsinə gəlib.

Özünə hörmət - 1500 nəfərlə aparılan bir tədqiqatda, iştirakçıların yarıdan çoxu sosial media səhifələrinin onlara pis təsir etdiyini söyləyib. 18-34 yaş qrupundakıların yarısı, özlərini cəlbedici saymadığını deyib.

2016-cı ildə aparılan bir araşdırma, başqalarının selfilərinə baxmağın insanın özünə güvənini azaltıdığını ortaya qoyub. Belə ki, insan başqalarının ən xoşbəxt olduğu anları göstərən paylaşmaları ilə özünün o ankı vəziyyətini müqayisə edir.

Münasibətlər-İnsanların üzbəüz görüşlərində sosial media diqqət dağıdan bir amil ola bilər. Romantik münasibətlər də sosial mediadan təsirlənir. Tədqiqatlar, cütlüklərin qarşı cinsdən birini Facebook-a dost kimi əlavə etməsinə görə qısqanclıq problemi yaşadığını göstərir. Xüsusilə də qadınlar Facebook-da daha çox vaxt keçirdiklərinə görə bu hissləri daha çox yaşayırlar.

Yalnızlıq-19-32 yaş qrupuna aid 7 min nəfər üzərində aparılan bir tədqiqatda, sosial mediada çox vaxt keçirənlərin sosial izolyasiya yaşamaq ehtimalının ikiqat artıq olduğu ortaya çıxıb. Sosial mediada keçirilən vaxt, üzbəüz münasibətin yerini ala bilir və insanların özlərini təcrid olunmuş kimi hiss etməsinə səbəb ola bilir [8].

## ƏDƏBİYYAT

**1.** Giddens A.and Sutton P. Sociology Cambridge, Polity Press, 2013, p.40
**2.** Mason J. Qualitative Researching. SAGE, London, 2002, p.1
**3.** Bryman A. Social Research Methods. Oxford, Oxford University Press, 2012
**4.** Couper M.P. "Review: web surveys: a review of issues and approaches", The Public Opinion Quarterly, 2000, 64 (4) :464-94
**5.** De Vaus D.A. Surveys in Social Research. 4th Edition, University College of London Press, London, 1996
**6.** Şahbazov.İ Tədqiqat metodları. Bakı, TEAS Press Nəşriyyat evi, 2019, s.25
**7.** Tatarova. Sosioloji tədqiqat metodları, 2010, s 89
**8.** https://www.bbc.com/azeri/international-42681055

# "TİK-TOK, ONUN KİMİ SOSİAL PLATFORMALARIN İNSAN BEYNİNİN YUYULMASINDA ROLU" TƏDQİQAT MÖVZUSUNDA PİLOT ARAŞDIRMA

*Şirinli Xədicə*

## XÜLASƏ

Dünyada üç milyard insan, yəni yerin ümumi əhalisinin 40 faizi sosial media istifadəçisidir. Düşündükdə görürük ki, biz sosial media naminə çox şeyi fəda edirik. Konfusti deyir ki, "Ya bir yol tap, ya bir yol çək, ya da yoldan çəkil". TikTok Sosial media platformasında da eyni tendensiyadan istifadə edə bilərik. Ya özümüz video çəkib paylaşmırıq (maarifləndirmə istiqamətində), paylaşanları qınayırıq, yaxşı bir materialda ortaya qoymuruq. Tələb tələbat yaradır. Biz isə artıq təklif verməlik. Bu istiqamətdə məqsədəuyğun, məqsədyönlü təkliflərdən bəhs etsək cəmiyyət üçün daha faydalı olar.

# ПИЛОТНОЕ ИССЛЕДОВАНИЕ НА ТЕМУ ИССЛЕДОВАНИЯ «TİK-TOK И РОЛЬ СОЦИАЛЬНЫХ ПЛАТФОРМ, КАК ЭТО, В ПРОМЫВАНИИ МОЗГОВ ЛЮДЕЙ»

***Ширинли Хадиджа***

## АННОТАЦИЯ

Три миллиарда человек в мире, то есть 40 процентов всего населения Земли, являются пользователями социальных сетей. Когда мы думаем об этом, мы видим, что мы жертвуем многим ради социальных сетей. Конфуций говорил: «Либо найди путь, проложи путь, либо сойдешь с дороги». Мы можем использовать ту же тенденцию на платформе социальных сетей TikTok. Либо мы сами снимаем видео и не делимся им (в сторону осведомленности), либо критикуем тех, кто им делится, либо не преподносим в хорошем материале. Спрос рождает спрос. Мы должны сделать предложение сейчас. В этом направлении для общества будет полезнее, если мы будем говорить об адекватных и целенаправленных предложениях.

## PILOT STUDY ON THE RESEARCH TOPIC "TIK-TOK AND THE ROLE OF SOCIAL PLATFORMS LIKE IT IN BRAINWASHING HUMANS"

***Shirinli Khadija***

## SUMMARY

Three billion people in the world, that is 40 percent of the total population of the earth, are social media users. When we think about it, we see that we sacrifice a lot for the sake of social media. Confucius said, "Either find a way, make a way, or get off the road." We can use the same trend on the social media platform TikTok. Either we shoot a video ourselves and don't share it (in the direction of awareness), we criticize those who share it, or we don't present it in a good material. Demand creates demand. We should make an offer now. In this direction, it will be more useful for the society if we talk about appropriate and purposeful proposals.

# SOSİAL İŞ

## ÇƏTİN HƏYAT ŞƏRAİTİNDƏ OLAN QADINLARLA TƏŞKİL OLUNAN SOSİAL İŞİN PRİNSİPLƏRİ

***Məmmədova Jalə***
***ADMİU-nun magistrantı***
***jmammadova45@gmail.com***

***Açar sözlər***: çətin həyat şəraitində olan qadınlar, sosial iş, sosial dəstək, problem.
***Ключевые слова***: женщины в трудных жизненных условиях, социальная работа, социальная поддержка, проблема.
***Key words***: women in difficult living conditions, social work, social support, problem.

XXI əsrin əvvəllərində qadınların cəmiyyətdəki mövqeyi problemi həll olunmamış qalır. Dünya ictimaiyyəti qadının mövqeyinin və onun sosial statusunun və müvafiq sosial rolların müəyyən edilməsində mühüm əhəmiyyət kəsb edən sosial institut kimi ailənin rolunu yenidən nəzərdən keçirir. Baxılan məsələnin əhəmiyyəti belə bir mövqe ilə əsaslandırılır ki, cəmiyyətin və dövlətin indiki inkişafı mərhələsində qadın daim bir sıra aşağıdakı səbəblərdən qaynaqlanan çətin həyat şəraitləri ilə üzləşir:

- ölkənin bir çox regionlarında davam edən aşağı həyat səviyyəsi;
- həyat yoldaşından iqtisadi asılılıq;
- qadınlar arasında orta təhsil səviyyəsi;
- həyatın çətinliklərinə psixoloji hazırlıqsızlıq;
- şəxsi keyfiyyətlərinin aşağı özünə hörməti;
- hərəkətlərdə qətiyyətsizlik və çətin həyat şəraitini həll etmək üçün məsuliyyət daşıya bilməməsi;
- sağlamlıq vəziyyəti;
- qadınların hüquqları və müdafiəsi ilə bağlı məsələlərdə səriştəsizlik [6, s.92].

Qadınlara qarşı zorakılığın tarixi elmi ədəbiyyatda tam sənədləşməmişdir. Müəyyən dərəcədə ona görə ki, bu məsələ sosial normalara görə həssasdır. Uzun müddət zorakılıq, cinsi təcavüz və məişət zorakılığı kimi zorakılıq növləri qeyd edilmirdi. Onlarla bağlı statistika çox aşağı qiymətləndirilir. Tarixdə məişət zorakılığı ilə bağlı çox az məlumat olsa da, bu cür zorakılığın çox geniş yayılmış olduğunu iddia etmək olar. 1993-cü il Birləşmiş Millətlər Təşkilatının Qadınlara Qarşı Zorakılığın Aradan Qaldırılması haqqında Bəyannaməsində deyilir ki, "qadınlara qarşı zorakılıq tarixən kişilər və qadınlar arasında qeyri-bərabər güc münasibətlərinin təzahürüdür, bu da qadınlar üzərində dominantlığa və kişilər tərəfindən qadınlara qarşı ayrı-seçkiliyə gətirib çıxarır" [7, s.64]

Sosial xidmətlərin göstərilməsi əhalinin müxtəlif təbəqələri üçün sosial xidmətlərin təşkilinin mühüm komponentlərindən biridir. Çətin həyat vəziyyətində olan qadınların həyat təminatı və saxlanması ilə bağlı məsələlər və problemlər əhalinin bu kateqoriyasının psixoloji və sosial nəticələrinə görə xüsusi aktuallıq kəsb edir. Son onilliklərdə məişət zorakılığı bir çox digər sosial və psixoloji problemlərə səbəb olan ciddi və geniş yayılmış problem kimi tanınır. Gender aspektində zorakılıq cinsə əsaslanan aqressiv dövlətin növlərindən biri kimi və başqa bir insana zərər verən davranış kimi çıxış edir. Əhalinin bu kateqoriyası ilə işləmək və onların sosial xidmətlərinə dair ümumilikdə nəşr olunmuş əsərlərin nisbətən çox olmasına baxmayaraq, mövzunun elmi və praktiki baxımdan mühüm əhəmiyyət kəsb edən bir çox aspektləri kifayət qədər açıqlanmır. Məişət zorakılığı problemi bir çox tədqiqatçıların əsərlərində nəzərdən keçirilir. E.N.Vozmilkinanın tədqiqatlarında qadınların, uşaqların və onların ailələrinin sosial müdafiəsi üzrə işin təşkili və məzmunu

məsələsi qaldırılır [4, s.79].

Tədqiqatçı Ü.Şəfiyev bu problemin sistemliliyini vurğulamaqla yanaşı, bir sıra sosial problemlərə diqqət çəkir. Məişət zorakılığının qarşısının alınması, zorakılığa məruz qalmış qadınların reabilitasiyası üzrə dövlət orqanlarının işinin gücləndirilməsini təklif edir [2, s.246].

Qadınların üzləşdiyi çətin həyat situasiyaları müxtəlifdir. Lakin qadınlar üçün ən çətini iş itkisi, uzunmüddətli işsizlik, iqtisadi problemlər, boşanma və kişilər tərəfindən zorakılıq (məişət zorakılığı) ilə bağlı vəziyyətlərdir. Sarsıntılar yaşayan qadın kənar dəstəyə, psixoloji və mənəvi köməyə ehtiyac hiss edir. Qadın və uşaqların həyat və sağlamlığının qorunması üçün xəstəxanalar, böhran mərkəzləri, müxtəlif sosial xidmətlərə malik sığınacaqlar yaradılır. Bunlar özlüyündə sosial problemləri həll etmir. Lakin bir qadının və ya uşaqlarının həyatını xilas edə bilər. Kəskin iqtisadi çətinliklər qadına ünvanlı sosial yardım üçün müraciət etmək hüququ verir.

Beynəlxalq təcrübədən göründüyü kimi, böhran mərkəzləri bir sıra fəaliyyətlər həyata keçirir. Çətin həyat şəraitində olan qadınlara müxtəlif növ məsləhətlər verir:

- qadınların və uşaqların hüquq və təminatları, o cümlədən nikah, boşanma, müavinətlərin alınması, pensiyaçıların müdafiəsi sahəsində mövcud qanunvericiliyə dair hüquqi məsləhət;
- psixoterapevtik dəstək (depressiya, qorxu, təşviqat zamanı tibbi yardım forması);
- iqtisadi yardım - məşğulluq, yenidən hazırlıqla bağlı;
- mənzil - boşanma, mənzilin özəlləşdirilməsi, mənzil təminatı problemləri;
- tibbi yardım ən çox ginekoloji qayğı, ailə planlaması və ya sonsuzluq halı ilə bağlıdır;
- sosial-psixoloji konsultasiya - ilk növbədə qadının özü üçün yaranmış həyat vəziyyətinin izahı [5, s.305].

Bu iş bir çox ölkələrdə müsbət nəticələr vermişdir ki, bu da qadınların aşağıdakı kateqoriyalarına yardım göstərir:

- uşaq evlərinin və internat məktəblərinin müstəqil yaşayan məzunlarına;
- əlil qadınlar və ya əlil uşaqları olanlar;
- azyaşlı uşaqları olan tək analar;
- hamilə qadınlar (yetkinlik yaşına çatmayan və ya subay);
- natamam ailələrdən olan qadınlar;
- "risk qrupu" qadınları (alkoqolizm və narkomaniyadan əziyyət çəkənlər) [3, s.86].

Sosial yardım aşağıdakı böhran vəziyyətlərində də əldə edilə bilər, məsələn:

- məişət zorakılığı;
- boşanma və boşanmadan sonrakı vəziyyətlər;
- ailədaxili münaqişə, o cümlədən valideyn-övlad münasibətləri;
- intihar davranışı və niyyəti vəziyyətində;
- sevilən birinin itkisi (ölüm) vəziyyətində;
- sosial itkilər vəziyyətində (iş itkisi, statusun itirilməsi və s.);
- digər böhran vəziyyətlərində (stress, depressiya və s.) [3, s.89].

Bundan əlavə, sosial iş sahəsində pedaqogika, psixologiya, hüquq sferasında inkişaf etmiş forma və metodlar da tətbiq oluna bilər. Hər bir halda sosial işin spesifik strukturu müştərinin xüsusi profili ilə müəyyən edilir. Sosial işin əsas modelinin prinsipləri bunlardır:

1. Ekosistem - bu problemli paradiqmada insan və onun ətraf mühiti arasındakı münasibətlərin bütün sistemini nəzərə alaraq, müəyyən həyat problemi vəziyyətinin bütün elementləri arasında əlaqələrin sistemli təhlili və müəyyən edilməsi, onun əsasında sosial və funksional mövqelər toplusudur.

2. Polimodallıq - funksional olaraq konkret məqsədə, konkret problem kontingentinə, sosial cəhətdən həssas və ya uyğunlaşmamış əhali qrupuna yönəldilmiş müxtəlif sosial iş yanaşmalarının, fəaliyyət metodlarının məcmusudur. Həmrəylik hər hansı sahədə fəaliyyət

göstərən dövlət qurumları ilə müxtəlif mülkiyyət formalı təşkilatların strukturlarına daxil olan qurumların tibbi-sosial iş prosesində təşkilati qarşılıqlı fəaliyyətinin birləşməsi və əlaqələndirilməsidir. Konstruktiv stimullaşdırma subyektlərdə passiv asılılığa səbəb olan müstəsna atalıq xarakterli yardım və qəyyumluq formalarından sosial xidmətlərdən imtina edilməsi və diqqətin inkişafına yönəldilməsi, müştərilərin şəxsi fəallığının və məsuliyyətinin artırılması, maksimum istifadə və inkişaf etdirilməsidir.

3. Davamlılıq - tibbi-sosial işin funksional dinamizmi və planlaşdırılması, onun bir proses kimi başa düşülməsi, onun praktikasına kontinuum yanaşmasından istifadə edilməsi mümkündür. Müəyyən məqsədlərə tədricən nail olmaq üçün "addımların" müəyyənləşdirilməsi əsasında fəaliyyətin ardıcıl mərhələlərinin məcburi planlaşdırılması ilə hərəkətlərin məcmusu forması və həyat subyektlərinin statusunda və tərzində əhəmiyyətli dəyişiklikləri müşahidə etmək olar [3, s.96].

Ölkəmizdə son illər bu məsələyə diqqət yetirilməyə Çətin həyat şəraitində olan qadınlarla sosial işin təşkilini tənzimləyən əsas hüquqi akt "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 05.11.2013-cü il tarixli, 320 nömrəli Qərarında çətin həyat şəraitində olan şəxslərin (ailələrin) aşağıdakı hüquqları qeyd olunmuşdur:

1. sosial xidmətlərin göstərilməsinin mümkünlüyü, qaydaları və şərtləri, sosial xidmətlərin formaları və növləri, habelə onların hüquq və vəzifələri haqqında məlumat almaq;
2. sosial xidmətlərə ehtiyacın müəyyən edilməsində və qiymətləndirilməsində iştirak etmək;
3. sosial xidmətlərə ehtiyacın xarakterini nəzərə alaraq sosial xidmət müəssisəsini seçmək (cinayət törətmiş uşaqlar istisna olmaqla);
4. sosial xidmətlərin göstərilməsinə razılıq vermək və ya sosial xidmət göstərməkdən imtina etmək;
5. sosial xidmət göstərən subyektlərin şərəf və ləyaqətinə hörmət və humanist rəftar tələb etmək, habelə onların hərəkətlərindən (hərəkətsizliyindən) inzibati və (və ya) məhkəmə qaydasında şikayət vermək;
6. sosial xidmət müəssisələrində sanitar-gigiyenik tələblərə cavab verən şəraitlə təmin olunmaq;
7. sosial xidmət müəssisələrində daxili nizam-intizamı pozmamaq şərti ilə dini ayinlərin icrası üçün ayrıca yer vermək;
8. kütləvi informasiya vasitələri ilə təmin edilmək;
9. şəxsi məlumatların məxfiliyini tələb etməklə [1, s.8].

Belə ki, sosial işin təşkilinin tədqiqi geniş sahələr üzrə aparılır və müxtəlif aspektləri əhatə edir, onların nəzərə alınmasında sistemli yanaşma üstünlük təşkil edir. Bu konsepsiyanın əsas prinsiplərini başa düşmək bizə zorakılığa məruz qalmış qadınlarla sosial işi sistemlilik, bütövlük, iyerarxik quruluş, strukturlaşma və plüralizm baxımından nəzərdən keçirməyə imkan verəcəkdir. Bu göstəricilər xidmətlərin göstərilməsi zamanı yaranan bütün xüsusiyyətləri nəzərə almaqla sistemin əsas komponentlərini, çatışmazlıqlarını və inkişaf perspektivlərini üzə çıxarır. Sosial işin təşkilinin təşkilati, funksional və idarəetmə xüsusiyyətlərinin müəyyən edilməsi, bir tərəfdən, bu prosesi bloklara və alt sistemlərə bölməyə, digər tərəfdən, onların spesifikliyini və inkişaf səviyyəsini müəyyən etməyə imkan verir ki, bu da öz növbəsində çatışmazlıqların aradan qaldırılmasına və çətin həyat vəziyyətinə düşmüş qadınlara sosial xidmətlərin təşkili və göstərilməsinin yaxşılaşdırılması üçün tövsiyələrin hazırlanmasına kömək edir.

Azərbaycan Respublikasında Cinayət Məcəlləsi cinayət mühakiməsi sistemini tənzimləyən əsas qanunvericilikdir. Cinayət Məcəlləsinə əlavə olaraq Cinayət Prosessual Məcəlləsi cinayət törətməkdə ittiham olunan şəxsin prosessual hüquqlarının təminatını tənzimləyir. Azərbaycanda tam cinayət məsuliyyəti üçün yaş həddi 16 yaş olaraq müəyyən edilmişdir. Cinayət zamanı 14 yaşı olan bir şəxsin törətdiyi cinayət, Cinayət Məcəlləsinin 20(2)-ci maddəsinə uyğun gələn zaman o şəxs cinayət məsuliyyəti daşıyır. Belə ki, "on dörd yaşı tamam olmuş şəxs yalnız qəsdən adam öldürməyə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurmağa, adam oğurlamağa, zorlamağa, seksual xarakterli zorakılıq hərəkətlərinə, oğurluğa, soyğunçuluğa, quldurluğa, hədə-qorxu ilə tələb etməyə, talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirməyə, ağırlaşdırıcı hallarda əmlakı qəsdən məhv etməyə və ya zədələməyə, terrorçuluğa, adamları girov götürməyə, ağırlaşdırıcı hallarda xuliqanlığa, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talamağa və ya hədə-qorxu ilə tələb etməyə, narkotik vasitələri və ya psixotrop maddələri talamağa və ya hədə-qorxu ilə tələb etməyə, nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salmağa görə cinayət məsuliyyətinə cəlb edilir" [8].

Cinayət mühakiməsi sisteminin yalnız bir məqsədi var: cinayətin qarşısını almaq və cinayətlə mübarizə. Cinayətin hüquq-mühafizə orqanları tərəfindən araşdırılması, prokurorluq tərəfindən ittiham və ya iddiaya əlavə edilməsi, müdafiə, hökm çıxarmaq və mühakimə etmək, qərar və hökmlərə və həmçinin qərar və hökmlərin icrasına nəzarət etmək cinayət mühakiməsi sisteminin mərhələləridir. Yuvenal ədliyyə sistemi müasir hüquq sistemləri üçün zəruridir. Yetkinlərin ədliyyə sistemindən fərqli olaraq, yuvenal ədliyyə sistemində cinayət mühakiməsi və müdafiə sahələri birlikdə nəzərdən keçirilməlidir. Yetkinlik yaşına çatmayanlara qarşı ədalət mühakiməsi sisteminin mövcudluğunun əsas səbəbləri var, məsələn, hadisələrin qavranılması və qiymətləndirilməsinin fərqliliyi, cinayət törətmə səbəblərinin fərqliliyi, cəmiyyətin cinayət hadisəsinə "töhfəsi", uşaqlar üçün xüsusi maddi hüquq normaları və onları praktikada tətbiq etmək üçün xüsusi maddi orqanların yaradılması. Həqiqətən də, yuvenal ədliyyə sistemi multidissiplinardır. O, bir sahə kimi uşağın müdafiəsinə diqqət yetirir. Bu kontekstdə uşaqların müdafiəsi məqsədinə nail olmaq üçün qurumlar arasında səmərəli əməkdaşlıq və koordinasiyanın olması zəruridir.

Dünyada baş verən proseslərə nəzər saldıqda, yuvenal məhkəmələr ilə bağlı ilk fəaliyyətlərin 19-cu əsrdə həyata keçirildiyini görürük. 19-cu əsrə qədər yetkinlik yaşına çatmayan cinayətkarlar da böyüklərə verilən cəzalara əsasən məhkum edilmiş, həbsxanalar uşaqlarla doldurulmuş, çoxlu uşaq edam edilmişdir. İlk Yuvenal Məhkəmə 1899-cu ildə ABŞ-ın Çikaqo şəhərində yaradılmışdır. O dövr üçün Çikaqonun bu prosesə liderlik etməsi heç də səbəbsiz deyildi. O zaman Çikaqo tam liberal iqtisadi sistem daxilində qeyri-adi sənaye inqilabı yaşayırdı. Bu, bir tərəfdən qeyri-məhdud sərvət, digər tərəfdən isə böyük səfalət mühiti yaratdı. Bu səbəbdən uşaq cinayətlərində böyük partlayış baş verdi. Bu mühitdə Çikaqodakı bəzi sosial işçilər bu uşaqlar üçün nələrinsə yazılmalı olduğuna inanaraq, cəmiyyətin vicdanını oyatmağa çalışıb, qadın təşkilatlarını hərəkətə keçirərək (bu prosesdə "Çikaqo Qadınlar Klubu"nun böyük rolu olmuşdur), uşaqlar üçün xüsusi məhkəmənin yaradılmasını tələb etmişdirlər. Əvvəlcə hüquqşünaslar konstitusiyaya zidd olduğu üçün bu tələbin əleyhinə çıxmış, lakin inkişaf edən hadisələr qarşısında Çikaqo Vəkillər Kollegiyası qanun layihəsi hazırlamaq üçün komissiya yaratmış və bəzi dəyişikliklərdən sonra bu qanun layihəsi 1899-cu il iyulun 1-də qəbul edilmişdir [9, s. 38]. Bu məhkəmənin məqsədi cəzanın nə olacağına qərar verməkdənsə, uşağa və cəmiyyətə nəyin xeyirli olduğuna qərar verməkdən ibarət idi [12, s. 10]. O, himayəsiz, atılmış və ya hüquq pozuntusu olan uşaqların xeyrinə tədbirlər nəzərdə tutur və bu məhkəmə prosesini böyük yaşayış məntəqələrində aparmaq üçün xüsusi hakim təyin edirdi [9, s. 38]. Uşaqları stiqmadan qorumaq üçün dinləmələr ayrıca qapalı zallarda keçirilməli idi [12, s. 10]. Bundan əlavə, məhkəmə tədbirlərin həyata

keçirilməsi üçün köməkçi işçilər təyin etmək səlahiyyətinə malik olmuşdu. Qanun o dövr üçün son dərəcə mükəmməl idi. Avropada ilk Yuvenal Məhkəmələr 1908-ci ildə İngiltərədə yaradılmış və bu proses digər ölkələrdə də davam etdirilmişdir [12, s. 9].

Uluğtekin bildirir ki, uşaqları "ata" kimi qoruyan, onların mənafeyini ən yüksək səviyyədə nəzərə alan, uşaqların cinayət törətməsinin qarşısını almaq üçün onların ehtiyac və problemlərini aradan qaldırmağı qarşısına məqsəd qoyan Yuvenal Məhkəmələr 4 əsas prinsip əsasında yaradılmışdır. Bunlar:

1. Uşaq inkişaf etməkdə olan bir varlıqdır və ona yetkin bir insan kimi baxıb, törətdiyi cinayətə görə onu tam məsuliyyətə cəlb etmək yanlışdır,
2. Uşaq reabilitasiya üçün böyüklərdən daha münasibdir, ona görə də ədalət cəza ilə deyil, tərbiyəvi və müalicəvi yanaşma ilə həyata keçirilməlidir,
3. Uşaq haqqında qərar verərkən uşağın xüsusi şərait və ehtiyaclarını nəzərə almaq vacibdir,
4. Yuvenal ədliyyə sistemi böyüklərin məruz qaldığı sərt, mürəkkəb və cəza proseslərindən uzaq tutulmalıdır [11, s. 6].

Yuvenal Məhkəmələrin əsas vəzifəsi cinayət törətmiş və ya təhlükə altında olan uşaqları qorumaq və onların cinayət törətmələrinin qarşısını almaq, cinayət törətmiş uşağı cinayətin cəzasına əlavə olaraq islah etməklə cəmiyyətə inteqrasiya etmək və cəzadan sonra onu nəzarətdə saxlamaqdan ibarətdir.

BMT-nin Yuvenal Ədliyyənin İdarə Olunması üzrə Standart Minimum Qaydaları (Pekin Qaydaları) 29 noyabr 1985-ci ildə qəbul edilmişdir. Buna uyğun olaraq gənclərin inkişaf dövründə olduğu üçün onların fiziki, sosial və əqli inkişaf prosesləri qanunla qorunmalı, sülh və təhlükəsizlik şəraitində olmalıdır. Pekin Qaydaları yuvenal ədliyyə sisteminin qarşısında iki məqsəd qoymuşdur. Bunlar, "uşağın vəziyyətinin yaxşılaşdırılması" və "mütənasiblik prinsipi"-dir. Yuvenal Məhkəmələrin olduğu hüquq sistemi uşağın vəziyyətinin yaxşılaşdırılması üçün əsasdır. Mütənasiblik prinsipində isə cinayətə mütənasib cəzanın təyin edilməsinin vacibliyinə diqqət çəkilir. Bunu düzgün müəyyən etmək üçün uşağın ailə vəziyyəti, sosial vəziyyəti və s. fərdi xüsusiyyətlər də nəzərə alınmalıdır. Uşaq ilk dəfə polislə ünsiyyət qurduğundan, polislərin uşaqlarla necə ünsiyyət qurmağa dair təlim almalarının vacibliyinə diqqət çəkilir. Həmçinin, bu prosesdə fəal olan sosial xidmət personalı da eyni həssaslığı göstərməlidir.

Sosial iş bir elm sahəsi kimi sosiologiya, psixologiya, sosial psixologiya və hətta mədəni antropologiya kimi fənlərlə əlaqədədir. Belə ki, sosial işdə hər hansı bir problemlə məşğul olarkən müxtəlif fənlərin perspektivlərindən diaqnoz, müalicə və təkmilləşdirmə proseslərindən istifadə edilir. Ədliyyə sistemində sosial işin əsas diqqət mərkəzində islah elementləri dayanır. Sosial iş risk altında olan insanları gücləndirməyə yönəlmiş profilaktik işlərə diqqət yetirir. Belə profilaktik işlərdə əsas məqsəd uşaqların müsbət sosial davranışlarını yaxşılaşdırmaq, karyera inkişafına təkan vermək, gələcəkdə xroniki cinayətkarların formalaşmasının qarşısını almaqdan ibarətdir. Bu məqsədin həyata keçirilməsində yetkinlik yaşına çatmayanların cinayət törətməsinə səbəb olan amilləri tapmaq və hüquq pozuntusunun inkişaf mərhələlərini nəzərə almaqla, uşağın hər bir inkişaf mərhələsinə uyğun müxtəlif yanaşmalar tətbiq etmək lazımdır. Bundan əlavə, dağıdıcı və ya pozucu davranışlar nümayiş etdirən uşaqların bu davranışlarının aradan qaldırılması üçün tədbirlər görülməli, hərtərəfli və aktiv profilaktik proqramlar həyata keçirilməlidir. Bu, risk altında olan uşaqların ağır cinayətlər törətmə potensialını azaldacaq. Bundan əlavə, sosial işin məqsədinə uyğun olaraq cinayət qurbanı olan uşağın sosial həyatda iştirakını asanlaşdıracaq mikro, mezzo və makro ölçülərdə proqramlar hazırlamaq lazımdır. Yetkinlik yaşına çatmayanların cinayətkarlığının çoxşaxəli sosial problem olması bu problemin həlli üçün sistemli və hərtərəfli siyasətin yaradılmasını zəruri edir.

Cinayət mühakiməsi proseslərinin uşaqların cəmiyyətə reinteqrasiya, onların təhsili və reabilitasiyası kimi məsələlərini təkbaşına həyata keçirməsi mümkün deyil. Məhz buna görə

də ədliyyə sistemi sosial işlə birlikdə bu məqsədə nail olmaq üçün çalışmalıdır. Belə ki, sosial ədaləti qorumaq missiyasını daşıyan sosial işin məqsədi fərd və ətraf mühit arasında qarşılıqlı əlaqəni yaxşılaşdıraraq insanlara kömək etməkdir. Sosial işçilərin digər sahələrdə olduğu kimi yuvenal ədliyyə sistemində də vəkillik, vasitəçilik, təlimçi/tərbiyəçi, konsultant, keys menecer kimi bir çox rolları vardır. Sosial işçilər uşaqların vəziyyətinə müdaxilə edərkən bu rolları yerinə yetirirlər. Yuvenal ədliyyə sistemində çalışan sosial işçi, sağlamlıq tədbirlərindən tutmuş təhsil tədbirlərinə və yuvenal məhkəmələrdən tutmuş yetkinlik yaşına çatmayanların təhsil mərkəzlərinə qədər geniş spektrdə işləmək imkanına malikdir. Burada əsas məqsəd uşağın yenidən sosiallaşmasıdır. Ona görə də bunun üçün mütəxəssis bütövlükdə uşağın ailəsi, mühiti, məktəbi kimi amilləri dəyərləndirməli və uşaqla işləyərkən bu amilləri nəzərə almalıdır.

Sosial işçilər cinayətə sürüklənmiş uşaqlarla işləyərkən üç istiqamətdə fəaliyyət göstərirlər. Bunlar, yuvenal ədliyyə sisteminə paralel, lakin ondan asılı olmayaraq aparılan iş, ədliyyə sistemi ilə iş və ədliyyə sistemi daxilində işdir. Yuvenal ədliyyə sisteminə paralel, lakin ondan asılı olmayaraq aparılan iş zamanı sosial işçilər fərdi müraciətləri qəbul edir və çətinlik yaşayan fərd və ailələrə köməklik göstərirlər. Bundan əlavə, sosial içilər risk altında olan uşaq və ailələr üçün müvafiq müdaxilələr həyata keçirirlər [4, s. 4].

İkinci istiqamət, yəni ədliyyə sistemi ilə iş uşaq və ailənin ədliyyə sistemi sahəsinə daxil olduğu vəziyyətləri əhatə edir. Bu zaman uşaq cinayət məsuliyyəti yaşına çatmamışdırsa, sosial işçi vəziyyətlə məşğul olmalı, uşağın dindirilmə prosesində iştirak etməli və ya uşaq cinayət törətməmişdirsə, lakin təhlükə altındadırsa (evsiz, müşayiətsiz qaçqın və s.) sosial işçi prosesə cəlb edilməlidir [4, s. 4].

Bununla belə, uşağın yuvenal məhkəmələrdə cinayət törətdiyi müəyyən edildikdə, uşağın vəziyyətinin hərtərəfli qiymətləndirilməsi üçün sosial işçilər tərəfindən hazırlanmış sosial araşdırma hesabatı (SAH) tələb olunur. Məhkəmə SAH çərçivəsində məlumat və məsləhətləri nəzərə alaraq uşaqla bağlı müvafiq qərar qəbul edir. Sosial işçilər bu hesabatların hazırlanmasında müəyyən çətinliklərlə üzləşirlər. Bu çətinliklər yuvenal məhkəmə hakimi, cinayətə sürüklənmiş uşaq, digər ekspertlər və cinayətə sürüklənmiş uşağın ailəsindən qaynaqlanan problemlərdir [11, s. 34]. Həmçinin, sosial işçinin əsas vəzifələrindən biri də valideynləri həbs olunan və ya həbs olunmuş uşaqların vəziyyətini izləmək və uşaqların rifahını təmin etməklə bağlıdır [4, s. 4].

Üçüncü istiqamət isə ədliyyə sistemində işlə bağlıdır ki, bu zaman sosial işçilər müxtəlif rolları yerinə yetirirlər. Belə ki, bu rollar uşağın saxlanıldığı zaman yanında olmaqdan tutmuş həbs mərhələsində, həbsxana prosesində, azadlığa buraxılmadan əvvəl və azadlığa buraxıldıqdan sonra uşağın monitorinqinə qədər geniş spektri əhatə edir [4, s. 4]. Yetkinlik yaşına çatmayanlar üçün cəzaçəkmə müəssisələrində və təhsil evlərində sosial işçilər fərdi və qrup halında işləyərək uşaqların daha sağlam və daha ahəngdar fərdlər kimi formalaşmasına dəstək olurlar. Burada məqsəd uşaqların sağlam şəkildə yenidən sosiallaşmasını təmin etməkdir. Bundan əlavə, sosial işçilər maddə istifadəçisi olan uşaqlar üçün sağlamlıq tədbirləri və təhsil almaları ilə bağlı məktəblərlə birgə işləyirlər.

Sosial işin əsas məqsədlərindən biri olduğu kimi, ədliyyə sistemində sosial işin də əsas məqsədi insanların sosiallaşmasına dəstək olmaq, sosial ədaləti təmin etmək, cinayətə sürüklənmiş uşaqların yenidən cinayət törətməsinin qarşısını almaq, xüsusilə qanunla münaqişədə olan uşaqların yararına proqram və fəaliyyətlər həyata keçirməkdən ibarətdir.

## ƏDƏBİYYAT

1. Akyüz, Emine. Çocuk Hukuku, Çocukların Hakları ve Korunması. - Ankara: Pegem Yayınları, - 2018. - 627 s.
2. Baykara Acar, Y. Kanunla İhtilaf Halindeki Çocuklar: Multi Disipliner Yaklaşımın Önemi / 1. Risk Altında ve Korunması Gereken Çocuklar Uluslararası Sempozyumu: Suça Sürüklenen / Kanunla ihtilaf Halindeki Çocuklar. - Ankara, - 2009, - s. 1-18

3. Burt, C.L. The Young Deliquent, Appleton, New York, 1925, - pp. 628
4. Cantwell, N. Çocuk Adalet Sisteminde Sosyal Çalışmanın Rolu. Birleşmiş Milletler Çocuklara Yardım Fonu. Türkiye, 2013, - 11 s.
5. Ebru Öztürk Çopur, Nilgün Ulutaşdemir, Habip Balsak, Çocuk ve suç. // Uluslararası Katılımlı III. Çocuk Gelişimi ve Eğitimi Kongresi "Erken Müdahale" - Ankara: H.Ü. Kültür Merkezi, - 2015, № 1. - s. 120-124
6. Franklin, B. Çocuk hakları. - İstanbul: Ayrıntı Yayınları, - 1993, - s. 283
7. https://migration.gov.az/content/pdf/
8. https://www.e-qanun.az/framework/46947#_%
9. Onursal Betül, Çocuk Mahkemeleri // - Adana: Adana Barosu Dergisi, - 1992. № 4. - s. 38.
10. Tekin, U. (2005). Çocuk Yargılamasında Avrupa'daki Yeni Uygulamalar. İçinde: Çocuklar ve Suç – Ceza (Ed.: Yener Ünver). - Ankara: Seçkin Yayıncılık, - 2005, - 488 s.
11. Uluğtekin, S. Çocuk Mahkemeleri ve Sosyal İnceleme Raporları. - Ankara: Türkiye Barolar Birliği, - 2004, - 210 s.
12. UNICEF Dergisi, Çocuk Ceza Adaleti Sistemi, - s. 10
13. Ümit, E. Mekandan imkana çocuk suçluluğunun habitusu ceza ehliyeti ilişkisi. - Ankara: Ankara Barosu Yayınları, - 2007, - 356 s.
14. Yavuzer, H. Çocuk ve Suç. - İstanbul: Remzi Kitapevi, - 2001, - 280 s.

## QANUNLA MÜNAQİŞƏDƏ OLAN UŞAQLARLA SOSİAL İŞİN TƏŞKİLİNİN ƏHƏMİYYƏTİ

***N.E.Quliyev***

### XÜLASƏ

Məqalədə uşaqlar, onların cəmiyyətdəki yeri və rolu, qanunla münaqişədə olan uşaqlar, uşaq cinayətkarlığı və bu problemə hüquqi yanaşma kimi məsələlər nəzərdən keçirilir. Xüsusilə qanunla münaqişədə olan uşaqlar probleminin həll edilməsində və onların cəmiyyətə reinteqrasiyası prosesində yuvenal ədliyyə sisteminin, onun hüquqi bazasının və yuvenal ədliyyə sistemində sosial işin əhəmiyyətindən bəhs olunur.

## ЗНАЧЕНИЕ СОЦИАЛЬНОЙ РАБОТЫ С ДЕТЬМИ В КОНФЛИКТЕ С ЗАКОНОМ

***Н.Э.Гулиев***

### АННОТАЦИЯ

В статье рассматриваются такие вопросы, как дети, их место и роль в обществе, дети в конфликте с законом, детская преступность и правовой подход к этой проблеме. Обсуждается значение системы ювенальной юстиции, ее правовой базы и социальной работы в системе ювенальной юстиции, особенно в решении проблемы детей в конфликте с законом и в процессе их реинтеграции в общество.

## THE IMPORTANCE OF SOCIAL WORK WITH CHILDREN IN CONFLICT WITH THE LAW

***N.E.Guliyev***

### SUMMARY

The article examines issues such as children, their place and role in society, children in conflict with the law, child criminality and the legal approach to this problem. The importance of the juvenile justice system, its legal framework and social work in the juvenile justice system is discussed, especially in solving the problem of children in conflict with the law and in the process of their reintegration into society.

# VALİDEYN-YENİYETMƏ MÜNASİBƏTLƏRİ SOSiAL İŞİN TƏDQİQAT OBYEKTİ KİMİ

***Salahova Mehin Umud qızı***
***AMİU-nun II kurs magistrantı***
**mehins1998@gmail.com**

***Açar sözlər:*** valideyn, yeniyetmə, deviant davranış, sosial uyuşma, pozitiv emosiya.
***Ключевые слова:*** родитель, подросток, девиантное поведение, социальное оцепенение, положительные эмоции.
***Keywords:*** parent, adolescent, deviant behavior, social numbness, positive emotion.

Yeniyetməlik dövrü hər bir uşaq və gəncin həyatında mühüm rol oynayan bir dövrdür. Bir çox hallarda bu dövrü necə başa vurması yeniyetmənin gələcək həyatında həlledici rol oynayır. Şəxsiyyətin və onu əhatə edən yaxınların da bu dövrdən nə dərəcədə müvəffəqiyyətlə çıxacaqları hər kəs üçün çox əhəmiyyətlidir. Yeniyetməlik dövrü əsasən 11-17 yaş dövrlərini əhatə edir. Müxtəlif mədəniyyətlərin özünəməxsus xüsusiyyətlərindən asılı olaraq bu yaş dövrləri fərqlənir. Müasir zamanda bir sıra ölkələrdə bu yaş dövrü alimlər tərəfindən hətta 25 yaşa qədər uzadılır [5, 149-150].

Bu yaş dövründə yeniyetmə artıq böyük olmağa, tam müstəqil, sərbəst olmağa, "öz mənini" təsdiq etməyə çalışır. "Yeniyetmələr" valideynlərin qoyduğu qadağaları qəbul etmir, onların əksinə hərəkət etməyə çalışırlar. Valideynlərlə yeniyetmələr arasında tez-tez ən sadə məsələlərə görə böyük konfliktlər baş verir. Yeniyetmə bəzən özündən də asılı olmadan özünün belə gözləmədiyi hərəkətlər edir. Həmin hərəkətin, hadisənin nə səbəbdən baş verdiyini ondan soruşduqda belə o onu izah edə bilmir.

Yeniyetməlik dövründə uşaqlarda dərin fizioloji dəyişikliklərin baş verdiyi bir dövrdür. Yeniyetmənin orqanizmində köklü dəyişikliklər, xüsusən də hormonal dəyişikliklər baş verir. Bütün bunlar yeniyetmənin daha impulsiv olmasına, hadisələrə bəzən qeyri-adekvat reaksiya verməsinə səbəb olur. Bunlardan yeniyetmə özü də əziyyət çəkir. Bu dövrdə ətrafdakıların ona qarşı olan hər hansı bir münasibətinə, verdikləri qiymətə çox həssaslıqla yanaşır.

Yeniyetməlik dövründə bir çox yeniyetmələrdə təlimə maraq azalır. Onlar daha çox vaxtlarını öz həmyaşıdları ilə keçirməyə, kompüterdə sosial şəbəkələrdə əlaqələr qurmağa, oyunlar oynamağa səy göstərirlər. Belə halların baş verməməsi və valideynlər tərəfindən qarşısını almaq cəhdləri təzyiqlə müşahidə edildikdə yeniyetmələrdə daha çox iki davranış halı müşahidə olunur. Onlar ya kəskin, aqressiv reaksiya ilə valideynlərinə qarşı çıxış edir, ya da tədricən özünə qapanır, inamsızlıq, ümidsizlik hissləri onlarda üstünlük təşkil edir. Aydındır ki, hər iki hal valideynin diqqətindən yayınmamalıdır. Yeniyetmələrdə özünəqapanma halı daha çox narahatçılığa səbəb ola bilən xüsusiyyətdir. Çünki məhz belə hallarda olan yeniyetmələrdə daha çox özünəqəsd, evi tərk etmə (evdən qaçma) və s. kimi proseslər müşahidə olunur. Belə yeniyetmələr ilk baxışda sakit, sözə qulaq asan, valideynlərinə tam tabe olan şəxs təsəvvürü yarada bilər. Lakin yeniyetmələr bu zaman bütün hisslərini daxilə qapayır və daxili özünütəhlil ilə məşğul olurlar. Bu dönəmdə valideynlər övladlarına qarşı daha diqqətli olmalı və onların davranışlarını daimi olaraq nəzarətdə saxlamalıdırlar [1, 98-101].

Xüsusi olaraq vurğulamalıyıq ki, yeniyetməlik dövründə uşaqda qabarıq üzə çıxan bir çox xüsusiyyətlər heç də həmin dövrdə formalaşan xüsusiyyətlər deyil. Yeniyetmədə müşahidə etdiyimiz bir çox xüsusiyyətlərin kökü körpəlik dövründən başlayır. Belə ki, körpəlik dövründə valideynin uşağa yanaşması, onlar arasında olan münasibət gələcəkdə həm yeniyetmənin, həm də valideynin bu dövrü daha uğurla, "ağrısız" keçməyinə zəmin yaradır.

Əgər körpəlik yaşlarından valideyn öz övladı ilə səmimi, səmərəli münasibətlər qura bilməyibsə, övladına bir şəxsiyyət kimi yanaşmayıbsa, onda müstəqil olaraq düzgün qərarlar qəbul etmək, nəticə çıxarmaq kimi bacarıqlar, obyektiv özünüqiymətləndirmə formalaşdırmayıbsa, sözsüz ki, gələcəkdə yeniyetməlik dövründə valideynlə yeniyetmə arasında anlaşılmazlıqların olması və bu dövrün daha çətin keçirilməsi labüddür.

Yeniyetməlik dövrünün uşaqlarda normal keçməsi üçün valideynlərlə uşaqlar arasında normal sosial-psixoloji uyuşma və əlaqələrin olması olduqca vacibdir. Bunun üçün ilk növbədə valideynlər yeniyetməlik dövrünü yaşayan övladlarının fikirlərini sona qədər dinləməli və onların keçirdiyi hiss və həyacanları anladığını göstərməyə çalışmalıdırlar. Beləliklə də bu proses nəticəsində yeniyetmələrdə valideynlərə inam hissi artmaqla yanaşı, həm də onlara göstərilən dəstəyə qarşı pozitiv emosiyalar formalaşır. Daimi olaraq valideynin nəzarətini və dəstəyini hiss edən yeniyetmə belə situasiyalarda valideynlə dialoqa daha çox üstünlük verə bilər. Çox yaxşı olar ki, valideynlə yeniyetmələr arasında olan münasibətlərdə valideyn yeniyetmədən onun imkanları çərçivəsində nələrisə etməsini tələb etsin. Əks halda bu yeniyetmədə aqressivlik və valideynə qarşı inam hissini azalda, yaxud inmasızlıq yarada bilər.

Yeniyetmələrin daha normal formalaşması və inkişafı üçün onların idman, musiqi, rəqs dərnəklərindən fəal şəkildə istifadə iştirakı xüsusi əhəmiyyətə malikdir. Belə dərnəklərdə iştirak onlarda həmyaşıdları ilə birləşmək və kreativ meyillərin formalaşmasını sürətləndirir. Valideynin uşaqlarla münasibətdə onların həmyaşıdlarından geri qalmasını qabartması və bunu dönə-dönə təkrar etməsi yeniyetmədə valideynə qarşı aqresiya yarada bilər ki, bu da valideyn uşaq münasibətlərininformalaşmasına mənfi təsir edər.

Uşaq valideyn münasibətlərində yeniyetmələrə ən çox mənfi təsir göstərən hallardan biri də valideynin uşaqlara müxtəlif sərt qadağaların qoyulması və onlara heç bir azadlığın verilməməsi ilə bağlıdır. Belə olan hallarda uşaqlar qoyulan qadağa və itirilmiş azadlığı latent qaydada pozmağa çalışır və müəyyən kənara çıxan davranışlar sərgiləməyə meyilli olurlar. Belə halların baş verməməsi üçün uşaqlarla mənəvi bağların daha möhkəm əsaslarda qurulması olduqca zəruridir.

Hər bir insan, o cümlədən uşaq və yeniyetmələr də həyatda səhv edə bilər. Lakin ən əsası bu səhvi müəyyən etmək, aradan qaldırmaq və özünü inkişaf etdirərək yenidən səhvə yol verməməkdir. Yeniyetməlik dövründə isə valideynin uşaqlara qarşı daha səbirli, diqqətli olması onlara daha çox fayda verə bilər. Bu əsasda valideyn və yeniyetmələr arasında münasibətlər daha sivil və dinamik, inkişafa meyilli olaraq formalaşa bilər ki, bu da onların normal şəxsiyyət kimi formalaşmasına öz töhfəsini verə bilər [6, 67-70].

Uşağa nəzarət etmək, onu nöqsanlı işlərdən çəkindirmək ata və ananın vəzifələrindəndir. Amma bu nəzarətdə ifrata varıb, uşağa məhdudiyyətlər qoymaq olmaz. Çünki həddindən artıq nəzarət və məhdudiyyətlər uşağı məsuliyyət hissindən azad edir. O cümlədən onun istedadını inkişaf etdirməsinə, özünü fərd kimi yetişdirməsinə mane olur.

Pozitiv valideynlik sadəcə sözlər deyil - müəyyən bilik və bacarıqlar, uşaqların tərbiyəsi və inkişafı ilə bağlı fikirlərin yenidən nəzərdən keçirilməsini tələb edən uşaqla ünsiyyət tərzidir. Valideyn övladı üçün layiqli nümunə olmalı və şəxsi inkişafı haqqında ciddi düşünməlidir.

Valideynlər xüsusilə nəzərə almalıdırlar ki, onlar uşaqlar üçün nümunədirlər. Uşaqlar sözlərdən daha çox hərəkətlərdən təsirləndiyindən valideynin uşaqla qışqıraraq danışması yeniyetmələrdə onları dinləmək əvəzinə, onların etdiklərini götürmək və gələcəkdə onlar kimi qışqıraraq danışmağı formalaşdırır. Əksinə, valideyn tərəfindən uşağın və yeniyetmənin ailə və cəmiyyət içərisində hərəkət və davranışlarına diqqət yetirilərsə, böyüklərə hörmət göstərərsə, onları nizam-intizamlı olmağa təlqin edərlərsə, gələcəkdə üzləşdikləri maneələri dəfetmə gücünə malik olarlar. Araşdırmalar nəticəsinə bəzən belə qənaətə gəlinir ki, bəzi ailələrdə valideyn uşağına tərbiyə verərkən əksər hallarda manipulyasiyadan isti-

fadə edir [7, 59-63].

Beləliklə, fikirimizi ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, yeniyetməlik dövründə mühüm əxlaqi-etik görüş və təsəvvürlərin, habelə şəxsiyyətin sosial-əxlaqi quruluşunun əsası qoyulduğundan çalışmaq lazımdır ki, yeniyetmə ilə yaşlı arasındakı bütün ziddiyyət və münaqişələr qarşılıqlı razılaşma, qarşılıqlı etimad əsasında aradan qaldırılsın. Müasir dövrdə isə bu işin ardıcıl və qanunauyğun formada aparılmasında sosial işçilərin rolu oduqca böyükdür. Məhz sosial işçilərin müsbət nümunələr əsasında apardığı praktiki iş və gənclərə dəstəyi nəticəsində cəmiyyətdə pozitiv valideyn və uşaq münasibətləri formalaşaraq daha müsbət məcrada inkiaf edir.

## ƏDƏBİYYAT

1. Xəlilov H. Uşaq və yeniyetmələrin inkişafının social-psixoloji məsələləri. Bakı, Şərq-Qərb, 2012. 224 s.
2. Çələbiyev N. "Uşaq psixologiyası". Bakı, 2005, 307 s.
3. Əmiraslanova S. "Çətin" uşaqlar və onlarla aparılan işin psixoloji xüsusiyyətləri. Bakı, 2000.
4. Əmrahlı L, Rzayeva N. "Uşaq psixologiyası" dərs vəsaiti. Bakı, "NURLAR" Nəşriyyat – Poliqrafiya Mərkəzi, 2015, 344 s.
5. Qədirov Ə. "Yaş psixologiyası" – Bakı, "Maarif" nəşriyyatı, 2008, 388 s.
6. Məmmədli G. "Çətin tərbiyə olunan uşaqların sosiallaşması". Müəllim nəşriyyatı. 2018, 140 s.
7. Erol Güngör. Ahlak psikolojisi ve sosyal ahlak. Türkiyə. 2021, 163 s.

## VALİDEYN-YENİYETMƏ MÜNASİBƏTLƏRİ SOSiAL İŞİN TƏDQİQAT OBYEKTİ KİMİ

***Salahova Mehin***

## XÜLASƏ

Məqalədə uşaqların inkişafının müəyyən mərhələsini təşkil edən, keçid dövrü adlandırılan yeniyetməlik dövrünün mahiyyəti valideyn-uşaq münasibətləri kontekstində araşdırılır. Burada xüsusi olaraq vurğulanır ki, yeniyetməlik uşaqlıqla böyüklük arasındakı ruhi inkişaf və həyata hazırlıq dövrüdür. Bu yaşda uşaqların fiziki inkişafında baş verən mürəkkəb dəyişikliklər yeniyetmələrin sosial davranışlarında və həyatında mühüm izlər qoyur. Bu izlər valideyn və uşaq arasında olan münasibətlərin formalaşmasına da öz təsirini göstərir. Bu mənada valideynin yeniyetməlik dövründə uşaqlarla qurduğu münasibətin normal və pozitiv istiqamətdə aparılması uşaqların da nümunəvi, cəmiyyətin tələblərinə cavab verən şəxsiyyət kimi formalaşmasına səbəb olur. Əks təqdirdə bu münasibətlər uşaqlarda deviantlıq meyillərini artırır və onların inkişafına mənfi təsir edir. Bu hal isə gələcəkdə onlarla sosial və psixoloji işin aparılmasına, onların sosiallaşması istiqamətində reabilitasiya tədbirlərinə ehtiyac yarada bilər. Məqalədə uşaq valideyn münasibətlərinin inkişafında olan müsbət təmayüllərin müqayisəli təhlili bu sahədə görülməli işlərin zəruriliyini bir daha aktuallaşdırır.

# СОЦИАЛЬНЫЕ ОТНОШЕНИЯ РОДИТЕЛЕЙ И ПОДРОСТКОВ КАК ОБЪЕКТ ИЗУЧЕНИЯ

***Салахова Мехин***

## АННОТАЦИЯ

В статье сущность подросткового возраста, который составляет определенный этап развития детей и называется переходным периодом, рассматривается в контексте детско-родительских отношений. Здесь специально подчеркивается, что подростковый возраст – это период психического развития и подготовки к жизни между детством и взрослой жизнью. Сложные изменения в физическом развитии детей в этом возрасте оставляют важные следы в социальном поведении и жизни подростков. Эти следы влияют и на формирование отношений между родителями и детьми. В этом смысле отношения родителей с детьми в подростковом возрасте осуществляются в нормальном и положительном направлении, что приводит к формированию детей как образцовых личностей, отвечающих запросам общества. В противном случае эти отношения усиливают девиантные тенденции у детей и негативно сказываются на их развитии. Такая ситуация может создать потребность в социально-психологической работе с ними в дальнейшем, реабилитационных мероприятиях в направлении их социализации. В статье сравнительный анализ положительных тенденций развития детско-родительских отношений еще раз подчеркивает необходимость работы в этом направлении.

# PARENT-ADOLESCENT RELATIONSHIP SOCIAL AS A CASE STUDY OBJECT

***Salahova Mehin***

## SUMMARY

In the article, the essence of adolescence, which constitutes a certain stage of children's development and is called the transitional period, is examined in the context of parent-child relations. It is specially emphasized here that adolescence is the period of mental development and preparation for life between childhood and adulthood. Complex changes in the physical development of children at this age leave important traces in the social behavior and life of adolescents. These traces also affect the formation of the relationship between parents and children. In this sense, the parent's relationship with children during adolescence is carried out in a normal and positive direction, which leads to the formation of children as exemplary personalities that meet the demands of society. Otherwise, these relationships increase deviant tendencies in children and have a negative impact on their development. This situation may create a need for social and psychological work with them in the future, rehabilitation measures in the direction of their socialization. In the article, the comparative analysis of the positive trends in the development of child-parent relations once again highlights the necessity of work to be done in this field.

# EVSİZ VƏ BAXIMSIZ UŞAQ VƏ YENİYETMƏLƏRƏ GÖSTƏRİLƏN SOSİAL XİDMƏT DÖVLƏTİN APARDIĞI SOSİAL SİYASƏTİN PRİOTET İSTİQAMƏTİ KİMİ

***Salmanova Səlmi Elşən qızı***
***BDU-nun II kurs magistrantı***
***salmisalmanova16@mail.ru***

***Açar sözlər:*** evsiz və baxımsız uşaq və yeniyetmələr, sosial xidmət, sosial siyasət, küçə həyatı, sosial xidmət müəssisəsi, qanun
***Ключевые слова:*** беспризорные и безнадзорные дети и подростки, социальная служба, социальная политика, уличная жизнь, институт социального обслуживания, право
***Keywords:*** homeless and neglected children and adolescents, social service, social policy, street life, social service institution, law

Azərbaycan Respublikasında baxımsız və küçə uşaqları probleminin həlli üzrə Tədbirlər Planının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin sərəncamında qeyd olunmuşdur ki, baxımsız uşaqlar — yetim və ya valideyn himayəsindən məhrum olmuş və müvafiq dövlət strukturlarında qeydiyyata alınmamış 18 yaşına qədər olan uşaqlardır. Evsiz uşaqlar dedikdə isə pedaqoji nəzarətdən və qayğıdan məhrum olmuş uşaqlar nəzərdə tutulur. Onlar sağlamlıqları üçün zərərli şəraitdə yaşayırlar. Yalnız uşaqlar deyil, valideynlərini (qəyyumlarını) və evlərini itirmiş yeniyetmələr də buraya aid olunur. Valideynlər (qəyyumlar) uşaqları, yeniyetmələri qayğıdan məhrum etdikdə, onlarla kobud rəftar etdikdə, onları cinayətə sövq etdikdə, uşaq və yeniyetmələr valideynləri tərəfindən fiziki, emosional, cinsi zorakılığa məruz qaldıqda çıxış yolunu evdən qaçmaqda görürlər və beləliklə, onlar küçə həyatına məruz qalırlar. Bununla da "küçə uşaqları" anlayışı ortaya çıxır.

Bildiyimiz kimi "küçə uşaqları" anlayışı küçədə yaşayan və küçədə işləyən uşaqları əhatə edir. Onlar arasında həm evsiz, həm də kasib ailələrdən olan uşaqlar vardır [1]. Küçədə yaşayan və işləyən uşaqların əksəriyyəti natamam ailələrə sahibdir və onların bir çoxu sosial yetimlərdir. Sosial yetim dedikdə o nəzərdə tutulur ki, onların valideynlərindən biri və ya hər ikisi yaşayır, lakin alkoqoldan , narkotik maddələrdən asılıdır və yaxud asosial həyat tərzi sürür. Küçədə yaşayan uşaq və yeniyetmələrin sayının artması yoxsulluq, çətin maddi vəziyyət, əlverişsiz sosial-psixoloji vəziyyət, valideynlərin uşaqların tərbiyəsi və təhsili üçün məsuliyyətlərinin azalması vəs. ilə əlaqədardır. Uşaq və yeniyetmələr ailə münasibətlərində tez-tez qəddarlıq və aqressivliklə üzləşirlər. Belə hallarla üzləşdikdə isə onlarda küçə həyatına meyil yaranır.

Bununla da onlar küçə həyatına məruz qalır, sosial mühitlərini dəyişirlər və əksər hallarda küçədə yeni, mənfi vərdişlər qazanırlar. Belə vərdişlərə oğurluq, müxtəlif narkotik maddələrdən istifadə etməyə başlamaq, alkoqol aludəçisi olmaq vəs. daxildir. Anormal ailə vəziyyəti yeniyetməni, uşağı ailədən kənar vaxt keçirməyə, bəzən isə ümumiyyətlə evdən qaçmağa sövq edir. Bu da istər-istəməz onların daha çox vaxtlarını küçədə keçirmələrinə səbəb olur. Yoxsulluq, valideyn alkoqolizmi, narkotizasiyası, uşağın ehtiyaclarına diqqət yetirilməməsi, valideynlərin ölümü, onu evsiz həyat tərzinə aparan ən mühüm amillərdir. Evdə zorakılıq, baxımsızlıq və qəddarlıqla üzləşən yeniyetmə və uşaqlar üçün küçə həyatı cazibəli gəlir.

Evsiz və baxımsız uşaq və yeniyetmə probleminin mahiyyətini tam anlamaq üçün bu problemin aktuallığına nəzər yetirmək lazımdır. Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin baş məsləhətçisi Rabil Süleymanzadənin 2016-cı ildə verdiyi məlumata görə 2015-ci ildə 25 küçə uşağı aşkarlanıb və nəzarətə götürülüb.

Eyni zamanda o qeyd edib ki, 2016-cı ildə avaralıq və dilənçiliklə məşğul olan yetkinlik yaşına çatmayan 512 uşaq müəyyənləşdirilib.

Təəssüflər olsun ki, ölkə ərazisində evsiz və baxımsız, küçə həyatına məruz qalan uşaq və yeniyetmələrin ümümi sayı ilə bağlı dəqiq statistika mövcüd deyildir. Bu istiqamətdə aparılan tədqiqatlar onların dəqiq saylarını müəyyən etməyə imkan vermir. Lakin gündəlik həyatımızda küçələrdə maşınların pəcərələrini silən, tum satan və yaxud müxtəlif işlərlə məşğul olan onlarla uşaq və yeniyetmələrlə üzləşirik. Bu vəziyyət isə küçə uşaqlarının sayının çoxluğundan, ilbəil artdığından və problemin böyüklüyündən xəbər verir. Evsiz və baxımsız uşaq və yeniyetmələrin dəqiq statistikasının olmaması isə onlarla işi mürəkkəbləşdirir.

Küçədə yaşayan və işləyən uşaq və yeniyetmələrlə bağlı bir çox tədqiqat və sorğular həyata keçirilib. Sorğuların aparılmasının başlıca məqsədlərindən biri küçə uşaqlarının qarşılaşdıqları problemlər, onların küçədə işləməsinin səbəbləri, məşğul olduqları əmək növləri, eləcə də məruz qaldıqları risklər barədə ətraflı məlumat əldə edilməkdən ibarət olmuşdur. Belə sorğulardan biri də 2016 cı ildə Bakı şəhərində yaşayan 9-17 yaşda olan 208 baxımsız küçə uşağını, o cümlədən 165 oğlan və 43 qızı əhatə etmişdir. Qeyd etmək olar ki, sorğuda iştirak edənlərin təxminən yarısı 15-17 yaşında olan uşaqlar olmuşdur.

**UŞAQLARIN CİNS VƏ YAŞ TƏRKİBİ**

| *Yaş* | *Cəmi* | | *o cümlədən* | | | |
|---|---|---|---|---|---|---|
| | | | *kişilər* | | *qadınlar* | |
| | *nəfər* | *%* | *nəfər* | *%* | *nəfər* | *%* |
| ***9-17 yaşda uşaqlar - cəmi*** | **208** | ***100,0*** | **165** | ***79,3*** | **43** | ***20,7*** |
| *o cümlədən:* | | | | | | |
| ***9*** | **6** | ***100,0*** | **2** | ***33,3*** | **4** | ***66,7*** |
| *10* | 17 | *100,0* | 12 | *70,6* | 5 | *29,4* |
| *11* | 15 | *100,0* | 10 | *66,7* | 5 | *33,3* |
| *12* | 21 | *100,0* | 19 | *90,5* | 2 | *9,5* |
| *13* | 24 | *100,0* | 21 | *87,5* | 3 | *12,5* |
| *14* | 27 | *100,0* | 21 | *77,8* | 6 | *22,2* |
| ***10-14*** | **104** | ***100,0*** | **83** | ***79,8*** | **21** | ***20,2*** |
| *15* | 30 | *100,0* | 25 | *83,3* | 5 | *16,7* |
| *16* | 34 | *100,0* | 28 | *82,4* | 6 | *17,6* |
| *17* | 34 | *100,0* | 27 | *79,4* | 7 | *20,6* |
| ***15-17*** | **98** | ***100,0*** | **80** | ***81,6*** | **18** | ***18,4*** |

Yuxarıdakı cədvəldə sorğuda iştirak edən baxımsız uşaq və yeniyetmələrin cins və yaş tərkibi öz əksini tapır.

Araşdırmanın nəticələrinə görə, sorğu olunanların yarıdan bir qədər çoxu Bakı şəhərinə xarici ölkələrdən və ya ölkənin digər şəhər və regionlarından gəlmişdir. Aparılan tədqiqat onu göstərir ki, oğlanların 56 faizi, qızların isə 12 faizi Bakı şəhərində anadan olub. Eyni zamanda sorğuda iştirak edən oğlanların 36 faizi, qızların isə 72 faizi ölkənin rayonlarından gəlmədir. Bir sözlə, qeyd edə bilərik ki, küçə həyatına məruz qalan və baxımsız uşaq və yeniyetmələrin əksəriyyəti regionlardan gəlmədir. Ölkəmizin şimal və cənub regionlarından gələn uşaq və yeniyetmələrin sayı çoxluq təşkil edir. Əslində Qərb bölgəsindən gələnlər də az deyil, ona görə də deyə bilərik ki, Naxçıvan Muxtar Respublikasından başqa, bütün bölgələrdən gələnlər çoxluq təşkil edir [2].

***Uşaqların Bakı şəhərindən əvvəl yaşadıqları ərazilər üzrə bölgüsü***




Eyni zamanda bu tədiqatda uşaqların və yeniyetmələrin təhsildən yayınma göstəriciləri, təhsildən yayınma səbəbləri, onların ailə tərkibi, yaşayış şəraiti, gəlir mənbəyi, işəgötürənin (sahibkarın) uşaqlarla hesablaşma üsulları, uşaqların qazandığı pulları əsasən nəyə xərcləməsi üzrə bölgüsü, uşaqların sağlamlıqları üzrə bölgüsü vəs. tədqiq olunmuşdur.

Evsiz və baxımsız uşaq və yeniyetmələrə sosial xidmətin göstərilməsi, onların layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin apardığı sosial siyasətin başlıca istiqamətlərindən biridir. Bu vaxta qədər ölkəmizdə baxımsız və evsiz uşaqlar ilə bağlı müəyyən işlər görülmüşdür. Lakin problemin aradan qaldırılması üçün qeyri-hökumət təşkilatlarını könüllü əsaslarla cəlb etməklə, beynəlxalq təşkilatların iştirakı ilə dövlət təşkilatlarının məqsədyönlü ardıcıl fəaliyyəti tələb olunur. Bugün ölkəmizdə küçə həyatına məruz qalan uşaqların hüquqlarının qorunması, onların cəmiyyətdə özlərinə layiq yer tuta bilmələri istiqamətində demək olar ki, çox iş görülür. Küçə uşaqları ilə bağlı ən təsirli tədbirlər profilaktik tədbirlər hesab olunur. Profilaktik tədbirlər dedikdə uşaq və yeniyetmələrin küçə həyatına məruz qalmasına gətirib çıxaracaq sosial problemlərin və şəraitin aradan qaldırılması nəzərdə tutulur. Bir sözlə, risk faktorlarını aradan qaldırmaq profilaktik tədbirlərin başlıca istiqamətidir. Bununla belə, baxımsız və kimsəsiz uşaqlar dövlətin və cəmiyyətin diqqət mərkəzində olmalıdır. Uşaqlar üçün əlverişli şəraitin yaradılması, onları evsiz qalma riski ilə üzləşdirən amillərin onlara mənfi təsirinin qarşısının alınması dövlət və cəmiyyət tərəfindən aparılan profilaktik tədbirlərin əsas istiqamətləridir.

Evsiz və baxımsız uşaq və yeniyetmələrlə çalışan rəsmi qurumlarla, dövlət orqanları ilə yanaşı, konkret işlər görən QHT-lər də var. Onlardan biri də Azərbaycan Uşaqlar Birliyidir. Birliyin sədri Kəmalə Ağazadədir. Bu təşkilatın fəaliyyəti ilə tanış olduqda görə bilərik ki, bu təşkilat məhz evsiz və baxımsız uşaq və yeniyetmələrin problemləri ilə məşğul olur və belə uşaqları yaşayış yeri ilə təmin edir. Belə ki, bu təşkilatda uşaq və yeniyetmələrin küçəyə düşmələrinin səbəbləri araşdırılır, onlar təhsilə cəlb edilirlər, asosial vərdişlərini tərgitmələrinə köməklik edilir. Əgər uşaq və yeniyetmələr ailə münaqişəsi nəticəsində küçələrə düşübsə, onların ailələri tapılır, əlaqə saxlanılır. Küçə həyatına məruz qalan uşaq və yeniyetmələrlə bağlı əsas problem bu uşaqların təhsildən yayınması, asosial hərəkətlər törətməsi və narkotik maddələrdən, spirtli içkilərdən asılılıq kimi problemlərdir. Azərbaycan Uşaqlar Birliyi kimi digər QHT-lər də bu problemləri həll etməyə çalışarkən Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əməkdaşlıq edir.

Azərbaycanda evsiz və baxımsız uşaq və yeniyetmələrə sosial xidmət göstərən müəssisələrdən biri də Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üçün Sosial Sığınacaq və Reabilitasiya Müəssisəsidir. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

yanında Dövlət Sosial Müdafiə Fondunun Baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üçün Sosial Sığınacaq və Reabilitasiya Müəssisəsi etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, və mənşəyindən asılı olmayaraq, baxımsız, kimsəsiz, sosial təhlükəli vəziyyətdə və yardıma ehtiyacı olan 8 yaşdan yuxarı yetkinlik yaşına çatmayanların sosial reabilitasiyasının təşkilini və reabilitasiya müddəti ərzində müvəqqəti yaşayışını təmin edən yarımstasionar və stasionar sosial xidmət müəssisəsidir. Bu müəssisə Prezidenti İlham Əliyevin 2019-cu il 18 yanvar tarixli fərmanına əsasən yaradılıb.

Bu müəssisədə küçə həyatına məruz qalan uşaq və yeniyetmələrin qazandıqları mənfi və zərərli vərdişlərindən qurtulmaları üçün reabilitasiya işi aparılır. Bu reabilitasiya tədbirləri isə küçədə yaşayan və işləyən uşaqlarla iş, onlara psixoloji xidmət də daxil olmaqla bir çox xidmətin göstərilməsini nəzərdə tutur. Elə uşaqlar da var ki onların valideynləri var və müxtəlif ailədaxili səbəblərdən onlar küçələrdə yaşamağa başlayıblar. Bu müəssisələrə yerləşdirilən bəzi uşaq və yeniyetmələr isə daha ciddi səbəblərdən küçələrdə yaşamaq və işləmək məcburiyyətində olub. Küçə həyatında isə məcburi əməyə cəlb olunma,fiziki, emosional, cinsi istismar uşaq və yeniyetmələrin psixoloji durumunda müəyyən qədər dəyişikliklərə səbəb olur. Belə psixoloji durumla böyüyən uşaqlar cəmiyyət üçün gələcəkdə böyük problemlər yaratmaq potensialına sahib olurlar. Məhz bu səbəbdən belə uşaq və yeniyetmələrə psixoloji yardım da göstərilir. Sığınacaq və müəssisələrdə evsiz-eşiksiz, baxımsız və küçə həyatına məruz qalan uşaqlara sosial-psixoloji, tibbi-sosial, sosial-pedaqoji xidmətlər göstərilir. Belə xidmətlərin göstərilməsində sosial işçilər, həkimlər, psixoloqlar da daxil olmaqla bir çox mütəxəssislər iştirak edirlər.

Baxımsız və evsiz uşaq və yeniyetmələrə sosial xidmət göstərilərkən sosial işçilər, dövlət orqanları, müəssisələr, QHT-lər qəbul olunmuş qanunlara və hüquqi bazaya əsaslanırlar. Uşaqların hüquqlarını qorumağa dair ən mükəmməl beynəlxalq sənəd 1989-cu il noyabrın 20-də məhz BMT tərəfindən qəbul edilmiş Uşaq Hüquqları Konvensiyasıdır. Bu Konvensiyaya 189 ölkə qoşulmuşdur. Azərbaycan Respublikası bu Konvensiyanı 1992 ildə ratifikasiya etmişdir.

Konvensiyanın məzmunu, onun əsas ideyası uşaq şəxsiyyətidir. Konvensiya uşaqların iqtisadi, sosial, mədəni və hətta siyasi hüquqlara malik olmasını vurğulayır. Bununla yanaşı iştirakçı ölkələr uşaqların həyat şəraitinin yaxşılaşdırılması, onların layiqli həyat səviyyəsinin təmin edilməsi ilə bağlı öhdəliklər götürmüşdür. Konvensiyada qeyd olunur ki, uşaqlar irqindən, dərisinin rəngindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən asılı olmayaraq, öz hüquqlarından istifadə etməlidirlər. Bu konvensiyanı ratifikasiya etmiş ölkələr uşaqların sosial müdafiəsi məsələsinə diqqət yetirməyə başlamış və onların istismar və zorakılıqdan müdafiəsi üçün öz sosial siyasət və qanunlarında dəyişiklik etmişdirlər .

Ölkəmizdə artıq uşaq hüquqlarının müdafiəsi ilə bağlı qanunvericilik bazası formalaşıb. Azərbaycan Respublikası da öz növbəsində BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasını rəhbər tutaraq "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununu qəbul etmişdir. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanunu 1998ci il 18may tarixində qəbul olunub. Bu qanuna görə uşaqların tərbiyə, azadlıq və şəxsi toxunulmazlıq, həyat və sağlamlığının mühafizəsi, zəruri maddi təminat vəs . kimi hüquqları vardır. Bu qanuna görə uşaqların hüquqları və qanuni mənafeləri pozulduqda, o cümlədən valideynləri (onlardan biri) uşağın təhsili, tərbiyəsi üzrə vəzifələrini yerinə yetirmədikdə və ya valideynlik hüquqlarından sui-istifadə etdikdə uşaq öz hüquqlarını qorumaq üçün müvafiq icra hakimiyyəti orqanlarına, 14 yaşına çatdıqda isə məhkəməyə müraciət etmək hüququna malikdir. Bu qanunun müddəalarına görə valideynlərin və ya digər şəxslərin uşaqlarla qəddar rəftara yol verməsi, onlara qarşı psixi və fiziki zor tətbiq etməsi, uşaqların hüquqlarını pozması Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada valideynlik hüquqlarından məhrum edilməyə, habelə inzibati və

ya cinayət məs uliyyətinə səbəb olur.

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 28ci maddəsində qeyd olunubki, dövlət sosial, hüquqi, iqtisadi, tibbi və tərbiyəvi vasitələrlə uşaqları istismarın bütün növlərindən, ağır, zərərli və təhlükəli əməkdən və təsirlərdən mühafizə edir. Lakin küçə həyatına məruz qalan, icbari əməyə cəlb olunan uşaq və yeniyetmələr bir çox hallarda başqa maraqlı şəxslər tərəfindən istismar olunurlar.

Eyni zamanda "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası qanununa görə uşaqların valideynlə birgə yaşamaq hüququ, təhsil almaq hüququ vardır . Küçə həyatına məruz qalan uşaq və yeniyetmələr isə bu başlıca hüquqlarından məhrum olunurlar. Çünki onlar əksər hallarda təhsildən yayınırlar, məcburi şəkildə işləməyə və icbari əməyə cəlb olunurlar. Ən acınacaqlı tərəfi isə bundadır ki, küçə həyatına məruz qalan uşaqlar və yeniyetmələr öz hüquqlarının mövcudluğundan və bu hüquqların pozulmasından xəbərdar olmurlar. Bu sahədə fəaliyyət göstərən sosial işçilər və digər mütəxəssislər isə bu uşaq və yeniyetmələrin pozulmuş hüquqlarını təmin etməyə çalışırlar.

Uşaq və yeniyetmələrin hüquqlarının müdafiəsi və onların yaşayış şəraitinin yaxşılaşdırırlması ilə bağlı hüquqi normativ aktlardan biri də Azərbaycan Respublikasında baxımsız və küçə uşaqları probleminin həlli üzrə Tədbirlər Planı təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamıdır. Bu sərəncam 2003-cü il aprel ayının 13-ü imzalanmış və dərc edildiyi gündən qüvvəyə minmişdir. Nazirlər Kabinetinin bu sərəncamı baxımsız və evsiz uşaqların həyat səviyyəsini yaxşılaşdıracaq Tədbirlər planını və bu plan çərçivəsində müxtəlif dövlət orqanları, qeyri-hökümət təşkilatları tərəfindən həyata keçirilən tədbirlər kompleksini nəzərdə tutur.

Baxımsız və evsiz uşaqların həyat səviyyəsini yaxşılaşdırmaq məqsədi ilə hazırlanmış Tədbirlər Planının təsdiq olunmasının əsas məqsədi küçə uşaqları probleminin həll olunmasıdır. Eyni zamanda həssas qrupa daxil olan evsiz və baxımsız uşaqların hüquqlarının müdafiə edilməsi və aparılan işlərin təkmilləşdirilməsi Tədbirlər Planının başlıca məqsədlərindəndir.

Tədbirlər Planı Birləşmiş Millətlər Təşkilatının (BMT) Uşaq Hüquqları Konvensiyasına və «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikası Qanununa əsaslanaraq hazırlanmışdır və aşağıdakı bölmələrdən ibarətdir[1]:

I — ümumi və təşkilati məsələlər;

II — uşaqların sosial-iqtisadi hüquqlarının müdafiəsi;

III — uşaqların təhsili;

IV — uşaqların səhiyyə problemləri;

V — uşaqların dərsdənkənar fəaliyyətinin təşkili məsələləri;

VI — uşaqların maraqları naminə ictimai və beynəlxalq əməkdaşlıq.

Bu bölmələrdə nəzərdə tutulan müxtəlif işlərin yerinə yetirilməsində Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi kimi bir çox dövlət orqanları birgə fəaliyyət göstərir.

## ƏDƏBİYYAT

1. https://e-qanun.az/framework/2176
2. http://anl.az/down/meqale/hafta_ichi/2011/fevral/158015.htm
3. https://peterglinskiy.ru/az/problemy-socialnoi-raboty-s-beznadzornymi-detmi-organizaciya-raboty-organov-socialnoi-zashchity-nase.html
4. https://aia.az/11316-azerbaycanda-ne-qeder-dilenchilik-eden-ushaq-var.html
5. https://www.sosial.gov.az/baximsiz-kimssiz-v-sosial-thlukli-vziyytd-olan-yetkinlik-yasina-catmayanlar-ucun-sosial-siginacaq-v-reabilitasiya-mussissi

6. https://e-qanun.az/framework/3292
7. https://www.stat.gov.az/source/crimes/az/k_ush.pdf

## EVSİZ VƏ BAXIMSIZ UŞAQ VƏ YENİYETMƏLƏRƏ GÖSTƏRİLƏN SOSİAL XİDMƏT DÖVLƏTİN APARDIĞI SOSİAL SİYASƏTİN PRİOTET İSTİQAMƏTİ KİMİ

***Salmanova Səlmi***

### XÜLASƏ

Bu məqalədə evsiz və baxımsız uşaq və yeniyetmələr kateqoriyasına daxil olan uşaq və yeniyetmələr, onların küçə həyatına məruz qalmasının səbəbləri haqqında məlumat verilib. Eyni zamanda evsiz və baxımsız uşaq və yeniyetmələrə sosial xidmət göstərən müəssisələr, QHT-lər haqqında informasiya da burada öz əksini tapıb. Məqalə bu kateqoriyaya daxil olan uşaq və yeniyetmələrə sosial xidmət göstərən müəssisələrin hansı hüquqi bazaya əsaslanmalı olduqlarını nəzərdən keçirib və təhlil edib.

## СОЦИАЛЬНОЕ ОБСЛУЖИВАНИЕ БЕЗДОМНЫХ И БЕЗДОМНЫХ ДЕТЕЙ И ПОДРОСТКОВ КАК ПРИОРИТЕТНОЕ НАПРАВЛЕНИЕ СОЦИАЛЬНОЙ ПОЛИТИКИ ГОСУДАРСТВА

***Салми Салманова***

### АННОТАЦИЯ

В данной статье представлена информация о детях и подростках, попадающих в категорию беспризорных и безнадзорных детей и подростков, и причинах их подверженности уличной жизни. Вместе с тем, здесь же отражена информация об учреждениях и НКО, оказывающих социальные услуги беспризорным и безнадзорным детям и подросткам. В статье рассмотрены и проанализированы правовые основы учреждений, оказывающих социальные услуги детям и подросткам, входящим в данную категорию.

## SOCIAL SERVİCE FOR HOMELESS AND ADOLESCENT CHILDREN AND ADOLESCENTS AS A PRIORITY DIRECTION OF STATE SOCIAL POLICY

***Salmi Salmanova***

### SUMMARY

This article provides information about children and adolescents who fall into the category of homeless and neglected children and adolescents and the reasons for their exposure to street life. At the same time, information about institutions and NGOs providing social services to homeless and neglected children and adolescents is also reflected here. The article reviewed and analyzed the legal basis for institutions providing social services to children and adolescents included in this category.

# PROBLEMLİ GƏNC AİLƏNİN QARŞILAŞDIĞI UĞURSUZLUQLARIN SƏBƏBLƏRİ

***Məcidova Lalə Ədalət qızı***
***ADMİU-nun II kurs magistrantı***
***ariesberre@gmail.com***

***Açar sözlər;*** gənc ailə, problem, uğursuzluq, iqtisadi böhran.
***Ключевые слова:*** молодая семья, проблема, неудача, экономический кризис.
***Keywords:*** young family, problem, failure, economic crisis.

Rusiya prezidenti isə davamlı olaraq konfliktin genişlənməsinin səbəbi olaraq NATO və Avropa İttifaqını hədəf göstərir. Bir çox liberal düşüncəli politoloqların fikrinə görə Rusiyanın Ukraynaya müharibə etməsi mümkünsüz idi. Belə ki, Samuel Hantinqton özünün "Sivilizasiyaların Toqquşması" kitabında ruslar və ukraynalıların qardaş xalq olduğunu və nə vaxtsa aralarında münaqişə olacağına ehtimal verməmişdi. Nəticədə ikisidə Belarusla birlikdə slavyanların şərq qoluna aiddir.Eyni zamanda məşhur İsrail tarixçisi Yuval Noah Harrari də "21-ci əsr üçün 21 dərs" kitabında "Əgər Putin müharibəyə Stalin, I Pyotr və ya Çingiz xan kimi ruhla girsəydi, rus tankları Varşavaya və Berlinə olmasa belə , Tiflis və Kiyevə mütləq girmişdi. Ancaq Putin nə Çingiz xandır, nə də Pyotr. O 21-ci əsrdə hərbi gücün müəyyən dərəcədə işlədiyini, uğur qazanmaq üçün məhdud döyüş taktikalarından istifadə etməli olduğunu hər kəsdən daha yaxşı bilirmiş kimi görünür". Liberallara görə Putin belə davam etsə müharibənin sonu Rusiyanın süqutu ilə yekunlaşa bilər, SSRİ-nin süqutu kimi...

Hər gün atılan addımlar, verilən qərarlar isə vəziyyəti daha da gərginləşdirir və bu konfliktin bitəcəyinə ümidləri azaldır. 8 oktyabr 2022-ci il tarixində Ukrayna Prezidenti Vladimir Zelinski Kuril adalarının Yaponiyanın bir hissəsi kimi tanıması haqqında fərmanı imzalayıb. Daha sonra Kırım körpüsündə baş verən partlayışda 3 nəfərin öldüyü bildirildi. "Əl-Cəzirə" telekanalından Mohamad Vall, Moskvadan reportaj verərək, partlayışın ruslar üçün "böyük zərbə" olduğunu söylədi. Təbii ki, bu hadisələr vəziyyətin daha da mənfi tendesiyada getməsinə şərait yaradır. Sonda nə olacağını bilmirik amma istənilən halda zərərçəkən bəşəriyyət olacaq.

Vladimir Putin 30 avqustda Donetsk, Luqansk, Xerson və Zaporojjyanın rəsmi olaraq anneksiyasını gerçəkləşdirdi. Təbii ki, beynəlxalq ictimaiyyət bunu qəbul etmədi və burda keçirilən referendumu "şam seçkiləri" adlandırdı. Qeyd etdiyim kimi, bu müharibə tək 2 ölkəni deyil, bütün dünyanı təhlükə altına qoyur. Bugün dünya qlobal aclıqla qarşı-qarşıyadır. Rusiya və Ukrayna dünyanın önəmli enerji və ərzaq ixracatçılardır. Buna görə də müharibə bütün dünyaya öz zərbələrini vurur. Avropa artıq Rusiyadan neft və qaz əldə edə bilmədiyinə görə alternativ enerji mənbələrinə yönəlib. Avropa ölkələri Rusiya qazından aslı vəziyyətdə idi. Xüsusilə də Almaniya, Fransa, Finlandiya kimi ölkələr. İndi isə onlar neft və qaz üçün Ərəb olkələrinə, Azərbaycana müraciət ediblər. Təsadüfi deyil ki, 2022-ci il 18 iyul tarixində Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanmışdır.

Eyni zamanda 2022-ci il oktyabrın 1-də Bolqarıstan Respublikasının paytaxtı Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimi keçirildi ki, burda da Azərbaycan qazının önəmi bir daha vurğulandı və Azərbaycanın Avropa İttifaqı ölkələrinin etbarlı tərəfdaşı olduğu qeyd edildi. Daha sonra Albaniya və Serbiya ilə də enerji təhlükəsizliyi sahəsində əməkdaşlıqlar baş tutdu. Bildiyimiz kimi enerji təhlükəsizliyi milli təhlükəsizliyin bir hissəsidir. Özəlliklə 21-ci əsrdə enerji resursları iqtisadi artımın, siyasi və sosial sabitliyin əsas amillərindən birinə çevrilmişdir Ona görə də bugün alternativ enerji mənbələri bir çox ölkəyə hava və su kimi lazımdır. Rusiyanın təbii qaz axınını dayandırmasından sonra, Avropa təbii qaz qiymətləri altı ayda təxminən 35% artdı və elektrik enerjisi qiymətlərində də artım müşahidə olundu. 26 iyul 2022-ci ildə Aİ-nin enerji nazirləri bu qış təbii qaza tələbatın könüllü olaraq 15% azaldılmasına dair siyasi razılaşma əldə etdilər. 2021-ci ilin ikinci yarısından etibarən Aİ və bütün dünyada enerji qiymətlərində kəskin artım olub. Rusiyanın Ukraynaya təcavüzü nəticəsində yanacağın qiyməti daha da artıb ki, bu da Aİ-də

enerji təchizatının təhlükəsizliyi ilə bağlı narahatlıqlara səbəb olub. Rusiyanın bir sıra Aİ-yə üzv ölkələrə qaz tədarükünü dayandırmaq qərarı vəziyyətə daha da təsir edib.

Ukrayna və Rusiya xüsusilə Afrika və yaxın Şərq ölkələri üçün buğda, arpa, qarğıdalı və yemək yağının əsas ixracatçılarıdır. Rusiya eyni zamanda ən böyük gübrə və yağ istehsalçısıdır. Mart ortalarında Rusiya Ermənistan, Qazaxıstınan və Qırğızıstana buğda, qarğıdalı və digər dənli bitkilərin ixracına qadağa qoydu. Bu malların axınının pozulması digər tədarük zəncirini və iqlim problemlərini daha da gücləndirir, ərzaq və qaz qiymətlərini artırır, qıtlığa səbəb olur və milyonlarla insanı aclığa sürükləyir. Hazırda dünya iqtisadiyyatı çökmək üzrədir. BMT-nin proqnzuna görə gələn il dünya qlobal aclıqla üzləşəcək. Ən inkişaf etmiş ölkələr belə kəskin inflasiya ilə üzləşib. Dünyada isə bu problemin aradan qaldırılması üçün əlindən gələni edən Türkiyə var. Bildiyimiz kimi Türkiyə hər iki ölkənin nümayəndələri ilə görüşüb və artıq ilk yüklər Türkiyə vasitəsilə daşınmağa başlayıb. "Taxıl kordioru" dünyada qıtlığın qarşısını almaq üçün atılan mühüm addımlardan biridir". Müqavilə çərçivəsində indiyədək 11 milyon tondan çox taxıl daşınıb. Taxıl dəhlizi sazişinin müddəti noyabrın 19-dan daha 120 gün uzadılıb. Müqavilənin uzadılmasının elan edilməsi ilə buğdanın qiyməti 2,5 faiz ucuzlaşıb.

Bəzi ölkələrin müharibədən sonrakı vəziyyəti;

- Şri lanka - Müharibədən qaynaqlanan yüksək yanacaq və ərzaq qiymətləri Şri Lankanın iqtisadi böhranını daha da gücləndirdi. Aprel ayında illik inflyasiya 29,8% təşkil edib. Hökumət xarici borclar üzrə ödənişləri dayandırdı və Beynəlxalq Valyuta Fondundan yardım istədi.
- Livan-Müharibənin ilk ayında günəbaxan yağının qiyməti 83%, buğdanın qiyməti isə 47% artdı. Əsas ərzaq səbətinin qiyməti bir il əvvəlki ilə müqayisədə üç dəfədən çox artıb.
- Efiopiya-Mart ayında gübrə qiymətləri 200% artdı.
- Misir- Ölkənin buğda idxalının çox hissəsi Ukrayna və Rusiyadan gəlir və ehtiyatları qorumaq üçün un, buğda, makaron və mərcimək ixracına qadağa qoyulmasına səbəb olur.
- Hindistan- Dünyanın ikinci ən böyük buğda istehsalçısı Ukrayna və Rusiyadan tədarükün kəsilməsini kompensasiya etmək üçün dünya üzrə taxıl ixracını artırıb.
- Braziliya- Bu qlobal kənd təsərrüfatı mərkəzinin fermerləri gübrənin qıtlığından və bahalaşma qiymətlərindən narahatdırlar. Braziliya dünyanın ən böyük gübrə idxalçısıdır və bu idxalın beşdə birindən çoxu Rusiyanın payına düşür.
- İtaliya- Ölkə enerji qiymətlərinin artması ilə son üç onillikdə ən yüksək inflyasiya ilə üzləşir.

## ƏDƏBİYYAT


1. https://theconversation.com/ukraine-war-what-is-the-budapest-memorandum-and-why-has-russias-invasion-torn-it-up-178184
2. https://www.trt.net.tr/azerbaycan/dunya/2018/12/06/ukrayna-rusiya-il-arasinda-olan-muqavil-ni-l-gv-etdi-1101955
3. https://treaties.un.org/Pages/showDetails.aspx?objid=08000002803e6fae&clang=_en
4. https://www.csis.org/analysis/russias-war-ukraine-identity-history-and-conflict
5. https://www.wfp.org
6. https://www.thereporterethiopia.com/
7. https://www.theguardian.com/
8. https://www.bbc.com/news
9. https://www.wsj.com/
10. https://www.bloomberg.com/
11. https://en.m.wikipedia.org/wiki/2022_G20_Bali_summit

12. https://www.ntv.com.tr/ntvpara/
13. Samuel Hantinqton "Sivilizasiyaların toqquşması və müasir dünya nizamı"
14. Yuval Noah Harrari "21 lessons for 21 century"
15. The Washington posts
16. Yuval Noah Harrari- "Homo Deus"

## RUSİYA-UKRAYNA MÜHARİBƏSİNİN DÜNYA ÜÇÜN TƏHDİDLƏRİ

*Elyazova Dilarə*

## XÜLASƏ

Texnologiya əsri adlanan 21-ci əsrdə silahlı münaqişələrin, müharibələrin olması gözlənilən hal deyildi. Lakin biz yenə də mənfəətin, maraqların hər şeydən üstün olduğunu görürük. Hansı tərəfin qalib gəlməyindən aslı olmayaraq bu konflikt dünyanı yeni fəlakətlərlə qarşı-qarşıya qoyur. Ən əsası artıq dünyamız nüvə təhlükəsi ilə üzbəüzdür. Vladimir Putin kəskin sözlərinin "blef" olmadığını dedi. Eyni zamanda dünyanın aparıcı qüvvələri də Putinin sözlərini ciddiyə alırlar. Rusiyanın Ukraynaya təcavüzündən sonra bəzi ölkələr Rusiya prezidenti Vladimir Putinin G20-dən xaric edilməsini tələb ediblər. Hadisələrin gedişatından bizə onu göstərir ki, üçüncü dünya müharibəsi başlanması ehtimalı yüksəkdir.. Bəs bəşəriyyət yeni bir dünya müharibəsinə hazırdırmı? Şübhəsiz ki, xeyr...

## УГРОЗЫ РОССИЙСКО-УКРАИНСКОЙ ВОЙНЫ МИРУ

*Эльязова Диляра*

## АННОТАЦИЯ

В 21 веке, который называют веком технологий, вооруженных конфликтов и войн не предвидится. Но мы по-прежнему видим, что выгода и интересы превыше всего. Независимо от того, какая сторона победит, этот конфликт столкнет мир с новыми бедствиями. Самое главное, что наш мир сейчас стоит перед ядерной угрозой. Владимир Путин заявил, что его резкие слова не были «блефом». В то же время ведущие силы мира также серьезно относятся к словам Путина. После агрессии России против Украины некоторые страны потребовали исключения президента России Владимира Путина из G20. Ход событий показывает нам, что третья мировая война может начаться, но готово ли человечество к новой мировой войне? Точно нет...

## THREATS OF THE RUSSİAN-UKRAİNİAN WAR TO THE WORLD

*Elyazova Dilara*

## SUMMARY

In the 21st century, which is called the age of technology, armed conflicts and wars were not expected. But we still see that profit and interests are above all else. Regardless of which side wins, this conflict confronts the world with new disasters. Most importantly, our world is now facing a nuclear threat. Vladimir Putin said that his harsh words were not a "bluff". At the same time, the world's leading forces also take Putin's words seriously. After Russia's aggression against Ukraine, some countries demanded the expulsion of Russian President Vladimir Putin from the G20. The course of events shows us that the third world war is likely to start. But is humanity ready for a new world war? Definitely not...

# AZƏRBAYCANIN XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNDƏ MALLARIN GÖMRÜK DƏYƏRİNİN TƏYİN OLUNMASI

***Mustafazadə Mətanət Elşən qızı***
***Bdu-nun II kurs magistrantı***
***mustafazadehh@bk.ru***
***Elmi rəhbər: i.ü.f.d., dos. Babayev Fərid Fikrət oğlu***

***Açar sözlər:*** gömrük dəyəri, xarici ticarət, gömrük nəzarəti, xarici iqtisadi fəaliyyət.
***Ключевые слова:*** таможенная стоимость, внешняя торговля, таможенный контроль, внешнеэкономическая деятельность.
***Keywords****:* customs value, foreign trade, customs control, foreign economic activity

Xarici ticarət beynəlxalq iqtisadi əlaqələrin daha yüksək inkişaf etmiş formasıdır. Bunu onun beynəlxalq iqtisadiyyatda böyük xüsusi çəkiyə malik olması ilə əsaslandırmaq olar. Xarici ticarət təkcə dünya ölkələri arasında xammal və məhsulların alqı-satqısı əməliyyatlarının məcmusu deyil. O, həm də bilavasitə beynəlxalq əmək bölgüsünə, onun başlıca prinsiplərinə əsaslanan, beynəlxalq qaydalara uyğun şərtlərlə aparılan alqı-satqı və mübadilə forması kimi qəbul olunmalıdır. Xarici ticarət burada iştirak edən bütün ölkələr üçün faydalı olmalı, onların iqtisadi inkişafı və sosial təminat baxımından əlavə gəlir mənbəyi kimi özünü büruzə verməlidir.

Ölkəmizdə mövcud iqtisadi sərbəstlik, özəl bölmənin inkişafı üçün yaradılmış münbit şərait, ən başlıcası respublikamızın yerləşdiyi əlverişli coğrafi şərait nəticəsində xarici ticarət əlaqələrinin həcmi və miqyası getdikcə artır. Xarici ticarət dövriyyəsi, idxal-ixrac əməliyyatları ölkələrarası münasibətlərin, iqtisadi əlaqələrin inkişafında mühüm amillərdəndir. Azərbaycan iqtisadiyyatının inkişafı üçün hər hansı üsulun tətbiqi mövcud şəraitdə respublikamızda baş verən iqtisadi proseslərin daha dərindən öyrənilməsini, maliyyə tənzimləyicilərindən istifadə edərək iqtisadi inkişafın mümkün istiqamətlərinin araşdırılmasını, geniş təkrar istehsal prosesinin fasiləsizliyinin təmin edilməsində dövlət büdcəsinin rolunun tədqiq edilməsini zəruri edir. Bu işdə isə ölkədə gömrük, vergi sistemlərinin düzgün təşkil edilməsi mühüm rol oynayır.

Gömrük dəyəri – bu mallara gömrük vergisinin qoyulması üçün malların dəyəridir. Daha dəqiq desək, başlanğıc hesablama bazasıdır.Belə ki burada rüsum, əlavə gəlir vergisi, gömrük qeydiyyatı, yığımlar və s. nəzərə alınır.Malların gömrük dəyərinin əsas təyinatı – gömrük vergiləri üçün baza olmaqdan ibarətdir.

Gömrük dəyərinin tətbiqi onun həyata keçirilmiş olduğu funksiyalarda özünü göstərir. Ölkəmizdə gömrük tariflərinin tətbiqi, tarif tənzimlənmələri tədbirləri, onların beynəlxalq norma və qaydalara uyğunluğu, həmçinin tarif əhatəsinin real səviyyəsi gömrük rüsumları və ödənclərinin bazasının hesablanma formasını müəyyən dən qaydalardan asılıdır. Əmtəələrin gömrük sərhəddindən keçirilməsi zamanı vergiqaytarma bazasının təyin edilməsi, qaydalarının müəyyən edilməsində həm dövlət, həm də kommersiya dairələri maraqlıdır.Ölkəmizdə Dövlət büdcəsinin gəlir hissəsinin 18%-ə qədəri gömrük rüsum və vergiləri hesabına formalaşır. Kommersiya dairələri üçün keçirilən mallara vergiqoyma qaydaları barədə bilgilər xarici iqtisadi fəaliyyətin real səmərəsini, konkret müqavilələrin gəlir və çıxarışı hesablamağa şərait yaradır.

«Gömrük qanunları» haqqında qanunda göstərilir ki, “Malların gömrük dəyəri” struktur göstəricilərinin qanunauyğun müəyyənləşdirilməsi və onun dəqiq reqlament qaydası ilə müəyyənləşdirilməsi məqsədinə xidmət edir. Bundan başqa əsas təyinatdan əlavə gömrük dəyərindən birbaşa və ya dolayı yolla digər gömrük məqsədləri üçün, gömrük statistikasının aparılması, barter işlərində malların qiymət xüsusiyyətlərinin yoxlanılmasında, ekvivalent

mal göndərişlərində idxalixrac əməliyyatları həyata keçirərkən valyuta nəzarətinin həyata keçirilməsində, qoyulmuş dəyər kvotasına nəzarətdə özünü göstərir.

Qeyd edək ki, dünya təcrübəsində gömrük sərhəddindən keçirilən malların gömrük dəyərinin müəyyənləşdirmək məqsədi ilə qiymətləndirilməsi beynəlxalq gömrük təcrübəsindən ən mürəkkəb əməliyyatlardan biri hesab edilir. Hazırki gömrük dəyərini müəyyən etmək sistemi birdən yaranmamışdır. Son dövrdə xarici ticarətdə iştirak edən əksər ölkələr gömrük dəyərini müəyyən etmək üçün beynəlxalq sistemdə mövcud olan iki qaydadan «Brussel» və ya «QATT» üsulundan birini istifadə edirlər. Bundan əlavə xarici ticarət dövriyyəsində əsaslı rol oynamayan az qism ölkələr vardır ki, onlar özlərinin mallarının milli gömrük dəyərini təyin etmək metodlarından istifadə edirlər. Faktlara əsaslanaraq qeyd edəkki, 1950-ci ildə bir sıra Qərbi Avropa ölkələrinin təşəbbüsü ilə malların gömrük dəyərinin müəyyənləşdirilməsinin unifikasiya olunmuş metodologiyasını hazırlamaq üçün Brüssel şəhərində saziş imzalamışlar. Bu sazişə əsasən «Brüssel gömrük dəyəri» (BGD) malların normal dəyəri kimi müəyyənləşdirilir. Belə ki, satıcı və alıcıdan bir-birindən asılı olmayan şəraitdə tam rəqabət və açıq bazarda qiymətlər yaranır. Mövcud Brüssel gömrük dəyəri konvensiyasına 75-dən artıq ölkə qoşulmuş və 80-cı illərə qədər malların dəyərini müəyyən etməyin ən geniş yayılmış üsul olmuşdur.

Respublikaya gətirilən mallara dəqiq norma və gömrük dəyərini müəyyən etmək üçün həyata keçirilmə qaydası səmərəli sistem yaratmaq, onların həyata keçirilməsində nəzarəti nəzərdə tutur. Respublikamızda gömrük dəyərinə nəzarət və onun müəyyənləşdirilməsi əməliyyatı xarici ticarət fəaliyyəti xüsusilə ticarət edən tərəflərin gömrük qanunlarının uyğunluğu ilə də əlaqədardır. Bu Xarici İqtisadi Fəaliyyətdə iştirak edən iştirakçıların idxal-ixrac əməliyyatlarının təşkilini xeyli yüngülləşdirir və gömrük mal qeydiyyatlarını sadələşdirir. Belə ki, gömrük dəyəri və onun təşkili ona nəzarət üzrə qurulmuş qanunvericiliyin milli qanunlarla qurulması vacibdir. Ölkədə Gömrük dəyərinə nəzarət təmiz vergi funksiyasından başqa müəyyənləşdirmə mexanizminin çoxluğunu, bazar iqtisadiyyatının qurulması təsərrüfat subyektlərinə bərabər rəqabətli şərait yaratmaqla məsələlərinin həll edilməsinə xidmət edir. Beynəlxalq qaydalara əsasən Respublikanının gömrük dəyərinin müəyyənləşdirilmə qaydasını beynəlxalq prinsiplər əsasında müəyyən edir. Gömrük dəyərinin müəyyən edilməsi dövlətlərin kommersiya dairələrinin maraqlarına cavab verir. Mövcud olan beynəlxalq gömrük təcrübəsindən istifadə etməklə xarici ticarət tərəf müqabilələri ilə qarşılıqlı fəaliyyəti asanlaşdırır. Malların gömrük dəyərinin müəyyən edilməsində dünya praktikasına istinad etmək müstəsna əhəmiyyət kəsb edir.Onu da qeyd edək ki, Respublika Xarici İqtisadi Fəaliyyətlə məşğul olan iştirakçılar rüsum və vergilərin hesbalanmasına dair qaydaya görə malların gətirilməsində bərabər şəraitdə qorunurlar.

Ümumiyyətlə, ölkəmizdə malların gömrük dəyərinin müəyyənləşdirilməsinin gömrük orqanlarının iqtisadi fəaliyyətində xüsusirol oynayır «Gömrük tarifi haqqında» AR Qanunu mallarının qiymətləndirilməsinin ədalətli, vahid və neytral sisteminin təmin edilməsinin əsasını təşkil edir. Burada Qanun gömrük dəyərinin strukturunu dəqiq müəyyən edir – gömrük dəyəri, faktiki olaraq ödənilmiş, yaxud ödənilməli olan qiymət və üstəgəl ona hesablanmalı əlavələr deməkdir. Həmçinin Qanunla müəyyən edilmiş qiymət əlavələrinin və onların siyahısının gömrük orqanları və iqtisadi fəaliyyət iştirakçıları tərəfindən dəyişdirilməsinə yol verilmir. Malların gömrük dəyərləndirmə sistemi Respublika gömrük ərazisinə gətirilən mallara şamil edilir. Bu isə gömrük dəyərinin təyin edilmə üsullarında nəzərə alınmalıdır. Qiymətləndirmə sisteminin dəyişdirilməsindən tam həcmdə ixrac əməliyyatlarında analoji məqsədlə tətbiq edilməsi bir sıra obyektiv səbəbdən mümkün olmur. Qanunla müəyyən edilmiş mal qiymətləndirilməsinin ümumi prinsipləri ixrac əməliyyatlarında da istifadə edilir. Bu işdə Gömrük dəyərinin müəyyən edilməsi sistemi xüsusi rol oynayır.

Azərbaycan Respublikasının digər ölkələrlə xarici ticarət əlaqələrinə dair bir çox məlu-

matlar "Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası"na daxil edilmişdir. Buradakı göstəricilər ixrac və idxal olunan malların ölkə sərhədindən keçirilən zaman xarici iqtisadi fəaliyyət iştirakçıları tərəfindən tərtib olunan gömrük bəyannamələri əsasında Dövlət Gömrük Komitəsinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemindən (VAİS) alınmışdır. Xarici ticarət əlaqələrinə dair aşağıdakı göstəricilər daxil edilmişdir: 1.Büdcə daxilolmaları haqqında məlumat; 2. Xarici iqtisadi fəaliyyət iştirakçıları haqqında məlumat; ticarət əməliyyatlarının həcmi haqqında məlumat; 3. İdxal-ixrac əməliyyatlarının həcminin ölkə qrupları (Müstəqil Dövlətlər Birliyi, Avropa İttifaqı), ölkələr, mal qrupları (Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturasının 2 rəqəmli kodları üzrə), əsas mallar, mülkiyyət növləri, sövdələşmə xarakterləri, daşınma vasitələri üzrə bölgüsü; 4. Gömrük hüquqpozmalarına qarşı mübarizə haqqında məlumat.

Yuxarıda sadaladığımız göstəricilər "Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikasının Metodologiyası"na əsasən hazırlanmışdır. Xarici ticarətin gömrük statistikasının aparılması üçün ilkin məlumatlar malların gömrük rəsmiləşdirilməsində təqdim olunan gömrük bəyannamələrində göstərilən məlumatlar hesab olunur.

Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası ümumi ticarət uçot sistemi əsasında aparılır və bu sistemdə aşağıdakı mallar nəzərə alınmır: Ölkə ərazisindən tranzit keçən mallar, müvəqqəti gətirilən (aparılan) mallar, müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilən mallar, gömrük anbarı, sərbəst zonada yerləşdirilən və ölkənin gömrük ərazisindən aparılmaq üçün nəzərdə tutulan daxili mallar, ölkənin ərazisində məhv edilən xarici mallar, səfirlik, konsulluq, beynəlxalq təşkilatların yanındakı nümayəndəliklərin və ölkənin xaricdə yerləşən digər rəsmi nümayəndəliklərinin fəaliyyətinin təmin edilməsi üçün ölkənin gömrük ərazisindən aparılan mallar, xarici ölkələrin səfirlik, konsulluq və digər rəsmi nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin fəaliyyətinin təmin edilməsi üçün ölkənin gömrük ərazisinə gətirilən mallar, xaricdə dislokasiya olunan hərbi hissələr üçün keçirilən mallar, xarici dövlətin ərazisindən keçməklə gömrük orqanları arasında daşınan daxili mallar, təbii fəlakət və digər fövqəladə vəziyyətlərin nəticələrini aradan qaldırmaq, qəzaxilasetmə tədbirlərini həyata keçirmək, o cümlədən zərərçəkmişlərə paylamaq və onlara yardım etmək məqsədilə keçirilən və sonradan qaytarılması nəzərdə tutulan mallar.

Azərbaycan Respublikasının "Gömrük tarifi" haqqında qanunun 18-ci maddəsinin birinci bəndinə görə Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən malın gömrük dəyəri əmtəənin gömrük sərhəddindən keçildiyi anda bu əmtəə üçün faktiki ödənilmiş və ya ödəniləcək sövdələşmə qiymətidir. Sövdələşmə qiyməti müəyyən edilmiş və hesabdan çıxmalar nəzərə alınmalıdır. Gömrük dəyərini aşağıdakı formula ilə hesablamaq olar: GÖMRÜK DƏYƏRİ = Gətirilən əmtəəyə görə ödənilmiş və (ödənilməmiş) ödənilməli olan sövdələşmə qiyməti + 1. əmtəənin hava və dəniz limanınadək, yaxud respublikanın gömrük ərazisinə daxil olduğu digər yerə qədər çəkilən 2. nəqliyyat xərcləri 3. yüklənmə xərcləri 4. sığorta xərcləri.

Faktiki ödənilmiş və ya ödənilməli olan qiymət-alıcının satıcıya idxal əmtəələri üçün ödədiyi, yaxud ödəyəcəyi, lakin gömrük rəsmiləşdirilməsi anınadək hələ ödəməmiş olduğu ödənc məbləğlərinin məchuludur. Ödəniş köçürmə, akkreditiv, inkasso, qarışıq və digər qanuni hesablaşma formasında olur. "Gömrük tarifi haqqında" AR-nın Qanunununun 15-17-ci maddəsinə əsasən, respublikanın gömrük ərazisinə gətirilən məhsulların gömrük dəyəri aşağıdakı 6 üsuldan istifadə olunur: 1. Gətirilən məhsulların sövdələşmə üsulu 2. Eyni əməhsulların sövdələşmə üsulu 3. Eyni cinsli məhsulların sövdələşmə üsulu 4. Dəyərin çıxması üsulu 5. Dəyərin toplanmaması üsulu 6. Ehtiyyat üsulu.

Azərbaycanda idxal olunan məhsulların gömrük qiymətləndirilməsinin normativ baza sistemi "Gömrük tarifi" haqqında Ar qanunu, "Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan məhsulların gömrük qiymətləndirilməsi sisteminin

tətbiqi qaydaları", "Gömrük dəyər bəyənnaməsinin doldurulmasına dair Təlimat" təşkil edir.

Respublikamizda gömrük nəzarətində risklərin idarə olunması sistemi tətbiq edilir. Risklərin idarə olunması sistemi bütün gömrük əməliyyatlarında həyata keçirilməsində gömrük dəyərlərinin düzgün müəyyən edilməsində mühüm rol oynayır. Qeyd edəkki, risklərin idarə olunması idarəetmənin yeni növü deyil. Bu sistem əvvəllərdə bankçılıq sahəsində, sığorta şirkətlərində, investisiya layihələri, digər maliyyə sahələrində, bu və ya digər itki ehtimalı ilə əlaqədar dövri əməliyyatlarda tətbiq edilib. AR Gömrük Məcəlləsində risklər - gömrük qanunvericiliyinə əməl olunmaması ehtimalları kimi müəyyən edilib. Belə ki, şübhəli əməliyyatların ehtimal edildiyi - fiskal siyasət, qaçaqmalçılığın qarşısının alınması, valyuta nəzarəti, ekologiyanın qorunması kimi sahələrdə gömrük orqanlarının məşğul olduğu geniş əhatəli məsələləri özündə birləşdirir.

Respublikada qabaqcıl ölkələrin gömrük işi sahəsində təcrübəsinin öyrənilməsi və tətbiqi, beynəlxalq tələblərə uyğunlaşdırılan gömrük qanunvericiliyinin yaradılması sahəsində böyük işlər görülüb. Gömrük-tarif siyasətinin beynəlxalq praktikaya uyğun müəyyənləşdirilməsi tədbirləri vaxtaşırı olaraq davam etdirilir. Bazar iqtisadiyyatı şəraitində Respublikanın iqtisadi təhlükəsizliyini qorumaq və ümummilli maraqları müdafiə etmək dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən hesab edilir. Dövlət bu vəzifəni iqtisadi siyasətinin tərkib hissəsi olan gömrük siyasəti vasitəsilə yerinə yetirir. Bu sahədə gömrük siyasəti isə XİF-in gömrük-tarif tənzimlənməsi metoduna əsaslanır.

## ƏDƏBİYYAT

1. A.Ə.Əliyev, A.Ş.Şəkərəliyev «Bazar iqtisadiyyatına keçid dövlətin iqtisadi siyasəti».
2..A.Ş.Şəkərəliyev, A.Ə.Əliyev, C.Q.Nuriyev, Z.A.Şəkərəliyeva "Gömrük işinin təşkili və idarə edilməsi".
3. K.F.Sadıqov, K.S.Qafarov, N.N.Bədirov «Xarici iqtisadi fəaliyyətin makroiqtisadi tənzimlənməsi».
4.https://www.taxes.gov.az
5. http: //customs.gov.az

# AZƏRBAYCANIN XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNDƏ MALLARIN GÖMRÜK DƏYƏRİNİN TƏYİN OLUNMASI

***Mustafazadə Mətanət***

## XÜLASƏ

Azərbaycan Respublikasında gömrük dəyərinin mahiyyəti, təyin edilməsi üsulları «Gömrük tarifi haqqında» qanunda öz izahını tapmışdır. Azərbaycanda gömrük işi sahəsindəki bir çox məsələlər kimi gömrük dəyəri, tutulması qaydası və s. da MDB ölkələri ilə eyni qaydada hesablanır . Respublikanın gömrük ərazisinə gətirilən məhsulların, nəqliyyat vasitələrinin gömrük dəyəri onları Azərbaycanın gömrük sərhədindən keçirərkən faktiki ödənilmiş , ya da ödənilməlin olan sövdələşmə qiymətidir.Gömrük tarifi haqqında qanuna əsasən, respublikanın gömrük ərazisinə gətirilən məhsulların gömrük dəyəri üçün 6 üsuldan istifadə olunur. Respublikada qabaqcıl ölkələrin gömrük işi sahəsində təcrübəsinin öyrənilməsi və tətbiqi, beynəlxalq tələblərə uyğunlaşdırılan gömrük qanunvericiliyinin yaradılması sahəsində böyük işlər görülüb. Gömrük-tarif siyasətinin beynəlxalq praktikaya uyğun müəyyənləşdirilməsi tədbirləri vaxtaşırı olaraq davam etdirilir.

## ОПРЕДЕЛЕНИЕ ТАМОЖЕННОЙ СТОИМОСТИ ТОВАРОВ ВО ВНЕШНЕЙ ТОРГОВЛЕ АЗЕРБАЙДЖАНА

***Фарид Бабаев, Мустафазаде Матанат***

### АННОТАЦИЯ

В Азербайджанской Республике сущность таможенной стоимости и методы ее определения разъясняются в законе «О таможенном тарифе». Так как многие вопросы в сфере таможенной работы в Азербайджане, таможенная стоимость, порядок взимания и т.д. рассчитывается так же, как и страны СНГ. Таможенной стоимостью товаров и транспортных средств, ввозимых на таможенную территорию республики, является фактическая цена, уплаченная или подлежащая уплате при их перемещении через таможенную границу Азербайджана.Согласно Закону о таможенном тарифе, для таможенная стоимость продукции, ввозимой на таможенную территорию республики. В республике проделана большая работа в области изучения и применения опыта передовых стран в области таможенного дела, создания таможенного законодательства, адаптированного к международным требованиям. Время от времени продолжаются меры по определению таможенно-тарифной политики в соответствии с международной практикой.

## DETERMINING THE CUSTOMS VALUE OF GOODS IN AZERBAIJAN'S FOREIGN TRADE

***Farid Babayev, Mustafazade Matanat***

### SUMMARY

In the Republic of Azerbaijan, the nature of the customs value and methods of determining it are explained in the law "On Customs Tariff". As many issues in the field of customs work in Azerbaijan, the customs value, the order of collection, etc. is calculated in the same way as the CIS countries. The customs value of products and means of transport brought to the customs territory of the republic is the actual price paid or to be paid when passing them through the customs border of Azerbaijan. According to the law on customs tariff, 6 methods are used for the customs value of products brought to the customs territory of the republic. In the Republic, great work has been done in the field of studying and applying the experience of advanced countries in the field of customs affairs, creating customs legislation adapted to international requirements. Measures to determine the customs-tariff policy in accordance with international practice are continued from time to time.

# POST-MÜNAQİŞƏ DÖVRÜNDƏ AZƏRBAYCANIN DİGƏR DÖVLƏTLƏRLƏ APARDIĞI DANIŞIQLAR PROSESİNİN TƏHLİLİ

***Cəfərov Vəliyulla Beydulla***
***Aytac Nəsibova Müşviq***
***BDU-nun II kurs magistrantı***
***aytac1999n@gmail.com***

***Açar sözlər:*** post-münaqişə, Azərbaycan, inkişaf, layihə, danışıqlar, ölkə.
***Ключевые слова:*** постконфликтный период, Азербайджан, развитие, проект, переговоры, страна.
***Keywords:*** post-conflict, Azerbaijan, development, project, negotiations, country.

Uzun müddətdir aralarında problemlər yaşayan Azərbaycan və Ermənistan dövlətləri arasında gərginlik 2020-ci ilin sentyabr ayından etibarən yeni miqyas alıb. 2020-ci il sentyabrın 27-də səhər saatlarında Azərbaycan ordusu işğal olunmuş torpaqlarını azad etmək üçün atəşkəsi dəfələrlə pozan Ermənistan ordusuna qarşı əks-hücum əməliyyatına başlayıb. Bu müharibədə Rusiya və Fransa kimi böyük dövlətlərin bütün dəstəyinə baxmayaraq, Ermənistan Azərbaycan ordusunun hücumlarına ancaq 44 gün dözə bildi. 44 gün ərzində Azərbaycanın sürətli və hərbi cəhətdən yaxşı qurulmuş hücumları Ermənistanın böyük itkilər verərək işğal etdiyi rayonlardan nizamsız olaraq geri çəkilməsinə səbəb oldu.

Noyabrın 10-u ilk saatlarında Ermənistanın təslim olması mənasını verən və Azərbaycanın tələblərini özündə əks etdirən atəşkəs bəyannaməsi imzalanması ilə Dağlıq Qarabağa bitişik və Ermənistan tərəfindən işğal olunmuş yeddi rayon (vilayət) qeyd-şərtsiz tam şəkildə azad edilib. Erməni əsgərləri və Azərbaycanın bu rayonlara icazəsi.məskunlaşmış dinc əhalidən azad. Bundan başqa, Dağlıq Qarabağ bölgəsinin bəzi yaşayış məntəqələri, xüsusilə də Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən Şuşa şəhəri Azərbaycanın nəzarətinə keçərək erməni ünsürlərindən təmizlənib. İmzalanmış "Üçlü Bəyannamə"yə əsasən, Dağlıq Qarabağın qalan hissəsindəki erməni əsgərlərinin bölgəni tərk etmələri və bölgənin silahlı ünsürlərdən tamamilə təmizlənməsi razılaşdırılıb [1].

Bu prosesin əməliyyatında Rusiya sülhməramlı qüvvələri mühüm vəzifələri öz üzərinə götürəcək, sülh prosesinə nəzarəti isə Türkiyə-Rusiya müştərək hərbi komandanlıq mərkəzi öz üzərinə götürəcək. Sülh müqaviləsi təkcə Azərbaycanın hərbi uğuru kimi tarixə düşməyib.

Azərbaycan diplomatiyasının uzunmüddətli və şüurlu səyləri də bu böyük qələbəyə öz töhfəsini verdi. 30 ildən artıqdır ki, aparılan işlər sayəsində Azərbaycan öz tezisini bütün dünyaya bəyan edə bilmiş, bir çox dövlətlərin dəstəyini qazanmış və Ermənistanın beynəlxalq təşkilatlarda işğalçı dövlət kimi tanınmasını təmin etmişdir. Bu diplomatik təşəbbüslər nəticəsində Azərbaycan tədricən Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün hüquqi və siyasi baza formalaşdırdı. Digər tərəfdən, Ermənistan təkcə hərbi deyil, həm də siyasi, diplomatik və dünya ictimai rəyinə təsir gücünə görə müharibəni uduzdu. Azərbaycan öz suverenliyi altında olmasına baxmayaraq, işğal altındakı torpaqlarını azad etmək üçün hər cür diplomatik, hüquqi və siyasi əsaslar yaratmış, meydanda Ermənistan ordusu üzərində mütləq üstünlük əldə edərkən, Rusiyanın atəşkəs və atəşkəs tələbinə müsbət cavab vermişdir.

Bu vəziyyət Azərbaycanın sülhsevər dövlət imicini daha da gücləndirdi. Azərbaycan bütün dünyaya sübut etdi ki, öz torpaqlarını işğaldan azad etmək üçün kifayət qədər hərbi gücə malikdir, lakin regionda problemin həlli üçün sülh prosesinə üstünlük verir. Müharibə zamanı öz mülki əhalisinə davamlı və birbaşa hücum olmasına və bu istiqamətdə təxribatlara məruz qalmasına baxmayaraq, heç bir şəkildə mülki əhalini hədəf almamış, qeyri-

mütənasib güc tətbiq etməmişdir.

Azərbaycanın bu münasibəti regionun gələcəyi üçün mühüm addımdır. Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi çərçivəsində atdığı addımlar regionda Ermənistanın da iştirak edəcəyi yeni çoxtərəfli əməkdaşlıq mühitinin əsasının qoyulmasına öz töhfəsini verib. Çünki bölgədə davamlı sülh və əməkdaşlıq prosesinin reallaşması region ölkələrinin ərazi bütövlüyünün təmin edilməsi və bir-birinin suverenlik qanunlarına hörmətlə yanaşması çərçivəsində mümkün olacaq. Bu reallığı ən yaxşı görən və anlayan ölkələr Türkiyə və Azərbaycandır.

Orta Asiya Türk Dövlətləri arasında ən qədim dövlət mədəniyyətinə və ən yaxşı iqtisadiyyata malik olan Azərbaycan bir çox məqamlarda region dövlətləri üçün nümunədir. Azərbaycanın müsbət iqtisadi inkişafının əsasında iki əsas amil dayanır. Onlardan biri də onun tarixi mənşəyidir. Digəri isə ölkənin inkişaf yönümlü liderlərinin olmasıdır [2]. Bundan əlavə, müstəqillikdən sonra demokratikləşmə və yerli iştirakda mühüm nailiyyətlər əldə olunub.

Ona görə də təhsil, müdafiə, demokratiya və infrastruktur işlərinin, xüsusilə iqtisadiyyat və inkişafın optimal şəkildə həyata keçirilməsi, həm qonşu dövlətlərlə, həm də qlobal dövlətlərlə əməkdaşlıq edərək yeni dünya düzəninə səmərəli uyğunlaşma bacarığı Azərbaycanı uğura aparıb. İşğal prosesi zamanı siyasi, diplomatik, hərbi və iqtisadi sahələrdə sürətlə genişlənən, getdikcə yüksək strateji səviyyəyə çatan Azərbaycan ilə Türkiyə arasında əlaqələr başladı. 1994-cü il fevralın 8-də Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyəyə ilk rəsmi səfəri oldu [3].

Üç günlük səfər zamanı iki dövlət arasında strateji tərəfdaşlıq səviyyəsinə yüksələcək əlaqələrin təməli qoyuldu. Həmin il sentyabrın 20-də Türkiyə Cümhuriyyətini təmsil edən "Türkiyə Neft Şirkəti" dünyanın enerji təhlükəsizliyi və müstəqilliyi və inkişafı baxımından böyük əhəmiyyət kəsb edəcək "Əsrin müqaviləsi"ndə iştirak etmişdir.

İlham Əliyev 2003-cü ildə Azərbaycan Prezidenti olduqdan sonra Türkiyə-Azərbaycan münasibətlərinin keyfiyyəti yüksəlməkdə davam etdi. İki ölkə arasında əlaqələr hər sahədə dərinləşmiş və hər iki ölkə üçün qazanc verən əməli nəticələr verməyə başlamışdır. 2004-cü ilin aprelində İlham Əliyevin Türkiyəyə ilk rəsmi səfəri oldu. Sözügedən səfər zamanı tərəflər arasında mühüm nəticələri olacaq yeni sazişlər imzalanıb. Digər tərəfdən, 2006-cı il Azərbaycan-Türkiyə münasibətləri üçün son dərəcə əhəmiyyətli bir il oldu. Uzun və yorucu diplomatik, siyasi və iqtisadi mübarizə nəticəsində tikintisi başa çatdırılan Bakı-Tbilisi-Ceyhan Neft Kəməri 2006-cı il iyulun 13-də açılıb [3].

Nəzərə alsaq ki, yuxarıda sadalanan səfərlər Azərbaycanın müharibə şəraitində olduğu dövrə təsadüf edir, bu ölkə başçısının siyasi nüfuzunun yüksək səviyyədə olmasına işarə edir. Müharibəni qələbə ilə başa vurduqdan sonra yeni imzalanan lahihələr, xüsusilə də Qarabağın yenidənqurma və bərpa prosesinin sürətlə getməsi gələcəkdə Respublikamızın qüdrətinin artacağına işarədir.

Azərbaycanın xarici siyasətində ikitərəfli əlaqələrlə yanaşı, regional və beynəlxalq təşkilatlarla əlaqələr də həyati əhəmiyyət kəsb edir. Çünki Azərbaycan müstəqillik qazanma prosesində Ermənistanın ərazi iddialarına, işğalçı hücumlarına məruz qalıb. Bu hücumlar nəticəsində Azərbaycan torpaqlarının təxminən 20%-i Ermənistan tərəfindən işğal edilib, ümumilikdə 1 milyona yaxın insan qaçqın düşüb. Xüsusilə 1990-cı illərin birinci yarısında Azərbaycan bir tərəfdən öz müstəqilliyini möhkəmləndirmək, digər tərəfdən isə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı probleminin ədalətli həllini təmin etmək üçün çoxşaxəli və səmərəli əlaqələr qurmalı oldu. Bu baxımdan Müstəqil Dövlətlər Birliyi (MDB) ilə əlaqələr Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil edirdi. Bunu istər Azərbaycan Xarici İşlər Nazirliyinin rəsmi saytının MDB ölkələri ilə əlaqələr bölməsində yazılanlardan, istərsə də Azərbaycan hakimiyyətinin verdiyi açıqlamalardan müşahidə etmək mümkündür.

Müstəqilliyin ilk dövründə daxili və xarici siyasətdə yaşanan qeyri-sabitlik Azərbaycanın MDB ilə münasibətlərində də özünü göstərdi. Bu dövrdə Azərbaycanın MDB-yə üzv olmasının tərəfdarları və əleyhdarları arasında istər ictimaiyyət, istərsə də siyasətçilər arasında ciddi intellektual qarşıdurmalar yaşanırdı. Bununla belə, Azərbaycanın MDB ilə bağlı rəsmi siyasəti ilk növbədə dövlət başçılarının (dövlət başçılarının və bəzən prezidentin səlahiyyətlərindən etibarnamə ilə istifadə edən dövlət başçılarının) ümumi xarici siyasət yanaşmalarına, idarəçilik təcrübələrinə, dövlət başçılarının bütövlükdə dövlətlərarası münasibətlərə dair fikirlərinə diqqət yetirir. beynəlxalq sistem, xüsusilə keçmiş Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) və SSRİ.O, Rusiya Federasiyası, onun əsas varisi, digər keçmiş sovet respublikaları, Qərb dövlətləri, Türkiyə və inteqrasiya ilə bağlı tutduğu mövqelər çərçivəsində formalaşmışdır. keçmiş SSRİ coğrafiyasında gedən proseslər. Bu yazıda Azərbaycanın MDB-yə üzvlüyü prosesi Azərbaycan hökumətlərinin ümumi xarici siyasəti çərçivəsində təhlil ediləcək. İlk olaraq Azərbaycanın MDB-nin yaradılması prosesinə münasibəti vurğulanacaq, daha sonra Azərbaycanın birinci dövrdə bu təşkilatdan kənarda qalmasının səbəbləri, sonda isə Azərbaycanın MDB-yə üzvlük prosesi dəyərləndiriləcək.

Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsinin həlli üçün beynəlxalq təşkilatların iştirakı ilə həll yolları axtarılıb. Bu kontekstdə 1992-ci ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) çərçivəsində Minsk Qrupu yaradılıb. 1994-cü ildə Fransa, Rusiya və ABŞ qrupun həmsədrləri oldular. Ancaq problemin tərəfləri olan Azərbaycan və Ermənistan, Türkiyə, Almaniya, Belarus, İtaliya, Norveç, Portuqaliya, Hollandiya və Finlandiya qrupun digər üzvləri oldu. Mink Trio kimi seçilən ABŞ, Fransa və Rusiya 1992-ci ildən bu prosesə rəhbərlik edir. Lakin bu üçlük indiyədək Dağlıq Qarabağla bağlı problemin həlli ilə bağlı heç bir nəticəyə gəlməyib [2, səh.10]..

2020-ci il noyabrın 10-da Rusiyanın rəhbərliyi ilə Azərbaycan və Ermənistan arasında atəşkəs əldə olunub. Azərbaycan prezidenti İlham Əliyev, Rusiya prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan arasında razılıq əldə olunub, nəhayət, Azərbaycanın qələbəsi qeydə alınıb. Bundan başqa, Ermənistan bu müqavilə ilə Ağdam, Laçın və Kəlbəcərdən çəkilməyi öhdəsinə götürüb. Əslində, noyabrın sonunda Ermənistan ordusu Ağdam, Laçın və Kəlbəcərdən geri çəkildi. Azərbaycan illərdir Ermənistanın işğalı altında olan Dağlıq Qarabağ torpaqlarının bir hissəsini və bütün ətraf vilayətləri geri almağa nail olub. Lakin əldə olunan razılaşmaya əsasən, Azərbaycan Rusiya sülhməramlılarının Dağlıq Qarabağda 5 il müddətinə olmasını qəbul edib. Digər tərəfdən, Türkiyə və Rusiya 2021-ci il yanvarın 30-dan etibarən işğaldan azad edilmiş Ağdamda atəşkəs rejiminə riayət etmək məqsədilə birgə müşahidə tədbirləri həyata keçirir. Birgə müşahidə mərkəzindəki türk və rus əsgərləri atəşkəsin pozulmadığını pilotsuz təyyarələrlə yoxlayır [3, səh.21].

Yenidənqurma işlərinin yekunlaşmadığı dövrdə belə ölkəmizə gələn xarici ölkə nümayəndələrinin bu ərazilərə böyük maraq göstərməsi, hətta səfərlərin baş tutması regionda ölkəmizin nüfuzunun durmadan artmasının göstəricisidir.

Xüsusilə post-münqaişə dövründə Azərbaycanın xarici ölkələrdəki nümayəndəliklərinin, o cümlədən ölkə prezidentinin diplomatik səfərlərinin çoxluğu Qarabağa qarşı ədalətsiz mübarizənin tanınmasında mühüm əhəmiyyətə malikdir.

Azərbaycanın 44 günlük Zəfər tarixi gələcəyə olan inamı daha da artırdı. Ölkəmiz üçün bu qələbə yeni səhifənin başlanğıcı oldu. Qafqaz regionunda öz sözünün qüdrətinin artması, qələbəmizi ordumuzun gücü və uğurlu siyasi rəhbər İlham Əliyevin qərarları əsasında qazanılması bizi nəinki qonşu dövlətlər, həmçinin dünyanın hər tərəfində tanınmamıza zəmin yaratdı.

Azərbaycanın müstəqilliyini əldə etməsindən çox vaxt keçməsə də, regionun ən mühüm dövlətlərindən birinə çevrilib. Daha əvvəl də qeyd edildiyi kimi, onun tarixi keçmişi və inkişaf tərəfdarları bu vəziyyətin yaranmasına əhəmiyyətli təsir göstərir. Bu kontekstdə onun

iqtisadi, sosial, siyasi və mədəni inkişafının qısa müddətdə öz bəhrəsini verdiyi görünür. Araşdırmada müzakirə olunan 27 sentyabr 2020-ci il tarixi həm Azərbaycan, həm Cənubi Qafqaz, həm də Azərbaycan-Türkiyə münasibətlərinin gələcəyi üçün son dərəcə mühüm dönüş nöqtəsidir. Bu tarix təkcə Qafqaz regionu üçün deyil, həm də Türkiyənin Orta Asiya ilə əlaqəsinin kəsilməz olması baxımından böyük əhəmiyyət kəsb edir [4].

Qardaş Türkiyənin bütün müharibə prosesində bizə mənəvi dəstək olması, hazırda qələbədən sonra danışıqlar prosesinin yeni mərhələdə olması hər iki dövlət üçün xüsusi əhəmiyyətə malikdir. Əslində, daha ümumi baxımdan bu proses Türk Dünyası üçün çox daha geniş və əhatəli iş birliyinə gətirib çıxaracaq. Şübhə yoxdur ki, Cənubi Qafqazda İkinci Qarabağ müharibəsindən sonra başlayan yeni dövrün astanasında Azərbaycan uğurlu və əmin addımlarla irəliləməkdədir. Bu qələbə tarix boyunca baş vermiş haqq müharibələrinin tarixini yenilədi desək yanılmarıq.

Hətta müharibədə uduzan və təslim barışıq imzalamalı olan Ermənistan da yeni prosesi düzgün dəyərləndirib Azərbaycanla - Türkiyə ilə münasibətləri normallaşdırmağa çalışarsa, müharibənin qalibləri sırasında ola bilər. Çünki düşdüyü iqtisadi depressiya, xarici mənbələrdən siyasi və iqtisadi asılılığı, müstəqillik səviyyəsinin aşağı olması, pis qonşuluq münasibətləri və bütün bunlara görə iqtisadiyyatın inkişaf etməməsi Ermənistanı getdikcə daha çox düşdüyü bataqlığa batmağa vadar edir [5].

Azərbaycan və Ermənistan arasında əldə olunan razılaşma ilə regionun geosiyasəti yenidən formalaşmağa başladı. Şübhəsiz ki, bu dəyişiklikdə Türkiyə əsas rol oynadı. Kremlə yaxınlığı ilə tanınan və Rusiya Beynəlxalq Münasibətlər Şurasının üzvü Fyador Lukyanov Türkiyənin bu baxımdan tənliyin mühüm bir parçası olduğunu bəyan edib. Türkiyənin Azərbaycana dəstəyi ilə münaqişənin məcrası dəyişdi və Azərbaycanın qələbəsi ilə Türkiyə regionda təsirini artırdı.

Britaniya mətbuatı Azərbaycanla Ermənistan arasında gedən müharibədə ən böyük qalibin Türkiyə olduğunu vurğulayır. Teleqraf qəzetində dərc olunan təhlildə Türkiyənin Azərbaycana siyasi dəstəyinin və İHA-ların bütün tarazlığı Azərbaycanın xeyrinə çevirdiyi bildirilir. Bundan əlavə, Türkiyənin bölgədə böyük fərq qoyduğu və təbii olaraq siyasi həmkarını alacağı bildirilib. Türkiyənin bölgədəki nüfuzu və Azərbaycana bəxş etdiyi Bayraktar TB2 silahlı pilotsuz uçuş aparatlarının uğuru alman mətbuatında da böyük əks-səda doğurub. Almaniyanın müdafiə naziri Anneqret Kramp-Karrenbauer ilk SİHA müharibəsinin Qarabağda baş verdiyini açıqlayıb və Türkiyənin müharibənin gedişatının dəyişdirilməsində böyük rol oynadığını vurğulayıb. Bununla belə, Almaniya Müdafiə və Strateji Araşdırmalar İnstitutunun prezidenti Gert Estenhofer Türkiyənin bu sahədə çox yüksək texniki səviyyəyə çatdığını bəyan edib.

Eyni zamanda, "Foreign Policy" jurnalında dərc olunan məqalədə regional münaqişələrdə tarazlığı və geosiyasəti dəyişmək gücünə malik olan SİHA-ların Türkiyə tərəfindən SİHA-ların siyasi vəziyyətin həllində oynadığı rola diqqət çəkərək effektiv şəkildə istifadə edildiyi bildirilib. Dağlıq Qarabağda münaqişələr.

Ermənistanın kapitulasiya aktını imzalaması onun tarixi üçün də yeni mərhələ demək idi. Hərçənd ki, nəzərə alsaq onlar bu müqavilənin şərtlərini pozmaqda davam edirlər, deyə bilərik ki, bu proses onların yeni mərhələyə keçmələri prosesini ləngidir. Dünya təcrübəsinə nəzər salqsaq Ermənistanın bu məsələdə nümunə götürə biləcəyi bir ölkənin olduğunu deyə bilərik. Şübhəsiz ki, bu dövlət Gürcüstandır, Gürcüstan həm Türkiyə, həm də Azərbaycanla münasibətlərinə həmişə böyük önəm verib. Bu münasibətə görə də mövcud əlaqələrdən faydalanan region ölkəsinə çevrilib. Əgər Ermənistan hakim dairələri də qonşuluq münaibətlərinin bərpasına və Azərbaycan prezidentinin humanizminə önəm verməyi üstün tutsalar bu məsələdə bir addım önə keçə bilərlər. Əks-təqdirdə yerlərində saymağa davam edəcəklər.

Azərbaycan post-münaqişə dövründə yeni mərhələyə qədəm qoyduğu üçün ölkənin

müxtəlif layihələrdə adının hallanması bizim xeyirimizədir. Sonda onu qeyd etmək istəyərdim ki, Qarabağ zəfərinin qazanılması ölkəmizin təkcə Qafqaz regionunda deyil, o cümlədən digər böyük ölkələrdə də tanınmasına zəmin yaratdı.

## ƏDƏBİYYAT

1. Akıncı, Halil. "Türk Konseyi Hakkında Analiz", Hazar World, Sayı:10 (Eylül 2013): 41-42.
2. Ahmedov, Elçin (2019), "Azerbaycan - Türkiye Strateji Tarafdaşlığı Yeni ve Dinamik İnkişaf Merhelesinde".
3. Aslanlı, Araz (2020), "10. Yılında Azerbaycan - Türkiye Stratejik Ortaklık Anlaşması ve Ortak Askeri Tatbikatlar", Anadolu Ajansı.
4. Həsənov Əli (2019), Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın Xarici Siyasəti, Azərbaycan Yayınları, Bakı.
5. Fawcett, Louise. "History and Concept of Regionalism", European Society of International Law Conference Paper Series, Paper No. 4 (2012):1-17.

## POST-MÜNAQİŞƏ DÖVRÜNDƏ AZƏRBAYCANIN DİGƏR DÖVLƏTLƏRLƏ APARDIĞI DANIŞIQLAR PROSESİNİN TƏHLİLİ

***Aytac Nəsibova***

## XÜLASƏ

Bu məqalə post-müharibə dövründə Azərbaycanın digər dövlətlərlə münasibətləri və bu istiqamətdə aparılan yeni dövr üçün danışıqlar prosesinin təhlilinə yönəlmişdir. Burada ölkımizin münaqişə dövründə keçdiyi siyasi tarix yoluna nəzər salınmış, həmçinin qardaş ölkə olan Türkiyə ilə diplomatik münasibətlərə xüsusi yer verilmişdir.

Ölkəmizin bu çətin zamanlarında daima yanında olan ölkələrlə post-münaqişə dövründə də birliklə yeni layihələrə imzalar atılacağı ölkəmizin gələcəyinin uğurlu inkişafına işarədir. Bu inkişaf Azərbaycanın müxtəlif istiqamətlərdəki potensialının yüksəldilməsi fonunda müsbət irəliləyişdir.

## АНАЛИЗ ПРОЦЕССА ПЕРЕГОВОРОВ, ВЕДЕННЫХ АЗЕРБАЙДЖАНОМ С ДРУГИМИ ГОСУДАРСТВАМИ В ПОСТКОНФЛИКТНЫЙ ПЕРИОД

***Айтадж Насибова***

## АННОТАЦИЯ

Данная статья посвящена анализу отношений Азербайджана с другими государствами в послевоенный период и переговорному процессу новой эры в этом направлении. Здесь рассматривается политическая история нашей страны в период конфликта, и особое внимание уделяется дипломатическим отношениям с братской страной – Турцией.

Признаком успешного развития будущего нашей страны является то, что новые проекты будут подписаны вместе в постконфликтный период со странами, которые всегда с нами в эти трудные времена. Это развитие является положительным прогрессом на фоне повышения потенциала Азербайджана в различных направлениях.

# ANALYSIS OF THE PROCESS OF NEGOTIATIONS CONDUCTED BY AZERBAIJAN WITH OTHER STATES IN THE POST-CONFLICT PERIOD

***Aytaj Nasibova***

## SUMMARY

This article focuses on the analysis of Azerbaijan's relations with other states in the post-war period and the negotiation process for the new era in this direction. Here, the political history of our country during the conflict period is reviewed, and diplomatic relations with our brother country, Turkey, are given special attention.

It is a sign of the successful development of the future of our country that new projects will be signed together in the post-conflict period with the countries that are always with us in these difficult times. This development is a positive progress against the background of increasing the potential of Azerbaijan in various directions.

# KORONAVİRUS PANDEMİYASINDAN SONRA DÖVLƏT İDARƏÇİLİYİNDƏ SİYASİ DƏYİŞİKLİYİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Ələkbərov Alı Vüqar oğlu***
***Bakı Dövlət Universitetinin II kurs magistrantı***
***alielekberov@icloud.com***

***Açar sözlər:*** Dövlət idarəçiliyi, COVID-19, siyasi tədbirlər, hökümət, rəqəmsallaşma
***Keywords:*** Public administration, COVID-19, political action, government, digitization
***Ключевые слова:*** Государственное управление, COVID-19, политическая акция, правительство, цифровизация

**GİRİŞ.** Bu gün dövlət idarəçiliyi çox vaxt hökumətlərin siyasət və proqramlarını müəyyən etmək üçün müəyyən məsuliyyəti də əhatə edir. Konkret olaraq, bu, hökumət əməliyyatlarının planlaşdırılması, təşkili, istiqamətləndirilməsi, əlaqələndirilməsi və nəzarətidir.

Ölkələrdə dövlət idarəçiliyi mərkəzi, orta və yerli səviyyələrdə tətbiq olunur. Həqiqətən də, vahid dövlət daxilində müxtəlif səviyyəli idarəetmə səviyyələri arasında münasibətlər artan dövlət idarəçiliyi problemini təşkil edir (7).

Koronavirus pandemiyasının baş verməsi dövlət mexanizmində əsaslı islahatlar dalğasına səbəb oldu. Hökümətin bütün səviyyələri və funksiyaları sürətlə inkişaf edən sağlamlıq böhranının səbəb olduğu görünməmiş şoka cavab olaraq böyük dəyişikliklər yaşadı. Covid-19 daxili idarəetmə sisteminin xarici, genişmiqyaslı şoklara effektiv cavab vermək qabiliyyətinə ciddi şəkildə meydan oxudu və mühüm institusional, struktur və əməliyyat düzəlişlərinə səbəb oldu. Covid-19 böhranına siyasi reaksiyalar dövlət idarəçiliyinin modernləşdirilməsi və bürokratikləşdirilməsi istiqamətində mühüm dəyişikliklərə gətirib çıxardı, lakin eyni zamanda onun islahatlara hazırlığı və imkanları ilə bağlı bir sıra məhdudiyyətləri qeyd etdi.

Dövlət idarəçiliyində koronavirus pandemiyası ilə birlikdə idarəçilik sahəsində islahatların həyata keçirilməsinə səbəb oldu (cədvəl 1).

**Cədvəl 1: Covid-19-a qarşı dövlət idarəçiliyində siyasi tədbiristiqamətləri**

| | İslahat sahələri | Siyasət cavabları |
|---|---|---|
| Daxili | Siyasət quruculuğu | Qərar vermə |
| | | Siyasət formalaşdırılması |
| | | Yeni Komitələrin yaradılması |
| | Hökumət orqanları və strukturları | Sahə nazirliklərinin və icra hakimiyyəti orqanlarının gücləndirilməsi |
| | | Mülki müdafiə strukturlarının təkmilləşdirilməsi |
| | | Uyğunluğa nəzarət mexanizmləri |
| | İnzibati prosedurlar | Prosedurların rəqəmsallaşdırılması<br>Elektron hökumət sistemlərinin gücləndirilməsi<br>Yeni İT alətləri |
| | | Prosedurların sadələşdirilməsi |
| | | Qarşılıqlı işləmə qabiliyyəti |
| | İnsan resursları | İş şəraitinin çevikliyi |
| | | Yeni İT alətləri və qurğuları |

| | | |
|---|---|---|
6. Investisiyaların dəstəklənməsi proqramlarının işlənməsi və s..

Son dövrlərdə Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyası prosesi intensiv xarakter almışdır. Azərbaycana qoyulan xarici investisiyalardan başqa, ölkə iqtisadiyyatının inkişafını nəzərə alaraq xarici investisiya yatırım edən ölkələr arasında öz adını əks etdirməyi bacarır.




***Diaqram 1: Azərbaycanın xarici ölkələrə qoyduğu investisiyaların ölkələr üzrə bölünməsi (min dollarla) .***

Mənbə: F.O.Hacıyev, Azərbaycanda xarici kapitalın son dövrlərdəki inkişaf istiqamətləri [2]

Azərbaycanın birbaşa investisiya qoyduğu ölkələr sırasında diaqramda göründüyü kimi ilk yeri Türkiyə daha sonra isə Amerika Birləşmiş Ştatları və Lüksemburq tutur. Budan əlavə olaraq diaqramdan göründüyü kimi, Azərbaycana birbaşa investisiya axını olması ilə yanaşı, həmçinin Azərbaycan da birbaşa investisiya yatırmaqda maraqlıdır. Eləcə də bu tendensiya ildən-ilə artmaqda davam edir. Təbii ki, xaricə qoyulan investisiya yatırımları bir müddət sonra ölkəyə mənfəət olaraq geri qayıdacaqdır.

Onuda qeyd etmək lazımdır ki, investisiya yatırımları həmin ölkənin işsizlik problemınədə təsir göstərməyi bacarır. Məsələn, buna misal olaraq, "Petkim-Holding"in yeni emal zavodunun əsasının qoyulması Türkiyədə 10 min iş yerinin yaradılmasını nəzərdə tutmuşdur. Bundan əlavə olaraq Gürcüstan və Moldovada Azərbaycanın istifadəyə verdiyi yanacaq-eneji kompleksləri məşğulluq probleminin həll olunmasında köməklik göstərmişdir. Digər bir məsələ isə Azərbaycanın xarici dövlətlərə sərmayə qoyuluşlarının artım dinamikası respublikamızın şirkətlərinin həmin ölkələrdə ən iri vergi ödəyicisi olmasını da şərtləndirmiş olur. Hazırda statistik məlumatlara əsasən, Gürcüstan və Türkiyədə ən iri vergi ödəyicisi kimi inkişaf edən şirkətlər respublikamıza məxsus olan törəmə şirkətlərdir.

Hazırda Azərbaycanı təmsil edən ən iri investor şirkət SOCAR-dır. Qısa müddətdə yerli əhəmiyyətli "Azneft" İstehsalat Birliyindən dünya əhəmiyyətli SOCAR-a çevrilən bu dövlət şirkəti hazırda ölkəmizi xaricdə ləyaqətlə təmsil edir. Təxminən 2003-cü ilədək yalnız Azərbaycanın daxilində neft-qaz hasilatı ilə məşğul olan ARDNŞ bu gün onlarca ölkədə iş quran qlobal enerji şirkətidir. Bu zirvə isə birdən-birə fəth olunmamışdır. 2004-cü ildən ARDNŞ-nin idarə edilməsi müasir menecment prinsipləri əsasında yenidən qurulmağa başladı. Şirkət neft-qaz hasilatından əldə etdiyi gəlirlərin bir hissəsini xarici ölkələrdə Azərbaycanın strateji maraqlarına xidmət edən layihələrə yönəltdi. Həmin layihələrdən biri Gürcüstanın Qara dəniz sahilində yerləşən Kulevi terminalının alınmasıdır. ARDNŞ 2006-cı ildə aldığı terminalı sürətlə yenidən qurmağa başladı və 2008-ci ildə onu istifadəyə verdi. Neft və neft məhsullarının qəbulu, saxlanması və tankerlərə vurulmasına imkan verən Kulevi terminalının və limanının SOCAR tərəfindən alınması bu gün də Azərbaycanın Gürcüstana yatırdığı ən səmərəli və uğurlu investisiya layihələrindən biri sayılır. Bunu təsdiqləyən iki fakt: hazırda Azərbaycan Gürcüstanda neft məhsulları və təbii qaz satışına nəzarət edir və qonşu ölkədə SOCAR brendi

ilə 100-dən çox yanacaqdoldurma məntəqəsi fəaliyyət göstərir.

Azərbaycan şirkətinin xarici ölkələrə investisiya yatırmasının coğrafiyası Gürcüstan və Türkiyə ilə kifayətlənmir. 2011-ci ildə "ExxonMobil"dən onun İsveçdəki filialı olan "Esso Schewiz GmbN" ("Esso Switzerland") şirkətini alan SOCAR onun 170-dən artıq yanacaq doldurma məntəqəsini birləşdirən satış şəbəkəsi yaratdı ki, bunların da 63-ü özünə məxsusdur.

## ƏDƏBİYYAT

1.EROL, A., Yabancı Sermaye I, Mükellefin Dergisi, Sayı:93, 2000.
2. https://iqtisadiyyat.com/
3. https://www.cbar.az/
4. https://banco.az

## AZƏRBAYCANIN KAPİTAL İXRACINDA İSTİQAMƏTLƏRİ

***Rəşid Zəbərcət***

## XÜLASƏ

Kapitalın beynəlxalq hərəkəti dünya iqtisadiyyatının fəaliyyətində, dünya təsərrüfatı əlaqələri sisteminin forma və şərtlərinin inkişafında təyinedici element kimi çıxış edir. Həmçinin kapital ixracı ölkənin iqtisadi və siyasi səviyyəsinin müəyyənləşdirilməsində əsas rol oynayır. Hər bir ölkə öz iqtisadiyyatının inkişafını nəzərə alaraq Beynəlxalq iqtisadi münasibətlər sisteminin vacib formalarından biri olan kapital ixracına üz tutur. Kapital ixracının hər bir ölkə üçün zəruriliyini təşkil edən səbəblər həmçinin, bu prosesin reallaşdırılması zamanı qarşıya qoyulan məqsədlər əsasında formlaşır. Bundan əlavə olaraq, dünya ölkələrinin hər birində eləcə də, Azərbaycanda da kapital ixracının istiqamətləri fərqli olur. Azərbaycanın kapital ixracında istiqamətləri adlı məqalənin tərkibində həm Azərbaycana yönləndirilən kapital ixracı həm də, Azərbaycanın hansı istiqamətlər üzrə kapital ixracında maraqlı olması haqqında məlumat verilmişdir.

## НАПРАВЛЕНИЯ АЗЕРБАЙДЖАНА В ЭКСПОРТЕ КАПИТАЛА

***Рашид Забарджат***

## АННОТАЦИЯ

Международное движение капитала выступает определяющим элементом в функционировании мирового хозяйства, в развитии форм и условий системы мирохозяйственных отношений. Кроме того, экспорт капитала играет ключевую роль в определении экономического и политического уровня страны. Учитывая развитие своей экономики, каждая страна обращается к вывозу капитала, который является одной из важных форм системы международных экономических отношений. Причины необходимости вывоза капитала для каждой страны также формируются исходя из целей, поставленных при осуществлении этого процесса. Кроме того, направления вывоза капитала различны в каждой из стран мира, в том числе и в Азербайджане. В статье «Направления экспорта капитала Азербайджана» содержится информация как об экспорте капитала, направленном в Азербайджан, так и о направлениях, в которых Азербайджан заинтересован в экспорте капитала.

# DIRECTIONS OF AZERBAIJAN IN CAPITAL EXPORT

***Rashid Zabarjat***


## SUMMARY

The international movement of capital acts as a determining element in the functioning of the world economy, in the development of the forms and conditions of the system of world economic relations. Also, capital export plays a key role in determining the country's economic and political level. Considering the development of its economy, each country turns to capital export, which is one of the important forms of the system of international economic relations. The reasons for the necessity of capital export for each country are also formed on the basis of the goals set during the implementation of this process. In addition, the directions of capital export are different in each of the countries of the world, as well as in Azerbaijan. The article titled "Directions of Azerbaijan's Capital Export" contains information about both the capital exports directed to Azerbaijan and the directions in which Azerbaijan is interested in capital exports.

# FİLOLOGİYA

## BERTOLT BREXT VƏ PETER ŞTAYN REJİSSOR ÜSLUBUNUN QƏRB TEATRINDA ROLU

***Məlikov Elmar Dadaş oğlu***
***ADMİU-nin "Teatr sənəti " fakültəsinin magistrantı***
***elmarmd3@gmail.com***

***Açar sözlər***: rejissor, epik, dramatik aktyor, səhnə, tamaşaçı, teatr, sistem.
***Keywords***: director, epic, dramatic, actor, stage, spectator, theater, system.
***Ключевые слова***: режиссер, эпический, драматический, актер, сцена, зритель, театр, система.

Birinci dünya müharibəsi vaxtında (1914-1918) Alman teatrı mühitində siyasi teatr formalaşmağa başladı. Ekspressionistlərlə mübarizədə Ervin Piskator, sonra isə Bertolt Brext öndə olanlardan biri idilər. Piskator tam siyasi ideyalı, publisistik tamaşalar hazırlayırdı. O, agitqruplar, xırda siyasi teatr truppaları yaradırdı ki, bu truppaların əsas məqsədi, inqilab və siyasi sayıqlığı xalq arasında yaymaq idi. 20-ci illərdə, B.Brextin K.Vaylla birgə yazdığı və özünün hazırladığı «Üç quruşluq opera» tamaşası böyük səs-küy yaratdı. Bu əsər müasir burjua cəmiyyətini satira hədəfinə çevirmişdi. B.Brext ətrafına həmfikir aktyorlar toplamağa başladı. Veymar respublikası vaxtı (1919-1933) teatr, gərgin bir yaradıcılıq həyatı yaşayırdı. Reynhardt hələ də işləyirdi, özünün Piskator siyasi teatrını inkişaf elətdirirdi, B.Brext isə teatr sənətinin yenidən qurulması ilə məşğul olurdu. Yeni yaranmış fəhlə həvəskar teatr truppalarına məşhur aktyorlar E.Buş və H.Otto rəhbərlik edirdilər. 1945-ci ildən sonra Berlində, II Dünya müharibəsi ərəfəsində bağlanmış Alman teatrı yenidən fəaliyyətə başlayır. Digər teatrlarda isə bu proses tədricən baş tutur. Yeni demokratik teatrlar öz proqram tamaşaları ilə tamaşaçıları sevindirirdilər.

Alman teatr sənətindən danışarkən, Bertolt Brextin yaradıcılığını qeyd etməmək mümkün deyil. Çünki o, nəinki alman, bütövlükdə qərb teatr sənətində yeni rejissuranın formalaşmasına təkan verib.

Bertolt Brext Almaniya və dünya teatr sənətində, özünəməxsus yeri olan bir teatr novatorudur. O, həm dramaturq, həm rejissor, həm jurnalist-publisist, həm də bir teatr nəzəriyyəçisi kimi beynəlxalq teatr aləmində mühüm yer tutur. B.Brextin yazdığı «Qalileyin həyatı», «Siçuanlı xeyirxah adam», «Üç quruşluq opera», «Kuraj ana və uşaqları», «Ya o əsgər, ya bu əsgər», «Arturo Uinin karyerası» və s. dünya teatrlarının səhnəsində mütəmadi hazırlanır, öz aktuallığını hələ də qoruyur. Onun əsərlərindən - «Arturo Uinin karyerası», «Kuraj ana və uşaqları», «Üç quruşluq opera» pyesləri Azərbaycan teatrlarında – Şəki, Gəncə və Akademik Milli Dram teatrlarında hazırlanmış, tamaşaların müasirliyi, aktyor oyunu və rejissor üslubu ilə seçilmişdir.

Brext özünün epik teatrını yaradır. Bu təlim, Brext tərəfindən sadəcə bir proqram kimi düşünülmüşdür. O, yazdığı pyeslərdə məhz bu proqramdan istifadə etmiş, epik teatr təlimin əhəmiyyətini yüksək dəyərləndirmişdir. Folker Klots bu barədə yazır: *«Pyes yeni dramatik və estetik qanunların ilk mərhələsidir. Brext heç vaxt ənənəvi pyeslər yazmayıb və səhnəyə hazırlamayıb».* (3. Səh.119)

Bu faktdan belə aydın olur ki, epik teatr nəzəriyyəsi Brextin dramaturq və rejissor kimi axtarışları ilə üst-üstə düşür. Müasir burjua teatrı heç vaxt B.Brexti maraqlandırmayıb və Brext ilk yaradıcılıq sınaqlarında həmişə teatr barədə kəskin danışıb. İlk əvvəl, o, bu cür teatrların ideoloji əsasını dağıdıb. O, bir teatr xadimi kimi «siyasi teatr»a bağlı idi. Sənətə siyasi jurnalistikadan gəldiyi üçün, Ervin Piskatorun «siyasi teatr»dakı ideyaları onu daha

çox maraqlandırırdı. *«Tamaşaçı salonda əyləşir və aktyor sanki, bir tribun kimi xitabət kürsüsünə qalxıb, ona onun hər gün görüb, lakin unutmaq istədiyi hadisələrdən tamaşaçının başa düşdüyü dildə danışır.»* (4. səh.174)

Cəmiyyət qanunlarının, sənətin ifadə vasitələri ilə açılması, tamaşaçının sosial görüşünün aydınlaşması – B.Brextin epik teatr nəzəriyyəsi buna xidmət edirdi. O, sənətin «illüziyalar yuxusuna» çevrilməyinin əleyhinə idi.

B.Brext «Teatr əyləncədir ya öyrədən?» məqaləsində bu barədə çox geniş yazaraq burjua sənətini yalançı «lazımsız bir antinomiya» (1. Səh.213) adlandırmışdır.

30-cı illərdəki epik teatr nəzəriyyəsi, artıq teatr sənətinin bir çox sahələrini bürümüşdür. Bu sahələr – dramaturgiya, rejissura, rəssamlıq, aktyorluq və hətta musiqi sənəti idi. Hətta qrim və işıq ustaları belə bu nəzəriyyəni dərindən öyrənməyə başlamışdılar. Brext teatr sənətini iki cür təhlil edir: dramatik teatr (və ya «aristotel teatrı») və epik teatr. Dramatik teatr tamaşaçının emosiyasını ələ almağa cəhd edir. Çünki, tamaşaçı həyəcan və qorxu içində katarsis keçirməli, bütün varlığı ilə səhnədə baş verənlərə aludə olmalı, yaşamalı, həyacanlanmalı, oyunla real həyatdakı fərqi yaddan çıxarmalı, özünü tamaşaçı yox, hadisələrin iştirakçısı kimi hiss etməlidir. Epik teatr isə əksinə, şüura təsir etməli, öyrətməli, tamaşaçılara həyati anları və problemləri anlatmalı, tamaşaçı daim özünü ələ almalı və ya hisslərini idarə etməyi bacarmalı, səhnə həyatını illüziyalara qapılaraq heç vaxt real həyat zənn etməməli, öz prinsipial qətiyyətini saxlamağı bacarmalıdır.

Epik və dramatik teatr prinsiplərini dəqiq sınamaq üçün Brext aşağıdakı formanı tətbiq etmişdir.

*Dramatik teatrın forması:*

*Səhnə hadisələri göstərir, tamaşaçının diqqətini bu hadisələrə yönəldərək onu aktivləşdirir, onda emosionallığı artırır, tamaşaçını başqa məkana aparır, tamaşaçını hədisələrin mərkəzinə gətirir və onu yaşantıya məcbur edir, tamaşaçıda maraq oyadır, onun hisslərinə təsir edir.*

*Epik teatr forması:*

*Hadisələri danışır. Tamaşaçını müşahidəçi qismində görsə də, onun aktivliyinə təsir göstərir, onu qətiyyətə sövq edir, tamaşaçıya başqa məkanı göstərir, tamaşaçını hadisələrlə üzbəüz qoyaraq öyrənməyə məcbur edir, tamaşaçıda baş verən hədisələrə maraq oyadır, tamaşaçının şüuruna təsir etməyə çalışır* (1, s.207).

XX əsrin 40-50-ci illərində, Fridrix Volfla söhbətlərində Brext təkrar edir ki, epik teatr heç də emosional təsir inkar etmir, əksinə bu təsirin daha da güclü olmasına çalışır. «Dramatik teatr tamaşaçısı tamaşaya baxarkən deyir: Mən də bunu hiss etmişəm, bu – mənəm, bu təbiidir və həmişə də belə olacaq. Bu insanın əzabı məni heyrətləndirir, çünki onun çıxış yolu yoxdur. Bu böyük sənətdir, mən ağlayanlarla birgə ağlayır, gülənlərlə birgə gülürəm.

Epik teatr tamaşaçısı isə bildirir: Mən belə bilməzdim – belə etmək olmaz, qəribədir, inanılmazdır. Buna son qoymaq lazımdır. Bu insanın əzabı məni heyrətləndirsə də, hər halda bir çıxış yolu var. Bu böyük sənətdir, mən ağlayanlara gülür, gülənlərə isə ağlayıram» (2, s.55).

İnsan səhnədə fiziki olaraq iki adamı birləşdirir. Bu, məsələn bir tərəfdən aktyor, digər tərəfdən isə onun oynadığı obrazdır. Lakin, tamaşaçı hər an təkcə aktyorun oynadığı obrazı yox, həm də obrazı oynayan aktyoru görməlidir. B.Brext : «Bir an belə aktyora imkan vermək olmaz ki, obraza bütünlüklə dəyişsin». Belə bir çağırış: «O, Liri oynamayıb, o, həqiqətən Lir olub» – bizim teatrın məhvi deməkdir. Aktyor sadəcə oynadığı rolu göstərməlidir, təkcə onun yaşantılarını yox. Lakin, bu o demək deyil ki, aktyor emosional bir obraz oynayərkən özü soyuqqanlı olmalıdır. Obrazın hiss-həyəcanı ilə aktyorun hiss-həyəcanı heç də həmişə üst-üstə düşməməlidir. Tamaşaçı tamaşa zamanı həmişə azad olmalıdır» (2, s.35-36).

B.Brextin epik teatr nəzəriyyəsi barədə çox danışmaq, mübahisə etmək olar. Amma bir şeyi təsdiq etmək lazımdır ki, onun bu nəzəriyyə əsasında yaratdığı «Berliner ansambl» teatrı dünyanın bir çox ölkələrində məşhurdur. Bu nəzəriyyə bu gün də sənət məktəblərində öyrənilməkdədir. Siyasi jurnalistikadan siyasi dramaturgiyaya, sonra isə siyasi teatra gələn Bertold Brextin yaradıcılığı teatr tədqiqatçılarının diqqət mərkəzindədir.

Müasir Alman rejissurasının növbəti məşhur nümayəndələrindən biri də Peter Ştayndır.

Peter Ştayn Berlində anadan olub. Məktəbli və tələbə vaxtı dostları onu ruslarda olduğu kimi Petya çağırırdılar. Onun atası mühəndis olub və 1930-cu illərdə SSRİ-də tikilən zavodlarda işləyib. Peter Ştayn fəlsəfə və alman dili fakültələrində dərs alıb, mütəmadi teatr sənətini öyrənib. O, teatr fəaliyyətinə 1964-cü ildə Münhendə yerləşən «Kammerşpil» teatrında rejissor köməkçisi kimi başlayıb. Rejissor kimi isə ilk tamaşası, 1966-cı ildə hazırladığı E.Bondun «Xilas» əsəri olub. 1968-ci ildə Vyetnamda başlanan müharibə əleyhinə çıxışlar edir, buna görə də, teatrı tərk etməyə məcbur olur. Bundan sonra iki il Bremen və Sürix teatrlarında işləyib. Bremen teatrında F.Şillerin «Məkr və məhəbbət» və Hetenin «Torkvato Tasso» əsərlərini hazırlayıb. Peterin məşhurluğu 1970-ci illərə təsadüf edir. O, həmin vaxt Klaus Payman ilə bərabər «Şaubyune» teatrına rəhbərlik etməyə başlayır. Bu teatr qərbi Berlində yerləşirdi və Ştayn bu teatrda 20 il işləyib. Peter teatrda «Hər bir kəsin səs hüququ var» konsepsiyası ilə işləyirdi. Hətta teatrda işləyən texniki işçilər belə bu hüquqa malik idilər. Teatrda yaranan bütün məsələlər kollegial həll olunurdu. Bu model təkcə, repertuar siyasətinə də sirayət edirdi. Ştayn yaradıcılığı boyu rus dramaturgiyasına, rus teatr sənətinə maraq göstərib. Öz yaradıcılığında, K.S.Stanislavskinin teatr ənənəsini davam etdirirdi. Bu gün dünya teatrında Ştayna bərabər rejissor yoxdur ki, K.S.Stanislavski irsini Avropada təbliğ etsin. Ştaynın hazırladığı tamaşalar dəqiq təhlil, dərin işlənmiş psixoloji vəziyyətlər, tamaşanın musiqi və səhnə tərtibatı, hadisələrin ardıcıllığı və nəhayət, təbii oyun tərzi ilə dünyaya səs salıb.

1991-cı ildən Rusiya Teatr Xadimləri İttifaqının dəvəti ilə Moskvaya gələn «Şaubyune» teatrı A.P.Çexovun «Üç bacı», «Vanya dayı» tamaşalarını Moskva Bədaye Teatrının səhnəsində oynayırdı. Tamaşaların biri sona çatanda, məşhur rus aktyoru İ.Smoktunovski səhnəyə qalxıb belə deyir: «Almanlar bizə – ruslara bu gün Çexovu nə cür oynamaq göstərdilər. Sanki, Çexov rus yox, almandır» (5, s.218).

Bu cür qarşılanmadan sonra Ştayna Moskva teatrlarından dəvətlər axışmağa başladı. O, U.Şekspirin «Hamlet» və Evripidin «Oresteya» trilogiyası əsasında yığma aktyorlarla bərabər tamaşalar hazırladı. Hər iki tamaşa Rusiya Hərbi Teatrının səhnəsində oynanılırdı. Bu tamaşalar öz aktuallığı ilə o dövr Moskva teatrlarının repertuarından seçilirdi. Hər iki klassik pyes, sanki o dövr Rusiyasının yaşam tərzini, siyasi çəkişmələrini aydın göstərirdi.

Bu gün Peter Ştayn heç bir teatrda işləmir. Öz malikanəsinə çəkilib, müxtəlif dövlət teatrlarından dəvət alır, malikanəsində tikdirdiyi səhnədə məşq edir, sonra həmin aktyorlarla bərabər qastrol turnesinə çıxır. Ştayn belə izah edir ki, «Artıq daimi truppalarda işləmək mənə zövq vermir. Yığma komanda ilə işləmək, daim eksperimentlər etmək imkanı verir» (6, s.Səh.18)

## ƏDƏBİYYAT

1. Брехт Б. «Театр как искусство». Л.: 1968.
2. Брехт Б. «О теории эпического театра». М.: 1963.
3. Клоц Ф. «Бертольт Брехт». М.: 1957.
4. Пискатор Э. «Политический театр» М.: 1963.
5. Смоктуновский И.М. «Я – гений». М.: 1993.
6. Тимашова М.В. «С Питером Штайном», М.: 2001.

# BERTOLT BREXT VƏ PETER ŞTAYN REJİSSOR ÜSLUBUNUN QƏRB TEATRINDA ROLU

***Məlikov Elmar***

## XÜLASƏ

«Bertolt Brext və Peter Ştayn rejissor üslubunun Qərb teatrında rolu» adlı məqalədə, XX əsrin məşhur Alman rejissorları Bertolt Brext və Peter Ştaynın ümumdünya teatr sənətinə, rejissuraya verdikləri töhfələrinin müqayisəli təhlili, sənətin formalaşma perspektivləri məqalənin əsasını təşkil edir. Bütünlüklə, qərb teatr sənətində yeni rejissuranın formalaşmasına təkan verən novator rejissor Bertolt Brext, hazırladığı tamaşalarının dəqiq təhlili, dərin işlənmiş psixoloji vəziyyətləri ilə dünyaya səs salan Peter Ştayn yaradıcılığına məqalədə toxunulur.

# РОЛЬ БЕРТОЛЬДА БРЕХТА И ПИТЕРА ШТЕЙНА В РЕЖИССЁРСКОМ СТИЛЕ В ЗАПАДНОМ ТЕАТРЕ

***Маликов Эльмар***

## АННОТАЦИЯ

В статье «Роль режиссёрского стиля Бертольта Брехта и Петера Штейна в западном театре» проводится сравнительный анализ вклада известных немецких режиссёров XX века Бертольта Брехта и Петера Штейна в мировое театральное искусство, режиссуры, и основу статьи составляют перспективы становления искусства. В целом в статье затрагивается творчество режиссера-новатора Бертольта Брехта, давшего толчок к формированию нового направления в западном театральном искусстве, и творчество Петера Штейна, нашедшего отклик в мире точным анализом его игры и глубоко развитые психологические состояния.

# THE ROLE OF BERTOLT BRECHT AND PETER STEIN IN THE DIRECTOR'S STYLE IN THE WESTERN THEATER

***Malikov Elmar***

## SUMMARY

In the article entitled "The role of director style of Bertolt Brecht and Peter Stein in the Western theater", the comparative analysis of the contributions of the famous German directors of the 20th century Bertolt Brecht and Peter Stein to the world theater art, directing, and the perspectives of the formation of art form the basis of the article. In general, the article touches on the work of the innovative director Bertolt Brecht, who gave impetus to the formation of a new direction in the western theater art, and the work of Peter Stein, who resonated with the world with his accurate analysis of his plays and deeply developed psychological states.

# PEDAQOGİKA

## TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNƏ MÜƏLLİM FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN TƏSİRİ

***Nurkişiyeva Aytac Aqil qızı***
***BDU-nun II kurs magistrantı***
***aytacnurkisiyeva@gmail.com***

***Açar sözlər:*** Qiymətləndirmə, müəllimin fəaliyyəti, keyfiyyət.
***Keywords***: Evaluation, teacher activity, quality.
***Ключевые слова:*** Оценка, деятельность учителя, качественный.

XXI əsrdə texnoloji cəmiyyətin sürətlə inkişaf etdiyi bir gündə istənilən sahədə səmərəli yolla yüksək keyfiyyətə malik xidmət təklif etmək hər bir ölkənin əsas fəaliyyət prinsipinə çevrilmişdir. Bu baxımdan təhsildə yüksək keyfiyyətli xidmətin təmin olunması aktual bir problemə çevrilmişdir. Maddi istehsal sahələrindən fərqli olaraq təhsil sahəsində keyfiyyətin öyrənilməsi o qədər də asan deyil. Belə ki, əsas tədqiqat obyekti hər hansı bir əmtəənin keyfiyyətli olub-olmaması yox, insanın vahid tələblərə uyğun, hərtərəfli yetişdirilmiş şəxsiyyətə çevrilməsidir. İstənilən sahədə keyfiyyət mövcud obyektin və ya sistemin parametrlərinin standart parametrlərə nə dərəcədə yaxın olması ilə müəyyənləşdirilir. Analogiyaya uyğun olaraq, təhsil sahəsində də keyfiyyət şagirdlərin təlim nəticələrinin mövcud standartlarla müqayisəsidir. Burada aparıcı amil şagirdin təlim nəticələri olsa da, bu amilin formalaşması müəllimin fəaliyyəti, məktəbin fəaliyyəti, təhsili idarəetmə strukturlarının və ümumi olaraq ölkənin təhsil sisteminin mürəkkəb qarşılıqlı fəaliyyətinin nəticəsidir. Göründüyü kimi, müəllimin fəaliyyəti dolayı yolla təhsilin keyfiyyətini müəyyənləşdirən əsas parametrlərdən biridir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra yeni qiymətləndirmə mexaniziminin yaradılmasına böyük ehtiyac vardı. Bu baxımdan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 13 yanvar tarixli 9 nömrəli qərarı ilə "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası" çərçivə sənədi təsdiq olunmuşdur. Konsepsiyada müasir dövrdə qiymətləndirmə fəaliyyətinə qoyulan tələblər, bu sahədə mövcud problemlər, əsas qiymətləndirmə növləri, qiymətləndirmə standartlarının və vasitələrinin hazırlanması və s. kimi həyata keçirilməsi nəzərdə tutulan qərarlar öz əksini tapır. Təlim zamanı şagirdlərlə birbaşa əlaqədə olan şəxs müəllimdir. Bu baxımdan müəllimin təhsilin keyfiyyətində böyük rolu danılmazdır. Belə ki, müəllim fəal təlim zamanı şagirdlərə istiqamət verən fasilitator rolunu icra edərək, onları öyrənməyə, tədqiqata, yaradıcılığa cəlb edir. Ənənəvi olaraq, müəllimin əsas vəzifəsi şagirdlərə informasiya vermək, onları biliklə silahlandırmaq, qısaca olaraq öyrətmək zənn olunsa da müəllimin fəaliyyəti bununla bitmir. Ənənəvi təlimlə müqayisədə müasir müstəvidə müəllimin əsas məqsədi şagirdləri fəallaşdırmağa yönəldilmişdir. Müəllim şagirdlərə bilikləri birbaşa olaraq ötürmür, şagirdlər biliyi özləri əldə etməyə çalışır, tədqiqat aparırlar. Bu proses kənardan sadə görünsə də, müəllimin bilikləri hazır şəkildə ötürməsi ilə müqayisədə müəllimin istiqamətləndirici, fasilitator vəzifəsi daha qəliz və mürəkkəbdir. Çünki, burada artıq müəllimin didaktik biliyə malik olması ilə yanaşı, eyni zamanda idarəetmə, təşkiletmə bacarıqları, yaradıcılıq və s. əsas tələb olunan meyarlara çevrilir. Müəllimin bu bacarıqlara sahib olub-olmamasını müəyyənləşdirməyin əsas yolu onun fəaliyyətinin qiymətləndirilməsidir. Məlum məsələdir ki, hər hansı fəaliyyətin inkişaf prosesindən söhbət gedirsə, hökmən qiymətləndirmədən bəhs olunmalıdır.

Müəllimin fəaliyyətinin qiymətləndirilməsinin əsas 2 səbəbini göstərə bilərik: İlk növbədə, müəllimin keyfiyyəti şagirdlərin öyrənməsi ilə birbaşa bağlıdır. Müəllimlərin qiymətləndirilməsi üçün sistemlərin yaradılması və təkmilləşdirilməsi üzrə göstərilən səylərin əsas səbəbi budur. Sovet dönəmində əgər, müəllim sinifdə şagirdlərlə düzgün nizam-inztizamı təşkil etsə, sinif otağının fiziki şəraitini qoruyub saxlasalar, dərsi izah edib, tapşırıqları yoxayıb, şagirdləri qiymətləndirsə, bu zaman o müəllim effektiv hesab olunurdu. Lakin, bu gün, müəllimin keyfiyyətindən danışarkən əsas faktorlar kimi aşağıdakılar nəzərə alınır:

- Müəllimin təhsili və təcrübəsi;
- Sinifdə müəllimin yaratdığı atmosferin şagirdlərin öyrənmə fəaliyyəti üçün nə dərəcədə effektiv olması;
- Şagirdlərlə xoş münasibətlər yaratmaq və kommunikasiya bacarığı;
- Tədris planını həyata keçirmək üçün səmərəli qiymətləndirmə növlərindən istifadə;
- Dil və mədəniyyət fərqləri olan, öyrənmə və davranış problemləri olan şagirdlərlə işləmək üçün tədris üsullarını fərqləndirmək bacarığı;
- Hər bir şagird üçün yüksək nailiyyət gözləntilərinin formalaşdırılması, şagirdlərə inam;
- Kolleqalarla əməkdaşlıq və valideynlərlə ünsiyyət;
- Yüksək standartlara malik profesional öyrətmə təlimlərində iştirak.

Müəllimlərin fəaliyyətinin qiymətləndirilməsinin ikinci əsas səbəbi isə məsuliyyətlilik və hesabatlılıqdır. Bu baxımdan mütəxəsislərin gözləntiləri bu yöndədir ki, qiymətləndirmənin özü müəllimlərin praktik fəaliyyətini və onun effektivliyini artıracaq və bu da öz növbəsində, şagirdlərin nailiyyətlərində öz əksini müsbət mənada tapacaq. Hətta, bəzi hallarda müəllimlərin qiymətləndirilməsi sistemləri müəllim işçi qüvvəsinin təkmilləşməsinə imkan yarada bilər. Belə ki, düzgün qiymətləndirmə islahatları müəllimlərin keyfiyyətini artıra, müəllimlərə olan etimadı yüksəldə və müəllim hazırlığı üzrə bir sıra təhsil müəssisələrinin təkmilləşdirilməsinə töhfə verə bilər.

Qiymətləndirmənin əsasını məlumatların toplanmasına təkan verən suallar təşkil edir. Müəllimlərin qiymətləndirilməsi üçün hər hansı bir işçinin qiymətləndirilməsi və ya fəaliyyətinin nəzərdən keçirilməsi üçün “ Bu şəxs bu vəzifədə nəzərdə tutulan meruarlar nə dərəcədə uyğundur?” kimi suallarla başlayır. Bəs, müəllimlərin müşahidəsində əsas nələrə diqqət yetirməliyik?

Effektiv müəllimlər:

- Tədrisin məqsədi və mahiyyəti ona aydındır;
- Kurrikulumun məzmunu və strategiyaları haqqında təhsillidir;
- Şagirdlərə onlardan nəyi və niyə tələb etdiyini aydınlaşdırır;
- Mövzunu daha yaxşı aydınlaşdırmağa xidmət edən praktik çalışmalara daha çox yer ayırmaq üçün mövcud tədris materialları arasında məqsədə ən uyğun və səmərəli olanları seçmək bacarığına sahibdir;
- Şagirdlərə haqqında məlumatlara sahib olur, təlim materiallarını onların ehtiyaclarına uyğunlaşdırır və onların biliklərində mövcud olan yanlış təsəvvürləri korreksiya edir;
- Şagirdlərdə meta-koqnitiv (öyrənmənin planlaşdırılması, refleksiya, mövcud bilikdən istifadə və onun yeni situasiyalarda tətbiqi,özünüqiymətləndirmə, analiz və sintez etmək və s.) bacarıqları formalaşdırır və onlara həmin bacarıqları inkişaf etdirmək imkanı tanıyır;
- Şagirdlərin qavramasını müntəzəm olaraq rəy və iradlar bildirirək istiqamətləndirir;
- Fənlərarası və fəndaxili inteqrasiyanı yaratmaq qabiliyyətinə malik olur;
- Nəhayət, şagirdlərin nəticələrinə görə məsuliyyət daşıyır.

Müəllimin professionallığının, ustalığının, səriştəliliyinin, naviqatorluğunun

qiymətləndirilməsi metodikası müəllimlərin, habelə, tədris müəssisələrinin *attestasiyası* adlanır. Attestasiyanın məqsədi müəllimlərin təlim-tərbiyə prosesinin nəticələrinə qarşı məsuliyyət hissini artırmaq, müəllimdə pedaqoji fəaliyyəti üçün stimul formalaşdırmaq, onun yaradıcılığını, fəallığını, səriştəliliyini artırmaqdır. Bir çox inkişaf etmiş ölkələrdə attestasiyalar testlər vasitəsilə həyata keçirilir. Bununla yanaşı, müəllimin pedaqoji fəaliyyətinin qiymətləndirilməsinə dair yeni yanaşma formalarının yaradılması və tətbiqi də aktual məsələyə çevrilmişdir. Bir çox təqiqatçılar həmfikirdir ki, müəllim fəaliyyətinin effektivliyinin artırılması eyni zamanda onların peşəkar qabiliyyətlərinin üzərində işləməsi və vəzifələrinə nə dərəcədə məsuliyyətlə yanaşmalarından asılıdır. Bu baxımdan müəllimlər qiymətləndirmə işləri üzrə onların davamlı inkişafını dəstəkləyən standart model layihələr əsasında işləyərək, daima özlərini aktiv tədqiqatçılığa sövq etməli, axtarışda olmalı, öz peşəsini dərindən mənimsəməlidir.

Qiymətləndirmə modellərindən söz açmışkən, son onillikdə müəllim fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı bir çox model layihələr işlənib hazırlanmış və tətbiq edilərək sınaqdan keçirilmiş, yüksək nəticələr əldə etməyi təmin etmişdir. Həmin modellər içərisində ən çox diqqəti cəlb edən modellərdən biri də P.Taker və D. Stroncun birgə hazırladığı modeldir. Bu modelin əsas xüsusiyyəti ondan ibarətdir ki, burada müəllimin fəaliyyətinin qiymətləndirilməsi təhsilalanların subyektiv fikirlərində əsasında deyil, onların təlim nəticələri əsasında aparılır. Bunun üçün də müəlliflər əməl olunması əsas hesab edilən təkliflər irəli sürmüşlər:

1) Təlimin məzmun (təlim standartlarının) göstəriciləri
2) İş prosesində keyfiyyət artımı göstəriciləri
3) Təhsilalanların hazırki nailiyyət göstəriciləri
4) Müəyyən olunmuş vaxt kəsimində şagirdlərin bilik səviyyəsinin artım göstəriciləri
5) Müəllimin özünün iş kəsimində qeydə alınan çatışmazlıqları aradan qaldırmaq üçün göstərdiyi səy
6) Şagird nailiyyətlərini düzgün və obyektiv qiymətləndirmək üçün səmərəli üsul və modellərdən istifadəsi
7) Qiymətləndirmədə istifadə olunan üsulları hazırda mövcud olan təhsil proqramına uyğunlaşdırmağı
8) Nəzarət-ölçmə alətlərinin mövcud təhsil proqramına uyğunluğu
9) Şagirdlərin yoxlama testlərində uğurlu iştirakını təmin etmək üçün tədris proqramlarında ixtisarların olmamasının nəzarətdə saxlanılmasını.

Bu qiymətləndirmə modeli təhsilalanların təlim nəticələrinə uyğun aparıldığı üçün, müəllimlərin məsuliyyət hissini artırır və bu da öz növbəsində şagirdlərin təlim nəticələrinə müsbət təsir göstərir. Bu tipdə qiymətləndirmə modellərinin yaradılması və tətbiqi son illikdə çox vacib hesab edilir. Taker və Stroncun təklif etdiyi bu modelə əsasən müəllimlər şagirdlərin test üsullu imtahan nəticələrinə uyğun olaraq özlərini məsul şəxs hesab edir, fəaliyyətlərində müsbət halları daha da inkişaf etdirməyə, mənfi halları isə aradan qaldırmağa çalışırlar. Lakin,amerikalı mütəxəsislərin əksəriyyəti bu modeli düzgün hesab etmir, və aparılan tədqiqata əsasən, sorğuda iştirak edənlərin yalnız 30%-i bu modelin tərəfdarıdır. Tərəfdarların əksəriyyəti belə hesab edir ki, şagird nailiyyətlərinin göstəriciləri təhsildə keyfiyyətin əsas başlıca göstəricisi olduğu üçün, göstəricilər yüksək olduğu halda müəllimlərin peşəkarlıq səviyyəsini sorğulamağa ehtiyac qalmır. Darling-Xammondun rəhbərliyi altında Amerikada bir qrup yazıçı müəllim fəaliyyətinin qiymətləndirilməsində yeni yanaşma qəbul etmişlər. Şagirdlərin test üsullu imtahan nəticələri onların bilik səviyyəsini müəyyən bir müddət ərzində əks etdirdiyinə görə, müəllim fəaliyyətini qiymətləndirmək üçün yararlı hesab olunmur. Test üsulunun tətbiqi ilə əldə olunan şagirdlərin nailiyyət nəticələri müəllimin peçəkarlığını, səriştəliliyini düzgün qiymətləndirə

bilməz. Bu baxımdan yeni yanaşmanın tərəfdarları aşağıdakı üç əsas amili qiymətləndirmədə nəzərə almağın bizi düzgün nəticəyə aparmayacağını və həqiqi vəziyyəti müəyyənləşdirməkdə maneə olacağını hesab edir:

1. Şagirdlərin nailiyyət göstəriciləri; çünki bu göstəricilər daimi və ardıcıl xarakter daşımayıb, yalnız hər hansı bir rüb sonunda və ya illik olub müəyyən bir zaman kəsimindəki nəticəni əks etdirir;

2. Şagird nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan metod və üsulların nəticəyə uyğun olaraq dəyşməsini;

3. Test üsullu imtahan nəticələrinin şagirdlərin yüksək bilik səviyyəsinin göstəricisi olmasını.

Amerikalı mütəxəsislər Q.Ritter və D. Barnet müəllim fəaliyyətinin qiymətləndiril-məsinin ən yaxşı vasitəsi kimi müəllimin fəaliyyətinə yönələn çoxsaylı müşahidələr hesab edirlər. Müəllimin dərs prosesində istifadə etdiyi metodika, sinfi idarə etmək bacarığı, şagirdlərin işinin təşkil olunması, sinifdə yaratdığı atmosfer, şagirdlərə diferensial və humanist yanaşması, müəllimin öz ixtisası üzrə ekspertliyi və s. əsaslandırılmış qiymətləndirmə prosesinin əsasını təşkil edir.

ABŞ-da “ Müəllim və şagirdlərin mükəmməl inkişafı üçün sistem” ( The System for Teacher and Student Advancement, TAP) adlı proqram ik dəfə 1999-cu ildə təqdim edilmişdir. Bu proqramın əsas məqsədi müəllimlərin karyerasında inkişafın təmin olunması, müəllimlər arasında liderlik imkanlarının yaradılması, obyektivlik və rasionallıq prin-siplərini nəzər alaraq müəllimlərin peşəkar xüsusiyyətlərinin qiymətləndirilməsi və nəticələrə əsasən əmək prosesinin dəyərinin müəyyənləşdirilməsi. Bu sistem dörd əsas elementdən ibarətdir:

1. Çoxşaxəli karyera istiqamətləri- TAP müəllimlərə onların öz bacarıqları və maraqlarına uyğun olaraq onlara müxtəlif istiqamətlərdə ( mentor müəllim, əsas müəllim) ixtisaslaşmağa imkan yaradır;

2. Davamlı peşəkar inkişaf-digər ənənəvi peşəkar modellərlə müqayisədə, TAP müəllimlərə davamlı olaraq şagirdyönümlü, ixtisasa əsaslanan və ekspert mütəxəsislər tərəfindən tədris olunan təlim sistemi ilə təmin edir;

3. Müəllimin məsuliyyəti- TAP sistemi iş prosesində müəllimin fəaliyyətini müşahidə edir, ona rəy və iradlar bildirir;

4. Əmək fəaliyyətinin qiymətləndirilməsi- TAP müəllimləri onların tutduğu vəzifə və məsuliyyəti nəzərə alaraq, onları əlavə ödənişlə təmin edərək mövcud ödəniş sistemini dəyişdirdi.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. Bakı, 2009.
2. Azərbaycan Məktəbi, №3, 2018. 112s.
3. Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 84, № 4, 2017. 43s.
4. Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı: Müəllim. 2010.
5. https://www.niet.org/our-work/our-services/show/the-tap-system-for-teacher-and-student-advancement
6. https://www.frontlineeducation.com/teacher-evaluation/

# TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNƏ MÜƏLLİM FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN TƏSİRİ

***Nurkişiyeva Aytac***

## XÜLASƏ

Bu məqalədə təhsilin keyfiyyətinə təsir göstərən başlıca faktor olan müəllimin fəaliyyəti və onun qiymətləndirilməsinin əhəmiyyətindən bəhs olunur. Ənənəvi və kurrikulum təhsil müstəvisində müəllim fəaliyyətinin effektiv qiymətləndirilməsi arasındakı fərqlər göstərilmiş, qiymətləndirmənin müsbət tərəfləri vurğulanmışdır. Eyni zamanda, müəllim fəaliyyətinin qiymətləndirilməsinə müxtəlif dövrlərdə yanaşma formaları haqqında qısa məlumat verilmiş, müasir dövrdə müəllimin fəaliyyətinin qiymətləndirilməsinə mövcud yanaşma forması təhlil olunmuşdur.

# ВЛИЯНИЕ ОЦЕНКИ ДЕЯТЕЛЬНОСТИ УЧИТЕЛЕЙ НА ПОВЫШЕНИЕ КАЧЕСТВА ОБРАЗОВАНИЯ

***Нуркишиева Айтадж***

## АННОТАЦИЯ

В данной статье говорится о важности деятельности учителя и ее оценке, что является основным фактором, влияющим на качество образования. Показаны различия между эффективной оценкой деятельности учителя на традиционном и учебном уровне образования, а также подчеркнуты положительные стороны оценивания. При этом дана краткая информация о формах подхода к оценке деятельности учителя в разные периоды, а также проанализирована современная форма подхода к оценке деятельности учителя в современную эпоху.

# THE IMPACT OF TEACHER PERFORMANCE EVALUATION ON IMPROVING THE QUALITY OF EDUCATION

***Nurkishiyeva Aytaj***

## SUMMARY

This article emphasizes the significance of the teacher's activity and its evaluation, which is the primary factor affecting the quality of education. The differences between the effective assessment of the teacher activity at the traditional and curriculum level of education are shown, and the positive aspects of the assessment are underscored. At the same time, brief information was given about the forms of approach to the evaluation of the teacher's activity in different periods, and the current form of the approach to the evaluation of the teacher's activity in the modern era was analyzed.

# ОСНОВНЫЕ ПРИЧИНЫ АКТУАЛИЗАЦИИ ПРОБЛЕМЫ КАЧЕСТВА ОБРАЗОВАНИЯ В СОВРЕМЕННУЮ ЭПОХУ

***Улькер Алекперова***
***Магистрант II курса БГУ***
***yushey@list.ru***

***Ключевые слова:*** качество образования, студент, преподаватель, образовательная система.
***Açar sözlər:*** təhsilin keyfiyyəti, şagird, müəllim, təhsil sistemi
***Keywords:*** quality of education, student, teacher, educational system

Вопрос качества образования всегда был на повестке дня. Очевидно, что если есть школа, то должно быть и качество. В последние десятилетия эта проблема волнует всех, и тому есть несколько причин. Целесообразно их раскрыть.

1. Международная организация экономического сотрудничества и развития объявила рейтинг знаний 15-летних школьников из 57 стран. Известно, что финские дети обладают более глубокими, фундаментальными знаниями. Наши студенты показали очень низкий уровень. Таким образом, по результатам международных исследований стало ясно, что уровень среднего образования в общеобразовательных школах Азербайджана ниже средних показателей. С другой стороны, по индексу человеческого развития Азербайджан отстает от соседней Грузии. Индекс человеческого развития определяется тремя показателями. Один из них – уровень образования, второй показатель – среднедушевой доход населения, третий – средний возраст населения. Но большую роль играет индекс образования. В этом плане мы отстаем от многих стран.

2. В последнее время в наших школах произошли существенные изменения (строительство школ, ремонт, оснащение оборудованием, компьютерами и т.д.). Однако в учебном процессе, в отношениях учитель-ученик-родитель, улучшения с точки зрения качества нет. Учителя не вырабатывают новый образ мышления, они не уходят от влияния прошлого, наши учителя работают со старым мировоззрением. Руководители образовательных учреждений не обсуждают эти проблемы на школьных советах и педсоветах и не принимают необходимых мер. Такая ситуация, безусловно, создает условия для отставания студентов.

В 2022 году из 26 953 учащихся, окончивших общеобразовательные школы города Баку, 23 528 человек подали документы в высшие учебные заведения (87,29 %), по результатам вступительных экзаменов 9 025 выпускников города (38,47 % поступивших) получили звание студента.

Одной из цифр, привлекающих внимание, являются результаты пробных экзаменов для одиннадцатиклассников, которым в этом году предстоит централизованно сдавать выпускные экзамены. Итоги этих экзаменов, охвативших более 20 городов и районов и 52 тысячи учащихся, обсуждались на коллегии Министерства образования, состоявшейся 9 февраля. Из 48 682 учащихся, принявших участие в проверочных экзаменах, только 16 744, т. е. 34,4%, получили по всем предметам высокие оценки. Также следует отметить, что процент успешности в обучении тех, кто показал плохие результаты на экзамене, находился в пределах 0-10. Количество таких школ превышает 100.

Более тревожны результаты поступления в высшие учебные заведения. При исследовании результатов приема в высшие учебные заведения нас и читателя не могут не беспокоить следующие результаты.

Обратим внимание:

За 2021-2022 учебный год баллы, набранные абитуриентами на вступительных экзаменах в высшие учебные заведения, были следующими: 500-700 баллов набрали 14,8% абитуриентов, 300-500 баллов - 55,4%, 200-200 баллов - 24,3%. 9% набрали 100-200 баллов, а 2,6% - 50-100 баллов.

Общий результат по четырем группам таков: 62,8% всех абитуриентов набрали менее 200 баллов, а 4% - более 500 баллов. Это худший результат, достигнутый за последние 5 лет.

Эти цифры еще раз доказывают, что вопрос качества образования волнует всех. Анализ показывает, что причин такой ситуации несколько.

1. В последнее время формирование новой системы ценностей различного характера, кризис прежней системы ценностей в образовании, переход к рыночной экономике, формирование рынка образовательных услуг неизбежно влияет на сознание людей, происходит обновление отношения к образованию. Возрастает роль науки и культуры в духовной жизни общества. Ценность прогностических исследований признается. Идеи проектирования будущей жизни, основанные на научно-методических идеях, приводят к изменению отношения людей к жизни.

2. В мировом опыте внимание к их разнообразию и разнообразию последовательно возрастает в единых образовательных программах, учебниках, учебных заведениях. Если разобраться в корнях этой причины, то становится ясно, что результат не зависит от учебников и образовательных программ. Цель состоит в том, чтобы молодой человек приобрел знания, которые обеспечат ему средства к существованию в будущей жизни.

3. В процессе формирования рынка образовательных услуг, педагогических услуг и образовательных продуктов возможности принятия решений в сфере образования постепенно переходят от государственных структур к обществу. Неслучайно финансирование образования в развитых странах осуществляется муниципалитетами и предпринимателями наряду с государством. Это существенно помогает государственному бюджету и в то же время создает условия для достижения качества в образовательном учреждении.

4. В последнее десятилетие развитие новой области образования – Образовательного менеджмента – создает условия, при которых применение разработанных специалистами механизмов и технологий управления в системе образования, несомненно, повлияет на качество образования. Для того, чтобы привлечь внимание к этой проблеме, автор в начале абзаца доказывает, что ситуация вовсе не является удовлетворительной, используя опубликованные Министерством образования цифры о низком уровне качества образования, что в последнее время беспокоит общественность.
.

Речь идет не о том, чтобы дать студентам академические знания, а о том, чтобы привить рабочие привычки, жизненные навыки и адаптироваться к меняющемуся миру. Следует отметить, что роль школы определена в «Примерном положении о средней общеобразовательной школе», утвержденном Кабинетом Министров: «Основной задачей общеобразовательной школы является развитие природных способностей личности, научить его основам науки, развить его физические, умственные, интеллектуальные способности, склонности, интерес и познавательные способности, сформировать его личность, подготовить его к эффективной деятельности в жизни и обществе, послужить воспитанию самостоятельного, творческого мыслителя, обладающего общей культурой, национальной духовной личности, сознательно подготовить его к выбору профессии, воспитать гражданина, самоотверженно работающего во имя развития Азербайджана.

Представители учреждения PIZA сдали экзамены по математике и родному языку

среди 15-летних школьников в 63 странах мира, в том числе и в Азербайджане. Наши студенты заняли 4-е место по знаниям и 30-е место по навыкам. Не случайно эти школы стараются учить учеников только знаниям. Однако в современной жизни мастерство важнее для достижения больших успехов. Поэтому в системе образования учащихся следует обучать навыкам и привычкам наряду со знаниями.

По мере развития науки и накопления опыта понятие образования приобретает более широкое значение, а задачи оптимизируются в результате новых требований, которые ставит перед ней жизнь.

Одним из важных нововведений, которые преподносит образовательному процессу XXI век, является трансформация субъектно-объектных отношений образовательного процесса в отношения субъектов. Неслучайно еще в 1999 г. в «Программе реформы образования» в качестве главной задачи упоминалось «создание новой системы образования, рассматривающей формирование учащегося как личности и превращение его в главного субъекта учебного процесса».

Эта задача - превращение студентов в субъектов процесса - формирует новое отношение к управлению образовательным процессом. Руководителям образовательного учреждения следует последовательно повышать внимание к реализации этого требования, ведь субъектная функция обучающегося связана с достижением качества образования. Чтобы объяснить этот факт руководству образовательного учреждения и нашим читателям в целом, уместно объяснить научную основу функции субъектности обучающегося по отношению к качеству образования.

Сегодня отношение работников образования к этой проблеме объясняется с позиции школы как отношение к личности учащегося, его нравам и деятельности. Те, кто управляет образованием на разных уровнях, нуждаются в новых концепциях, стандартах, учебных планах и учебниках и программах, методических пособиях и т. д. они пытаются создать. Администраторы образования, учителя и родители пытаются спроецировать будущие направления детей, а не детей. Если это так, мы должны рассмотреть:

- Насколько комфортно дети чувствуют себя в образовательных учреждениях, спроектированных без учета пожеланий и желаний пожилых людей.
- Предусмотрена ли деятельность взрослых в образовательном пространстве для детей?
- Нравятся ли детям программы и учебники, потому что с их помощью их воспитывают и готовят к жизни?
- Наконец, всех ли школьников удовлетворяют государственные стандарты образования?

(Мне кажется, что если руководители учебных заведений обсудят эти вопросы с учителями, воспитателями и даже учениками, у них выработается новое отношение к образованию).

С годами становится ясно, что чем более диктующей будет внешняя среда по отношению к подрастающему поколению, тем меньше подрастающий человек станет субъектом. В результате родственная деятельность учителей, учащихся и психологов остается безрезультатной. Ведь высокие образовательные результаты достигаются при совпадении интересов детей в области их образования с интересами учителя, воспитателя и школы в целом.

Отсюда можно сделать вывод, что в школе XXI века, в отличие от прошлого, полностью изменится логика понимания образования. Это станет сложным процессом, не результатом внешнего воздействия на ребенка, а собственной деятельностью ребенка. В это время понятие образования будет заменено понятием воспитания личности. В этом случае воспитание как процесс будет результатом индивидуальной забо-

ты. Поэтому в это время личная ответственность будет восприниматься и как личный успех, и как неудача. Такое отношение и смысл будут результатом индивидуального развития личности и определят его нравственность.

В качестве вывода стоит отметить, что по мере развития ребенка образование будет переходить в самообразование. Если это так, то хороший педагог должен просто стать специалистом, формирующим личность ребенка и создающим условия для этого процесса. Одним словом, человек должен быть творцом своего будущего. Из такого объяснения формируются следующие понятия:

- Воспитание личности начинается до школы, продолжается в школе и вне школы, образование сопровождает его на протяжении всей жизни (непрерывное образование, образование пожилых людей).
- Если не созданы необходимые условия для получения среднего образования (материально-техническая база, учителя высокого уровня, любящие свою профессию и др., если не осуществляется индивидуальное самообразование школьников, невозможно достичь высоких результатов в обучении.
- Главной задачей школы является создание максимально приятных условий для самообразования и развития личности ученика.
- Школьное сообщество должно быть очень важным, но не единственным поставщиком будущего развития детей и молодежи. (Конечно, здесь нельзя забывать о деятельности семьи и самих детей. Школа должна быть делом всенародным. В противном случае многие общие вопросы, экономика, материально-техническая база, привлечение молодежи в школу, иногда даже уборка улиц, помощь по хозяйству и т.д. вдали от реализации).
- Говоря о результатах образования, следует различать результаты школьного образования и результаты личного образования в жизни, а результаты следует исследовать. Если да, то реальные результаты школьного образования оцениваются следующим образом:

а) оценка результатов обучения самим обучающимся;

б) оценка результатов образования другими лицами (в том числе учителями, органами управления образованием, социальными заказчиками).

Исследования показывают, что такие работы в Азербайджане проводились на низком уровне. Учитывая то, что Азербайджанская Республика имеет более важные задачи во внешней политике, решение Карабахского вопроса, темп развития образовательной сферы можно считать естественным. При воспитании и обучении учеников выделяется глубокое влияние на формирование их как достойный гражданин. Школа и другие общественные органы должны помогать им в этой работе. В первую очередь учителя и руководители школ должны понять эту истину и нести ответственность за ее реализацию.

## ЛИТЕРАТУРА

1. «Exo» qəzeti, №223, 2022-ci il
2. Orta ümumtəhsil məktəbinin Nümunəvi Əsasnaməsi.(12 mart 1994-cü il, Nazirlər kabinetinin 109 saylı qərarı)
3. «Azərbaycan müəllimi» qəzeti, №9, 2022 –ci il
4. «Azərbaycan Respublikası Təhsil Sahəsində Islahat Proqramı», «Azərbaycan müəllimi» qəzeti, №40, səh. 7, 2020-ci il
5. S.Quliyeva. «Keyfiyyətin idarə olunmasının prinsipi və onun əsas istiqamətləri» Təhsil Problemləri Institutunun Elmi əsərləri, №2, səh 14-19, 2018

6. Факторович А.А. «Субъектно-педагогический менеджмент качества образовательного процесса в вузе». Журнал «Педагогика», №10, 2018, стр.54-62
7. Елена Жаркова. Руководитель школы в целостной системе управления», Жур. Народное образование» Москва №8 2018, стр. 73-79
8. Петрушин В.Ж. «Технология менеджмента как сделать счастливым себя и своих подчиненных», М.: Институт Психологии, 2020, стр.89
9. Зеер Г., Заводчиков Д. «Идентификация универсальных компетенций выпускников», Журнал Высшее образование России, 2017, №2
10. А.Маслоу «Мотивация и личность» С.П.Б Евразия, 2021, стр. 104 и 232

## ОСНОВНЫЕ ПРИЧИНЫ АКТУАЛИЗАЦИИ ПРОБЛЕМЫ КАЧЕСТВА ОБРАЗОВАНИЯ В СОВРЕМЕННУЮ ЭПОХУ

***Алекперова Улькер***

### АННОТАЦИЯ

В современное время система образования коренным образом влияет на социально-экономическое развитие общества. Не случайно ученые разных стран, говоря о задачах, стоящих перед человечеством в XXI веке, в первую очередь пытаются определить направления развития образования. Перспективы развития образования волнуют всех – от министра, принимающего общегосударственные управленческие решения, руководителей образовательных учреждений, научных работников, авторов учебников, методистов, педагогов-практиков, словом, тех, кто организует образовательный процесс на различных уровнях, и, наконец, родителей. , вся общественность заставляет задуматься, заставляет искать выходы.

## MÜASİR DÖVRDƏ TƏHSİLİN KEYFİYYƏTİ PROBLEMİNİN AKTUALLAŞMASININ ƏSAS SƏBƏBLƏRİ

***Ələkbərova Ülkər***

### XÜLASƏ

Müasir dövrdə təhsil sistemi əsaslı şəkildə cəmiyyətin sosialiqtisadi inkişafına təsir göstərir. Təsadüfi deyil ki, müxtəlif ölkələrin alimləri XXI əsrdə insanlıq qarşısında duran vəzifələrdən danışarkən, hər şeydən əvvəl, çalışırlar ki, təhsilin inkişaf istiqamətlərini müəyyənləşdirsinlər. Təhsilin inkişaf perspektivləri hamını – ölkə miqyasında idarəetmə qərarlarını qəbul edən nazirdən tutmuş, təhsil müəssisəsi rəhbərlərini, elmi işçiləri, dərslik müəlliflərini, metodistləri, praktik müəllimləri, bir sözlə, müxtəlif səviyyələrdə təlim-tərbiyə prosesini təşkil edənləri və nəhayət, valideynləri, bütün ictimaiyyəti narahat edir, düşündürür, çıxış yolları axtarmağa məcbur edir.

## THE MAİN REASONS FOR THE ACTUALİZATİON OF THE PROBLEM OF THE QUALİTY OF EDUCATİON İN THE MODERN ERA

***Alakbarova Ulkar***

### SUMMARY

In modern times, the education system fundamentally affects the socio-economic development of society. It is no coincidence that scientists from different countries when talking about the tasks facing humanity in the 21st century, first of all, try to determine the directions of development of education. The development prospects of education concern everyone - from the minister who makes national management decisions, heads of educational institutions, scientific workers, textbook authors, methodologists, practical teachers, in short, those who organize the educational process at various levels, and finally, parents, the entire public. makes you think, and forces you to look for ways out.

# İŞGALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ APARILAN YENİDƏNQURMA İŞLƏRİNİN İNSANLARIN ƏHVAL-RUHİYYƏSİNƏ GÖSTƏRDİYİ TƏSİR

***F.ü.f.d.Abbasova Mətanət***
***BDU, Sosioloji tədqiqatlar laborotoriyası***
***abbasova.matanat@mail.ru***

***Açar sözlər:*** işğal, azad, infrastrukrur, əhval-ruhiyyə, layihə, yenidənqurma
***Ключевые слова:*** оккупация, освобождение, инфраструктура, настроение, проект, реконструкция
***Keywords:*** occupation, liberation, infrastructure, mood, project, reconstruction.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin işgal olunmuş rayonlara səfəri hər bir Azərbaycan vətəndaşı üçün boyük sevinc və fərəh doğurur. Cənab Prezidentin qeyd etdiyi kimi, Azərtbaycan müharibədə zəfər çaldı, düşməni əzəli torpaqlarımızdan qovdu, tarixi ədaləti bərpa etdi.

Azərbaycan üçün 2020-ci il 44 günlük Vətən müharibəsindəki qələbə və işğal olunmuş torpaqların qaytarılması ilə yadda qalmışdısa, bu il daha çox işğaldan azad edilmiş torpaqlarda infrastrukturun bərpası istiqamətində aparılan fəal işlərlə yaddaşlarda qalacaq.

2021-ci il ərzində işğaldan azad edilmiş ərazilərdə məcburi köçkünlərin tezliklə öz doğma yurdlarına qaytarılması üçün ərazilərin minalardan təmizlənməsi, o cümlədən infrastrukturun bərpası və yenidən qurulması üzrə sistemli işlər davam etdirilir.[1]

Qarabağda gedən tikinti işlərində ən mühüm hadisə oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılışı olub. Bu, çox qısa müddətdə tikilib - 2021-ci ilin yanvarında Azərbaycan Prezidenti Füzulidə Beynəlxalq Hava Limanının tikintisi ilə bağlı göstəriş verib, yanvarın 14-də aeroportun təməli qoyulub, 8 ay sonra - oktyabrın 26-da isə onun açılışı baş tutdu.

Bundan əlavə, Laçın və Zəngilan rayonlarında da beynəlxalq hava limanları tikilir.

Noyabrın 7-də Füzuli şəhərini Şuşa ilə birləşdirən və ümumi uzunluğu 101 kilometr olan "Zəfər yolu"nun açılışı oludu.

Ağdam sənaye parkının və "Araz vadisi iqtisadi zonası" sənaye parkının yaradılması istiqamətində işlərə başlanılıb, Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin icrası davam etdirilir.

Ümumiyyətlə, dövlət Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında əlverişli investisiya mühiti yaradır, potensial rezidentləri və investorları cəlb etmək məqsədilə sahibkarlar və dövlət qurumları ilə daim əməkdaşlıq edir.

2021-ci il Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistan Baş naziri Nikol Paşinyan arasında yanvarın 11-də Moskvada keçirilən danışıqlarla başlayıb. Danışıqların yekununda tərəflər bütün nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması regionda iqtisadi əlaqələrin bərpası haqqında birgə bəyanat imzalayıblar.

Azərbaycan və Ermənistan sərhədində sabitlik və təhlükəsizlik səviyyəsinin artırılması üzrə addımlar atmağı, Azərbaycan Respublikası və Ermənistan Respublikasının dövlət sərhədinin delimitasiyası, sonradan tərəflərin sorğusu əsasında Rusiya Federasiyasının məsləhət yardımı ilə sərhədin demarkasiyası üzrə ikitərəfli komissiyanın yaradılması barədə razılığa gəliblər.

Dekabrın ortalarında Azərbaycan prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin iştirakı ilə Brüsseldə Nikol Paşinyanla görüşüb. Ş.Mişelin sözlərinə görə, danışıqlar zamanı sərhəd və gömrük nəzarətinin qarşılıqlılıq prinsipi əsasında təşkil olunması ilə dəmir yolu xəttinin bərpa edilməsi məsələsinə xüsusi toxunulub. [3]

Tərəflər, həmçinin, Aİ-nin regionda etimadın möhkəmləndirilməsi, dinc birgəyaşayışın təşviqi və iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün iqtisadi məsləhətləşmə platformasını işə salmaq niyyətini müzakirə ediblər.

Başa çatmaqda olan ildə Azərbaycanın xarici siyasətində mühüm mərhələ Türkiyə ilə qardaşlıq əlaqələrinin möhkəmlənməsi, o cümlədən ikitərəfli münasibətlərin yol xəritəsinə çevrilmiş Şuşa Bəyannaməsinin imzalanması oldu.

Sənəd iyunun 15-də Şuşada, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi ikigünlük səfəri çərçivəsində imzalandı.

Bəyannamədə siyasi, iqtisadi, ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, enerji təhlükəsizliyi, o cümlədən Cənub Qaz Dəhlizi üzrə enerji təhlükəsizliyi, eləcə də müdafiə sənayesi sahəsində əməkdaşlıq, qarşılıqlı hərbi yardım, Zəngəzur dəhlizində əməkdaşlıq və s. kimi mühüm məsələlər öz əksini tapıb. Tərəflər çoxtərəfli platformalar, o cümlədən altıtərəfli platforma (3+3) çərçivəsində əməkdaşlığı davam etdirmək barədə razılığa gəliblər [2].

Azərbaycandakı mühüm hadisələrdən biri Azərbaycanın Ermənistana qarşı iddialar ilə BMT-nin Haaqakı Beynəlxalq Ədalət Məhkəməsinə müraciət etməsi olub. Dekabrın 7-də Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanda fəaliyyət göstərən fiziki şəxslər və təşkilatlar tərəfindən azərbaycanlılara qarşı irqi nifrət təbliğatının qadağan edilməsi üzrə müvəqqəti tədbirlər görülməsi ilə bağlı Azərbaycanın vəsatətini təmin edib. Məhkəmə həmçinin Ermənistanda azərbaycanlılara qarşı etnik zəmində insan hüquqlarının pozulmasının qarşısını almaq üçün təcili tədbirlər görülməsi ilə bağlı qərar qəbul edib.

Düşmən üzərindəki tarixi qələbəmizdən sonra ölkə başçısı dəfələrlə işğaldan azad edilmiş ərazilərə gedir, erməni vəhşiliyini dünyaya nümayiş etdirir. Möhtərəm Prezidentimiz İlham Əliyevin Novruz Bayramını 30 illik işgaldan azad olmuş, şəhidlərimizin, qazilərimizin qanı ilə sulanmış Şuşa şəhərində kecirməsi bütün Azərbaycan xalqınına böyük mənəvi ruh verdi. Prizidentimiz işgaldan azad olmuş ərazilərdə olarkən bildirdi ki, Qarabağda bütün infrastruktur yenidən və mükəmməl qurulacaq. Hal-hzırda bu ərazilərdə tikinti-abadlıq, yenidənqurma işləri geniş vüsət alıb.

Dövlət başçımız işğaldan azad olan rayonlarda bir sıra yenidenqurma işlərinin həyata kecirilməsinə sərəncam verib. Bu xəbərlər Azərbaycan xalqının əhval-ruhiyyəsinin yüksəlməsinə səbəb oldu. Xalqın, xüsusən Daglıq Qarabağdan qacqın düşmüş və bu gün qələbənin sevincini yaşayan qarabağlılar üçün iki qat bayram oldu. Bu məlumat onlara əhval-ruhiyyələrinin yuksəlməsinə, mənəvi-psixoloji ruh yüksəkliyinin qalxmasına, daha həvəslə calışmalarına səbəb oldu. Onlar öz torpaqlarında yenidənqurma işlərinin tamamlanmasını və öz yurd-yuvalarina dönəcəkləri günü səbirsizliklə gözləyirlər.

Hal-hazırda işğaldan azad edilmiş ərazilərdə quruculuq-abadlıq işlərinin uğurla həyata kecirilməsi, eləcə də əhalinin doğma ata-baba yurdlarında daimi məskunlaşmasının təmin edilməsi məqsədi ilə lazımi tədbirlər həyata kecirilir.

Dövlət başçımızın fərmanları ilə işğaldan azad olmuş rayonlarda, o cümlədən, Agdam rayonunda da bir sıra yenidənqurma və abadlıq işlərinin başlanmasına sərancam verib. Ağdam rayonunda Ağdam Sənaye Parkı yaradılması, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin təsis edilməsi, "ağıllı kənd", "ağıllı şəhər" layihələrinin icrasına başlanılması, yeni aeroportların tikintisi, yol infrastrukturunun tamamilə yenidən qurulması və genişmiqyaslı abadlıq işləri Azərbaycan xalqı tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılandı.

30 illik işgaldan azad edilmiş ərazilərdə quruculuq – abadlıq işlərinin uğurla həyata keçirilməsi, eləcə də əhalinin doğma ata-baba yurdlarında daimi məskunlaşmasının təmin edilməsi məqsədilə lazımi tədbirlər həyata keçirilir.Yenidənqurma işləri ilə yanaşı öz doğma yurd-yuvalarını görmək ücün səbirsizlənən, artıq bu ayrılıga dözə bilməyən, doğma yurd-yuvalarını görməyə can atan Qarabağlılar üçün xüsusi marşrutlar təşkil olunur. İnsan-

lar bu marşrutlar vasitəsilə 30 illik əsarətdən, işğaldan azad olan kəndlərini, doğulub böyüdüyü, yaşadıgı ata-baba yurdlarını görmək və bu torpaqlara toxunmaq, bu torpaqlarda gəzmək insanların psixoloji əhval-ruhiyyəsinə cox yüksək təsir göstərir. Onlar indi daha əzmlə işləməyə, Prezidentimizin ətrafında sıx birləşməyə və torpaqlarımızda yenidenqurma işlərinin tamamlanıb tam abad olacağı günü gözləyirlər. Prezident İlham Əliyevin işğal olunmuş ərazilərdə yenidənqurma, abadlıq işləri ilə bağlı verdiyi bütün tapşırıq və sərəncamları bütünlüklə dəstəkləyirlər. Mən bir qarabağlı kimi uzun illər yurd həsrətində olan həmvətənlərimlə birgə dövlət başçımızın imzaladığı sərəncam və fərmanları dəstəkləyir və tezliklə Qarabağlıların öz torpaqlarına tam sahib olmalarını arzu edirəm [2].

Hazırda həmin ərazilərin milli iqtisadiyyata sürətli inteqrasiyasının təmini, eləcə də layiqli yaşayış şəraitinə nail olunması üçün genişmiqyaslı quruculuq və bərpa işləri həyata keçirilir. Həmin ərazilərdə bütün infrastruktur yenidən qurulur. Eyni zamanda əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların və böyüklərin də bərpa–müalicə imkanlarına malik olmaları üçün həmin ərazilərdə yeni reabilitasiya müəssisələrinin yaradılması nəzərdə tutulurb. Bərpa–müalicə prosedurlarının formalaşdırılmasında bölgənin yerli təbii müalicəvi resurslarından da səmərəli istifadə olunması diqqət mərkəzində saxlanılması nəzərdə tutulub.

Eyni zamanda, sosial xidmət mərkəzlərinin tikintisi və onların sayının artırılması, genişləndirilməsi işğaldan azad olunmuş ərazilərimizdə görüləcək işlərin əhatə dairəsinin daha geniş olacağını bildirir. Bu bölgələrdə xalqın yaşam səviyyəsini tam təmin etmək ücün əsas diqqət mərkəzində saxlanılan məsələlərdən biri də sosial xidmətlərin təşkili məsələsidir. Sosial xidmətlərin yüksək təşkili "yüksək səviyyədə yaşam tərzi" deməkdir. Bu bölgələrimizdə tənha, ahıl və əlilliyi olan şəxslərin evlərində sosial məişət xidmətləri ilə təminatı həyata keçirilməklə yanaşı, stasionar və yarımstasionar tipli sosial xidmət müəssisələri də yaradılacaq. Eyni zamanda, dövlət sosial sifarişləri əsasında işğaldan azad edilən ərazilərdə reabilitasiya xidmətləri göstərən mərkəzlərin qurulması nəzərdə tutulub.

Həmin ərazilərdə aparılan tikintilər, habelə tikinti zamanı edilmiş dəyişikliklər, söküntü işlərinin hamısı diqqət mərkəzində saxlanılır. Dövlət başçımızın 2021-ci il 12 avqust tarixli "İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında" fərmanı ilə orada tikililərin mövcud vəziyyəti və həmin tikililərdə baş verən dəyişikliklər barədə məlumatların uçotunun aparılması, eləcə də digər zəruri məsələlərlə əlaqədar çevik əlaqələndirilmiş fəaliyyətinin təmin edilməsi məqsədilə tikililərin müvəqqəti reyestri yaradılır.

Qarabağda tikinti-abadlıq işləri planlı şəkildə aparılır və bu məsələ dövlət başçısının diqqət mərkəzindədir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, azad edilən ərazilərdə hərbi şəhərciklərin və digər hərbi struktur obyektlərinin kompleks şəkildə inşa edilərək hərbi qulluqçuların istifadəsinə verilməsi istiqamətində aparılan işlər davam etdirilir. Hərbi qulluqçuların qida təminatının daha da yaxşılaşdırılması məqsədilə Kəlbəcər şəhərində çörəkbişirmə sexinin açılışı oldu [4].

Açılış mərasimində Müdafiə nazirinin müavinləri - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov və Quru Qoşunları Komandanı general-mayor Ənvər Əfəndiyev iştirak etdilər.

Məruzə olundu ki, Kəlbəcər rayonunda xidmət edən hərbi qulluqçuların isti çörəklə vaxtında təmin edilməsi məqsədilə inşa edilən sex müasir avadanlıq və inventarlarla təchiz olunub. Çörək sexinə zəruri kommunikasiya xətləri çəkilib, fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generator quraşdırılıb. Sexdə yaradılan şəraitlə tanışlıqdan sonra şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı Müdafiə nazirinin tapşırıqları komandanlığa çatdırılıb.

Daglıq Qarabagda gedən yenidənqurma və tikinti işləri nəinki qarabaglıları eləcədə

bütün Azərbaycan xalqının əhval ruhiyyəsinin yüksək pisixoloji ruh yüksəkliyi ilə yaşamağa və işləməyə mənən ruhlandırır.

Vətən sağ olsun! – deyən hər bir əsgər və zabit ata-anası öz müdrikliyi ilə digər millətlərə nümunə oldu. Beynəlmiləl xalq kimi tanınan Azərbaycan dövlətinin hər bir vətəndaşı Vətən müharibəsinin iştirakçısı oldu və Zəfər

Qələbəsinə öz payını verdi. Budur Azərbaycan Dövlətinin çaldığı qələbənin sirri, Azərbaycan Ordusunun əsgər və zabitlərinə eşq olsun! Bu qəhrəmanlara daim borcluyuq: azadlığa çıxdığımız, başımızı uca tutduğumuz, torpaqlarımızı mənfur düşmənlərdən təmizlədikləri üçün. Qarabağ Azərbaycandır!

## ƏDƏBİYYAT

1. Abdullayev Əsgər İbrahim oğlu. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti [Mətn]: XIX əsrin axırı-XX əsr /Ə.İ. Abdullayev; Elmi red.: M.F. Cəlilov; Azərbaycan Dövlət İqtisad İnstitutu.- B.: Elm, 1998.- 324 s.
2. Qarabağ Azadlıq Təşkilatı. "Qarabağ dünən, bu gün və sabah" 5-ci elmi-əməli konfransının materialları /Elmi red.: Q. Ə. Qarannı, N. Səməndər.- B.: 2006.- 252 s.
3. Qarabağnamələr. Birinci kitab [Mətn] /Tərtib edəni: A. Fərzəliyev; Elmi red.: N. Axundov.- B.: Şərq-Qərb, 2006.- 216 s.
4. Mahmudov Yaqub Mikayıl oğlu. Qarabağ: real tarix, faktlar, sənədlər [Mətn] /Y.Mahmudov, K.Şükürov; [baş məsləhətçi. E. Mahmudov; naşir. B. Axundov; rus dilinə tərc. ed. S. Zeynalova, İ. Niftəliyev]; Azərbaycan Milli Elmlər Akademiyası, Tarix İnstitutu. -Bakı: Təhsil , 2007.

## İŞGALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ APARILAN YENİDƏNQURMA İŞLƏRİNİN İNSANLARIN ƏHVAL-RUHİYYƏSİNƏ GÖSTƏRDİYİ TƏSİR

***Abbasova Mətanət***

## XÜLASƏ

Məqalədə Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında əlverişli investisiya mühitndən, potensial rezidentlər və investorları cəlb etmək məqsədilə sahibkarlar və dövlət qurumları ilə daim əməkdaşlıqdan bəhs edilir.

Daglıq Qarabagda gedən yenidənqurma və tikinti işləri nəinki qarabaglıları eləcədə bütün Azərbaycan xalqının əhval ruhiyyəsinin yüksək pisixoloji ruh yüksəkliyi ilə yaşamağa və işləməyə mənən ruhlandırır.

## ВЛИЯНИЕ ВОССТАНОВИТЕЛЬНЫХ РАБОТ НА ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ НА НАСТРОЕНИЕ ЛЮДЕЙ

***Аббасова Матанат***

## АННОТАЦИЯ

В статье рассматривается благоприятный инвестиционный климат на освобожденных землях Азербайджана и постоянное сотрудничество с предпринимателями и государственными органами для привлечения потенциальных жителей и инвесторов.

Ведущиеся восстановительные и строительные работы в Нагорном Карабахе вдохновляют не только карабахцев, но и весь азербайджанский народ жить и работать с высоким психологическим настроем.

# THE IMPACT OF RECONSTRUCTION WORK ON THE LIBERATED TERRITORIES ON THE MOOD OF THE PEOPLE

***Abbasova Matanat***

**SUMMARY**

The article discusses the favorable investment climate in the liberated lands of Azerbaijan and the constant cooperation with entrepreneurs and government agencies to attract potential residents and investors.

The ongoing reconstruction and construction work in Nagorno-Karabakh inspires not only the people of Karabakh, but also the whole Azerbaijani people to live and work with high psychological morale.

# FARS DİLİNDƏ ŞƏXSSİZ CÜMLƏ

***Fatimə Əfəndiyeva***
***BDU-nun İran filologiyası kafedrasının müəllimi***
***famanajafli@rambler.ru***

***Açar sözlər*:** təktərkibli cümlə, feli xəbərli təktərkibli cümlə, ismi xəbərli təktərkibli cümlə, şəxssiz cümlə, şəxssiz cümlə əmələ gətirən fellər

***Key words*:** one-part sentence, one-part sentence with a verbal predicate, one-part sentence with a nominal predicate, impersonal sentences, verbs forming impersonal sentences

***Ключевые слова*:** односоставное предложение, односоставное предложение с глагольным сказуемым, односоставное предложение с именном сказуемым, безличные предложения, глаголы образующие безличные предложения

Təktərkibli cümlələrin bir növü olan şəxssiz cümlələr mübtədasız cümlələrdir. Şəxssiz cümlələrdə mübtədanı şərti də olsa bərpa etmək mümkün olmur. Bu məsələlərdən ilk dəfə A.K.Arends bəhs etmişdir (2. 130). O şəxsiz cümlələrin üç əsas qrupunu göstərmişdir:

1. Şəxssiz felli şəxssiz cümlələr
2. Şəxsli fellə işlənən şəxssiz cümlələr
3. Xəbər şəkilçisi "است" ilə yaxud "بودن" və ya "شدن" fellərinin müvafiq forması ilə işlənən şəxssiz cümlələr

A.K.Arends I qrupa "باید" ، "بایستی" ، "بایست" ، "می بایست" ، "شاید" kimi fellərin qısaldılmış məsdərlə birləşərək işləndiyi cümlələri daxil edir.

A.K.Arends şəxssiz fellərə misal olaraq şəxssiz cümlələrin əmələ gəlməsində iştirak edən "توانستن"(bacarmaq, bilmək) felindən düzələn "می توان" ، "بتوان" fellərini və "شدن" felindən yaranan "می شود" sözünü göstərir.

Müəllif qeyd edir ki, xəbər şəkilçili şəxssiz cümlələrin I qrupu özlərindən sonra budaq cümlə tələb edirlər.

III qrupa isə "داشتن" (malik olmaq), "آمدن" (gəlmək), "رسیدن" (çatmaq) felləri ilə düzələn birləşmələr təşkil edir. Məsələn:

Fikrə çatmaq - به فکر رسیدن

Nəzərə gəlmək - به نظر آمدن

Nə zərəri var - چه ضرری دارد

Fars dilində şəxssiz cümlələrdən bəhs edən müəlliflərdən biri də L.S.Peysikovdur. (9. 240)

L.S.Peysikov əvvəlcə qısaldılmış məsdərin iştirakı ilə düzələn modal cümlələrdən bəhs etmişdir. Onların fellərinin şəxssiz formaları ilə əmələ gəldiyini qeyd edir. Müəllifin fıkrincə bu sözlərin bəziləri artıq fel sistemindən ayrılmış və modal söz sırasma keçmişdir. Məsələn: "می توان" (olar, mümkündür) şəxs şəkilçisi və şəxs mənasını itirmişdir.

Fars dilində şəxssiz cümləni xüsusilə tədqiq etmiş müəlliflərdən bir də A.P.Belitsin olmuşdur. (10. 42) Belitsinə görə şəxssiz cümlə elə cümlədir ki, mübtəda işi icra edən subyekt və ya müəyyən hala məruz qalan subyekt kimi qrammatik olaraq mövcud olmur və onu mətndə də bərpa etmək mümkün deyil.

Fars dilində şəxssiz cümlədən bəhs edərkən hər şeydən əvvəl onu demək lazımdır ki, bir sıra dillərdən fərqli olaraq fars dilində şəxssiz fel demək olar ki, yox dərəcəsindədir. Şəxssizlik mənası bir qayda olaraq müxtəlif morfoloji və sintaktik üsullarla ifadə olunur.

Fars dilində şəxssiz cümlənin spesifık xüsusiyyəti ondan ibarətdir ki, cümlədə subyekti bildirən işin, hərəkətin aid olduğu şəxsi ifadə edən və buna görə də zahirən mübtədanm xatırladan sözü də işlətmək mümkün olur.

من از فصل بهار خیلی خوشم می آید.

(Mənim bahar fəslindən çox xoşum gəlir.)

Bu cümlədə işin, halın aid olduğu subyekt "من" əvəzliyidir. Lakin cümlənin xəbəri əvəzliklə uzlaşmır. Xəbər III şəxsin təkindədir. Xəbərin adlıq hissəsinin sonunda I şəxsin mənsubiyyət şəkilçisi işlənmişdir və xəbər də həmin şəkilçinin qoşulduğu sözlə uzlaşır. Mənaca enklitik əvəzliklə cümlənin əvvəlində gələn sözlə uyğundur. Qrammatik cəhətdən əvəzliyi xəbərlə şəxsə görə uzlaşmır. Ona görə də cümlənin əvvəlində işlənmiş şəxs əvəzliyi cümlənin strukturundan kənarda qalır və ancaq subyekti bildirən sözə çevrilir. Şəxs əvəzliyi subyekti ifadə etməklə mübtədaya oxşayır, lakin mübtədadan fərqli olaraq xəbərlə uzlaşmır.

Fars dilində təktərkibli şəxssiz cümlələri iki qrupa ayırırlar: feli xəbərli, ismi xəbərli. Feli xəbərli şəxsiz cümlədən danışarkən qeyd etmək lazımdır ki, fars dilində şəxsiz fellər təqribən yox dərəcəsindədir. Bir sıra fellərin bəzi formaları şəxssiz məna kəsb etmişdir. Belə fellərə misal olaraq بایستن felinin بایست ، بایستن ، باید، می باید formalarını göstərmək olar.

ولی باید دانست که خستگی نتیجه ی اجتناب ناپذیر بر کار و فعالیّت نیست. (صادق هدایت)

(Lakin bilmək lazımdır ki, yorğunluq qaçılmaz işin və fəaliyyətin nəticəsi deyil.)

با اینهمه بایست گفت که الهان خوشی دارد. (صادق هدایت)

(Bütün bunlarla xoş ahəngi olduğunu demək olar.)

می بایست فردا او را آورد و تهدید کرد و تو هم از گوشه و کنار مایه بیاور بترسانش تا صد تومن ازش بگیریم. (صادق هدایت)

(Sabah onu gətirmək və təhdid etmək lazımdır və sən də onu qorxdurub 100 tümən almaq üçün oradan-buradan bir səbəb gətir.)

Klassik fars dilində "بایستن" felinin yuxarıda sadalanmış şəkilləri şəxssiz mənada qısaldılmış məsdər, həm də tam məsdər forması ilə işlənə bilirdi.

هنوز ترا پادشاهی می باید کردن ملک نگهدار تا چون وقت آید بگویم که چه باید کرد. (صادق هدایت)

İndi səni padşah etmək lazımdır, mülkü qoru, vaxt gələr, deyərəm ki, nə etmək lazımdır.

Fars dilində səxsiz cümlə əmələ gətirən fellərdən biri də "شایستن" felidir. Bu söz müasir dildə şəxs mənasmı tamamilə itirmişdir və "ola bilsin ki", "bəlkə də" mənasmı verir.

"شاید" sözü hələ klassik dildə şəxs mənasmdan təcrid olaraq "باید" sözü kimi fellə birlikdə "layiqdir", "lazımdır" mənasmda şəxssiz cümlənin xəbərini yarada bilirdi.

شاید کرد بر آزار خود زور
که بس بیمار واگشت از لب گور (نظامی)

(Öz azarma zor etmək olmaz çünki çox xəstələr gorun qırağmdan qayıdıblar.)

"شاید" sözü klassik dildə şəxssiz mənada felin qısa məsdəri ilə işləndiyi kimi tam məsdər forması ilə də işlənirdi.

بهنگام سیل آشکار شدن
شاید ز ری تا بخارا شدن (نظامی)

(Sel aşıb-coşan zaman Reydən Buxaraya səfər lazım deyil.)

Şəxssiz cümlə əmələ gətirən fellərdən biri də modal fel olan "توانستن" felidir. Həmin feldən olan "بتوان" və "می توان" sözləri şəxs mənasını itirmişdir və bir qayda olaraq qısa məsdərlə işlənərək şəxssiz cümlə yaradır.

اکنون کارشناسان آذربایجانی را می توان در کشورهای جهان دید. (مجلّه ی "خلق")

(Hal-hazırda Azərbaycan mütəxəssislərini dünya ölkələrində görmək olar.)

مسافران می دانستند که تا اتوبوس انباشته از مسافر نشود طوریکه دیگر نتوان نفس کشید مجال نیست حرکت کند. (صادق حدایت)

(Sərnişinlər bilirdilər ki, nəfəs almaq mümkün olmayana qədər sərnişinlə dolmasa avtobusun hərəkət etməsi qeyri- mümkündür.)

حالا دیگر می توان گفت که خطر برطرف شد. (بزرگ علوی)

(İndi artıq demək olar ki, təhlükə sovuşdu.)

Klassik fars dilində belə hallarda tam məsdər də işlənirdi. Məsələn:

نباید سر از حکم او تافتن
که نتوان از او بهتری یافتن (نظامی)

(Onun hökümündən baş qaçırmamalı çünki, ondan yaxşısını tapmaq mümkün deyil.)

"شدن" felinin III şəxs tək forması da modal mənada fellərin qısaldılmış məsdəri ilə işlənərək şəxssiz cümlələr əmələ gətirir.

یک احساساتی هست، یک چیز های هست که نمی شود به دیگری فهماند، نمی شود گفت، آدم را مسخره می کنند. (صادق حدایت)

(Elə şeylər, elə hisslər var ki, başqasına deməк, başa salmaq olmaz, adamı lağa qoyarlar.)

مانند که بال درآورده بودم و در فضا جولان می دادم، سبک و چالاک شده بودم بطوری که نمی شود بیان کرد. (بزرگ علوی)

(Sanki qanad açmışdım və havada cövlan edirdim, izah edilməyəcək dərəcədə yüngül və çevik olmuşdum.)

چه می شود کرد؟ سرنوشت زورتر از من است. (صادق هدایت)

(Nə etmək olar? Tale məndən daha qüvvətlidir.)

چه خوب بود اگر همه چیز را می شد نمشت. (صادق هدایت)

(Əgər hər şeyi yazma olsaydı nə yaxşı olardı.)

"شدن" feli "خوب" (yaxşı) və "بد" (pis) kimi sifətlərlə habelə bir sıra isimlərlə işlənərək şəxssiz fel əmələ gətirir. Məsələn:

چه شد؟ چرا امروز بازگشتی؟

(Nə oldu? Niyə bu gün qayıtdın?)

خوب شد یادم آمد. در همان روز همه بچّه ها در آنجا بودند. (بزرگ علوی)

(Yaxşı oldu. Yadıma düşdü. Həmin gün bütün uşaqlar orada idilər.)

خیلی بد شد. مادرم از این خبر متأثّر خواهد شد. (بزرگ علوی)

(Çox pis oldu. Anam bu xəbərdən təsirlənəcək.)

Müasir fars dilində subyektin fıziki-psixoloji vəziyyətini, bu və ya digər fakta münasibətini ifadə edən bir qrup fellər vardır ki, onların adlıq hissəsi həmişə nisbət şəkilçisi ilə, fel hissəsi isə həmişə III şəxsin təkində işlənir. "آمدن"، "بردن"، "گرفتن"، "شدن"، "داشتن"، "رفتن" kimi fellərin "اهمیّت" ، "فایده"، "حیف"، "خوش"، "بد" ، "حوصله"، "خواب" və s. bu kimi sözlərlə birləşərək əmələ gətirdiyi fellər bu qəbildəndir.

چه فایده دارد؟ یک قوّه ی کور و ترسناک بر سر ما سوارند. (بزرگ علوی)

(Nə faydası var? Başımızın üstündə kor-koranə və qorxulu bir qüvvə var.)

چه اهمیّتی دارد که دیگران غمگین بشوند یا نشوند، گریه کنند یا نگنند. (بزرگ علوی)

(Başqasının qəmgin olub-olmamasının, ağlayıb-ağlamamasının nə əhəmiyyəti var.)

در همان دایره های ناامیدی حوصله ام بسر رفت. (صادق هدایت)

(O ümidsiz dairələrdə səbrim tükəndi.)

نمی دانستم چه شد که پشیمان شدم، نه اینکه او زشت بود یا از او خوشم نمی آمد امّا یک قوّه ای مرا بازداشت. (صادق هدایت)

(Bilmirdim nə oldu ki, peşiman oldum, ona görə yox ki, o çirkin idi ya onadan xoşum gəlmirdi amma bir qüvvə məni fikrimdən döndərdi.)

آدم از دیدن این درخت و این سبزی متأسفم می شد و از خودش بدش می آمد. (بزرگ علوی)

(İnsan bu ağacı və bu yaşıllığı görəndə daha da kədərlənirdi və özündən zəhləsi gedirdi.)

حواسم بالای تنم موج میزد، امّا حسّ می کردم که خوابم نبرده. (بزرگ علوی)

(Hisslərin bədənimin üzərində dalğalanırdı, amma hiss edirdim ki, məni yuxu aparmayıb.)

یادم میاید روز بارانی بود، دیوانه وار در اطاق خودم قدم می زدم از این سو به آن سو می رفتم. (صادق هدایت)

(Yadıma gəlir, yağışlı gün idi, dəlicəsinə öz otağımda addımlayırdım, o tərəf, bu tərəfə gedirdim.)

Fars dilinə aid qrammatik ədəbiyyatda bu növ fellər çox vaxt frazeologizm adı ilə verilir. Lakin qrammatik cəhətdən həmin fellər çox vaxt adi mürəkkəb fellərdən fərqlənir. Bunu həmin felləri frazeologizm adlandıran müəlliflərin özləri də etiraf edirlər. Enklitika olmadan bu felləri, xəbər vəzifəsində işlətmək olmur. Belə fellərin köməkçi fel hisəsi subyektin hansı şəxsə ifadəsindən asılı olmayaraq həmişə III şəxsin təkində işlədilib.

H.Ş.Mahmudov "برق زدن" və "باریدن" kimi fellərin də şəxssiz fel kimi işləndiyini göstərmişdir. (6. 32)

برق می زد، آسمان صدا می کرد. (بزرگ علوی)

(Yağış yağırdı, səma səs salırdı.)

زمین با ناخن بارانها تن گلها را می خوارید، به آسمان نظر افکندم هنوزهم یکسره می بارید.
(بزرگ علوی)

(Torpaq yağışların dırnağı ilə çiçəkləri qaşıyırdı, səmaya nəzər saldım hələ də yağırdı.)

I misaldakı "برق" sözü zahirən mübtədanı xatırlatsa da "زدن" felinin bu birləşmədə müstəqil mənada işlənə bilməməsi hər iki sözü birlikdə bir fel kimi götürməyə əsas verir.

Şəxssiz cümlə əmələ gətirən fellər sırasında – nəzərə çatmaq- به نظر رسیدن , fikrə çatmaq- به فکر رسیدن , çox çəkmək-دیر کشیدن , davam etmək- طول کشیدن və s. bu kimi fellər də vardır.

دیری نکشید که همه اهالی زرفشان باورش آوردند. (صادق هدایت)

(Çox keçmədi ki, bütün zərəfşan əhalisi ona inandı.)

طولی نکشید که احمدک را گرفتند و زنجیر زدند و قرار شد که او را شمع آجین کنند و در کوچه و بازار بگردانند تا عبرت دیگران بشود. (بزرگ علوی)

(Çox keçmədiki, yazıq Əhmədi tutdular və zəncirlədilər. Qərara alındı ki, bədəninə yanar şam qoysunlar, küçə və bazarda gəzdirsinlər ki, başqalarma ibrət olsun.)

چندین بار به فکرم رسید که چشمهایم را ببندم، بروم جلوی اتومبیل، چرخهای آن از رویم بگذرد. (بزرگ علوی)

(Bir neçə dəfə fıkrimə gəldi ki, gözlərimi yumum. Maşının qabağına gedim, onun təkərləri üzərindən keçsin.)

به نظر می آمد مرگ یک خوشبختی و نعمتی است که به آسانی به کسی نمی دهند. (بزرگ علوی)

(Nəzərə gəlirdi ki, ölüm asanlıqla kimsəyə verilməyən bir xoşbəxtlik və bir nemətdir.)

به نظر می رسید که او هرگز نباید بمیرد، نمی دانستم باور کنم که این صدا ممکن است یکروز خاموش بشود. (صادق هدایت)

(Nəzərə çatırdı ki, o heç vaxt ölməməlidir, bu səsin bir gün susacağmı mümkün olmasına inana bilmirdim.)

Şəxssiz cümlələrin bir növü də mübtəda budaq cümləli, tabeli mürəkkəb cümlələrin baş cümləsidir ki, belə cümlələrin tərkibi müxtəlif olur.

قرار شد فردای آن روز بروم او را بیاورم اینجا به اطاقم. (صادق هدایت)

(O günün sabahı gedib onu bura otağıma gətirməyim qərara alındı.)

مثل اینکه بار سنگینی را از روی دوشش برداشتند. (صادق هدایت)

(Sanki ağır bir yükü çiynindən götürdülər.)

H.Ş.Mahmudov feli xəbərli şəxssiz cümlələrin bir növünü də tapmacalarda rast gəlmək olduğunu qeyd etmişdir. (6. 33) Tapmacalarda nəzərdə tutulan və tapılması tələb olunan sözün xüsusiyyəti xəbərdə verilir və cümlənin ifadəsi tərzi şəxssiz cümlə şəklində olur. Məsələn:

نه دست دارد، نه پا خبر می برد همه جا./تلفن/ (چیستان)

Nəzərdə tutmaq lazımdır ki, belə cümlələr adi şəxssiz cümlələrdən fərqlənir. Belə ki, ümumiyyətlə şəxssiz cümlələrdə mübtəda olmadığı kimi, onun varlığma ehtiyac da

hiss olunmur. Lakin tapmacada əksinə cümlədə deyilməmiş mübtədanm tapılıb deyilməsi əsas şərt, əsas məqsəd olur.

Ona görə də belə cümlələri ancaq şərti olaraq şəxssiz adlandırmaq olar. Tapmacalarda fikrin subyekti cümlədə iştirak etmir. O cümlənin müqabilində söylənilən cavab kimi çıxış edir.

Ismi xəbərli şəxssiz cümlələr ya xəbər şəkilçisi, yaxud da xəbər şəkilçisi vəzifəsində işlənən fel vasitəsi ilə düzəlir.

I Xəbər şəkilçisi "طبیعی، "خوب"، "بد"، "ممکن"، "راست"، "درست"، "لازم"kimi sözlərlə işlənərək cümlə əmələ gətirir. Belə şəxssiz cümlələr ən çox mübtəda budaq cümləli tabeli mürəkkəb cümlədə baş cümlə şəklində ifadə olunur. /

حالا دیگر غیر-ممکن است که برگردم و راه دیگری در پیش بگیرم. (بزرگ علوی)

(İndiki artıq qayıdıb başqa bir yol seçməyim qeyri-mümkündür.)

راست است به او گفته بودند که کسی در کنار دریا او را دیده است که از دست دشمن گریخته بود.

(Doğrudur, ona demişdilər ki, kimsə onu dənizin kənarmda düşmənin əlindən qaçan görüb.)

درست است که شما نسبت به این خانم بی احترامی کرده اید و ایشان را کوچه زده اید؟ (صادق هدایت)

(Doğrudur ki, siz bu qadma qarşı hörmətsizlik etmisiniz və onu küçədə vurmusunuz?)

خوب است که او همه چیز را خودش حلّ کند. (بزرگ علوی)

(Onun hər şeyi özü etməsi yaxşıdır.)

طبیعی است که این خاطرات هرگز از یادداشت ما نخواهد رفت. (صادق هدایت)/

(Təbiidir ki, bu xatirələr heç vaxt bizim yaddaşımızdan silinməyəcək.)

II Xəbər şəkilçisi "است"və xəbər şəkilçisi vəzifəsində işlənə bilən "بودن"felinin III şəxs tək forması vasitəsi ilə düzələn şəxssiz cümlələrin bir növünü də subyektin fıziki və psixoloji vəziyyətini bildirən "گرسنه "، "تشنه"، "سرد" ، "گرم"kimi sözlərin enklitik əvəzliklə işlənməsi yolu ilə düzələn cümlələr təşkil edir.

خیلی گرسنه اش بود ولی از خستگی چیزی نمی خواست بخورد. (بزرگ علوی)

(Çox acmışdı, lakin, yorğunluqdan heç nə yemək istəmirdi.)

در آن اطاق تاریک و تنها خیلی سردش است و این را به کسی بیان نمی کند. (بزرگ علوی)

(O qaranlıq və tənha otaqda ona çox soyuqdur və bunun heç kəsə bildirmir.)

از اینکه تشنه اش بود در کنار یک دریاچه نشست و در آنجا بتوان رفت. (صادق هدایت)

(Susuzladığmdan bir gölün kənarmda oturdu və orada yuxuya getdi.)

III Xəbər şəkilçisi və köməkçi fel vəzifəsini ifadə edən "بودن" feli vasitəsi ilə əmələ gələn şəxssiz cümlələrin böyük bir qrupu mənaca zaman ifadə edən cümlələrdir.

دم دمهای غروب بود. حضرت اشرف حشیش را زده بود و خیلی سرحال به نظر می آمد. (صادق هدایت)

(Axşam üstü idi. Həzrət Əşrəf həşiş çəkmişdi və əhval- ruhiyyəsi çox yaxşı nəzərə çarpırdı.)

بعد از ظهر بود از دم دروازه ی یوسف آباد ردّ شد. (بزرگ علوی)

(Günortadan sonra idi. Yusifabadm darvazasının ağzından keçdi.)

شب بود و او رسیدن شب را فهمیده بود. (صادق هدایت)

(Axşam idi və axşamın çatdığmı anlamışdı.)

IV Mənaca zaman bildirən şəxssiz cümlələrin bəzisi tabeli mürəkkəb cümlənin tərkib hissəsini təşkil edir.

سه روز بود که چیزی نمی خورد و شبها مرتباً لخت می شد. (بزرگ علوی)

(Üç gün idi ki, heç nə yemirdi və axşamlar daim zəifləyirdi.)

یک هفته بود، شوخی نیست که خودم را به اقسام گوناگون شکنجه می دادم. (بزرگ علوی)

(Bir həftə idi, zarafat deyil, özümə cürbəcür növlərlə işkəncə edirdim.)

## FARS DİLİNDƏ ŞƏXSSİZ CÜMLƏ

**Fatimə Əfəndiyeva**


### XÜLASƏ

Təktərkibli cümlələrin bir növü olan şəxssiz cümlələr mübtədasız cümlələrdir. Şəxssiz cümlələrdə mübtədanı şərti də olsa bərpa etmək mümkün olmur. Şəxssizlik mənası bir qayda olaraq müxtəlif morfoloji və sintaktik üsullarla ifadə olunur. Fars dilində təktərkibli şəxssiz cümlələri iki qrupa ayırırlar: feli xəbərli, ismi xəbərli.


## БЕЗЛИЧНОЕ ПРЕДЛОЖЕНИЕ В ПЕРСИДСКОМ ЯЗЫКЕ

**Фатима Эфендиева**


### РЕЗЮМЕ

Безличные предложения, являющиеся разновидностью простых предложений, представляют собой предложения без подлежащего. В безличных предложениях восстановить подлежащее невозможно, даже если оно условное. Как правило, значение безличности выражается различными морфологическими и синтаксическими способами. В персидском языке одноличные безличные предложения делятся на две группы: глагольные и существительные.


## AN İMPERSONAL PROPOSITION İN PERSİAN

**Fatima Efendieva**


### SUMMARY

İmpersonal sentences, which are a type of simple sentences, are sentences without a subject. İn impersonal sentences, it is impossible to restore the subject, even if it is conditional. As a rule, the meaning of impersonality is expressed in various morphological and syntactic ways. İn Persian, one-person impersonal sentences are divided into two groups: verbal and nouns.

# MÜNDƏRİCAT

## FƏLSƏFƏ

***Səlimov Vüqar.*** Sivilizasiyaların inkişafının məkan və zaman ölçüləri .......................... 3

## PSİXOLOGİYA

***Əhmədova Eminə.*** Sosial-emosional öyrənmə Casel modeli .......................................... 9
***Кяримли Кярим.*** Психологические особенности осужденных мужчин зрелого возраста ........................................................................................................ 14
***Аскерова Ирада.*** Бесплодие: причины и пути решения ............................................ 18
***Gözəlova Səma.*** Xərçəng xəstəliyindən əziyyət çəkən xəstələrdə rast gəlinən psixo-sosial problemlərin tədqiqi .................................................................................. 22
***Hüseynova Şirinnaz.*** Emosional effektlərin pedaqoji prosesdə yaratdığı əks əlaqəyə bir nəzər .................................................................................................................. 27
***Məmmədli Rəqsanə.*** Təhsil mühitinin emosional təhlükəsizliyi: tədris prosesində emosiyalar, idrak prosesləri və emosiyalar .................................................................. 31
***Керимова Айгун.*** Теоретические подходы, используемые для обоснования практики арт терапии в работе с детьми ............................................................ 36
***Babayeva Təranə, Abdullayeva Elmira.*** Hüquq psixologiyasında cinayətkar şəxsiyyət anlayışı ........................................................................................................ 40
***Rəsulova Aysun.*** Deviant davranışlı yeniyetmələrdə emosional intellektin təzahür xüsusiyyətlər ............................................................................................................ 46
***Şəkərəliyeva Əzizə.*** Yeniyetmələrdə cinayi davranışın yaranmasının psixoloji səbəbləri ............................................................................................................. 50
***Məmmədova Samirə.*** Yeniyetmələrin inkişafina təsir edən amillərin sosial-psixoloji təhlili ................................................................................................................... 58
***Səfərova Xanım.*** Valideyn himayəsindən məhrum olan uşaqların sosial-psixoloji xüsusiyyətləri ........................................................................................................ 63
***Məmmədova Nahidə.*** Yeniyetməlikdə peşə seçimini təyinetmənin psixoloji və pedaqoji dəstəyi modelinin təsviri .............................................................................. 68
***Эюбова Мехрибан, Мамедли Нигяр.*** Проблема интернет - зависимости у под-ростков и ее влияние на учебную деятельность ...................................................... 72
***Məmmədova Samilə.*** Autizmin xüsusiyyətləri və klinik göstəriciləri ............................ 75
***Rəsullu Aybəniz.*** Ailədə müxtəlif ardıcıllıqla doğulan uşaqların psixoloji xüsusiyyətləri ......................................................................................................... 81
***Aydoğan Orhan Oğulcan.*** Sars-Cov-2 pandemiyası zamani obsessiv-kompulsiv pozuntu (klinik müşahidə) .................................................................................... 85
***Bəhlulzadə Gülçin.*** Sosial psixologiyada xoşbəxtlik fenomeninin tədqiqi məsələləri ..... 90
***Эюбова Мехрибан, Ахмедова Лейла.*** Проблема «агрессии» и «агрессивного поведения»
в психологии ..................................................................................................... 95
***Эюбова Мехрибан, Агабалаева Гамида.*** Формирование представлений у детей дошкольного возраста о взаимоотношениях в семье ............................................... 99
***Məmmədova Zərifə.*** Məktəbəqədər yaş dövrünün psixoloji tədqiqi ............................. 103
***Məmmədova Ləman.*** Özünüqiymətləndirmənin şagirdlərin təlim fəaliyyətinə təsiri ...... 107
***Muradov Vüqar.*** Gender stereotiplərinin yeniyetmələrin təlim fəaliyyətinə təsiri .......... 112
***Мамедова Назрин.*** Проблема отношений между поколениями и культурно-ценностная ориентация молодежи ........................................................................ 116

## SOSİOLOGİYA

***Şirinli Xədicə.*** "Tik-Tok, onun kimi sosial platformaların insan beyninin yuyulmasında rolu" tədqiqat mövzusunda pilot araşdırma ............ 121

## SOSİAL İŞ

***Məmmədova Jalə.*** çətin həyat şəraitində olan qadınlarla təşkil olunan sosial işin prinsipləri ............ 127
***Məcidova Lalə.*** Gənc ailələrin davamlılığına və möhkəmliyinə dövlət dəstəyi ............ 132
***Zeynallı Səkinə.*** Valideyn himayəsindən məhrum olmuş uşaqlar cəmiyyətin həssas təbəqəsi kimi ............ 138
***N.E.Quliyev.*** Qanunla münaqişədə olan uşaqlarla sosial işin təşkilinin əhəmiyyəti ............ 142
***Salahova Mehin.*** Valideyn-yeniyetmə münasibətləri sosial işin tədqiqat obyekti kimi .. 149
***Salmanova Səlmi.*** Evsiz və baxımsız uşaq və yeniyetmələrə göstərilən sosial xidmət dövlətin apardiği sosial siyasətin priotet istiqaməti kimi ............ 153
***Məcidova Lalə.*** Problemli gənc ailənin qarşılaşdığı uğursuzluqların səbəbləri ............ 159

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ

***Fərid Babayev, Zəhraxanım Muradzadə.*** İqtisadi təhlükəsizliyin təmin edilməsi və daxili bazarın qorunmasında gömrük siyasətinin rolu ............ 165
***Elyazova Dilarə.*** Rusiya-Ukrayna müharibəsinin dünya üçün təhdidləri ............ 172
***Fərid Babayev, Mustafazadə Mətanət.*** Azərbaycanın xarici ticarət əlaqələrində mallarin gömrük dəyərinin təyin olunması ............ 176
***Nəsibova Aytac.*** Post-münaqişə dövründə Azərbaycanın digər dövlətlərlə apardığı danışıqlar prosesinin təhlili ............ 181
***Ələkbərov Alı.*** Koronavirus pandemiyas;dan sonra idarəetmədə siyasət dəyişikliklərinin qiymətləndirilməsi ............ 187
***Məmmədli Lalə.*** Türk dövlətləri təşkilatının əhəmiyyəti ............ 193
***Rəşid Zəbərcət.*** Azərbaycanın kapital ixracında istiqamətləri ............ 199

## FİLOLOGİYA

***Məlikov Elmar.*** Bertolt Brext və Peter Ştayn rejissor üslubunun Qərb teatrında rolu ..... 205

## PEDAQOGİKA

***Nurkişiyeva Aytac.*** Təhsilin keyfiyyətinin yüksəldilməsinə müəllim fəaliyyətinin qiymətləndirilməsinin təsiri ............ 209
***Алекперова Улькер.*** Основные причины актуализации проблемы качества образования в современную эпоху ............ 214
***Abbasova Mətanət.*** İşgaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma işlərinin insanların əhval-ruhiyyəsinə göstərdiyi təsir ............ 219
***Əfəndiyeva Fatimə.*** Fars dilində şəxssiz cümlə ............ 224

**SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ**

**ELMİ ƏSƏRLƏR TOPLUSU**

**BURAXILIŞ № 31**
**(II HİSSƏ)**

Təsisçi: fəlsəfə üzrə elmlər doktoru, prof. **Qızılgül Yasin qızı Abbasova**
Kompüter dizaynı – **Vüsalə Kərəm qızı Musayeva**

Nəşriyyat direktoru: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operator: Həmidə Bağırova

---

Yığılmağa verilmişdir: 25.11.2022
Çapa imzalanmışdır: 25.12.2022
Format: 60×84 1/8
Şərti çap vərəqi – 29
Sifariş № 57
Tiraj – 100 nüsxə

"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850 98 69